# Mizanul – hikmət

*(xülasəsi)*

Peyğəmbər(s) və İmamlar(ə)ın
mübarək hədisləri

# III cild

**Mizanul – hikmət**
*(xülasəsi)*
Peyğəmbər(s) və İmamlar(ə)ın mübarək hədisləri

**Toplayan:**
Ayətullah Məhəmməd Məhəmmədi Reyşəhri

**Tərcüməçilər:**
Ağabala Mehdiyev,
Elşən Mahmudov,
Etibar Quliyev

**Redaktorlar:**

**İxtisas redaktoru**
Höccətül –İslam vəl-müslimin
Hacı Adil Mövlayi

**Ədəbi redaktor:**
Dürdanə Cəfərli

# 329
# Allaha yaxın olanlar

***1508. Allaha yaxın olanlar.***

**Quran:**

«Və öndə olanlar. Bunlar yaxın olanlardır.»[1]

«Amma (o) yaxın olanlardandırsa asayişdə, rahatlıqda və nemətlə dolu cənnətdə olacaq.»[2]

«Yaxın olanların ondan içdiyi bir çeşmə.»[3]

**Hədis:**

5209. Allahın Peyğəmbəri (s): «Allah buyurmuşdur: «Heç bir bəndə, vacib buyurduqlarımdan Mənimçün daha əziz olan bir vasitə ilə Mənə yaxınlaşmadı. Həqiqətən o, nafilə namazı ilə Mənə, onu sevməyimə qədər yaxınlaşar. Sevdiyimə görə onun qulağı olaram ki, onunla eşitsin, gözü olaram ki, onunla görsün, dili olaram ki, onunla danışsın və əli olaram ki, onunla zərbə vursun. Məni çağırsa ona cavab verərəm və əgər məndən bir xahiş etsə, ona verərəm.»[4]

5210. Imam Əli (ə): «Doğru və gözəl yəqinlik sizlərlə olsun. Çünki bu ikisi, yaxın olanların ibadətlərinin ən üstünləridir.»[5]

5211. Imam Səccad (ə): «Sizlərdən Allaha ən yaxını, böyük əxlaq sahibi olanlardır.»[6]

5212. Imam Sadiq (ə): «Allahın Davuda (ə) vəhylərindən biri də bu idi: Ey Davud! Həqiqətən, Allaha insanlardan ən yaxın olanı təvazökarlar, ən uzaq olan isə dikbaşlardır.»[7]

5213. Imam Sadiq (ə): «Qiyamət günündə camaatın hesab-kitabı qurtarana qədər Allaha ən yaxın olan insanlar üç nəfərdir: qəzəbli olanda, gücü onu tabeliyində olanlara zülmə məcbur etməyən, iki nəfərin arasında yol gedən və arpa dənəsi qədər də onların heç birinə yaxınlaşmayan və öz ziyanına, xeyrinə baxmayaraq haqqı deyən.»[8]

***1509. Allaha çatmaq.***

5214. Imam Əli (ə): «Kim Allaha çatmaq naminə dözsə, Ona çatar.»[9]

---

[1] Vaqiə, ayə 10-11
[2] Vaqiə, ayə 88-89
[3] Mutəffifin, ayə 28
[4] Əl-Kafi, c. 2, səh. 352, hədis 7
[5] Qurərəl Hikəm, hədis 6159
[6] əl-Kafi, c. 8, səh. 69, hədis 24
[7] əl-Kafi, c. 2, səh. 123, hədis 11
[8] əl-Xisal, səh. 81, hədis 5
[9] əd-Də‘vat, səh. 292, hədis 39

5215. Imam Əli (ə)*(Şəbaniyyə münacatında):*–«Ilahi! Hamıdan bütünlüklə qopmağı (nemətini) və yalnız Sənə üz tutmağı mənə nəsib et. Qəlbimizin gözlərini Özünə baxmağın nuru ilə işıqlandır ki, qəlblərimizin gözləri qaranlıq pərdələri yırtıb (Sənin) əzəmət və böyüklük mədəninə qoşulsunlar.»[10]

5216. Imam Əskəri (ə): «Allaha çatmaq, gecənin miniyinə minməkdən qeyri bir vasitə ilə qət edilməyən bir səfərdir.»[11]

***5210. Allaha yaxınlaşmağın vasitələri.***

5217. Allahın Peyğəmbəri (s): «Ey Əli! Bəndələr yaxşılıq etməklə öz xaliqlərinə yaxınlaşdıqda, sən ağıl işlətməklə Ona yaxınlaş ki, onlardan öndə olasan.»[12]

5218. Imam Əli (ə): «Bəndənin pak olan Allaha yaxınlaşması, onun niyyətlərini xalisləşdirlməsilədir (mümkündür).»[13]

5219. Imam Baqir (ə): «Allahın Tur dağında Musaya (ə) pıçıldadıqlarından biri də bu idi: Ey Musa! Öz qövmünə çatdır ki, yaxınlaşmaq istəyənlər Mənim qorxumdan ağlamaqdan qeyri bir şeylə Mənə yaxınlaşmadılar. Abidlər haram etdiklərimdən çəkinməkdən qeyri bir yolla Mənə ibadət etmədilər. Bəzənənlər dünyadan ehtiyacları olmadıqları şeylərə etinasızlıqdan qeyrisi ilə özlərini bəzəmədilər.

Musa ərz etdi: Ey əzizlərin ən əzizi! Onları bu yolda nə sabitqədəm və möhkəm edər? Buyurdu: Ey Musa! Mənim qorxumdan Mənə yaxınlaşmağın yollarını axtaranlar yüksəkliklərin ən uca zirvələrindədir və onların (bu mərtəbədə) heç bir şərikləri yoxdur.» [14]

ιooooooπ

[10] Iqbalul-Ə'mal, c. 3səh. 299
[11] Biharul-Ənvar, c. 78, səh. 380, hədis 4
[12] Müşkatul Ənvar, səh. 251
[13] Ğurərul-hikəm, hədis 4477
[14] Səvabul-Ə'mal, səh. 205, hədis 1

**330**

# Borc vermək

***1511. Borc***

**Quran:**

«Kimdir o kəs, Allaha yaxşılıqla borc versin ki, (nəticəsini) onunçün ikiqat artırsın. Həm də ona gözəl bir mükafat olsun?»[15]

**Hədis:**

5220. Allahın Peyğəmbəri (s): «Kim (malı əlindən çıxdığına görə) qəmgin olana borc versə və onu geri almaqda güzəştcil olsa, əməli yenidən başlamışdır (günahı silinmişdir). Allah onun hər dirhəminin müqabilində, ona cənnətdən (dirhəmlərindən) min qintar (yüz rətl) əta edər.»[16]

5221. Allahın Peyğəmbəri (s): «Kimsə qardaşının ehtiyacı olarsa və o, borc verə biləcəyi halda bunu etməsə, Allah cənnəti ona haram edər.»[17]

5222. Imam Əli (ə): «Kim Allaha təvəkkül etsə, Allah onun təminatını ödəyər. Kim Allahdan istəsə, Allah ona əta edər və kim Allaha borc versə, Allah onu qaytarar. Kim Allaha şükr etsə, Allah ona mükafat verər.»[18]

5223. Imam Əli (ə) *(Əziz övladı Həsənə (ə) tövsiyəsindən):* «Əgər elə bir kasıb görsən ki, sənin azuqəni qiyamət gününə qədər çiyninə çəkəcək və sabah həmin azuqəyə ehtiyacı olduqda sənə təhvil verəcək, eləsini qənimət bil, öz azuqəni onun çiyninə qoy. Nə qədər bacararsansa bu azuqə yükünü ağırlaşdır. Çünki ola bilər ki, gələn dəfə onu axtaranda tapmayasan. Imkanlı olsan və kimsə səndən borc istəsə, onun vücüdunu qənimət bil ki, kasıblığa düşəndə onu sənə qaytarsın.»[19]

5224. Imam Sadiq (ə): «Cənnətin qapısında yazılıb: «Borc (savabı) on yeddi qat, sədəqə on qatdır.» Səbəbi isə budur ki, borc ehtiyacı olandan qeyrisinə çatmaz, sədəqə isə ehtiyacı olmayana da çata bilər.»[20]

5225. Imam Sadiq (ə): «(Kimsəyə) Borc verməyi, həmin məbləğdə bəxşiş verməkdən daha çox sevirəm.»[21]

***1512. Imkansız borcluya möhlət vermək.***

**Quran:**

---

[15] Hədid, ayə 11
[16] Səvabul Ə’mal, səh. 341, hədis 1
[17] Əmali əs-Səduq, səh. 350, hədis 1
[18] Nəhcül-Bəlağə, xütbə 90.
[19] Nəhcül-Bəlağə, məktub 31.
[20] Biharul-Ənvar, c. 103, səh. 138, hədis 2
[21] Səvabul- Ə’mal, səh. 167, hədis 4

«Əgər (sizə borclu olan) imkansızdırsa, vəziyyəti yaxşılaşana qədər (ona) möhlət verin. Əgər həqiqətən də ödəməyə imkanı yoxdursa, bilmək istəyirsinizsə, onu bağışlamaq sizin üçün daha yaxşıdır.»[22]

**Hədis:**

5226. Allahın Peyğəmbəri (s): «Kim kasıba möhlət verərsə, Allah Onun kölgəsindən başqa bir kölgənin olmadığı vaxt, ona Öz kölgəsində pənah verər.»[23]

5227. Allahın Peyğəmbəri (s): «Kim möminə borc verərsə və imkanlı olana qədər (borcu geri almaqda) səbr edərsə, borcu ona qayıdanadək onun malı zəkat hesab olunmaz, namazda mələklərlə olar.»[24]

5228. Allahın Peyğəmbəri (s): «Kim duasının müstəcəb və qəminin uzaqlaşmasını istəyirsə, kasıba möhlət versin.»[25]

5229. Allahın Peyğəmbəri (s): «Qorxun kasıbın qarğışından!» [26]

5230. Allahın Peyğəmbəri (s): «Sənə borcu olanın, imkanı olduğu halda borcunu ödəməyə bəhanə gətirməyi rəva olmadığı kimi, onun kasıb olduğunu bildiyin halda, sıxmağın da rəva deyil.»[27]

ιoooooπ

[22] Bəqərə, ayə 280
[23] əl-Kafi, c. 8, səh. 9, hədis 1
[24] Səvabul-Ə'mal, səh. 166, hədis 1
[25] Kənzul-Ummal, hədis 15398
[26] Kənzul-Ummal, hədis 15424
[27] Savabul-Ə'mal, səh. 167, hədis 5

# 331

# Iqtisadiyyat və mötədillik

***1513. Iqtisadiyyat.***

5231. Allahın Peyğəmbəri (s): «Allah-taalanın öz bəndələrindən razılığının əlaməti, onların padşahlarının ədalətliliyi və qiymətlərin ucuzluğudur. Allah-taalanın bəndələrinə qəzəbinin nişanəsi isə, onların padşahlarının zalımlığı və qiymətlərin bahalığıdır.»[28]

5232. Imam Sadiq (ə): «Müsəlmanların və Islamın davamlılığının amillərindən biri də budur ki, əmlak onun haqq və hüququnu tanıyan birisinin əlində olsun və onu xeyir işlərə sərf etsin. Islamın və müsəlmanların məhv olmasının bir səbəbi də budur ki, əmlak onun haqqını dərk etməyənin əlinə keçər və ondan xeyir işlər üçün istifadə etməz.»[29]

5233. Imam Sadiq (ə): «Qiymətlərin bahalığı əxlaqı pisləşdirər, əmanətə vəfalılığı aradan götürər və müsəlman insanı darıxdırıb biqərar edər.»[30]

***1514. Məişətdə mötədilliyin nəticəsi.***

5234. Allahın Peyğəmbəri (s): «Xərclərdə mötədillik, yaşayışın yarısıdır.»[31]

5235. Allahın Peyğəmbəri (s): «Kim mötədil olsa, Allah onu imkanlı edər»[32].

5236. Allahın Peyğəmbəri (s): «Allah yanında heç bir xərc, mötədilliklə edilən xərc qədər əziz deyil.»[33]

5237. Allahın Peyğəmbəri (s): «Mötədillik, gözəl yanaşma, düzgün və bəyənilmiş üslub peyğəmbərliyin iyirmidən artıq hissəsindən biridir.»[34]

5238. Imam Əli (ə): «Mötədillik həyatı təminatlı edər.»[35]

5239. Imam Əli (ə): «Mötədillik az malı çoxaldar, israf isə çoxu yox edər.»[36]

5240. Imam Əli (ə): «Kim mötədilliklə həyat sürsə, yaşayış xərcləri yüngül olar.»[37]

---

[28] əl-Kafi, c. 5, səh. 162, hədis 1
[29] əl-Kafi, c. 4, səh.25, hədis 1
[30] əl-Kafi, c. 5, səh. 164, hədis 6
[31] Kənzul-Ummal, hədis 5434
[32] Tənbihul-xəvatir, c. 1, səh. 167
[33] Biharul-Ənvar, c. 76, səh. 269, hədis 17
[34] Tənbihul-xəvatir, c. 1, səh. 167
[35] Biharul-Ənvar, c. 78, səh. 10, hədis 67
[36] Ğurərul-hikəm, hədis 334, 335
[37] Biharul-Ənvar, c. 71, səh. 342, hədis 15

5241. Imam Əli (ə): «Israf məhv olmağın və mötədillik isə imkanlılığın səbəbidir.»[38]

5242. Imam Kazim (ə): «Heç bir mötədil insan möhtac olmadı.»[39]

5243. Imam Əskəri (ə): «Mötədilliyin bir əndazəsi var, əgər ondan aşılsa xəsislik olar.»[40]

ιoooooοπ

[38] Biharul-Ənvar, c. 71, səh. 347, hədis 13

[39] əl-Xisal, səh. 620, hədis 10

[40] əd-Durrətul-bahirə, səh. 43.

**332**

# Qisas

***1515. Qisas***

**Quran**

«Qisasda sizin üçün həyat vardır, ey ağıl sahibləri! Bəlkə, təqvalı olasınız.»[41]

«Bu haram ay, o haram olan ayın müqabilindədir. Hörmətsizliyin qisası var. Sizə qarşı həddini aşana, siz də həmin ölçüdə həddi aşın. Allahdan qorxun və bilin ki, Allah təqvalılarladır.»[42]

«Tövratda onlar üçün müəyyən etdik ki, canın qisası can, gözün qisası göz, burunun qisası burun, qulağın qisası qulaq və dişin qisası dişdir. Yaraların da (həmin ardıcıllıqla) qisası var. Kim ondan (qisasdan) keçərsə, onünçün (günahlarının) kəffarə olacaqdır. Allahın nazil etdiyi ilə hökm etməyənlərin özü, əlbəttə ki, zalımlardır.»[43]

**Hədis:**

5244. Allahın Peyğəmbəri (s): «Ey camaat! Mən də yalnız sizlər kimi bir insanam və bəlkə də tezliklə aranızdan gedəcəyəm. Əgər kiminsə abrına, saçına, dərisinə və ya malına zərər vurmuşamsa, indi budur Məhəmmədin abrı, saçı, dərisi və malı. Qalxsın və qisasını alsın. Heç vaxt sizlərdən kimsə deməsin: Mən Məhəmmədin düşmənçilik və kinindən qorxuram. Bilin ki, bu iki xislət mənim əxlaq və təbiətimdən uzaqdır.»[44]

5245. Allahın Peyğəmbəri (s): «Elə bir müsəlman kişi yoxdur ki, bədəninin bir hissəsinə zərər yetirilsin və ondan (qisasından) keçsin. Yalnız bunun səbəbinə Allahın onu bir mərtəbə yüksəltdiyi və bir günahını sildiyi kimsələrdən başqa.»[45]

5246. Imam Əli (ə): «Allah-taala imanı çirkdən təmizlənmək, qisası isə qanları qorumaq üçün vacib buyurmuşdur.»[46]

5247. Imam Əli (ə): «Daşı sənə atıldığı yerə qaytar. Çünki pislik pislikdən başqa cür dəf edilməz.»[47]

5248. Imam Səccad (ə) *(«Qisasda sizin üçün bir həyat var» ayəsi haqda buyurduqlarından):* «Çünki kimsə başqasını öldürmək qərarına gəlsə və belə

---

[41] Bəqərə, ayə179
[42] Bəqərə, ayə 194
[43] Maidə, ayə 45
[44] Kənzul-Ummal, hədis 39831
[45] Kənzul-Ummal, hədis 39850
[46] Nəhcül-Bəlağə, hikmət 252
[47] Ğurərul-hikəm, hədis 5394

olan halda qisas olunacağını bilsə, qətldən çəkinər. Bu, həm öldürmək istədiyi şəxsin sağ qalmasına, həm də adam öldürmək niyyətində olan cinayətkarın sağ qalmasına, eləcə də başqalarının həyatda qalmasına səbəb olar. Belə ki, onlar qisasın vacib və lazım olduğunu bildikləri halda, qisasın qorxusundan adam öldürməyə cürət etməzlər.»[48]

***1516. Qisası güzəştə getmək.***

5249. Allahın Peyğəmbəri (s): «Kim qandan (qisasdan) keçsə, onun cəzası cənnətdən başqa bir şey olmaz.»[49]

5250. Imam Sadiq (ə) *(«Kim qisasdan keçsə, bu onunçün kəffarə olacaq» ayəsi haqda suala cavabından):*–«Etdiyi güzəşt qədər, onun günahlarından silinəcək.»[50]

ιooooooπ

[48] ət-Təfsir əl-Mənsub lil-Imam əl-Əskəri (ə), səh. 595, hədis 354
[49] Kənzul-Ummal, hədis 39854
[50] əl-Kafi, c. 7, səh. 358, hədis 1

**333**

# Qəzavü-qədər

***1517. Qəzavü qədər.***

**Quran:**

«De: Allahın, bizim üçün yazdığından (müəyyən etdiyindən) başqa bizə heç bir şey yetişməz. O, bizim mövlamızdır və möminlər yalnız Allaha təvəkkül etməlidirlər.»[51]

«Ancaq (belə oldu ki) Allah, olacaq bir işi yerinə yetirdi.»[52]

«Biz, həqiqətən hər bir şeyi müəyyən ölçüdə yaratmışıq.»[53]

**Hədis:**

5251. Allahın Peyğəmbəri (s): «Hər bir şey əvvəldən müəyyən olunub, hətta gücsüzlük və zirəklik də.»[54]

5252. Allahın Peyğəmbəri (s): «Əgər Israfil, Cəbrayıl, Mikayıl ərşi daşıyan mələklər və mən səninçün dua etsək belə, sənin taleyinə yazılmış və müəyyən edilmiş qadından qeyrisilə evlənməyəcəksən.»[55]

5253. Imam Əli (ə)*(Pak olan Allaha sitayişindən):* «Allaha öz məxluqlarından istədiyi kimi şükr edirəm. Allah hər bir şey üçün qəzavü-qədər müəyyən etmiş, hər qəzavü-qədər üçün bir əcəl, hər bir əcəl üçün isə (müəyyən edilmiş və qeyd olunmuş) bir yazı.»[56]

5254. Imam Əli (ə): «Qəzavü-qədər (tale) Allahın sirlərindən bir sirr, gizlinlərindən bir gizlin, Allahın pərdəsinin arxasında və xəlq etdiklərindən gizlin olan əlçatmaz qalalardan biridir.»[57]

5255. Imam Əli (ə) *(Təqdir barədə soruşan kişiyə cavabından):*–«Dərin bir ümmandır, onun içində batma.» Ərz etdi: «Ey Əmirəl-möminin! Məni alın yazısından agah et.» Buyurdu: «Allahın sirridir. Özünü (onu öyrənmək üçün) zəhmətə salma.» (üçüncü dəfə) Soruşdu: «Ey Əmirəl-möminin məni təqdirdən agah et.» Buyurdu: «Indi ki, israr edirsən bil ki, təqdir iki işin arasındadır: nə alın yazısıdır, nədə ki, işləri özbaşına buraxmaq.»[58]

---

51 T[vbə, ayə51
52 Ənfal, ayə 42
53 Qəmər, ayə 49
54 Kənzul-Ummal, hədis 499
55 Kənzul-Ummal, hədis 501
56 Nəhcül-Bəlağə, xütbə 183
57 ət-Tovhid, səh. 383, hədis 32
58 Kənzul-Ummal, hədis 1567

5256. Imam Əli (ə): «Təqdir (bizim) hesab-kitabımıza o qədər üstün gələr ki, uzaqgörənlik ziyan və çətinliyə səbəb olar.»[59]

5257. Imam Əli (ə): «Bütün işlər müqəddarata tabedir. Hətta tədbirlər belə ölümlə sona çatar.»[60]

5258. Imam Sadiq (ə): «Qəza və qədər Allahın yaratdığı məxluqlardan ikisidir və Allah öz yaratdığına hər bir şeyi artırar.»[61]

5259. Imam Sadiq (ə): «Qiyamət günündə Allah məxluqları bir yerə yığanda, onlara buyurub əmr etdiklərinin sorğu-sualını aparar, ancaq onlar üçün təyin etdiklərindən heç nə soruşmaz.»[62]

5260. Imam Sadiq (ə): «Allah hər bir şeyi istədikdə, onu təyin edər. Təyin etdikdə, hökmünü verər və hökmünü verdikdə isə icra edər.»[63]

5261. Imam Hadi (ə): «Müqəddərat, ağlına belə gəlməyən şeyləri sənə göstərər»[64].

***1518. Insanın qəzavü-qədərinin yazılması.***

5262. Imam Baqir (ə) *(Insanın ana bətnində yaradılması barədə):* «Dörd ayı tamam olanda, Allah iki yaradan mələk göndərər və onlar deyərlər: «Ilahi, nə xəlq edirsən, oğlan, yoxsa qız?» Onun ikisindən biri üçün lazımı göstəriş verilər. Sonra ərz edərlər: «Ilahi, bədbəxtdir, yoxsa xoşbəxt?» Bu barədə də lazımi göstəriş verilər. Bu vaxt ərz edərlər: «Ilahi, ömrünün müddəti və ruzisi nə qədərdir?» Onun bütün halları– Həzrət cəmi bir neçəsinin adını çəkmişdir – yazılar və həmin iki mələk, bunu iki gözünün arasına yazar.»[65]

5263. Imam Baqir (ə) *(Yenə də bu barədə):* «Bu vaxt Allah iki mələyə vəhy buyurar: «Qəzavü-qədəri və Mənim onun barəsində əmrlərimin icrasını yazın və yazdıqlarınızda Mənim bədamı şərt qoyun. (Bəda haqqında məlumat almaq üçün «Usulu – Kafi» kitbına müraciət edin.)»[66]

***1519. Allahın mömin üçün qoyduğu, xeyirdir.***

5264. Allahın Peyğəmbəri (s): «Allahın hər bir qəzavü qədərində mömin üçün bir xeyir (gizlənmişdir) var.»[67]

5265. Imam Sadiq **(ə):** «Allah-taalanın, onunçün xeyirdən başqa heç bir qəzavü-qədər müəyyən etmədiyi müsəlman kişiyə mat qalıram. Əgər qayçı ilə tikə-tikə doğransa da, onun xeyrinədir. Əgər dünyanın şərqindən qərbinə qədərini də əlinə keçirsə, yenə də onunçün xeyirdir.»[68]

---

[59] Nəhcül-Bəlağə, hikmət 459
[60] Nəhcül-Bəlağə, hikmət 16
[61] ət-Tovhid, səh. 364, hədis 1
[62] əd-Durrətul-bahirə, səh. 33
[63] Biharul-Ənvar, c. 5, səh. 121, hədis 64
[64] Ə’lamud-din, səh. 311
[65] əl-Kafi, c. 6, səh. 13, hədis 3
[66] əl-Kafi, c. 6, səh. 14, hədis 4
[67] Uyunu Əxbar ər-Rza (ə), c. 1, səh.141, hədis 42
[68] əl-Kafi, c. 2, səh. 62, hədis 8

5266. Imam Sadiq (ə): «Allah möminin şad olduğu qəzavü-qədərdən başqa elə bir qəzavü-qədər müəyyən etməyib ki, həmin qəzavü-qədər onun xeyrinə olmamış olsun.»[69]

***1520. Ilahi qəzavü qədərə şad olmayan.***

5267. Allahın Peyğəmbəri (s): «Allah-taala buyurdu: Mənim verdiyim qəzavü-qədərə şad olmayan, alın yazısına inanmayan kimsə (getsin və) başqa bir məbud axtarsın.»[70]

5268. Imam Əli (ə): «Qiyamət günü ən ağır əzab Allahın qəzavü qədərinə sevinməyənə veriləcək.»[71]

5269. Imam Əli (ə): «Dünyaya görə kədərlənən, ilahi qəzavü qədərə şad olmaz.»[72]

5270. Imam Əskəri (ə): «Əgər ilahi qəzavü qədər pusqudadırsa, daha zəiflik və zəlillik nəyə lazımdır?»[73]

***1521. Qəzavü qədərdən olanlar.***

5271. Allahın Peyğəmbəri (s): «Təqdirdən başqa bir dərman yoxdur və istəyən hər kəs üçün, istədiyi hər bir miqdar qədər faydalı olar.»[74]

5272. «Kənzul-Ummal»: «Allahın Peyğəmbərinə (s) ərz etdilər: «Özümüzü müalicə etdiyimiz dərman, onunla özümüzə əlac etdiyimiz dualar və işlətdiyimiz başqa şeylər Allahın təqdirinin qarşısını alırmı? Peyğəmbər buyurdu: Yox, bunların özü, elə Allahın təqdirindəndir.»[75]

5273. Imam Əli (ə) *(Süffeyn döyüşündən qayıdarkən bir qoca kişi ondan soruşur ki, şamlılarla döyüşə getməyin ilahi qəzavü qədərdən idimi?):* «And olsun aləmi yaradana və insanları xəlq edənə! Allahın qəzavü qədəri olmadan, heç bir dərədən keçmədik və heç bir təpəyə qalxmadıq... Sanki sən qəzanı lazımi əmr, qədəri (ixtiyarını əlindən alacaq) mütləq və qaçılmaz bir iş sanırsan. Əgər belə olsaydı, müjdə, qorxu, mükafat və cəzanın mənası olmazdı. Günahkar Allah tərəfindən qınanmaz, yaxşı əməl sahibi Allahın razılığını qazanmazdı.

Yaxşı əməl sahiblərinin yaxşılığının mükafatının dəyəri, pis əməl sahibindən çox olmazdı. Bu sözlər bütpərəst dəstələrin ... və bu ümmətin məcuslarının sözüdür. Allahı xeyir işlər görməyi əmr etmişdir və insan öz ixtiyarı ilə onları yerinə yetirər. Çəkindirməklə pis əməlləri qadağan etmişdir, zorla yox. Itaətsizlik və itaət də güclə, məcburən deyil. Öz ixtiyarlarını da başqasına verməmişdir.»[76]

---

[69] ət-Təmhis, səh. 59, hədis 123
[70] Uyunu Əxbar ər-Rza (ə), c. 1, səh. 141, hədis 42
[71] Ğurərul-hikəm, hədis 3225
[72] Nəhcül-Bəlağə, hikmət 228
[73] əd-Durrətul-bahirə, səh. 44
[74] Kənzul-Ummal, hədis 28082
[75] Kənzul-Ummal, hədis 633
[76] Kənzul-Ummal, hədis 1560

5274. Ibn Nubatə: «Əmirəl-möminin əyilmiş bir divarın yanından başqa bir divara tərəf getdi. Həzrətə ərz olundu: Ey Əmirəl-möminin! Allahın qəzavü qədərindən qaçırsan? Buyurdu: Allahın qəzasından Onun qədrinə qaçıram.»[77]

ιooooooπ

[77] Biharul-Ənvar, c. 41, səh. 2, hədis 3

**334**

# Hakimlik

***1522. Qəzavət haqqı olmayanlar.***

**Quran:**

"Ey Davud! Biz səni yer üzündə xəlifə (və canişin) etdik. Camaat arasında haqq-ədalətlə hakimlik et və heç vaxt istəklərinə tabe olma ki, səni Allahın yolundan döndərməsin. Həqiqətən də, Allahın yolundan çıxanlar qiyamət gününü unutduqlarına görə (cəza olaraq) böyük əzab görəcəklər.»[78]

**Hədis:**

5275. Imam Əli (ə) *(Qazı Şureyhə xitabən):* «Ey Şureyh! Sən elə bir yerdə oturmusan ki, orada peyğəmbər, peyğəmbərin vəsisi və bədbəxt birisindən qeyri kimsə əyləşməz.»[79]

5276. Imam Sadiq (ə): «Hakimlik etməkdən çəkinin. Çünki hakimlik (mənsəbi) əslində, qəzavətdə bilikli olan, müsəlmanlar arasında ədalətlə hökm çıxaran imamındır. Peyğəmbərə və peyğəmbərin vəsisinə məxsusdur.»[80]

***1523. Hakimlik üçün tağutun yanına gedənlər və zalım hakimlər.***

**Quran:**

"Sənə nazil olana və səndən əvvəlkilərə nazil olunanlara iman gətirdiklərini sananları görmürsənmi? (Bununla belə) əslində tağutu inkar etməyə əmr olunduqlarına rəğmən aralarında tağutun hökm verməsini istəyirlər.»[81]

«Hakimlik etmiş olsan, onların arasında ədalətlə hakimlik et ki, Allah imdada yetənləri sevir.»[82]

**Hədis:**

5277. Imam Sadiq (ə) *(Borc və ya irs mala görə aralarına ixtilaf düşən və hakimlik üçün tağuta müraciət edən iki səhabəsi haqda buyurduğundan):* «Kim hakimlik üçün tağuta (və zalım hakimlərə) müraciət etsə və onun xeyrinə hökm çıxarılsa, aldığı şey haramdır. Açıq-aşkar onun haqqı olmuş olsa belə. Çünki Allah-taala tağutu küfr saymağı əmr etməsinə baxmayaraq, onu tağutun hökmü ilə almışdır.»[83]

5278. Allahın Peyğəmbəri (s): «Məbadə sizlərdən (şiələrdən) biri başqasının əleyhinə zalım hakimə şikayət etsin. Əksinə, siz öz aranızda hökmlər

---

[78] Sad, 26
[79] əl-Kafi, c. 7, səh. 406, hədis 2
[80] əl-Kafi, c. 7, səh. 406, hədis 1
[81] Nisa, 60
[82] Maidə, 42
[83] əl-Kafi, c. 7, səh. 412, hədis 5

və hakimliklə tanış olanı aramalı və onu öz aralarında hakim etməlisiniz. Çünki mən onu sizin qazınız  etmişəm. Deməli, öz aranızda hakimlik üçün onun yanına gedin.»[84]

***1524 . Qəzavətin əhəmiyyəti.***

5279. Allahın Peyğəmbəri (s): «Kimə qəzavət işi tapşırılsa, o bıçaqsız baş kəsmiş kimidir. Ərz edildi: Ey Allahın Peyğəmbəri! Baş kəsmək dedikdə məqsədiniz nədir? Buyurdu: Cəhənnəm odu.»[85]

5280. Allahın Peyğəmbəri (s): «Qiyamət günü ədalətli qazını gətirər və ondan elə tələbkarcasına sorğu-sual edilər ki, "ey kaş, hətta, heç vaxt iki nəfər arasında bir xurmanın üstündə belə, hakimlik etməyəydim" deyər.»[86]

5281. Imam Sadiq (ə): «Nəvavis (cəhənnəmdə bir yerdir) özündə istinin yüksək hərarətindən Allahın dərgahına şikayət etdi. Sonra Allah ona xitabən buyurdu: Sakit ol! Həqiqətən, qazıların yerinin hərarəti, səndən daha çoxdur."[87]

***1525 . Qəzavət etməkdə könüllülük.***

5282. Allahın Peyğəmbəri (s): "Kim qazılıq mənsəbi üçün çalışarsa və ona çatmaqdan ötrü müxtəlif şeylərə əl atarsa, Allah onu özbaşına buraxar. Kim onu qəbul etməyə məcbur olarsa, Allah onu möhkəm saxlamaq üçün bir mələk göndərər."[88]

5283. Imam Əli (ə) *(Malik Əştərin Misirə hakimlik təyinatı barədə fərmanından):* «Camaata hakimlik üçün, rəiyyət içində ən yaxşı və ən üstün saydığını seç! Elə birisi olsun ki, işlər onu karıxdırmasın (ixtilafların həllində aciz qalmasın), iddia tərəfləri (mübarizələri) onu öz rəyində tərsliyə və inad-karlığa məcbur etməsin. Ayağı büdrəməsin və haqqı tapdayanda (öz hökmünün səhv olduğunu anladıqda) haqqa qayıtmaqdan çəkinməsin. Özünü tamahın uçurumuna atmasın və işlərin səthi dərki ilə kifayətlənməsin, onu dərindən və dəqiq başa düşməyə çalışsın. Şübhəli hallarda hamıdan artıq ehtiyatlı və ləng olsun. Hamıdan daha çox dəlil və sübut axtarsın. Şikayətçilərlə üzləşməkdən az bezsin, iddialardakı həqiqətləri tapmaqda hamıdan dözümlü olsun. Həqiqəti aydınlaşdıqda (hökm çıxarmaqda) hamıdan daha artıq qətiyyət göstərsin. Elə insan olsun ki, mədh və sitayiş onu aldadıb xudbinləşdirməsin, təşviq və təhrik onu hansısa səmtə meylləndirməsin. Əlbəttə belə insanlar azdır. Onda özün onun hakimliyinə çox nəzarət et.»[89]

5284. Imam Sadiq (ə): «Kim fiqhdən (hüquqi məsələlər və məhkəmə hökmləri) azacıq bilmiş olsa, heç vaxt hakimliyə tamah gözü ilə baxmaz.»[90]

---

[84] Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 2, hədis 3216
[85] Müstədrəkul-vəsail, c. 17, səh. 243, hədis 21233
[86] Kənzul-Ummal, hədis  14988
[87] Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 6, hədis 3226
[88] Kənzul-Ummal, hədis  14994
[89] Nəhcül-Bəlağə, məktub 53
[90] Biharul-Ənvar, c. 104, səh. 264, hədis 5

***1526. Hakimliyin qaydaları.***

**1. Iddiaçı tərəflər arasında bərabərliyə riayət etmək**

5285. Allahın Peyğəmbəri (s): «Kim müsəlmanlar arasında hakimliyə mübtəla olsa, onlara qarşı baxışları, işarələri, oturub-durmağında bərabər rəftar etsin.»[91]

5286. Imam Əli (ə) *(Şureyhə xitabən): «*Müsəlmanlara qarşı baxışlarında, danışığında, oturub-durmağında bərabərliyə riayət et ki, yaxınların sənin müdafiənə (və zülmünə) ümidvar olmasın, düşmənlərin sənin ədalətinə ümidlərini itirməsinlər.»[92]

**2. Səsini qarşı tərəfin səsindən yuxarı qaldırmamaq.**

5287. Imam Əli (ə) *(Əbu əl-Əsəd Doəliyə "xəyanət və cinayət törətmədiyim halda, məni qazılıqdan niyə uzaqlaşdırırsınız?» sualına cavabından):* "Çünki gördüm ki, sən səsini qarşı tərəfin üstünə qaldırırsan.»[93]

**3.Yorulduğunu bildirməmək.**

5288. Imam Əli (ə) (*Şureyhə xitabən):* «Məbada hakimlik iclasında yorğunluğunu və narahatlığını bildirəsən. Bu elə bir yığıncaqdır ki, Allah onda mükafat qərar vermiş, düzgün hakimlik edən üçün gözəl ehtiyat nəzərdə tutmuşdur.»[94]

**4. Iddiaçı tərəflərin sözünü dinləmək.**

5289. Allahın Peyğəmbəri (s) *(Əliyə (ə) xitabən):* «Iki nəfər mühakimə üçün sənin yanına gəldikdə, qarşı tərəfin sözlərini dinləməmiş birinci tərəfin xeyrinə hökm çıxarma! Belə etsən (hər iki tərəfin sözlərini dinləsən) hökm səninçün aydınlaşar.

Əli (ə) buyurdu: Bu tövsiyədən sonra qəzavət işi mənimçün çox asanlaşdı. Peyğəmbər (s) o həzrət üçün bu duanı etdi: Ilahi! Qəzavəti ona anlat!"[95]

**5. Qəzəbli halda hakimlik etməmək.**

5290. Imam Əli (ə): *(Şureyhə xitabən):* «Qəzavət yığıncağında kiminləsə pıçıldaşma, əgər əsəbləşsən, dur get və qəzəbli halda heç vaxt hakimlik etmə!»[96]

**6. Yuxulu halda hakimlik etməmək.**

5291. «Mustədrəkul Vəsail»: «Allahın Peyğəmbəri (s) qazının qəzəbli, ac halda və ya mürgü vura-vura hakimlik etməsini qadağan etmişdir.»[97]

**7. Ac və susuz halda hakimlik etməmək.**

5292. Imam Əli (ə) *(Şureyhə xitabən)*: «Nəsə bir şey yeməmiş, qəzavət məclisində əyləşmə.»[98]

---

[91] Kənzul-Ummal, hədis 15032

[92] Vəsailuş-şiə, c. 18, səh. 155, hədis 1

[93] Müstədrəkul-vəsail, c. 17, səh. 359, hədis 21581

[94] əl-Kafi, c. 7, səh. 413, hədis 1

[95] Mən la yəhzəruhul-fəqih, c. 3, səh. 13, hədis 3238

[96] əl-Kafi, c. 7, səh. 413, hədis 5

[97] Müstədrəkul-vəsail, c. 17, səh. 349, hədis 21544

[98] əl-Kafi, c. 7, səh. 413, hədis 1

**8. Iddiaçı tərəflərin heç birinə süfrə açma.**

5293. Imam Sadiq (ə): «Bir kişi Əmirəl-möminin yanına gəlib bir neçə gün o həzrətin qonağı oldu. Sonra əvvəlcədən (yəni gəldiyi ilk gündən) Əmirəl-mömininə demədiyi bir məsələdən iddia qaldırdı. Həzrət buyurdu: Sən şikayətçisən? Ərz etdi: Bəli. Imam buyurdu: Mənim yanımdan get! Çünki Allahın Peyğəmbəri (s) şikayətçinin qaraşı tərəf olmadan qazıya qonaq olmasını qadağan etmişdir."[99]

**9. Dəlilləri təlqin etməmək.**

5294. «Mustədrəkul-Vəsail»: Allahın Peyğəmbəri (s) qazının iddiaçı tərəflərdən yalnız birinə müsbət yanaşmasını və diqqət yetirməsini qadağan etdiyi kimi, sübutları da təlqin etməyi qadağan buyurmuşdur.»[100]

***1527. Allahın kömək edib yol göstərdiyi qazılar.***

5295. Allahın Peyğəmbəri (s): «Elə bir müsəlman qazı yoxdur ki, iki mələk onunla olub həqiqət axtarıncaya qədər onu haqqa tərəf yönəltməmiş olsun. Ancaq həqiqət ardınca düşməyib qəsdən zülm və haqsızlıq etsə, həmin iki mələk bezib onu öz halına buraxarlar.»[101]

5296. Imam Əli (ə): «Allahın rəhmət əli, qazının başının üstündə hərəkətdədir. Nə vaxt zülm və haqsızlıq etsə, Allah onu öz halına buraxar.»[102]

***1528. Qazıların növləri.***

5297. Imam Sadiq (ə): «Qazılar dörd dəstədir: üç dəstəsi odda, bir dəstəsi isə cənnətdədir. Bilərəkdən haqsız hökm verən qazı oddadır. Bilməyərəkdən (hökm və qanunlardan xəbərsiz) nahaq hökm verərsə, o da oddadır. Bilmədən doğru hökm verənin yeri də oddur. Bilə-bilə doğru-dürüst hökm verən qazının yeri isə cənnətdir.»[103]

***1529. Qadının hakimliyi.***

5298. Allahın Peyğəmbəri (s): «Qadın hakim olub camaat arasında hakimlik etməməlidir.»[104]

5299. Imam Baqir (ə): «Qadın nə hakimlik kürsüsünü, nə də əmirlik kürsüsünü öhdəsinə götürməz.»[105]

***1530. Dəlil-sübuta və şahidə əsasən qəzavət.***

5300. Allahın Peyğəmbəri (s) *(Bir qədər köhnəlmiş əşya və mirasa görə ixtilaf səbəbindən, iki nəfər hakimlik üçün Allahın Peyğəmbərinin yanına gələndə):* «Ola bilər ki, sizlərdən biri dəlil və sübut gətirməkdə o birindən dilli-

---

[99] əl-Kafi, c. 7, səh. 413, hədis 4
[100] Müstədrəkul-vəsail, c. 17, səh. 350, hədis 21549
[101] Kənzul-Ummal, hədis 14993
[102] əl-Kafi, c. 7, səh. 410, hədis 1
[103] əl-Kafi, c. 7, səh. 407, hədis 1
[104] Kənzul-Ummal, hədis 14921
[105] Biharul-Ənvar, c. 104, səh. 275, hədis 1

dilavər olsun. Belə isə mən qardaşının haqqından onun xeyrinə hökm çıxardığım hər bir kəs üçün, əslində bir parça od verirəm.» Bu vaxt həmin iki kişidən biri dedi: «Mən öz haqqımı qarşı tərəfə bağışladım.» Allahın Rəsulu buyurdu: Yox, gedin və malları haqq-ədalətlə bölün. Onda püşk atın və bundan sonra bir-birinizə halal edin.»[106]

5301. Allahın Peyğəmbəri (s) *(Torpaq üstündə bir kişi ilə iddiası olan və hakimlik üçün onunla Həzrətin yanına gələn Əmrulqeysə xitabən)*: «Aşkar dəlilin (və şahidin) varmı?» Ərz etdi: «Yox.» Buyurdu: «Onda ona and verdir.» Əmrulqeys ərz etdi: «Onda mənim torpağımı götürəcək.» Buyurdu: «Əgər and içməklə sənin torpağını götürcə, Allah qiyamət günündə onun üzünə baxmaz və əməlini qəbul etməz, ağır əzab verər.» Belə olan halda, həmin kişi qorxuya düşərək torpağı Əmrulqeysə qaytardı.»[107]

5302. Imam Əli (ə): «Bu beş məsələdə qazı (onlar barədə) hökmün zahirinə əməl etməlidir: vəlilik (Allahın və imamın hər bir kəsə və ya uşağın vəlisinə verdiyi qəyyumluq və vəlilik haqqıdır), həyat yoldaşları (yəni müsəlmanlar arasında məşhur olan evlənmək məsələsi), miraslar, kəsilənlər (yəni, müsəlmanların kəsdiyi heyvanların halal olması) və şəhadət. Şahidlər zahirən etimada və inama layiq olarlarsa, şəhadətləri qəbul olunar və onların batinlərini axtarmaq lazım deyil.»[108]

5303. Imam Sadiq (ə): «Ali Məhəmmədin Qaimi (ə) zühur edəndə, Davudun hökmü ilə camaat arasında hakimlik edəcək və bəyyinəyə (sübuta və şahidə) ehtiyacı olmayacaq. Böyük Allah bu hökmü ona ilham edəsək və o, öz elmi ilə qəzavət edəcək.»[109]

### *1531. Imamın əmri. Ehey, bu bir hakimlikdir!*

5304. Imam Sadiq (ə): «Məktəb uşaqları yazılarını Əmirəl-mömininin qarşısına qoyurlar ki, onlardan ən yaxşısını seçsin. Həzrət buyurur: Ehey! Bu bir hakimlikdir! Burada zülmə yol vermək, qəzavətdə zülm etmək kimidir! Öz müəlliminizə deyin ki, tənbeh etmək məqsədilə üçdən artıq zərbə vursa, qisas olunacaq.»[110]

ιooooooπ

[106] Məaniul Əxbar, səh. 279
[107] Tənbihul-xəvatir, c. 2, səh. 171
[108] əl-xisal, səh. 311, hədis 88
[109] Biharul-Ənvar, c. 14, səh. 14, hədis 23
[110] Vəsailuş-şiə, c. 18, səh. 582, hədis 2

## 335

# Ürək

***1532. Ürək.***

5305. Allahın Peyğəmbəri (s): «Allah-taalanın yer üzərində qabları var. Yəqin ki, o qablar, həmin bu ürəklərdir. Allah dərgahında ən sevimli ürəklər ən riqqətli, ən pak və ən möhkəm ürəklərdir. Onların ən riqqətlisi qardaşlar üçün olanı, safları günahdan azad olanı və ən möhkəmləri isə Allah yolunda olanlardır.»[111]

5306. Allahın Peyğəmbəri (s): «Allah-taala sizlərin üzlərinizə və var-dövlətinizə deyil, ürəklərinizə və əməllərinizə baxar.»[112]

5307. Imam Əli (ə): «Ürək gözün kitabıdır.»[113]

5308. Imam Əli (ə): «Bu ürəklər bir qabdırlar. Onların ən yaxşısı, ən tutumlusu və ən çox saxlayanıdır.»[114]

5309. Imam Sadiq (ə): «Ağlın yeri başdadır, bərklik və riqqət isə ürəkdədir.»[115]

5310. Imam Sadiq (ə): «Ürəyin bədəndəki mövqeyi, imam və rəhbərin camaat arasında mövqeyi kimidir."[116]

5311. Imam Cavad (ə): «Ürəklərlə Allah-taalaya doğru yollanmaq, əməllərlə bədən üzvlərini əziyyətə salmaqdan (mənzil başına) daha tez çatandır.»[117]

***1533. Qəlbin sağlamlığı.***

**Quran:**

«Camaatın dirildiləcəyi gün, məni rüsvay etmə. Allahın yanına sağlam bir qəlblə gəlməkdən savayı, heç bir övlad və malın xeyri olmadığı bir gün.»[118]

**Hədis:**

5312. Məsih (ə): «Şəhvətlər qəlbləri daxildən parçalamasa, tamah korlamasa, nemət və imkan onları sərtləşdirməsə, tezliklə hikmət qabları olacaqlar.»[119]

---

111 Kənzul-Ummal, hədis 1225
112 Əmali ət-Tusi, səh. 536, hədis 1162
113 Nəhcül-Bəlağənin şərhi, c. 20, səh. 46
114 Nəhcül-Bəlağə, hikmət 147
115 Tuhəful-uqul, səh. 371
116 Iləluş-şəraye, səh. 109, hədis 8
117 əd-Durrətul-bahirə, səh. 39
118 Şuəra, 87-89
119 Tuhəful-uqul, səh. 504

5313. Imam Əli (ə): «Özünçün bəyəndiyini möminlər üçün bəyənməyincə, qəlbin sağlam olmayacaqdır.»[120]

5314. Imam Həsən (ə): «Qəlblərin ən sağlamı, şübhələrdən pak olanıdır.»[121]

5315. Imam Baqir (ə): «Heç bir elm, sağlamlıq axtarmaq qədər deyil. Heç bir sağlamlıq isə ürəyin sağlamlığı kimi deyil.»[122]

5316. Imam Sadiq (ə) *(«Yalnız sağlam qəlblə Allaha üz tutandan qeyri» ayəsi haqda):* «Sağlam ürək odur ki, onda Rəbbindən qeyrisi olmayan bir halətdə Allahı ilə görüşə. Şirk və şəkkin olduğu hər bir ürək çökmüşdür.»[123]

5317. Imam Sadiq (ə)*(Həmin ayə barədə):* «Sağlam ürək odur ki, sağlamlığını dünya sevgisindən qorusun.»[124]

***1534 . Qəlbin gözü.***

5318**.** Allahın Peyğəmbəri (s): «Şeytanlar hər an insanların qəblərinin ətrafında dolaşmasaydılar, insanlar hər an qeyb aləmini görərdilər.»[125]

5319. Imam Əli (ə) *(Münacatda):* «Ey Məbud! Hər şeydən qopmağı və tamamilə Özünə üz tutmağı mənə nəsib et. Qəlblərimizin gözlərini Sənə baxışların nuru ilə işıqlandır ki, qəlblərin gözləri nur pərdələrini bir-birindən ayırsınlar və əzəmət mədəninə qovuşsunlar. Bizim canlarımız Sənin müqəddəs izzətinə birləşsinlər.»[126]

5320. Imam Sadiq (ə): «Bizim şiələrin əslində dörd gözü var: iki göz başda və ikisi qəlbdə. Əlbəttə bütün insanlar belədir. Ancaq Allah sizlərin gözlərinizi açmış, onların gözlərini isə kor etmişdir.»[127]

***1535. Qəlbin qulağı.***

5321. Allahın Peyğəmbəri (s): «Əgər qəlblərin dağınıqlığı və sizin yalanlarınız olmasaydı, şübhəsiz ki, mənim eşitdiyimi siz də eşidərdiniz.»[128]

5322. Imam Sadiq (ə): «Həqiqətən, sənin qəlbin və qulaqların var. Allah bəndəni doğru yola yönəltmək istədikdə, onun qəlbinin qulaqlarını açar. Bundan qeyrisini bir bəndə üçün istədikdə, qəlbinin qulaqlarını bağlayar və beləsi bir daha islah olmaz. Böyük Allahın "qəlblərinə qıfıl vurulub"[129] sözünün də mənası budur.»[130]

---

[120] Biharul-Ənvar, c. 78, səh. 8, hədis 64
[121] Tuhəful-uqul, səh.235
[122] Biharul-Ənvar, c. 78, səh. 164, hədis 1
[123] əl-Kafi, c. 2, səh. 16, hədis 5
[124] Nurus-səqəleyn, c. 4, səh. 58, hədis 50
[125] Biharul-Ənvar, c.70, səh. 59, hədis 39
[126] Iqbalul Ə'mal, c. 3, səh. 299
[127] əl-Kafi, c. 8, səh. 215, hədis 260
[128] Ət-Tərğib vət-tərhib, c. 3, səh. 497, hədis 3
[129] Muhəmməd, 24
[130] əl-Məhasin, c. 1, səh. 318, hədis 623

**1536. Qəlblərin üz tutması və üzünü döndərməsi.**

5323. Imam Rza (ə): «Həqiqətən, qəlblərin bir üz tutmağı var, bir də üz döndərməyi. Şadlıqları var, bir də kədərləri. Üz tutduqda dərrakəli və bəsirətli, arxa çevirəndə isə yorğun və üzgün olarlar. Buna görə də üz tutub şad olduqları vaxt onlara əl atın (və ibadətlərdə işlərinizə çəkin) və üz döndərib kədərli olduqları vaxt onları öz hallarına buraxın.»[131]

5324. Imam Əskəri (ə): «Qəlblər şadlananda onlara əmanət tapşırın, nə vaxt arxa çevirsələr onlarla vidalaşın.»[132]

***1537. Qəlbin təmizliyi.***

5325. Musa (ə): «Ilahi! Kimdir, Səndən qeyri heç bir kölgənin olmadığı bir gündə Sənin ərşinin kölgəsində olanlar?» Allah ona vəhy buyurdu: «Ürəyi təmiz olanlar.»[133]

5326. Imam Əli (ə): «Öz canlarınızı çirkin şəhvətlərdən təmizləyin ki, yüksək dərəcələri qazanasınız.»[134]

5327. Imam Əli (ə): «Bəndələrin pak qəlbləri, Sübhan Allahın baxdığı yerlərdir. Kim qəlbini paklaşdırarsa, Allah ona nəzər salar.»[135]

***1538. Qəlbin böyüklüyü.***

**Quran:**

«Allah doğru yola yönəltmək istədiyi şəxsin qəlbini Islamı qəbul etmək üçün genişləndirər. Azdırmaq istədiyi şəxsin, qəlbini çox daraldar. Belə ki, o, sanki zəhmətlə göyə çəkildiyini sanar. Allah iman gətirməyənlərə pisliyi belə edər.»[136]

«Sənin üçün sinəni genişləndirmədikmi?»[137]

**Hədis:**

5328. Allahın Peyğəmbəri (s): «Allah kimsəni doğru yola yönəltmək istəsə…» ayəsi nazil olduqda Allahın Peyğəmbərindən (s) soruşdular: "Başın genişləndirilməsi nədir?» Buyurdu: «Allah-taalanın mömінin qəlbinə saldığı və onun səbəbinə qəlbi genişləndiyi bir nurdur.»

Ərz etdilər: «Onu tanımaq üçün bir nişanə varmı?» Buyurdu: «Bəli, əbədi saraya üz tutmaq, puç saraydan uzaq durmaq, gəlib çatmamış, ölüm üçün hazırlıq görmək.»[138]

***1539. Qəlbin pərdəsi.***

---

[131] Biharul-Ənvar, c. 78, səh. 353, hədis 9
[132] əd-Durrətul-bahirə, səh. 43
[133] əl-Məhasin, c. 1, səh. 457, hədis 1058
[134] Ğurərul-hikəm, hədis 6020
[135] Ğurərul-hikəm, 6777
[136] Ən'am, 125
[137] Inşirah, 1
[138] Məcməul Bəyan, c. 4, səh. 561

5329. Allahın Peyğəmbəri (s): «Mömin günah edəndə onun ürəyində qara bir nöqtə yaranar. Əgər tövbə edib günahdan əl çəksə və bağışlanmağını diləsə, qəlbi həmin qara ləkədən təmizlənər. Ancaq öz günahlarını artırsa, belə nöqtələr çoxalar. Bu, Allah-taalanın Öz kitabında xatırlatdığı həmin pasdır ki, Allah-taala buyurub:«Onların törətdiklərindən qəlbləri pas bağlayar.» [139]-[140]

5330. Imam Kazim (ə): «Allah-taala Davuda (ə) vəhy buyurdu: «Ey Davud! Öz dostlarını şəhvətlilikdən çəkindir və qorxut! Çünki qəlbləri dünyanın şəhvətindən asılmış olanların ürəkləri ilə mənim aramda pərdə var.»[141]

### *1540. Daş ürəklilik.*

**Quran:**

«Sizin ürəkləriniz bundan (hadisədən) sonra sərtləşdi. Daş və ya ondan daha sərt şeylər kimi. Çünki bəzi daşlardan kiçik arxlar axar, bəziləri yarılar və ondan su kənara çıxar. Bir çoxları Allahın qorxusundan ovularlar. Allah etdiklərinizdən xəbərsiz deyil.»[142]

**Hədis:**

5331. «əl-Kafi»: "Allahın Musa ilə (ə) pıçıltılarından biri də bu idi: «Ya Musa! Dünyada uzun-uzadı arzular etmə ki, qəlbin sərtləşməsin. Sərt qəlblilər məndən uzaqdır.»[143]

5332. Məsih (ə): «Miniyə minməyib onu işlətmədikdə, dikbaş və tərs olar. Ürəklər də belədir. Ölümün anılması ilə yumşalmasa və ardıcıl ibadətdən zəhmət çəkməsələr sərt və kobud olarlar.»[144]

5333. Allahın Peyğəmbəri (s): «Allahı yad etməkdən savayı heç nədən çox danışmayın. Çünki Allahın fikrindən qeyri bir şey haqda çox danışmaq ürəkləri sərtləşdirər. Allahdan ən uzaq olan insanlar da sərt ürəklilərdir.»[145]

5334. Allahın Peyğəmbəri (s): «Üç şey ürəyi sərtləşdirər: bayağı musiqini dinləmək, ov və sultanın sarayına çox gedib gəlmək.»[146]

5335. Imam Əli (ə): «Göz yaşları qəlblərin sərtliyindən qeyri səbəbdən qurumadı, ürəklər isə günahların çoxluğundan başqa səbəbə sərtləşmədi.»[147]

5336. Imam Əli (ə): «Var-dövlətin çoxluğu dinin puçluğuna və qəlbin sərtliyinə səbəb olar.»[148]

5337. Imam Əli (ə): «Xəsis insana baxmaq qəlbi sərtləşdirər.»[149]

---

[139] Mutəffifin, 14
[140] Nurəl-Səqəleyn, c. 5, səh. 532, hədis 24
[141] Tuhəful-uqul, səh. 397
[142] Bəqərə, 74
[143] əl-Kafi, c. 2, səh. 329, hədis 1
[144] Biharul-Ənvar, c. 14, səh. 309, hədis 17
[145] Əmali ət-Tusi, səh. 3, hədis 1
[146] əl-Xisal, səh. 126, hədis 122
[147] Iləluş-şəraye, səh. 81, hədis 1
[148] Müstədrəkul-vəsail, c. 12, səh. 93, hədis 13609
[149] Tuhəful-uqul, səh. 214

5338. Imam Baqir (ə): «Allah-taala yaşayışda çətinlik yaratmaq və ibadətdə süstlüyə görə bədənlərə cəza qoymuşdur. Heç bir bəndəyə daş ürəklilikdən böyük cəza dadızdırılmamışdır.»[150]

***1541. Qəlbin xəstəliyi.***

**Quran:**

«Qəlblərində xəstəlik var və Allah xəstəliklərini artırdı. Yalan dediklərinin (cəza olaraq) ağrılı əzabını görəcəklər.»[151]

**Hədis:**

5339. Imam Əli (ə): «Boş yerə mübahisə və çəkişmədən çəkinin. Çünki bu iki iş qəlblərdə qardaşlara qarşı xəstəlik yaradar və onlardan nifaq cücərər.»[152]

5340. Imam Əli (ə): «Heç bir dərd, ürək üçün günahlar qədər ağrılı deyil.»[153]

***1542. Ürəklərə dərman olanlar.***

**Quran:**

«Ey camaat! Sizin üçün Allahınız tərəfindən bir öyüd və sinələrinizdə olanlardan ötrü bir dərman, (Allaha) yönələnlər üçünsə yol göstərən və rəhmət gəlmişdir.»[154]

**Hədis:**

5341. Imam Əli (ə): «Həqiqətən, Allahdan qorxu sizin qəlblərinizin dərdinin dərmanıdır. Qəlblərinizin gözünü açan, bədənlərinizin xəstəliklərinə şəfa verən, sinələrinizin puçluğunu aradan götürən, canlarınızdakı çirklinlikləri təmizləyən və gözlərinizdən korluğu siləndir.»[155]

***1543. Qəlbi öldürənlər.***

5342. Allahın Peyğəmbəri (s): «Dörd şey qəlbi öldürər: günah üstündən günah, qadınlarla çox söhbət etmək, axmaqla bəhs etmək, -yəni sən deyirsən, o deyir və heç vaxt düzəlmir- və ölülərlə oturub durmaq.» Ərz etdilər: «Ey Allahın Rəsulu! Ölülər dedikdə məqsədin nədir?» Buyurdu: «Gününü yaxşı keçirən hər imkanlı şəxs.»[156]

5343. Allahın Peyğəmbəri (s) *(Əbuzərə öyüdlərindən):* «Çox gülməkdən çəkin ki, o qəlbləri öldürər.»[157]

5344. Imam Əli (ə): «Kimin ibadətləri az olarsa qəlbi ölər, qəlbi ölən isə cəhənnəmə gedər.»[158]

---

[150] Tuhəful-uqul, səh. 296
[151] Bəqərə, 10
[152] əl-Kafi, c. 2, səh. 300, hədis 1
[153] əl-Kafi, c. 2, səh. 257, hədis 28
[154] Yunus, 57
[155] Nəhcül-Bəlağə, xütbə 198
[156] əl-Xisal, səh. 228, hədis 65
[157] Məaniul Əxbar, səh. 335, hədis 1
[158] Nəhcül-Bəlağə, hikmət 349

***1544. Qəlbi dirildənlər.***

5345. Loğman (ə) *(Övladına nəsihətindən):* «Övladım! Alimlərlə ol və onlarla otur-dur. Çünki Allah torpağa yağışın yağması ilə həyat verdiyi kimi, qəlbləri də hikmət nuru ilə diriltdir.»[159]

5346. Allahın Peyğəmbəri (s): «Allah buyurur: Mənim bəndələrim arasında elmi söhbətlər ölü qəlbləri dirildər. Bu şərtlə ki, bu söhbətdə Mənim əmrimə (üsuliddin və ya firuiddinə) çatsınlar.»[160]

5347. Imam Əli (ə) *(Əziz övladı Imam Həsənə (ə) tövsiyəsindən):* «Öz ürəyini moizə ilə dirilt və dünyanı ürəyindən qoparmaqla öldür.»[161]

5348. Imam Əli (ə): «Xeyir iş əhlini görmək qəlbləri abadlaşdırar.»[162]

5349. Imam Əli (ə) *(Əziz övladı Imam Həsənə (ə) tövsiyəsindən):* «Ey övladım! Sənə Allahdan qorxmağı, Onun əmrlərinə itaət etməyi, Onu zikr etməklə qəlbini abad etməyi tövsiyə edirəm.»[163]

***1545. Ürəyi yumşaldanlar.***

5350. Allahın Peyğəmbəri (s) *(Həzrətin yanında öz daş ürəkliliyi ilə öyünən bir kişiyə xitabən):* «Əgər qəlbinin yumşalmasını istəyirsənsə, möhtaca yemək ver və yetimin başını nəvazişlə sığalla.»[164]

5351. Allahın Peyğəmbəri (s): «Ürəklərinizi riqqətə gəlməyə öyrədin, çox düşünün və Allah xofundan çox ağlayın.»[165]

5352. «Nəhcül Bəlağə»: Imam Əlinin (ə) əynində köhnə və yamaqlı paltar gördülər. Bunun səbəbini soruşanda Imam buyurdu: Bu paltar ürəyi yumşaldır, nəfsi xar və ram edir, möminlər üçünsə bir nümunədir.»[166]

5353. Imam Baqir (ə): «Xəlvətdə (Allahı) çox zikr etməklə qəlblərinizdə riqqət axtarın.»[167]

***1546. Ürəyi cilalayanlar.***

5354. Allahın Peyğəmbəri (s): «Dəmir suya yaxın olanda paslandığı kimi, bu ürəklər də pas bağlayar.» Ərz olundu: «Onları nə ilə cilalayırlar.» Buyurdu: «Ölümü çox xatırlamaq və Quran oxumaqla.»[168]

5355. Allahın Peyğəmbəri (s): «Bu ürəklərin cilalayanı Allahı xatırlamaq və Quran oxumaqdır.»[169]

---

[159] Biharul-Ənvar, c. 1, səh. 204, hədis 22
[160] əl-Kafi, c. 1, səh. 41, hədis 6
[161] Nəhcül-Bəlağə, məktub 31
[162] Biharul-Ənvar, c. 77, səh. 208, hədis 1
[163] Nəhcül-Bəlağə, məktub 31
[164] Mişkatul-Ənvar, səh. 167
[165] Ə'lamud-Din, səh. 365, hədis 33
[166] Nəhcül-Bəlağə, hikmət 103
[167] Tuhəful-Uqul, səh. 285
[168] Kənzul-Ummal, hədis 42130
[169] Tənbihul-Xəvatir, c. 2, səh. 122

5356. Imam Əli (ə): «Ürəyini moizə ilə dirilt... və onu hikmətlə nurlandır.»[170]

5357. Imam Sadiq (ə): «Ürəklər də mis kimi paslanar. Onları, günahların bağışlanmasını diləməklə cilalayın.»[171]

[170] Nəhcül-Bəlağə, məktub 31

[171] Iddətud-Dəai, səh. 249

**336**

# Təqlid

***1547. Pislənilən təqlid.***

**Quran:**

«Onlara «Allahın yerə endirdiyinə və Peyğəmbərə tərəf gəlin» dedikdə «Atalarımızda gördüklərimiz bizə bəs edər» deyərlər. Bəs ataları heç nə bilməyib doğru yola yönəldilməmişlərsə necə?»[172]

**Hədis:**

5358. Imam Sadiq (ə) *(öz səhabələrindən birinə xitabən):* «Heç vaxt camaatla eyni cür olub demə ki, mən camaata tabeyəm və mən də camaatın biriyəm.»[173]

5359. Imam Sadiq (ə) (*Onlar alim və rahiblərini Allahın yerinə özlərinə Allah etdilər»[174] ayəsi haqda):*–«Allaha and olsun, onlarçün namaz qılıb oruc tutmurdular. Camaat üçün haramı halal, halalı da haram edirdilər, camaat da onların ardınca gedirdi.»[175]

***1548. Təqlidi rəva olanlar.***

5360. Imam Əskəri (ə) *(Yəhudi camaatının öz fasiq alimlərinə təqlidini pislədikdən sonra):* «Əgər (müsəlmanlar) belə fəqihlərə təqlid etsələr, Allahın onları pozğun və fitnəkar fəqihlərə tabe olduqlarına görə pislədikləri yəhudilər kimi olarlar.

Ancaq özünü saxlayan, dininin mühafizəçisi olan, nəfsani istəklərlə çarpışan və mövlasının əmrinə tabe olan hər bir fəqihə təqlid etmək ümumi camaatın işidir. Əlbəttə, bu xüsusiyyətlərə şiə fəqihlərinin hamısı deyil, yalnız bəziləri sahibdir.»[176]

ιοooooοπ

[172] Maidə, 104
[173] Məani Əxbar, səh. 266
[174] T[vbə, 31
[175] əl-Məhasin, c. 1, səh. 383, hədis 847
[176] əl-Ihtacac, c. 2, səh. 510, hədis 337

## 337

# Qumar

***1549 . Qumar.***

**Quran:**

«Ey iman gətirənlər! Şərab, qumar, (qurbanlıq) bütlər və fal oxları murdar və şeytan əməli olan şeylərdir. Onlardan uzaq durun ki, bəlkə nicat tapasınız. Şübhəsiz ki, şeytan şərab və qumarla sizin aranıza düşmənçilik və kin salmaq, sizi Allahı yada salmaqdan və namazdan saxlamağa çalışır. Belə isə, bu işlərdən əl çəkəcəksinizmi?»[177]

**Hədis:**

5361. «əl-Kafi»: «Həqiqətən, şərab və qumar...» ayəsi nazil olduqda Allahın Peyğəmbərindən qumar barədə soruşdular. Həzrət buyurdu: «Udulub- uduzulan hər bir şey, hətta taxta nərd və qoz.» Ərz etdilər: «Ənsab nədir?» Buyurdu: «Allahları üçün kəsdikləri şeylərdir.» Ərz olundu: «Əzlam nədir?» Buyurdu: «Onların vasitəsilə püşk atdıqları oxlar.»[178]

5362. Imam Əli (ə): «Insanı, Allahı yada salmaqdan qəflətdə saxlayan hər bir şey qumar sayılır.»[179]

5363. Imam Baqir (ə) *(Şahmat oynamaq haqda suala cavabında):* «Mömin, oynamaqdan qeyri işlərlə məşğuldur.»[180]

5364. Imam Sadiq (ə) *(«Mallaranızı öz aranızda narəva yeməyin" ayəsi haqda buyurdu):* «Qureyşilər öz ailələrini və mallarını qumara qoyurdular və Allah bu işi onlara qadağan etmişdir.»[181]

5365. Səkkuni: «Imam Sadiq uşaqların udub-uduzmaqla qazandıqları qozu yeməyi qadağan edərək buyurmuşdur. O, haramdır.»[182]

ιooooooπ

---

[177] Maidə, 90-91

[178] əl-Kafi, c. 5, səh. 123, hədis 2

[179] Əmali ət-Tusi, səh. 336, hədis 681

[180] əl-Xisal, səh. 26, hədis 92

[181] əl-Kafi, c. 5, səh. 122, hədis 1

[182] əl-Kafi, c. 5, səh. 123, hədis 6

**338**

# Qənaət

***1550. Qənaət.***

5366. «Iddətud-dai»: Allah-taala Davuda vəhy buyurmuşdur: «Mən var-dövləti qənaətdə qərar versəm də, camaat onu malın çoxluğunda axtarır. Buna görə də onu tapmırlar. »[183]

5367. Allahın Peyğəmbəri (s): «Qənaət tükənməyən bir sərvətdir.»[184]

5368. Imam Əli (ə) (*Nəhl surəsinin 97-ci ayəsi haqda suala cavabından):* «Burada qənaət nəzərdə tutulur. »[185]

5369. Imam Əli (ə): «Insanların ən qənaətcili, onların ən çox şükr edənləridir. Onların nemətlərə ən naşükürü isə ən hərisləridir.»[186]

5370. Imam Əli (ə): «Var-dövləti axtardım və onu qənaətdən qeyri bir şeydə tapmadım. Qənaətcil olun ki, var-dövlət sahibi olasınız.»[187]

5371. Imam Əli (ə): «Heç bir xəzinə qənaət qədər zəngin deyil.»[188]

5372. Imam Həsən (ə): «Bil ki, qənaət və şadlığın mərdliyi bəxşişin comərdliyindən çoxdur. »[189]

***1551. Qənaətə səbəb olanlar.***

5373. Imam Əli (ə): «Qənaət, özünü saxlamağın və nəfsin izzətinin həddindən asılıdır.»[190]

5374. Imam Əli (ə): «Ağıllı olan qənaətcil olar.»[191]

5375. Imam Sadiq (ə): «Özündən ən aciz olanına bax, özündən imkanlısına baxma. Çünki bu səni qismətinə düşənlə kifayətləndirər.»[192]

***1552.Qənaətin meyvəsi.***

5376. Allahın Peyğəmbəri (s): «Sənə verilənə qane ol ki, sorğu-sualın yüngül keçsin.»[193]

---

[183] Iddətud-dəai, səh. 166; Biharul-Ənvar, c. 78, səh. 453, hədis 21
[184] Kənzul-Ummal, hədis 7080
[185] Nəhcul Bəlağə, hikmət 229
[186] Biharul-Ənvar, c. 77, səh. 422, hədis 40
[187] Biharul-Ənvar, c.69, səh. 399, hədis 91
[188] Nəhcül-Bəlağə, hikmət 371
[189] Biharul-Ənvar, c. 78, səh. 111, hədis 6
[190] Ğurərul-hikəm, hədis 6179
[191] Ğurərul-hikəm, hədis 7724
[192] əl-Kafi, c. 8, səh. 244, hədis 338
[193] Biharul-Ənvar, c. 77, səh. 187, hədis 37

5377. Imam Əli (ə): «Özünü islah etmək üçün ən yaxşı köməkçi qənaətdir.»[194]

5378. Imam Əli (ə): «Qənaətcil olan, qəmgin olmaz.»[195]

5379. Imam Əli (ə): «Baş ucalığı qənaətin hesabına əldə olunur.»[196]

5380. Imam Əli (ə): «Ən gözəl həyatı, Allah-taalanın qənaətcillik verdiyi və pak, ləyaqətli həyat yoldaşı nəsib etdiyi bəndələri yaşayır.»[197]

5381. Imam Hüseyn (ə): «Qənaət canın rahatlığıdır.»[198]

5382. Imam Sadiq (ə): «Kim Allahın verdiyi az güzərana (və ruziyə) qane olsa, Allah onun az əməlinə şad olar.»[199]

***1553. Aza qane olan.***

5383. Imam Əli (ə): «Kim az malına qane olmasa, çox malının da xeyrini görməz.»[200]

5384. Imam Sadiq (ə): «Allah sənə qismət etdiyinə qane ol. Başqalarında olana göz dikmə. Əldə edə bilməyəcəyin şeyləri arzulama. Çünki qənaətcil olan tox olar. Qane olmayansa doymaz. Axirətinin bəhrəsini qənimət bil.»[201]

ιοooooπ

[194] Ğurərul-hikəm, hədis 3191
[195] Ğurərul-hikəm, hədis 7771
[196] Ğurərul-hikəm, hədis 4244
[197] Ğurərul-hikəm, hədis 3295
[198] Biharul-Ənvar, c. 78, səh. 128, hədis 11
[199] əl-Kafi, c. 2, səh., 138, hədis 3
[200] Biharul-Ənvar, c. 78, səh. 81, hədis 33
[201] əl-Kafi, c. 8, səh. 243, hədis 337

# 339

# Təkəbbür

***1554.Təkəbbür***

**Quran:**

«Sonra, yalnız təkəbbürlülük edərək kafirlərdən olan şeytandan başqa bütün mələklər hamılıqla səcdə etdilər.»[202]

«(Allah)Buyurdu: Oradan (məqamdan) aşağı en. Sənin orada (o məqamda) təkəbbür göstərməyin yaramaz. Sən xar olmuşlardansan və çölə çıx.»[203]

**Hədis:**

5385. Imam Əli (ə): «Allahın iblislə əlaqədar gördüyü işdən ibrət alın. Yalnız bircə anlıq təkəbbür ucbatından uzun-uzadı işləri, gərgin səylərini… (ibadətləri) zay etdi. Belə isə, iblisdən sonra (özü də bu qədər yüksək məqamı ilə) kimsə varmı ki, onun etdiyi günaha görə Allahın qəzəb və cəzasından amanda qalsın?»[204]

5386. Imam Baqir (ə): «Az və çoxluğundan asılı olmayaraq həmin qədər, insanın ağlından azaltmamış təkəbbür onun qəlbinə yol tapa bilməz.»[205]

5387. Imam Sadeq (ə): «Kim təkəbbürdən təmizlənərsə, comərdliyə nail olar.»[206]

5388. Imam Sadiq (ə): «Böyüklük Allaha yaraşandır. Buna görə kimsə onun üstündə Allahla çəkişərsə, Allah onu odda alt-üst edər.»[207]

***1555. Təkəbbürün mənası.***

5389. Allahın Peyğəmbəri (s): «Ey Əbuzər! Çox tövbə edənlərdən başqa, hər kim ölsə və qəlbində zərrə qədər də təkəbbür olsa, cənnətin iyi burnuna çatmaz.» Ərz etdilər: «Ey Allahın Rəsulu! Mən gözəlliyi sevirəm. Hətta istəyirəm ki, qamçımın bəndi və ayaqqabılarımın qaytanı da gözəl olsun. Bundan təkəbbür və xudpəsəndlik iyi gəlirmi?» Buyurdu: «Ürəyini necə görürsən?» Ərz etdi: «Onu haqqı tanıyan və onunla rahatlıq tapmış tək görürəm.» Buyurdu: «Elə isə bu halət təkəbbür deyil. Təkəbbür odur ki, haqqı yerə atıb nahaqqa üz tutasan və camaata heç kimin abrının sənin abrıntək, qanınınsa sənin qanın kimi olmaması gözü ilə baxmaqdır.»[208]

---

[202] Sad, 73-74
[203] Ə'raf, 13
[204] Nəhcül-Bəlağə, xütbə 192
[205] Biharul-Ənvar, c. 78, səh. 186, hədis 16
[206] Biharul-Ənvar, c. 78, səh. 229, hədis 5
[207] Biharul-Ənvar, c. 73, səh. 215, hədis5
[208] Biharul-Ənvar, c. 77, səh. 90, hədis 3

5390. Imam Əli (ə): «Təvazökarlığı axtardım və onu haqqı qəbul etməkdən qeyri bir şeydə tapmadım. (Belə isə) Haqqı qəbul edən olun. Çünki haqqı qəbul etmək (və həqiqət, adamı) təkəbbürdən uzaqlaşdırar.»[209]

5391. Imam Sadiq (ə): «Allahın Peyğəmbəri (s) buyurmuşdur: Ən böyük təkəbbür camaatı alçaq saymaq və haqqı yüngül tutmaqdır. Əbdül əla Əli ibn Əyn deyir: Ərz etdim ki, camaatı aşağı sanmaq və haqqı yüngül tutmaq nədir? Buyurdu: Haqqın müqabilində nadanlıq etsin və haqq əhlinin əleyhinə danışsın. Kim belə etsə, Allaha layiq olan şeylərin üstündə Allahla mübarizəyə qalxmışdır.»[210]

5392. Imam Sadiq (ə): «Kim başqalarından üstün olması fikrində olduğunu düşünürsə, o təkəbbürlülərdəndir. Həfəs ibn Qiyas deyir: "Ərz etdim ki, əgər günahkarı görsə və iffətli, günahsız olmasına görə özünü ondan üstün tutsa, necə? Buyurdu: Heyhat, heyhat! Çox da mümkündür ki, o bağışlansın, ancaq sən hesab-kitab üçün saxlanılasan. Məgər Musanın (dövründə) cadugərlərin əhvalatını oxumamısanmı?»[211]

### *1556 . Təkəbbürlü insan.*

5393. Allahın Peyğəmbəri (s): «Ən mənfur insan təkəbbürlü şəxsdir.»[212]

5394. Allahın Peyğəmbəri (s): «Qiyamət günü sizlərdən mənə ən uzağı, çox danışanlar, yəni təkəbbürlülər olacaqlar.»[213]

5395. Imam Əli (ə): «Əvvəli bir nütfə, sonu isə leş, bu ikisinin arasında isə nəcasət kisəsi olan insan övladının belə təkəbbürlü olmasına heyrət edirəm.»[214]

5396. Imam Əli (ə): «Yalnız alçaq şəxs təkəbbürlülük edər.»[215]

5397. Imam Sadiq (ə): «Özündə zəlillik və həqarət tapanlardan başqa heç kim, təkəbbürlülük etməz və boynunu dartmaz.»[216]

### *1557. Təkəbbürün dərmanı.*

5398. Allahın Peyğəmbəri (s): «Kişinin sevinc və fəxrlə bir şeyi öz əlləri ilə ailəsi üçün aparmasını və bununla da təkəbbürü özündən uzaqlaşdırmasını necə də xoşlayıram.»[217]

5399. Allahın Peyğəmbəri (s): «Kim özü öz qoyununu sağsa və paltarını yamasa, ayaqqabısını tiksə, xidmətçisi ilə bir yemək yesə, malını bazardan (evə) gətirsə, şübhəsiz ki, təkəbbürdən təmizlənmişdir.»[218]

---

[209] Biharul-Ənvar, c. 69, səh. 399, hədis 91
[210] əl-Kafi, c. 2, səh. 310, hədis 9
[211] əl-Kafi, c. 8, səh. 128, hədis 98
[212] Biharul-Ənvar, c. 73, səh. 231, hədis 23
[213] Biharul-Ənvar, c. 73, səh. 232, hədis 25
[214] Biharul-Ənvar, c. 73, səh. 234, hədis 33
[215] Ğurərul-hikəm, hədis 9467
[216] əl-Kafi, c. 2, səh. 312, hədis 17
[217] Tənbihul-xəvatir, c. 1, səh. 201
[218] Kənzul-Ummal, hədis 7793

5400. Əbu Ummame: «Bir gün Peyğəmbər Bəqiyə tərəf yola düşdü. Həzrətin səhabələri də onun ardınca yollandılar. Peyğəmbər dayanıb onlara əmr etdi ki, irəli getsinlər. Özü isə onların ardınca hərəkət etdi. Səbəbini soruşduqda isə buyurdu: «Mən sizin ayaqqabılarınızın səsini eşitdim və hansısa bir təkəbbürün vücuduma yol tapmasından qorxdum.»[219]

5401. Imam Əli (ə): «Allah öz bəndələrini müxtəlif növ çətinliklərlə sınayır. Onları çətinliklə ibadət və bəndəliyə götürür, cürbəcür ağrılar və xoşagəlməz şeylərlə imtahan edir ki, təkəbbürü ürəklərindən çıxarsın və təvazökarlığı canlarına hopdursun. Eləcə də bütün bu sınaqları öz fəzlinə (və ehsanına) açılan qapılara çevirsin.»[220]

5402. Allahın Peyğəmbəri (s): «Allah imanı şirkdən (çirkinliklərindən) təmizlənmək, namazı isə təkəbbürü uzaqlaşdırmaq üçün vacib buyurmuşdur.»[221]

5403. Imam Həsən (ə): «Allahın böyüklüyünü bilən insanın özünü böyük sanması layiqli iş deyil. Çünki Allahın əzəmətini bilənlərin böyüklüyü təvazökar olmalarındadır. Allahın cəlalı və qüdrətindən agah insanların izzəti, zəlil olduqlarını bildirmələrindədir.»[222]

***1558. Təkəbbürün nəticələri.***

5404. Allahın Peyğəmbəri (s): «Təkəbbürlü olanları Allah alçaldar.»[223]

5405. Allahın Peyğəmbəri (s): «Tamah, təkəbbür və paxıllıq günahlara batmağın səbəbləridir.»[224].

5406. Imam Əli (ə): «Təkəbbürlü insan bəhrəsiz dostlardandır."[225]

5407. Imam Əli (ə): «Kim təkəbbürlü olsa, alim olmaz.»[226]

5408. Imam Əli (ə): «Kim özünü camaata böyük kimi göstərsə, xar olar.»[227]

5409. Imam Sadiq (ə): «Təkəbbürlü insan heç vaxt başqalarından (özü haqda) tərif və təqdir gözləməməlidir.»[228]

5410. Imam Kazim (ə): «Əkin daş üzərində deyil, torpaqda cücərdiyi kimi, hikmət də belədir; təvazökar insanın qəlbində cücərər, təkəbbürlü və boynunu dartanın qəlbində kök atmaz. Çünki Allah təvazökarlığı ağıl və bilik, təkəbbürü isə nadanlıq vasitəsi etmişdir. Məgər bilmirsənmi başını tavana vuranın başı yarılar, başını aşağı tutan isə tavanının kölgəsi və pənah altında olar? Eləcə də kim Allaha görə təvazökar olmasa Allah onu alçaldar, hər kim Allaha görə təvazökar olsa, Allah onu yuxarı qaldırar.»[229]

---

219 Kənzul-Ummal, hədis 8878
220 Nəhcül-Bəlağə, xütbə 192.
221 Nəhcül-Bəlağə, hikmət 252.
222 Biharul-Ənvar, c. 78, səh. 104, hədis 3
223 Əmali əs-Səduq, səh. 395, hədis 1
224 Nəhcül-Bəlağə, hikmət 371.
225 Ğurərul-hikəm, hədis 7464
226 Ğurərul-hikəm, hədis 10586
227 Biharul-Ənvar, c. 77, səh. 235, hədis 3
228 əl-Xisal, səh. 434, hədis 20
229 Tuhəful-uqul, səh. 396

***1559. Təkəbbürlülərin yolu.***

**Quran:**

«Cəhənnəm qapılarından içəri keçin və orada həmişəlik qalın. Həqiqətən də təkəbbürlülərin yeri necə də pisdir.»[230]

**Hədis:**

5411. Imam Sadiq (ə): «Cəhənnəmdə təkəbbürlülər üçün "Səqər" adlanan bir dərə var. Bu dərə özündə olan istinin yuksək hərarətindən Allaha şikayət edərək ona nəfəs çəkməyə icazə verməsini xahiş etdi. Sonra nəfəs çəkdi və (öz nəfəsinin istisi ilə) cəhənnəmi yandırdı.»[231]

ιooooooπ

[230] Nəhl, 29

[231] əl-Kafi, c. 2, səh. 310, hədis 10

**340**

# Kitab və yazı

***1560. Kitab və yazı.***

**Quran:**

"Nun. And olsun, qələmə və yazılanlara.»[232]

**Hədis:**

5412. Imam Əli (ə): «Kitablar alimlərin bostanlarıdır.»[233]

5413. Imam Əli (ə): «Kitab necə də gözəl natiqdir.»[234]

5414. Imam Əli (ə): «Kitablarla özünü sakitləşdirən heç bir sakitliyi əldən verməz.»[235]

***1561. Yazıçılıq və yazıçının şəxsiyyəti.***

5415. Imam Əli (ə): «Elçin sənin tərcümanın, məktubun isə ən uca səslə danışan sözçündür.»[236]

5416. Imam Əli (ə): «Insanın yazısı (məktubu) onun ağlının göstəricisi və fəzilətinin dəlilidir.»[237]

5417. Imam Əli (ə): «Alimlərin ağılları, onların qələmlərinin uclarındadır.» [238]

***1562. Bilikləri yazıya köçürməyə həvəsləndirmək.***

5418. Allahın Peyğəmbəri (s): «Elmi, yazmaqla bəndə salın.»[239]

5419. Allahın Peyğəmbəri (s): «Bilikləri, alimlər ölməmiş yazıya köçürün. Çünki alimlər öləndə (onların) bilikləri də gedir.»[240]

5420. Imam Sadiq (ə): «Yazın, çünki yazmayınca əzbərləmirsiniz.»[241]

5421. Imam Sadiq (ə): «Ürək yazmaqla sakitləşər.»[242]

---

232 Qələm, 1
233 Ğurərul-hikəm, hədis 991
234 Ğurərul-hikəm, hədis 9948
235 Ğurərul-hikəm, hədis 8126
236 Nəhcül-Bəlağə, hikmət 301.
237 Ğurərul-hikəm, hədis 7260
238 Ğurərul-hikəm, hədis 6339
239 Kənzul-Ummal, hədis 29332
240 Kənzul-Ummal, hədis 28733
241 əl-Kafi, c. 1, səh. 52, hədis 9
242 əl-Kafi, c. 1, səh. 52, hədis8

***1563. Yazmağın savabı.***

5422. Allahın Peyğəmbəri (s): «Mömin özündən bircə vərəq belə elm yazılmış yazı qoyub gedərsə, qiyamət günündə həmin vərəq onunla od arasında pərdəyə çevrilər. Allah-taala onda yazılmış hər hərfin müqabilində dünyadan yeddi dəfə böyük olan bir şəhər verər.»[243]

5423. Allahın Peyğəmbəri (s): «Kim mənim bir hədisimi və elmimi yazsa, həmin hədis və elm qalıncaya qədər onunçün əcr yazılar.»[244]

***1564. Yazı qaydaları.***

5424. Allahın Peyğəmbəri (s): «Bismillahir rəhmanir rəhim hər yazının başlanğıcıdır.»[245]

5425. Imam Sadiq (ə): «Bismillahir rəhmanir rəhimi ötürmə! Hətta bir şerdən (yazmaqdan) əvvəl olmuş olsa belə.»[246]

***1565 . Məktub yazmaq.***

5426. Allahın Peyğəmbəri (s): «Məktuba cavab verməк, salama cavab vermək qədər (vəzifə və) haqdır.»[247]

5427. Imam Sadiq (ə): «Qardaşlar arasında ünsiyyət, birlikdə olanda get-gəl, səfərlərdə olanda isə məktub yazmaqladır.»[248]

5428. Imam Sadiq (ə): «Məktuba cavab vermək, salama cavab vermək qədər vacibdir.»[249]

ιooooooπ

[243] Əmali əs-Səduq, səh. 40, hədis 3
[244] Kənzul-Ummal, hədis 28951
[245] əd-Durrul-Mənssur, c. 1, səh. 27
[246] əl-Kafi, c. 2, səh. 672, hədis 1
[247] Müstədrəkul-vəsail, c. 8, səh. 302, hədis 9501
[248] Tuhəful-uqul, səh. 358
[249] əl-Kafi, c. 2, səh. 670, hədis 2

## 341

# Sirr saxlamaq

***1566. Islam inqilabının sirrlərini gizli saxlamağın zərurəti.***

5429. Imam Əli (ə): «Sakitlik ağıldır. Sükut sağlığın səbəbi, sirr saxlamaq isə xoşbəxtliyin bir hissəsidir.»[250]

5430. Imam Səccad (ə): «Allaha and olsun, şiələrin bu iki xislətinin əvəzini çıxmaq üçün öz bazumun ətini fəda etməyə hazıram: tələskənlikləri və sirr saxlayan olmamaları.»[251]

5431. Imam Baqir (ə): «Allaha and olsun, mənimçün dostlarımın ən sevimlisi ən təqvalıları, ən fəqihi isə hədislərimizin daha çox sirlərini saxlayandır.[252]

5432. Imam Sadiq (ə): «Həqiqətən, pərdə və niqab arxasında olmaları barədə, bizim əhvalatımızdan əhd peyman alınmışdır. Kim bizim ziyanımıza pərdələri yırtsa, Allah onu xar edər.»[253]

5433. Imam Sadiq (ə): «Bizim sirlərimizi gizli saxlamaq Allah yolunda cihaddır.»[254]

5434. Imam Sadiq (ə): «Hədisimizi bizim ziyanımıza açıqlayan kimsə, haqqımızı inkar edən kimidir.»[255]

5435. Imam Sadiq (ə): «Bizim hədislərimizi faş edən kimsə, bizi səhvən deyil, qəsdən öldürmüş kimidir.»[256]

5436. Imam Sadiq (ə): «(Bizim) Sirləri faş edən kimsə, şəkk edəndir (və zəif əqidədədir). Onu hədis əhli olmayanların yanında danışan isə kafirdir.»[257]

5437. Imam Sadiq (ə) *(«Bunun səbəbi Allahın ayələrinə küfr etməyiniz və peyğəmbərləri nahaqdan öldürməyinizdir»[258] ayəsi barədə):* «Allaha and olsun, onları öz əlləri ilə öldürmədilər, qılıncları ilə vurmadılar. Onların sözlərini eşidib faş etdilər və nəticədə peyğəmbərlər tutularaq öldürüldülər.»[259]

5438. Əbu Bəsir: «Çox hədis danışmaq barədə Imam Sadiqdən (ə) soruşdum. Buyurdu: «Nə vaxtsa bizim hədislərdən nəyisə gizlətmisənmi?» Mən

---

[250] Tuhəful-uqul, səh. 223
[251] əl-Kafi, c. 2, səh. 221, hədis 1
[252] əl-Kafi, c. 2, səh. 223, hədis 7
[253] əl-Kafi, c. 2, səh. 226, hədis 15
[254] Biharul-Ənvar, c. 75, səh. 70, hədis 7
[255] əl-Kafi, c. 2, səh. 370, hədis 2
[256] əl-Kafi, c. 2, səh. 370, hədis 4
[257] əl-Kafi, c.2, səh. 371, hədis 10
[258] Bəqərə, 61
[259] əl-Kafi, c. 2, səh. 371, hədis 6

yadıma salmağa çalışdım. Həzrət məni bu halətdə gördükdə buyurdu: «Öz dostlarına dediklərinin eybi yoxdur. Ifşa etmək odur ki, hədisi dost olmayanlara deyəsən.»[260]

***1567. Sirr saxlayan bəndənin təqdir olunması.***

5439. Imam Əli (ə): «Hörmət edilib, sayılan hər adsız–ünvansız bəndənin xoşa halına! O, camaatı tanıyır, camaat isə onu tanımır. Allah onu Rəbbindən razı kimi tanıyır (Allahdan razı bəndədir.) Belə insanlar doğru yolun çıraqlarıdır.»[261]

5440. Imam Əli (ə): «Məndən sonra qaranlıq, kor və şübhəli fitnələr qopacaq və onlardan yalnız adsız-sansız bəndələr canlarını qurtaracaqlar.» Ərz etdilər: «Ey Əmirəl-möminin! Adsız-sansız bəndələr kimlərdir?» Buyurdu: «Daxilində nə olduğunu camaatın bilmədiyi kimsələr.»[262]

ιoooooπ

---

[260] əl-Məhasin, c. 1, səh. 403, hədis 910
[261] əl-Kafi, c. 2, səh. 225, hədis 12
[262] Məaniul Əxbar, səh. 166, hədis 1

# 342

# Yalan

***1568. Yalan***

5441. Allahın Peyğəmbəri (s): «Ən pis sələm yalandır.»[263]

5442. Allahın Peyğəmbəri (s): «Bəndə yalan danışanda yaratdığı üfunətin iyindən mələk bir mil aralı durar.»[264]

5443. Allahın Peyğəmbəri (s): «Yalan, nifaqın qapılarından biridir.»[265]

5444. Allahın Peyğəmbəri (s): «Yalan danışan, vücudunda olan həqarətdən qeyri bir səbəbdən yalan danışmaz. Məsxərəyə qoyulmanın kökü yalançılara etimad etməkdir.»[266]

5445. Imam Əli (ə): «Yalan xəyanətdir.»[267]

5446. Imam Əli (ə): «Sözlərin ən pisi yalandır.»[268]

5447. Imam Əli (ə): «Iman (nişanəsi) budur ki, sənin ziyanına olsa belə doğru danışmağı, xeyrinə olsa da yalan danışmaqdan üstün tutasan.»[269]

5448. Imam Əli (ə): «Yalançı həqir və zardır.»[270]

5449. Imam Əli (ə): «Heç bir pislik yalan qədər pis deyil.»[271]

5450. Imam Kazim (ə) *(Hüşuma nəsihətindən):*–«Ağıllı insan, mənafeyi tələb etsə də, yalan danışmaz.»[272]

***1569. Yalan və iman.***

**Quran:**

«Yalnız Allahın ayələrinə imanları olmayanlar yalan uydurdular. Onların özləri yalançılardır.»[273]

5451. Imam Əli (ə): «Yalandan kənar olun. Çünki yalan imandan kənardır. Doğru danışan nicat və kəramətin sahilində, yalançı isə uçurum və zəlilliyin astanasındadır.»[274]

---

[263] Biharul-Ənvar, c. 72, səh. 263, hədis 47
[264] Nəhcül-Bəlağənin şərhi, c. 6, səh. 357
[265] Kənzul-Ummal, hədis 8212
[266] Biharul-Ənvar, c. 72, səh. 262, hədis 45
[267] Biharul-Ənvar, c. 72, səh. 261, hədis 37
[268] Nəhcül-Bəlağə, xütbə 84
[269] Nəhcül-Bəlağə, hikmət 458.
[270] Ğurərul-hikəm, hədis 339
[271] Biharul-Ənvar, c. 72, səh. 259, hədis 23
[272] Biharul-Ənvar, c. 78, səh. 305, hədis 1
[273] Nəhl, 105
[274] Nəhcül-Bəlağə, xütbə 86.

5452. Imam Baqir (ə): «Həqiqətən, yalan imanı viran qoyar.»[275]

5453. Həsən ibn Məhbub: «Imam Sadiqdən (ə) soruşdum: «Möminin xəsis olması mümkündürmü?» Buyurdu: «Bəli.» Soruşdum: «Qorxaq olması mümkündürmü?» Buyurdu: «Bəli.» Soruşdum: «Yalançı da ola bilərmi?» Buyurdu: «Yox, xain də olmaz.» Sonra buyurdu: «Mömin hər bir xüsusiyyəti qazanar, yalnız xəyanət və yalandan başqa.»[276]

***1570. Yalan hər pisliyin açarıdır.***

5454. Allahın Peyğəmbəri (s): «Yalan nadürüstlüyə və azğınlığa çəkər. Nadürüstlük və azğınlıq isə oda aparar.»[277]

5455. Imam Baqir (ə): «Allah pislik üçün qıfıllar yaratmışdır və o qıfılların açarını şərabda qərar vermişdir. Yalan şərabdan daha pisdir.»[278]

5456. Imam Əskəri (ə): «(Bütün) Pisliklər bir evdə yığışıb və onun açarı da yalandır.»[279]

***1571. Ciddi yalan və zarafatı tərk etməyə göstəriş.***

5457. Allahın Peyğəmbəri (s): «Yalan –istər ciddi olsun, istərsə də zarafatla– doğru deyil. Həmçinin, kişinin öz övladına və'd verib onu yerinə yetirməməsi də düzgün deyil. Həqiqətən, doğru danışmaq yaxşılığa aparar, yaxşılıq isə cənnətə yönəldər.»[280]

5458. Allahın Peyğəmbəri (s): «Vay olsun, camaatı güldürmək üçün yalan danışanın halına! Vay olsun, vay olsun ona!.»[281]

5459. Imam Əli (ə): «Yalan, zarafat və onun ciddisini tərk etməyən heç bir bəndə imanın dadını dadmadı.»[282]

5460. Imam Səccad (ə) *(Öz övladlarına buyurardı):*–«Yalanın kiçiyindən və böyüyündən, ciddi və ya zarafatla deyiləninindən çəkinin. Çünki insan xırda yalanlar danışsa, böyük yalanlar söyləməyə də cəsarətlənər.»[283]

***1572. Kiçik yalan.***

5461. Allahın Peyğəmbəri (s): «Yalançılıq üçün sənə hər eşitdiyini danışmaq yetər.»[284]

5462. Allahın Peyğəmbəri (s) *(«Bizlərdən birimiz nəyəsə meylimiz olsa və istəmədiyini desə, bu yalan sayılırmı?» deyə soruşan Əsma bint Yəzidə*

---

[275] Biharul-Ənvar, c. 72, səh. 247, hədis 8
[276] Biharul-Ənvar, c. 75, səh. 172, hədis 11
[277] Kənzul-Ummal, hədis 8217
[278] Biharul-Ənvar, c. 72, səh. 236, hədis 3
[279] əd-Durrətul-bahirə, səh. 43
[280] Kənzul-Ummal, hədis 8217
[281] Kənzul-Ummal, hədis 8215
[282] Biharul-Ənvar, c. 72, səh. 249, hədis14
[283] Biharul-Ənvar, c. 72, səh. 235, hədis 2
[284] Tənbihul-Xəvatir, c. 2, səh. 122

*cavabından):* «Yalan, elə yalan olaraq yazılır. Hətta kiçik yalan olsa belə, kiçik yalan kimi yazılır.»[285]

5463. Abdulla ibn Amir: «Bir gün Allahın Peyğəmbəri (s) bizim evimizdə oturmuşdu. Anam məni çağırıb dedi: «Gəl, sənə bir şey verim.» Allahın Peyğəmbəri ona buyurdu: «Ona nə vermək istəyirsən?» Ərz etdi: «Ona bir xurma vermək istəyirəm.» Allahın Peyğəmbəri (s) anama buyurdu: «Bil ki, ona heç nə verməsən, sənin ayağına yalan yazılacaq.»[286]

### *1573. Yalanın nəticəsi.*

**Quran:**

«Allah israfçını və yalan danışanı doğru yola yönəltməz.»[287]

«Nəticədə, Allaha verdikləri və'də xilaf çıxmalarının və danışdıqları yalanların cəzası olaraq Ona qovuşacaqları günə qədər ürəklərində nifaqın təsirlərini saxlayacaqdır.»[288]

**Hədis:**

5464. Allahın Peyğəmbəri (s): «Yalan üzüqaralıq gətirər.»[289]

5465. Allahın Peyğəmbəri (s): «Yalan ruzini azaldar.»[290]

5466. Imam Əli (ə): «Yalanın nəticəsi dünyada xarlıq, axirətdə isə əzabdır.»[291]

5467. Imam Əli (ə): «Çox yalan danışmaq dini puç edər, günahı isə böyüdər.»[292]

5468. Imam Əli (ə): «Yalan nifaqla nəticələnər.»[293]

5469. Imam Əli (ə): «Yalan danışan kimsə öz mürvətini puç edər.»[294]

5470. Imam Əli (ə): «Yalançı kimi tanınana etimad azalar, yalan deməkdən çəkinənin sözlərinə inanılar.»[295]

5471. Imam Əli (ə): «Yalançı öz yalanları ilə üç şeyi qazanar: özünə qarşı Allahın qəzəbi, camaatın təhqir dolu baxışlarını və mələklərin ona qarşı düşmənçiliyini.»[296]

5472. Imam Əli (ə): «Yalana aludə olmaq yoxsulluq gətirər.»[297]

5473. Imam Əli (ə): «Yalan danışma ki, böyüklüyünü itirərsən.»[298]

---

[285] Ət-Tərğib vət-Tərhib, c. 3, səh. 597, hədis 32
[286] Ət-Tərğib vət-Tərhib, c. 3, səh. 598, hədis 34
[287] Ğafir, 28
[288] Tovbə, 77
[289] Ət-Tərğib vət-Tərhib, c. 3, səh. 596, hədis 28
[290] Ət-Tərğib vət-Tərhib, c. 3, səh. 596, hədis 29
[291] Ğurərul-hikəm, hədis 4640
[292] Ğurərul-hikəm, hədis 7123
[293] Ğurərul-hikəm, hədis 1181
[294] Ğurərul-hikəm, hədis 7794
[295] Ğurərul-hikəm, hədis (8888+9181)
[296] Ğurərul-hikəm, hədis 11039
[297] Biharul-Ənvar, c. 72, səh. 261, hədis 36
[298] Biharul-Ənvar, c. 72, səh. 192, hədis 8

5474. Imam Əli (ə): «Insan yalan danışar və ona görə də gecə namazından məhrum olar.»[299]

5475. Imam Əli (ə): «Allahın yalançıların əleyhinə etdiyi köməklərdən biri də unutqanlıqdır.[300]»[301]

***1574. Ən murdar yalan.***

**Quran:**

«Camaatı nadanlıqlarına görə azdırmaq üçün Allah barədə yalan sözlər danışandan daha zalım kimdir?»[302]

«Allah barədə yalan danışanları qiyamət günündə üzüqara görərsən. Cəhənnəm təkəbbürlülərin yeri deyilmi?» [303]

**Hədis:**

5476. Imam Əli (ə):«Məndən sonra, tezliklə ruzigarınız elə olacaq ki, həmin zəmanədə heç nə haqq qədər gizlin, batil qədər aşkar və Allah, peyğəmbər haqda yalan danışmaq qədər geniş yayılmış bir şey olmayacaq». [304]

5477. Imam Əli (ə): «Allaha and olsun! Səmadan yerə çırpılmağım və ya quşun məni oğurlaması Allahın Peyğəmbəri (s) haqda yalan danışmaqdan mənə daha xoşdur.»[305]

5478. Imam Sadiq (ə): «Bir yalan oruc tutanın orucunu batil edər.» Əbu Bəsir deyir: «Ərz etdim ki, bizlərdən hansı belə iş görmür? (gün ərzində yalan danışmır)» Həzrət buyurdu: «Məqsəd sənin fikirləşdiyin kimi deyil. Burada Allah, peyğəmbər və imamlar (salavatullah əleyh və əleyhim) haqda yalan demək nəzərdə tutulur.»[306]

5479. Imam Sadiq (ə): «Allah və onun peyğəmbəri haqda yalan danışmaq böyük günahlardandır.»[307]

***1575. Yalana icazə verilən hallar.***

5480. Imam Sadiq (ə): «Iki haldan başqa yalan pislənmişdir: Zalımların şərini uzaqlaşdırmaq və camaatı barışdırmaq.»[308]

5481. Imam Sadiq (ə): «Söz üç növdür: doğru, yalan və camaatı barışdıran.»[309]

---

[299] Biharul-Ənvar, c. 72, səh. 260, hədis 29
[300] «Yalanчынын yaddaşы olmaz» ifadəsi də bu mə‘nada işlənir.
[301] əl-Kafi, c. 2, səh. 341, hədis 15
[302] Ə‘nam, 144
[303] Zumər, 60
[304] Nəhcül-Bəlağə, xütbə 147
[305] Qurbul-əsnad, səh. 133, hədis 466
[306] əl-Kafi, c. 2, səh. 340, hədis 9
[307] əl-Kafi, c. 2, səh. 339, hədis 5
[308] Biharul-Ənvar, c. 72, səh. 263, hədis 48
[309] əl-Kafi, c. 2, səh. 341, hədis 16

5482. Imam Sadiq (ə): «(müsəlmanların münasibətlərini) Islah edən yalançı sayılmaz.»[310]

***1576. Toriyə.***

**Quran:**

«Sonra ulduzlara baxıb dedi: Mən naxoşlamışam.»[311]

«Dedi: (yox) Böyükləri bu işi görüb. Əgər danışa bilirlərsə, onlardan soruşun.»[312]

**Hədis:**

5483. Allahın Peyğəmbəri (s): «Həqiqətən, üstüörtülü sözlərdə elə zərifliklər var ki, ağıllı insanı yalan danışmaqdan azad edər.»[313]

5484. Imam Sadiq (ə) *(«Bir nəfər, bir kişinin evinə gəlib onu çağırır. Ancaq həmin kişi kənizinə deyir: De ki, burada yoxdur.» Bunun hökmü necədir? deyə soruşan Abdulla ibn Bukeyrə cavabından):* «Eybi yoxdur. Bu yalan deyil.»[314]

***1577. Yalana qulaq asmaq.***

**Quran:**

«Bəzi yəhudilər qulaq asarlar ki, səni təkzib etmək üçün (bəhanə) tapsınlar.»[315]

**Hədis:**

5485. Imam Əli (ə): «Azğınları öz qulaqlarınıza hakim etməyin.»[316]

5486. Imam Sadiq (ə) *(«Başqalarına istinadən və rəvayət danışanların sözlərinə qulaq asmaq rəvadırmı?» sualına verdiyi cavabdan):* «Kim danışana qulaq asarsa, ona bəndəlik etmiş olar. Əgər natiq Allahdan danışarsa (eşidən) Allaha ibadət etmişdir. Danışan iblisin sözünü danışarsa, o (eşidən) iblisə ibadət etmişdir.»[317]

---

[310] əl-Kafi, c. 2, səh. 210, hədis 5
[311] Saffat, 88-99
[312] Ənbiya, 63
[313] Kənzul-Ummal, hədis 8253
[314] Müstətrəfatul Sərair, səh. 137, hədis 1
[315] Maidə, 41
[316] Nəhcül-Bəlağə, məktub 10
[317] Biharul-Ənvar, c. 72, səh. 264, hədis 1

ιoooooοπ

**343**

# Böyüklük

***1578. Böyüklük.***

5487. Allahın Peyğəmbəri (s): «Insanın böyüklüyü onun dinindədir.»[318]

5488. Imam Əli (ə): «Hər kim özünü kəramətli bilsə, nəfsani istəkləri nəzərində alçalar.»[319]

5489. Imam Əli (ə): «Əhd-peymanlara vəfalı olmaq böyüklükdəndir.»[320]

5490. Imam Əli (ə): «Özünü böyüklüyə məcbur etmək necə də gözəl xüsusiyyətdir.»[321]

5491. Imam Həsən (ə): «Böyüklük könüllü olaraq yaxşılıq etmək, verməyi istəməyindən daha çox olmaqdır.»[322]

5492. Imam Sadiq (ə): «Üç şey insanın böyüklüyünün göstəricisidir: gözəl əxlaq, qəzəbini udmaq və gözü saxlamaq.»[323]

***1579. Böyük insan.***

5493. Allahın Peyğəmbəri (s): «Allah böyükdür və böyüklüyü sevər.»[324]

5494. Imam Əli (ə): «Böyük odur ki, öz simasının kəramətini odun xarlığından qorusun.»[325]

5495. Imam Əli (ə): «Böyük insan özünü bilməməzliyə vurar və (üzdə) aldanar.»[326]

5496. Imam Əli (ə): «Böyük insan və'd verərsə, ona vəfalı olar, kimsəni qorxudanda isə keçər.»[327]

5497. Imam Səccad (ə): «Kəramətli insan öz bəxşişi ilə öyünər, ləim isə öz var-dövlətilə nazlanar.»[328]

***1580. Böyük insanların əxlaqından.***

**Quran:**

---

318 Musnəd Ibn Hənbəl, c. 3, səh. 292, hədis 8782
319 Biharul-Ənvar, c. 78, səh. 13, hədis 71
320 Biharul-Ənvar, c. 77, səh. 209, hədis 1
321 Biharul-Ənvar, c. 77, səh. 211, hədis 1
322 Biharul-Ənvar, c. 44, səh. 89, hədis 2
323 Tuhəful-uqul, səh. 319
324 Kənzul-Ummal, hədis 15991
325 Biharul-Ənvar, c. 78, səh. 82, hədis 82
326 Ğurərul-Hikəm, hədis 446
327 Ğurərul-Hikəm, hədis 1528
328 əd-Durrətul-bahirə, səh. 27

«O şəxslər ki, yalan yerə şahidlik etməz, faydasız, boş şeylə rastlaşdıqda böyüklüklə onun yanından keçərlər.»[329]

5498. Allahın Peyğəmbəri (s) *(«Insanların ən istəklisi olmaq istəyirəm» deyən kişiyə cavabından):–*«Heç vaxt Allahdan camaata şikayət etmə ki, insanların ən sevimlisi olasan.»[330]

5499. Imam Əli (ə): «Ixlas və birüzlülük böyük insanların, xalis olmamaq və xəyanət isə alçaq insanların xislətindəndir.»[331]

5500. Imam Əli (ə): «Əfv və güzəştdə tələskənlik böyük insanların, intiqama tələsmək isə alçaqların xislətindəndir.»[332]

5501. Imam Əli (ə): «Yaxşı əməllərə və ehsana tələsmək böyük insanlara məxsusdur.»[333]

5502. Imam Əli (ə): «Böyük insanların yolu bağışlamaqdır.»[334]

5503. Imam Əli (ə): «Böyük insanların cəzası alçaqların güzəştindən yaxşıdır.»[335]

5504. Imam Əli (ə): «Insanların böyüklüyə və bağışlanmağa ən layiqlisi odur ki, bağışlayan və kərəm sahibi insanlar onunla tanınsın.»[336]

5505. Imam Əli (ə): «Pisliyə yaxşılıqla cavab verməyən böyük insanlardan deyil.»[337]

5506. Imam Həsən (ə): «Öz yaxşılıqlarını sayan, öz bağışlanmağını aradan aparmışdır.»[338]

### *1581. Kərim insanlara hörmətə həvəsləndirmək.*

5507. Allahın Peyğəmbəri (s): «Hər bir gövmün böyüklərini əziz tutun.»[339]

### *1582. Əziz tutmaq.*

5508. Allahın Peyğəmbəri (s) *(Balınca söykənmişdi və Salman içəri daxil oldu. Peyğəmbər balıncı ona verib buyurdu):* «Ey Salman! Elə bir müsəlman yoxdur ki, müsəlman qardaşını görməyə getsin və ev sahibi ona hörmət olaraq balınc qoyduqda, Allah ev sahibini bağışlamasın.»[340]

5509. Allahın Peyğəmbəri (s): «Üç nəfərə hörmət qoymaq Allahın əzəmətinə hörmət qoymaqdır: saç-saqqalını Islamın yolunda ağardanlara,

---

[329] Furqan, 72
[330] Kənzul-Ummal, hədis 44154
[331] Ğurərul-Hikəm, hədis 1298, 1299
[332] Ğurərul-Hikəm, hədis 1566, 1567
[333] Ğurərul-Hikəm, hədis 7353
[334] Ğurərul-Hikəm, hədis 5558
[335] Ğurərul-Hikəm, hədis 6324
[336] Nəhcül-Bəlağə, hikmət 436
[337] Ğurərul-Hikəm, hədis 8958
[338] Biharul-Ənvar, c. 78, səh. 113, hədis 7
[339] Biharul-Ənvar, c. 46, səh. 15, hədis 33
[340] Biharul-Ənvar, c. 16, səh. 235, hədis 35

ədalətli rəhbərə və nə ifrata varan, nə də Qurandan (ona əməl etməkdən) uzaqlaşan hafizi Qurana.»[341]

5510. Allahın Peyğəmbəri (s): «Öz qardaşına hörmət qoyan, əslində Allahına hörmət qoymuşdur.»[342]

5511. Allahın Peyğəmbəri (s): «Kimsə sizinlə görüşmək üçün içəri daxil olanda ona hörmət edin.»[343]

5512. Allahın Peyğəmbəri (s): «Allaha və qiyamət gününə inanan, öz oturub-durduğu insana hörmət etməlidir.»[344]

5513. Allahın Peyğəmbəri (s): «Kimsə təmənnasız və qorxusuz bir kişinin (öz atına minməyi üçün) atının üzəngisini tutarsa, o bağışlanar.»[345]

5514. Allahın Peyğəmbəri (s): «Məclisə daxil olan bir növ çaşqınlığa düçar olur. Belə isə ona xoşgəldin deyib qarşılayın.»[346]

5515. Allahın Peyğəmbəri (s): «Yetimi əzizlə və qonşuna yaxşılıq et.»[347]

5516. Allahın Peyğəmbəri (s): «Öz övladlarınızı əzizləyin və onlara yaxşı tərbiyə verin.»[348]

***1583. Izzət və ehtiramın rədd olunması.***

5517. Allahın Peyğəmbəri (s): «Sizlərdən birinə ehtiram qoyulduqda onu rədd etməyin. Çünki hörmət və itaəti rədd etmək uzunqulağın işidir.»[349]

5518. Allahın Peyğəmbəri (s): «Izzət və ehtiramı qəbul edin. Ən yaxşı ehtiram ətirdir. Həm ən yüngüldür, həm də ən ətirli.»[350]

5519. Allahın Peyğəmbəri (s): «Insanın öz müsəlman qardaşına olan ehtiramından biri, onun hədiyyəsini qəbul etməsi, ya da əlində olan şeydən ona təklif və ya peşkəş etməsi, özünü zəhmətə salmasıdır.»[351]

5520. Imam Hüseyn (ə): «Sənin verdiyini qəbul edən, bağışlanmaqda sənə kömək etmişdir.»[352]

***1584. Insanların ən əzizi.***

5521. Allahın Peyğəmbəri (s): «Məqsədim özünü öymək deyil. Ancaq mən öz Allahım üçün Adəm övladlarının ən əziziyəm.»[353]

---

[341] Biharul-Ənvar, c. 92, səh. 184, hədis 21
[342] Kənzul-Ummal, hədis 25488
[343] Kənzul-Ummal, hədis 25485
[344] Kənzul-Ummal, hədis 25490
[345] Kənzul-Ummal, hədis 25501
[346] Kənzul-Ummal, hədis 25499
[347] Musnəd Ibn Hənbəl, c. 5, səh. 281, hədis 15500
[348] Sünən Ibn Macə, hədis 3671
[349] Qurbul-əsnad, səh. 92, hədis 307
[350] Biharul-Ənvar, c. 77, səh. 164, hədis 190
[351] Nəvadir ər-Ravəndi, səh.11
[352] əd-Durrətul-bahirə, səh. 24
[353] Sünən ət-Tirmizi, hədis 3610

5522. Allahın Peyğəmbəri (s) *(«Insanların ən əzizi olmaq istəyirəm» deyən kişiyə cavabından):* «Allahdan insanlara şikayət etmə ki, insanların ən əzizi olasan.»[354]

5523. Imam Əli (ə): «Təqva kimi alicənablıq və kəramət yoxdur.»[355]

***1585. Camaata hörmət, özünə hörmətdir.***

5524. Imam Əli (ə): «Kiməsə hörmət qoysan, əslində özünə hörmət etmiş, heysiyyatını onunla bəzəmisən. Buna görə də özünçün etdiyin hörmət və yaxşılıqdan ötrü başqalarından təşəkkür gözləmə.»[356]

5525. Imam Əli (ə): «Özünü yaxşı işlər görməyə və (camaatın) borc yükünü çiyninə çəkməyə öyrət ki, nəfsin şərafətini tapasan.»[357]

ıooooooπ

[354] Kənzul-Ummal, hədis 44154
[355] Nəhcül-Bəlağə, hikmət 113
[356] Ğurərul-Hikəm, hədis 3542
[357] Ğurərul-Hikəm, hədis 6232

# 344

# Qazanc

***1586. Ən təmiz peşə.***

5526. Allahın Peyğəmbəri (s): «Ən gözəl sənət elə tacirlikdir ki, söz danışanda yalan deməsinlər, onlara bir əmanət tapşırılanda xəyanət etməsinlər, və'd verdikdə və'dlərinə xilaf çıxmasınlar, bir şeyi alanda onu pisləməsinlər, bir şeyi satanda onu tərifləyib təbliğ etməsinlər, borclu olduqda (öz borcunu almaq üçün) təzyiq göstərməsinlər.»[358]

5527. Allahın Peyğəmbəri (s): «Müsəlmanın ən pak qazancı, Allah yolunda atdığı oxdur.»[359]

***1578. Əlinin zəhməti ilə qazanmağa təşviq.***

5528. Davud (ə) *(Bir pinaçıylə rastlaşdıqda):* «Ey kişi! Işlə və ye. Çünki Allah işləyib çörək yeyəni sevər, yeyib işləməyni isə sevməz.»[360]

5529. Allahın Peyğəmbəri (s): «Heç vaxt heç kim, əlinin zəhməti ilə olan yemək qədər ləzzətli heç nə yeməmişdir. Allahın Peyğəmbəri Davud öz əlinin zəhmətinin çörəyini yemişdir.»[361]

5530. Allahın Peyğəmbəri (s): «Ən yaxşı qazanc, öz işində sədaqətli olan fəhlənin qazancıdır.»[362]

5531. «Mən la yəhzəuhul fəqih» «Imam Əli (ə) günortanın qızğın vaxtında ehtiyacı olmasa da, işləmək üçün evdən bayıra çıxardı. Səbəbi bu idi ki, Allahın, onun halal ruzi qazanmaq üçün zəhmət çəkdiyini görməsini istəyirdi.»[363]

5532. Imam Sadiq (ə): «Əmirəl-möminin öz əlinin zəhmətinin qazancı ilə min qulu alıb azad etmişdir.»[364]

5533. Fəzl ibn Əbiqürrə: «Bağda işləyərkən Imam Sadiqin (ə) yanına gəldim və dedim: «Allah bizi sizə fəda etsin. Icazə verin, biz sizin üçün işləyək və ya qulluqçular işləsin.» Həzrət buyurdu: «Yox, məni öz halıma buraxın. Çünki mənim öz əllərimlə işləyib zəhmətimlə halal ruzi qazanmağımı Allahın görməsini istəyirəm.»[365]

***1588. Pislənmiş peşələr.***

---

[358] Kənzul-Ummal, hədis 9340, 9341
[359] Kənzul-Ummal, hədis 10516
[360] Tənbihul-xəvatir, c. 1, səh. 42
[361] Kənzul-Ummal, hədis 9223
[362] Camiul-əhadis, səh. 76
[363] Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 163, hədis 3596
[364] Təhzibul-əhkam, c. 6, səh. 326, hədis 895
[365] Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 163, hədis 3595

5534. «Biharul-Ənvar»: Bir kişi Allahın Peyğəmbərinə ərz etdi: «Mən bu övladıma savad vermişəm. Indi onu hansı sənətə qoyum?» Həzrət buyurdu: «Allah atana rəhmət etsin. Onu istədiyin hər bir sənətə qoy, ancaq bu beş dəstəyə tapşırma: zərgər, qəssab, səyya, buğdasatan və qulsatan.»

Kişi dedi: «Ey Allahın Peyğəmbəri səyya kimdir?» Buyurdu: «Kəfən satandır və mənim ümmətimin ölümünü urzulayır. Ancaq, mən ümmətimin yeni doğulmuş bir körpəsini, günəşin üstünə şəfəq saçdığı hər bir şeydən daha çox sevirəm. Zərgər isə mənim ümmətimi aldatmaq fikrində olar. Qəssab o qədər heyvan kəsər ki, qəlbində rəhm qalmaz. Buğdasatan, ümmətimin ərzağına möhtəkirlik edər. Əgər oğru kimi Allahın görüşünə getsə, bu qırx gün camaatın ərzağı ilə möhtəkirlik edən kimi getməkdən daha yaxşıdır. Qulsatana gəldikdə isə, Cəbrayıl (ə) mənim yanıma gəlib dedi: «Ey Məhəmməd! Sənin ümmətinin ən pisləri, insan alqı-satqısı ilə məşğul olanlardır.»[366]

ıoooooπ

[366] Biharul-Ənvar, c. 103, səh. 77, hədis 1

## 345

# Tənbəllik

***1589. Tənbəllik.***

5535. Imam Əli (ə): «Uğurun afəti tənbəllikdir.» [367]

5536. Imam Əli (ə): «Mömin qalası olanlara rəğbət göstərər, gedəsi şeylərdən isə üz döndərər. Tənbəllikdən uzaq, həmişə canlı və çalışqandır.» [368]

5537. Imam Əli (ə): «Tənbəllik axirəti puç edər.»[369]

5538. Imam Əli (ə): «Kim süstlüyə tabe olsa, haqqını puç edər.»[370]

5539. Imam Əli (ə): «Tənbəllik süstlükdən törəyər.»[371]

5540. Imam Əli (ə): «Əzm və iradə ilə süstlüyə qarşı mübarizəyə çıxın.»[372]

5541. Imam Əli (ə): «Işi gecikdirmək tənbəlliyin nişanəsidir.»[373]

5542. Imam Baqir (ə): «Tənbəllik dinə və dünyaya ziyan vurar.»[374]

5543. Imam Baqir (ə): «Mən dünya işlərində tənbəllik edənə və ya edənlərə nifrət edirəm. Dünyasının işlərində tənbəl olan, axirət işlərində ondan da tənbəl olar.»[375]

5544. Imam Sadiq (ə): «Işin düşməni tənbəllikdir.»[376]

5545. Imam Sadiq (ə) *(Öz övladlarından birinə):–*«Tənbəllikdən və hövsələsizlikdən çəkin. Çünki bu iki sifət səni dünya və axirətdən bəhrəsiz qoyar.»[377]

ιooooooπ

---

[367] Ğurərul-Hikəm, hədis 3968
[368] Biharul-Ənvar, c. 78, səh. 26, hədis 92
[369] Müstədrəkul-vəsail, c. 13, səh. 45, hədis 14695
[370] Nəhcül-Bəlağənin şərhi, c. 19, səh. 70
[371] Ğurərul-Hikəm, hədis 9284
[372] Ğurərul-Hikəm, hədis 5927
[373] Ğurərul-Hikəm, hədis 4471
[374] Biharul-Ənvar, c. 78, səh. 180, hədis 64
[375] əl-Kafi, c. 5, səh. 85, hədis 4
[376] əl-Kafi, c. 5, səh.85, hədis 1
[377] əl-Kafi, c. 5, səh.85, hədis 2

# 346

# Küfr

***1590. Küfrə səbəb olanlar.***

5546. Imam Baqir (ə): «E'tiraf və təslimdən qaynaqlanan hər bir (itaət) şey imandandır. Mayası inkar və danmaq olan hər iş (əməl) küfrdür.»[378]

5547. Imam Sadiq (ə): «Allah və Onun peyğəmbərinə şəkk edən kafirdir.»[379]

***1591. Küfrün ən az dərəcəsi.***

5548. Allahın Peyğəmbəri (s): «Küfrün ən az dərəcəsi budur ki, insan öz qardaşı haqda bir söz eşitsin və onu (bir gün) rüsvay etmək üçün saxlasın. Belələrinin xeyir və yaxşılıqdan nəsibləri olmaz.»[380]

5549. Allahın Peyğəmbəri (s): «Küfrün dörd təməli var: istək, qorxu, narazılıq və qəzəb.»[381]

5550. Imam Əli (ə): «Küfr dörd sutun üzərində dayanır: fisq (Allahın əmrindən çıxmaq), ifratçılıq (dində), şəkk və şübhə.»[382]

5551. Imam Sadiq (ə) *(Küfrün ən az dərəcəsi haqda suala cavabından):* «Təkəbbür ondan (onun göstəricilərindən) biridir.»[383]

5552. Imam Sadiq (ə) *(«Kimsə danışanda yalan desə, verdiyi və'də xilaf çıxsa, etibarlı sayılarkən əmanətə xəyanət etsə, küfr və imanın hansı mərtəbəsində olar!» deyə soruşulduqda):–*«Bu küfrə ən yaxın mənzillərdir. Ancaq o, kafir deyil.»[384]

ıooooooπ

[378] əl-Kafi, c. 2, səh. 387, hədis 15
[379] əl-Kafi, c. 2, səh. 386, hədis 10
[380] Biharul-Ənvar, c. 78, səh. 276, hədis 112
[381] əl-Kafi, c. 2, səh. 289, hədis 2
[382] əl-Kafi, c.2, səh. 391, hədis 1
[383] Məaniul Əxbar, səh.394, hədis 47
[384] əl-Kafi, c. 2, səh. 290, hədis 5

# 347

# Əvəzini vermək

***1592. Yaxşılığın yaxşılıqla əvəzi çıxılması.***

**Quran:**

«Sizə salam verildikdə ona daha gözəl və ya onun kimi cavab verin. Hər an Allah hər şeyin hesabını aparandır.»[385]

«Məgər yaxşılığın əvəzi yaxşılıq deyildir?»[386]

**Hədis:**

5553. Allahın Peyğəmbəri (s): «Kim sizə yaxşılıq etsə, onun əvəzini verin. Onun əvəzini verməyə bir şeyiniz olmadıqda, onunçün Allah dərgahına dua edin. Elə dua edin ki, sanki onun yaxşılığının mükafatını verirsiniz.»[387]

5554. Imam Əli (ə) *(Hüquq barədə):*–«O zaman Allah öz hüquqları sırasında camaatın da bir-birinə olan hüquqlarını vacib buyurdu. Onları elə etdi ki, biri digərinin əvəzi olsun və hər bir hüquq başqa bir hüquqa səbəb olsun, hər bir hüquq yalnız hansısa haqqın müqabilində vacib olar.»[388]

5555. Imam Əli (ə): «Sənə yaxşılıq etmiş kimsənin əvəzini verməkçün əllərini uzat və əgər (əvəzini verməyə) imkanın olmasa, heç olmasa ona təşəkkür et!.»[389]

5556. Imam Əli (ə): «Sənə salam verildikdə ona daha yaxşı salamla cavab ver, kimsə sənə yaxşılıq etsə, ondan daha gözəl yaxşılıqla əvəzini ver. Bununla belə fəzilət (yaxşılığı) başlayana çatar.»[390]

5557. Imam Kazim (ə): «Yaxşılıq və ehsan elə bir boyunduruqdur ki, əvəzi çıxılmaq və ya təşəkkür etməkdən qeyri cür açılmaz.»[391]

5558. Imam Kazim (ə) *(«Yaxşılığın əvəzi yaxşılıqdan qeyri bir şeydirmi?» ayəsi haqda):* «Bu ayə mömin və kafir, yaxşı və pis barədədir. Kiməsə yaxşılıq edilsə, onun mükafatını verməlidir. Mükafatını vermək onun etdiyi yaxşılığı etmək demək deyil. Yalnız öz üstünlüyünü göstərməkdən savayı. Çünki onun etdiyini etmiş olsan, yaxşılığı başladığına görə üstünlük onun olacaqdır.»[392]

***1593. Nalayiq əvəzvermə.***

---

[385] Nisa, 86
[386] Ər-Rəhman, 60
[387] Biharul-Ənvar, c. 75, səh. 43, hədis 8
[388] Nəhcül-Bəlağə, xütbə 216
[389] Ğurərul-Hikəm, hədis 2383
[390] Nəhcül-Bəlağə, hikmət 62
[391] əd-Durrətul-Bahirə, səh. 34
[392] Biharul-Ənvar, c. 78, səh. 311, hədis 1

5559. Imam Əli (ə): «Ən pis əvəzvermə, (yaxşılığı) pisliklə mükafatlandırmaqdır.»[393]

5560. Imam Əli (ə): «Imanın kamilliyindən (nişanələrindən) biri budur ki, pislik edənə yaxşılıqla cavab verəsən.»[394]

5561. Imam Sadiq (ə): «Kim ağılsız şəxsin (özünə qarşı rəftarının) əvəzini ağılsızlıqla çıxsa, ona qarşı (ağılsız tərəfindən) edilən rəftara razılığını verimişdir. Çünki ondan nümunə götürmüşdür.»[395]

5562. Imam Sadiq (ə): «Kim səni uca tutsa, sən də onu uca tut. Kim sənə hörmətsizlik etsə, özünü onun səviyyəsinə salma.»[396]

***1594. Intiqamçılığın pislənməsi.***

5563. Imam Əli (ə): «Intiqamçılıqla ağalıq bir yerə sığmaz.»[397]

5564. Imam Əli (ə): «Intiqam almağa tələsmək günahların ən böyüyüdür.»[398]

5565. Imam Əli (ə): «Qüdrətli insanın ən çirkin işi intiqam almaqdır.»[399]

5566. Imam Sadiq (ə): «Tövratda yazılıb: Ey Adəm övladı! Sənə qarşı düşmənçilik edildikdə, səndən ötrü alacağım intiqamla razılaş. Çünki Mən səninçün səndən daha yaxşı intiqam alaram.»[400]

***1595. Verdiyin əllə də geri alarsan.***

5567. Imam Əli (ə): «Qardaşına quyu qazan özü düşər. Kim başqasının (hörmət) pərdəsini götürərsə, öz evinin eybləri açılar.»[401]

5568. Imam Əli (ə): «Kim eyb axtararsa, eybləri axtarılar, kim söyüş söyərsə, cavabını (söyüş) eşidər. Kim təqva ağacını əksə, arzularının meyvəsini dərəcəkdir.»[402]

5569. Imam Əli (ə): «Hansı əlinlə versən, həmin əlinlə də geri alacaqsan.»[403]

5570. Imam Sadiq (ə): «Atalarınızla yaxşı rəftar edin ki, övladlarınız da sizə qarşı xoşrəftar olsunlar. Camaatın qadınlarına qarşı iffətli olun ki, sizin arvadlarınıza qarşı da iffətli olsunlar.»[404]

---

393 Biharul-Ənvar, c. 78, səh. 53, hədis 85
394 Ğurərul-Hikəm, hədis 9413
395 əl-Kafi, c. 2, səh. 322, hədis 2
396 Biharul-Ənvar, c. 78, səh. 278, hədis 2
397 Ğurərul-Hikəm, hədis 10518
398 Ğurərul-Hikəm, hədis 6766
399 Ğurərul-Hikəm, hədis 3003
400 əl-Kafi, c. 2, səh. 304, hədis 10
401 Tuhəful-uqul, səh.88
402 Kəşful-ğümmə, c. 3, səh. 136
403 Ğurərul-Hikəm, hədis 7208
404 Tuhəful-uqul, səh.359

# 348

# Ilahi vəzifə

***1596. Ilahi vəzifə.***

5571. Imam Əli (ə): «Bilin ki, mükəlləf olduğunuz işlər (boynunuzda olan Ilahi vəzifə) az, savabı isə çoxdur. Əgər Allahın qadağan etdiyi zülm və təcavüz üçün də qorxulu cəzalar olmasaydı belə, yenə də onlardan çəkinməyin mükafatı o qədər böyükdür ki, onları tərk etməyə bəhanə lazım deyil.»[405]

5572. Imam Əli (ə): «Pak olan Allah, öz bəndələri ixtiyar sahibi olduqları halda onlara əmr etmişdir. Onları xəbərdarlıq etmək üçün saxlamışdır. Ilahi vəzifələrini asan etmişdir və çətin vəzifə qoymamışdır. Az işə böyük mükafat verər. Ona nə güclə itaətsizlik olunar, nə də ikrah və məcburiyyətlə itaət. Peyğəmbərləri oyuncaq kimi göndərmədi, bəndələri üçün boş yerə səmavi kitab nazil etmədi. Göyləri, yeri və onların arasında olanları batilliklə yaratmadı. «Bu küfr edənlərin gümanıdır. Vay olsun, odda yanacaq kafirlərə!.[406]»[407]

***1597.Allah heç kimin boynuna gücündən artıq vəzifə qoymur.***

**Quran:**

«Allah heç kəsin boynuna qüdrəti çatmayan vəzifə qoymaz»[408]

**Hədis:**

5573. Allahın Peyğəmbəri (s): «Doqquz şey (cəzası) mənim ümmətimdən götürülmüşdür: xəta, unutmaq, bilmədiklərinə görə, gücü çatmayan şeylər, naçar olduqları, zorla məcbur edildikləri, pis yozum etmək, yaradılış barədə fikri vəsvəsələr, dillə və əllə aşkarlanmayana qədər paxıllıq.»[409]

5574. Imam Sadiq (ə): «Bəndələrinə yalnız imkanlarından az əmr olunmuşdur. Deməli, camaatın etməyə mükəlləf edildiklərinə gücləri çatar və gücləri çatanın da öhdəsindən gələrlər.»[410]

ιooooooπ

[405] Nəhcül-Bəlağə, məktub 51
[406] Sad, 27
[407] Nəhcül-Bəlağə, hikmət 78
[408] Bəqərə, 286
[409] əl-Kafi, c. 2, səh. 463, hədis 2
[410] ət-Tovhid, səh.347, hədis 6

## 349

# Söz

***1598. Söz.***

5575. Allahın Peyğəmbəri (s): «Bəzən insan Allaha xoş gələn sözlər danışır və həmin sözün çatdığı yerə çatacağını da güman etmir. Allah həmin sözün səbəbinə öz razılığını qiyamət gününə qədər ona yazar. Bəzən insan Allahın qəzəbinə səbəb olan söz danışır və həmin sözün çatdığı yerə çatacağını da güman etmir. Allah bu sözün səbəbinə öz qəzəbini, onunla görüşəcəyi günə qədər onunçun yazır.»[411]

5576. Imam Əli (ə): «Nə qədər söz var ki, yürüşdən daha kəsərlidir.»[412]

5577. Imam Əli (ə): «Qadının surəti onun sifətində, kişinin surəti onun sözlərindədir.»[413]

5578. Imam Əli (ə): «Oxdan daha iti olan söz ,nə qədər də çoxdur.»[414]

5579. «Tuhəful Uqul»: Imam Əlidən (ə) soruşdular: «Allahın yaratdığı ən gözəl şey nədir?» Buyurdu: «Söz.» Ərz olundu: «Bəs, Allahın yaratdığı ən pis şey nədir?.» Buyurdu: «Söz.» Sonra isə buyurdu: «Üzağlığı gətirən də, üzü qara edən də sözdür.»[415]

***1599. Nalayiq sözlərdən çəkinmək.***

5580. Imam Əli (ə): «Məbada, dilinə nalayiq sözlər gətirəsən! Çünki alçaq insanları sənin ətrafına yığar, dəyərli insanları səndən hürküdər.»[416]

5581. Imam Əli (ə): «Məbada, nalayiq söz dilinə gətirmə ki, bu ürəkləri kinli edər.»[417]

5582. Imam Əli (ə): «Kimin danışığı pis olarsa, çox danlanar.»[418]

5583. Imam Əli (ə): «Alçaq insanların yolu nalayiq danışmaqdır.»[419]

***1600. Əbəs yerə danışmaqdan uzaqlaşmağa həvəsləndirmək.***

---

[411] ət-Tərğib vət-Tərhib, c.3, səh. 537, hədis 45
[412] Nəhcül-Bəlağə, hikmət 394
[413] Biharul-Ənvar, c.71, səh. 293, hədis 63
[414] Ğurərul-Hikəm, hədis 5322
[415] Tuhəful-uqul, səh. 216
[416] Ğurərul-Hikəm, hədis 2722
[417] Ğurərul-Hikəm, hədis 2675
[418] Ğurərul-Hikəm, hədis 8496
[419] Ğurərul-Hikəm, hədis 5551

5584. Allahın Peyğəmbəri (s): «Kişinin dərrakəsinin nişanəsi nadir halda boş söz danışmasıdır.»[420]

5585. Allahın Peyğəmbəri (s): «Insanlardan ən çox günah sahibi, çox vaxt boş söz danışanlarıdır.»[421]

5586. Allahın Peyğəmbəri (s): «Insan (bəzən) cənnətə elə yaxın olur ki, ondan bir nizə aralıda olur. Sonra elə bir söz danışır ki, cənnətdən Səna qədər uzaqlaşır.»[422]

5587. Imam Əli (ə) *(Çox danışan bir kişinin yanından keçəndə):* «Bil ki, əməllərini yazan iki mələyə imla deyib Rəbbinə tərəf göndərirsən. Belə isə, elə sözlər de ki, səninçün xeyirli olsun və ağzını boş sözlərə yum.»[423]

5588. Imam Əli (ə): «Nə dünyasına xeyri olan, nə də axirətində onunçün əcr yazılan sözlər danışan insandan heyrətə gəlirəm.»[424]

5589. Imam Əli (ə): «Məbada, naqqallıq edəsən. Çünki kim çox danışan olsa, günahları çox olar.»[425]

5590. Imam Hüseyn (ə) *(Ibn Abbasa xitabən):*–«Heç vaxt boş söz danışma. Çünki sənin üçün günahından qorxuram. Sözünün təsiri olacağını görmədiyin halda heç vaxt xeyirli söz də danışma.»[426]

5591. Imam Sadiq (ə): «Bilikli insan çox danışmaz.»[427]

***1601. Çox danışmağın pislənilməsi.***

5592. Imam Əli (ə): «Çox danışmaqdan çəkin ki, o sənin gizlin eyblərini aşkara çıxarar və düşmənlərinin sakitləşmiş kinlərini sənə qarşı qızışdırar.»[428]

5593. Imam Əli (ə): «Xoş o kimsənin halına ki, ...malını çox bağışladı və dilini çox danışmaqdan gözlədi.»[429]

***1602. Çox danışmağın qadağan olunması.***

5594. Xızır (ə) *(Musaya (ə) tövsiyələrindən):*–«Heç vaxt boş və çoxdanışan olma! Çünki çox danışmaq bilikləri ləkələyər və quşbeyinlərin pisliklərini aşkar edər.»[430]

5595. Allahın Peyğəmbəri (s): «Allahı xatırlamaqdan qeyri halda çox söz danışma. Çünki Allahı xatırlamaqdan qeyri çox danışmaq ürəyin bərkiməsinə səbəb olur. Allahdan ən uzaq insan isə ürəyi bərk insanlardır.»[431]

---

[420] Biharul-Ənvar, c. 2, səh. 55, hədis 28
[421] Ət-Tərğib vət-Tərhib, c. 3, səh. 540, hədis 51
[422] Ət-Tərğib vət-Tərhib, c. 3, səh. 537, hədis 46
[423] Əmali əs-Səduq, səh. 37, hədis 4
[424] Ğurərul-Hikəm, hədis 6283
[425] Ğurərul-Hikəm, hədis 2637
[426] Biharul-Ənvar, c. 78, səh. 127, hədis, 10
[427] Müstədrəkul-vəsail, c. 9, səh. 33, hədis 10127
[428] Ğurərul-Hikəm, hədis 2720
[429] Nəhcül-Bəlağə, hikmət 123
[430] Kənzul-Ummal, hədis 44176
[431] Əmali ət-Tusi, səh. 3, hədis 1

5596. Imam Əli (ə): «Məbada, çox danışasan. Çünki büdrəyişləri artırar və əziyyət gətirər.»[432]

5597. Imam Əli (ə): «Ağıl kamilləşəndə söz danışmaq azalar.»[433]

5598. Imam Əli (ə): «Nə qədər ki, sözü dilinə gətirməmisən sənin əsirindir. Elə ki, dilinə gətirdin, sən sözün əsiri olursan. Qızıl-gümüşünü xəzinədə saxladığın kimi, dilini də (ağzının xəzinəsində) saxla. Çünki nə qədər söz var ki, neməti əldən çıxarmış və qəzəb, cəza gətirmişdir.»[434]

5599. Imam Əli (ə): «Söz danışdınsa, həmin söz sənin sahibindir. Sözü saxlasan, o sənin ixtiyarında olar.»[435]

5600. Imam Əli (ə): «Kimsə öz sözlərinin əməlləri sırasında olduğunu (və sorğu-sualı olacağını) bilsə, onun sözləri faydalı olan saya qədər azalar.»[436]

5601. Imam Əli (ə): «Bilmədiyini danışma. Hətta tam bilmədiyini də demə. Çünki Allah sənin bütün bədən üzvlərin üçün vacib əməllər müəyyən etmişdir və qiyamət günü onların vasitəsilə sənin əleyhinə sübutlar gətirəcəkdir.»[437]

5602. Imam Əli (ə): «Söz də dərman kimidir. Azı xeyirli olar, çoxu isə öldürər.»[438]

5603. Imam Əli (ə): «Söz iki murdar xislətin arasındadır: çox danışmaq və az danışmaq. Çünki çox danışmaq boş danışmaqla nəticələnir, az danışmaq isə nitq söyləməkdə acizliyin göstəricisidir.»[439]

5604. Imam Baqir (ə): «Mən insanın dilinin biliyindən çox olmasını xoşlamıram. Necə ki, onun biliyinin ağlından çox olmasını da istəmirəm.»[440]

5605. Imam Hadi (ə): «Nadan, öz dilinin əsiridir.»[441]

***1603. Sözün və sükutun fəziləti.***

5606. Imam Səccad (ə) *(«Danışmaq üstündür, yoxsa susmaq» haqda suala cavabından):* «Bunlardan hər ikisinin afəti var. Hər ikisi eyblərdən uzaq olsa, onda söz danışmaq sakit qalmaqdan üstün olar.» Ərz edildi: «Neçə, yabnə Rəsulallah!» Buyurdu: «Çünki Allah öz peyğəmbər və vəsilərini sükutla deyil, əksinə söz və danışıqla göndərmişdir. Nə cənnət kimsəyə sükuta görə layiq olub, nə də vilayət və Allahla dostluq kimsəyə vacib olub. Nə də kimsə sükutla oddan uzaqlaşıb. Bütün bunların hamısı sözlə əldə olunub.»[442]

5607. Imam Sadiq (ə): «Söz cana rahatlıq verən, sükut isə ağıla aramlıq gətirəndir.»[443]

---

[432] Ğurərul-Hikəm, hədis 2680
[433] Biharul-Ənvar, c. 71, səh. 290, hədis 26
[434] Nəhcül-Bəlağə, hikmət 381.
[435] Ğurərul-Hikəm, hədis 4084
[436] Nəhcül-Bəlağə, hikmət 349
[437] Nəhcül-Bəlağə, hikmət 382
[438] Ğurərul-Hikəm, hədis2182
[439] Ğurərul-Hikəm, hədis1854
[440] Nəhcül-Bəlağə,nin şərhi, c.7, səh.92
[441] əd-Durrətul Bahirə, səh.41
[442] Biharul-Ənvar, c.71 , səh. 274, hədis1
[443] Biharul-Ənvar, c.71 , səh.276, hədis 6

***1604. Süsmağın danışmaqdan üstünlüyü.***

5608. Loğman (ə) *(Övladına xitabən):* «Oğlum! Danışmağı gümüş sansan, susmağı qızıl bil.»[444]

5609. Allahın Peyğəmbəri (s): «Bilikli insanın öz elmini bəyan etmədən sakit oturması yaraşan deyil. Nadana da nadanlığına görə sakit qalmaq yaraşmaz. Allah-taala buyurmuşdur: Əgər bilmirsinizsə, bilənlərdən soruşun.»[445]

5610. Allahın Peyğəmbəri (s): «Susmaq (əməlləri yazan mələklərə) imla deməkdən, yaxşıları imla demək isə susmaqdan daha yaxşıdır.»[446]

5611. Imam Əli (ə): «Dili hikmətə bağlamaqda bir xeyir yoxdur. Necə ki, nadancasına söz danışmaqda da bir xeyir yoxdur.»[447]

5612. Imam Əli (ə): «Düşünməyə bir şey olmayan hər bir sükut qəflətdir.»[448]

5613. Imam Əli (ə): «Sənə vüqar bəxş edən sükut, sənə ar paltarı geydirəcək danışmaqdan yaxşıdır.»[449]

5614. Imam Sadiq (ə): «Mömin bəndə, sakit oluncaya qədər xeyir əməl sahibi kimi qəbul olunur. Ancaq söz danışmağa başlayanda, ya xeyir əməl, ya da pis əməl sahibi kimi müəyyənləşir.»[450]

***1605. Ən yaxşı söz.***

5615. Allahın Peyğəmbəri (s): «Ən yaxşı söz Allahın sözüdür.»[451]

5616. Imam Əli (ə): «Ən yaxşı söz odur ki, qulaqlar onu eşitməkdən inciyib bezməsin, qavranışı isə düşüncələri əziyyətə salmasın.»[452]

5617. Imam Əli (ə): «Ən yaxşı söz odur ki, gözəl yığcamlıqla (gözəl yazılış və tərkiblə) bəzədilmiş olsun, hamı onu başa düşsün.»[453]

5618. Imam Əli (ə): «Ən yaxşı söz odur ki, nə (uzun olsun) əziyyət gətirsin, nə də az olsun (şübhələri artırsın).»[454]

***1606. Gözəl danışığın dəyəri və üstünlüyü.***

**Quran:**

«Camaatla yaxşı (dillə) danışın.»[455]

---

[444] əl-Kafi, c. 2, səh.114, hədis 6
[445] Nəhl, ayə 43
[446] Biharul-Ənvar, c.71, səh.294, hədis 64
[447] Nəhcül-Bəlağə,nin şərhi, c.19, səh. 9
[448] Biharul-Ənvar, c.71, səh.275, hədis2
[449] Ğurərul-Hikəm, hədis5867
[450] əl-Kafi, c. 2, səh.116, hədis21
[451] Sunənun- Nəsaiyi, c.3, səh.58
[452] Ğurərul-Hikəm, hədis3371
[453] Ğurərul-Hikəm, hədis3304
[454] Ğurərul-Hikəm, hədis 4969
[455] Bəqərə, ayə 83.

«Və bəndələrinə de ki, daha yaxşı olanları söyləsinlər. Həqiqətən, şeytan onların arasını vurar. Doğrusu, şeytan insanın açıq-aşkar düşmənidir.»[456]

**Hədis:**

5619. Allahın Peyğəmbəri (s) *(«Ən üstün iş hansıdır?» deyə soruşan kişiyə cavabından):* «Xörək vermək və gözəl danışıq.»[457]

5620. Imam Səccad (ə): «Gözəl danışıq var-dövləti artırar, ruzini çoxaldar, əcəlini gecikdirər, insanı ailəsinin yanında sevimli edər və (həmin şəxsi) cənnətə aparar.»[458]

5621. Imam Baqir (ə) *(«Camaatla yaxşı (dillə) danışın» ayəsi haqda):–* «Sizin barənizdə deyilməsni istədiyiniz ən yaxşı sözləri camaata deyin.»[459]

5622. Imam Baqir (ə): «Ey şiə dəstəsi! Bizim zirvəmiz olun, eyb və rüsvayçılığımıza səbəb olmayın. Camaatla yaxşı danışın və dilinizi saxlayın. Onları çox danışmaqdan, çirkin sözlərdən saxlayın.»[460]

ιoooooooπ

---

[456] Isra, ayə 53.
[457] Biharul-Ənvar, c.71, səh.312, hədis12
[458] Əmali Səduq, səh.12, hədis 1
[459] əl-Kafi, c.2, səh.165, hədis 10
[460] Əmali Səduq, səh.327, hədis 17

# 350

# Kamal

***1607. Kamal.***

5623. Imam Əli (ə): «Ağıllı insan kamal istər, nadan isə var-dövlət axtarar.»[461]

5624. Imam Əli (ə): «Insanın kamalının və ağlının çoxluğunun nişanəsi, öz nöqsanından xəbərdar olmasıdır.»[462]

5625. Imam Əli (ə): «Kamal dünyada tapılan deyil.»[463]

5626. Imam Əli (ə): «Kişinin kamalı altı xislətdədir: Onun iki kiçik üzvü, iki böyük üzvü və iki heyəti. Iki kiçik üzvü ürəyi və dilidir. Döyüşsə ürəyi ilə döyüşər, danışsa dili ilə danışar. Iki böyük üzvü ağıl və səylərdir. Onun iki heyəti isə malı və camalıdır.»[464]

5627. Imam Əli (ə): «Insanın kamalı onun ağlıdır.»[465]

5628. Imam Əli (ə): «Ona yaraşmayanı kənara qoymaq, insanın kamalındandır.»[466]

5629. Imam Əli (ə): «Həya libasını gey və vəfadarlıq zirehini əyninə keçir. Qardaşlığı saxla və qadınlarla az söhbət et ki, yüksək məqamın kamilləşsin.»[467]

5630. Imam Baqir (ə): «Həqiqi kamal dini başa düşmək, ağır bəla müqabilində dözüm və məişətində əndazəni saxlamaqdan ibarətdir.»[468]

5631. Imam Sadiq (ə): «Üç xislət var ki, hər kimə ruzi olunsa kamilləşər: ağıllılıq, gözəllik və gözəl danışıq.»[469]

ıooooooπ

---

461 Ğurərul-Hikəm, hədis579
462 Ğurərul-Hikəm, hədis9442
463 Ğurərul-Hikəm, hədis331
464 Məanil Əxbar, səh.150, hədis 1
465 Ğurərul-Hikəm, hədis7244
466 Əlamuddin, səh.292
467 Ğurərul-Hikəm, hədis4536
468 Biharul-Ənvar, c.78, səh.172, hədis 3
469 Tuhəful-Uqul, səh.320

**351**

# Zirəklik

***1608. Zirək.***

5632. Allahın Peyğəmbəri (s): «Zirək odur ki, öz nəfsini pisləsin və ölümdən sonrası üçün iş görsün.»[470]

5633. Allahın Peyğəmbəri (s) *(«Möminlərin ən zirəyi kimdir? sualına cavabından):–*«Onlardan, ölümü daha çox xatırlayan və özünü ona hazırlayanıdır.»[471]

5634. Allahın Peyğəmbəri (s): «Zirəklərin ən zirəyi günahlardan çəkinmək, axmaqların ən axmağı isə günah işlər görməkdir.»[472]

5635. Allahın Peyğəmbəri (s): «Zirəklərin ən zirəyi odur ki, öz nəfsinin hesab-kitabını apara, ölümdən sonra üçün çalışa. Axmaqların axmağı isə odur ki, öz nəfsinə tabe ola və Allahdan diləklər diləyə.»[473]

5636. Imam Əli (ə): «Zirək odur ki, özünü tanısın və əməlini (Allaha xatir) xalisləşdirsin.»[474]

5637. Imam Əli (ə): «Zirək odur ki, bu günü dünənindən yaxşı olsun və özünü pislənilməkdən saxlasın.»[475]

5638. Imam Əli (ə) *(Insanların ən zirəyi haqda suala cavabından):* «Öz doğru yolunu azğınlıqdan ayırd etsin və öz qurtuluşuna üz tutsun.»[476]

5639. Imam Əli (ə): «Sizlərin ən zirəyi, sizlərin ən ibadətkarıdır.»[477]

ιooooooπ

[470] Məkarimul-Əxlaq, c.2, səh.368, hədis2661
[471] əl-Zohdu-lil-Huseyn ibn Səid, c.78, səh. 211
[472] Biharul-Ənvar, c.77, səh.115, hədis8
[473] Biharul-Ənvar, c.77, səh.92, hədis250
[474] Ğurərul-Hikəm, hədis1139
[475] Ğurərul-Hikəm, hədis1797
[476] Biharul-Ənvar, c.77, səh.378, hədis1
[477] Ğurərul-Hikəm, hədis2839

# 352

# Geyim

***1609. Geyim***

**Quran:**

«Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtmək üçün paltar, eləcə də gözəl və yumşaq geyimlər göndərdik. Təğva libası sizin üçün daha yaxşıdır. Bu Allahın nişanələrindəndir ki, bəlkə öyüd alasınız.»[478]

**Hədis:**

5640. Allahın Peyğəmbəri (s): «Özünüzlə paltar götürün və çılpaq yol getməyin.»[479]

5641. Allahın Peyğəmbəri (s): «Ağ paltar geyinin! Çünki ağ paltar daha yaxşı və daha təmizdir. Öz ölülərinizi də ağ parça ilə kəfənləyin.»[480]

5642. Allahın Peyğəmbəri (s): «Pambıq parça geyinin. Çünki o Allahın Peyğəmbərinin (s) və bizim paltarımızdır.»[481]

5643. Imam Sadiq (ə): «Kətan peyğəmbərlərin paltarlarındandır və əti böyüdər.»[482]

***1610. Geyimdə mötədillik.***

5644. «Kənzul Ümmal»: «Allahın Peyğəmbəri (s) iki şeyə görə şöhrəti qadağan etmişdir: paltarın nazikliyinə və qalınlığına, onun yumşaqlığına və xovluluğuna, uzunluğuna və qısalığına görə. Bu xüsusiyyətlərin arasındakı orta həddə riayət etmək lazımdır.»[483]

5645. Imam Sadiq (ə): «Əli (ə) yunla yamanmış iri kərbasi parçadan paltar geyinərdi və camaata xütbə oxuyardı. Bununla əlaqədar Həzrətə irad tutduqda Imam (ə) buyurmuşdur: Bu paltar qəlbdə təvazökarlıq oyadar və mömin ondan nümunə götürər.»[484]

5646. Imam Sadiq (ə): «Var-dövlət Allaha məxsusdur və onları insanın yanında əmanət qoymuş, insanlara mötədilliklə yeməklərinə və mötədilliklə geymələrinə icazə vermişdir.»[485]

---

[478] Ə‘raf, ayə26.
[479] Kənzul-Ummal, hədis 21106
[480] əl-Kafi, c.6, səh.445, hədis2
[481] əl-Kafi, c.2, səh.450, hədis2
[482] əl-Kafi, c.2, səh.449, hədis1
[483] Kənzul-Ummal, hədis 41172
[484] Biharul-Ənvar, c.79, səh.312 , hədis14
[485] Biharul-Ənvar, c.79, səh.304, hədis17

***1611. Hər zamanın ən gözəl paltarı, həmin zəmanə camaatının paltarıdır.***

5647. Həmmad ibn Osman: «Imam Sadiqin (ə) yanında idim ki, bir kişi Həzrətə ərz etdi: «Allah sənə məsləhət bilər! Yadına saldınmı ki, Əli ibn Əbutalib (ə) cod paltar geyinər, əynində dörd dirhəmlik köynək olardı və s. Ancaq görürük ki, siz gözəl paltar geyinmisiniz.»

Həzrət ona buyurdu: «Əli ibn Əbutalıb (ə) o paltarları ayıb sayılmadığı vaxt geyinərdi. Əgər həmin paltarları bu gün geyinsəydi, məşhurlaşardı. Deməli, hər vaxtın ən yaxşı paltarı həmin zəmanə əhlinin geyimidir. Ancaq bizim qaimimiz zühür edəndə Əli (ə) kimi geyinəcək və o Həzrət kimi rəftar edəcək.»[486]

5648. Süfyan Sauri: «Imam Sadiqə (ə) ərz etdim: «Siz rəvayət edirsiniz ki, Əli ibn Əbutalib (ə) cod paltar geyinərdi, ancaq özünüz quhi[487] və mərəv parçadan paltar geyinirsiniz.» O Həzrət buyurdu: «Vay olsun sənə! Əli ibn Əbutalib çətin və kasıb şəraitdə yaşayırdı. Zəmanədə bir yaxşılaşma olanda, ruzigarın yaxşıları həmin inkişafdan faydalanmağa layiqdirlər.»[488]

5649. Imam Rza (ə): «Mənim imkansız dostlarım, yun parça üzərində oturmağımı, zəmanə bunları qəbul etmədiyi halda cod paltar geyinməyimi istəyirlər.»[489]

5650. Əbi Əbbad: «Həzrəti Rza (ə) yayda qamış həsirin, qışda isə palazın üstündə əyləşərdi. Paltarları cod parçadan olsa da, camaat içinə çıxanda özünü bəzəyərdi.»[490]

***1612. Əmmamə.***

5651. Allahın Peyğəmbəri (s): «Əmmamələr ərəblərin taclarıdır.»[491]

5652. Allahın Peyğəmbəri (s): «Gülər üzlə və əmmamə ilə məscidə gəlin. Çünki əmmamələr müsəlmanların taclarıdır.»[492]

5653. Cabir: «Allahın Peyğəmbəri (s) Məkkənin fəth olunduğu il, başında qara əmmamə Məkkəyə daxil oldu.»[493]

5654. Imam Sadiq (ə): «Allahın Peyğəmbəri (s) öz əli ilə Əlinin (ə) başına əmmamə qoydu və qabaqdan onun qanadını bağladı, arxadan isə dörd barmaq qədər qısaltdı və buyurdu: Arxaya bax. Əli (ə) arxaya döndü. Buyurdu: Üzünü mənə tərəf tut. Əli üzünü Peyğəmbərə tərəf tutdu. Allahın Peyğəmbəri buyurdu: Mələklərin tacları belədir.»[494]

---

[486] əl-Kafi, c.6, səh.444 , hədis15
[487] Quhi пагчасы – Kermanda toxunan пагча n[vüdür.
[488] Məkarimul-Əxlaq, c.1, səh.220, hədis 648
[489] Məkarimul-Əxlaq, c.1, səh.218, hədis 642
[490] Uyunul-Əxbari Rza (ə), c.2, səh.187, hədis1
[491] əl-Kafi, c.6, səh.461, hədis5
[492] Kənzul- Ummal, hədis 41143
[493] Sunəne Əbi Davud, hədis 4076
[494] əl-Kafi, c.6 , səh.461 , hədis 4

***1613. Qadağan olunmuş geyimlər.***

5655. Allahın Peyğəmbəri (s): «Ipək paltar və qızıl taxmaq mənim ümmətimin kişilərinə haram, qadınlarına isə halaldır.»[495]

5656. Allahın Peyğəmbəri (s): «Kimsə camaatın ona baxması üçün bahalı paltar geyinərsə, o paltarı əynindən çıxarmayana qədər Allah ona nəzər salmaz.»[496]

5657. Imam Sadiq (ə): «Kişi müharibədən qeyri vaxt, ipək və diba parçadan paltar geyinməməlidir.»[497]

ιooooooπ

---

[495] Kənzul-Ummal, hədis41210

[496] Kənzul-Ummal , hədis 41203

[497] əl-Kafi, c.6 , səh.453 , hədis 1

# 353

# Tərslik

***1614. Tərslik.***

5658. Allahın Peyğəmbəri (s): «Tərslikdən çəkin! Çünki onun ilki nadanlıq, sonu isə peşmançılıqdır.»[498]

5659. Imam Əli (ə): «Tərslik düşüncəni kəsər.»[499]

5660. Imam Əli (ə): «Tərs adamın fikri və düşüncəsi yoxdur.»[500]

5661. Imam Əli (ə): «Tərs adamın uzaqgörənliyi olmaz.»[501]

5662. Imam Əli (ə): «Tərslik müharibələr törədər və qəlbləri kinli edər.»[502]

5663. Imam Əli (ə): «Məbada tərslik atı səni ölümə atsın.»[503]

5664. Imam Əli (ə): «Məbada tərslik atı dikbaşlıq edib səni təhlükələrə tərəf aparsın.»[504]

5665. Imam Əli (ə): «Tərslikdən çəkin ki, onda üzü-üstə dəyməkdən xilas olasan.»[505]

5666. Imam Əli (ə): «Danlamaqda ifrata varmaq tərslik alovunu şölələndirər.»[506]

5667. Imam Əli (ə): «Xasiyyətlərin ən yaxşısı, onların tərslikdən ən uzaq olanıdır.»[507]

5668. Imam Əli (ə): «Tərslik edən və bu tərslikdə israrlı olan, Allahın qəlbinə (qəflətdən) pərdə çəkdiyi, başının üstünü ağır hadisələrin haqladığı bəxtidönmüşdür.»[508]

5669. Imam Əli (ə): «Vaxtı çatmamış işlərdə tələsməkdən, vaxtı çatanda iş görməkdə lənglikdən, onlar mübhəm olanda və tanınmayanda tərslikdən, aşkar və aydın olanda onlarda süstlükdən çəkin. Buna görə də hər şeyi öz yerinə qoy.»[509]

---

498 Tuhəful-Uqul, səh.14
499 Nəhcül-Bəlağə, hikmət 179
500 Ğurərul-Hikəm, hədis 887
501 Ğurərul-Hikəm, hədis 7487
502 Ğurərul-Hikəm, hədis 1718
503 Biharul-Ənvar, c.77, səh.208, hədis1
504 Nəhcül-Bəlağə, məktub 31.
505 Biharul-Ənvar, c.78 , səh.10, hədis 68
506 Biharul-Ənvar, c.77, səh.212, hədis1
507 Ğurərul-Hikəm, hədis4975
508 Nəhcül-Bəlağə, məktub58.
509 Nəhcül-Bəlağə, məktub53

354

# Dil

***1615. Dil.***

5670. Allahın Peyğəmbəri (s): «Gözəllik dildədir.»[510]

5671. Allahın Peyğəmbəri (s): «Dilin gözəlliyi (insan üçün) sərmayədir.»[511]

5672 Allahın Peyğəmbəri (s): «Adam səhəri açanda bütün bədən üzvləri dilin qarşısında baş əyərək (xahişlə, yalvarışla) deyərlər: Bizim haqqımızda ilahi təqvaya riayət et. Çünki biz səndən asılıyıq. Çünki sən düz olsan, biz də düzük, əyri olsan, biz də əyri olarıq.»[512]

5673. Imam Əli (ə): «Dil insanı ölçmək üçün vasitədir.»[513]

5674. Imam Əli (ə): «Insanın düşüncəsi onun dili, ağlı və dinidir.»[514]

5675. Imam Əli (ə): «Söz danışın ki, tanınasınız. Çünki insan öz dilinin altında gizlənib.»[515]

5676. Imam Əli (ə): «Dilin, sənin ağlının tərcümanıdır.»[516]

5677. Imam Əli (ə): «Allahın Peyğəmbəri buyurmuşdur «Hər bir bəndənin ürəyi düzəlməmiş imanı düzəlməz. Onun dili düzəlməmiş isə ürəyi düzəlməz.» Buna görə də sizlərdən kim müsəlmanların qanına və malına bulaşmamış əl, onların heysiyyatını və abrını (tökməkdən) azad dillə Allah-taalanın görüşünə gələ bilən belə etməlidir.»[517]

5678. Imam Əli (ə): «Ağıl sahibinin dili onun ürəyinin arxasında, axmağın ürəyi isə onun dilinin önündədir.»[518]

5679. Imam Baqir (ə): «Doğrudan da bu dil hər yaxşılıq və pisliyin açarıdır. Buna görə də möminin öz qızıl–gümüşünün (kisəsinin) ağzını bağladığı kimi dilinə də möhür vurması daha layiqlidir.»[519]

***1616. Insanın salamatlığı dilini saxlamasındadır.***

5680. Allahın Peyğəmbəri (s): «Insanın salamatlığı, onun dilini

[510] Biharul-Ənvar, c. 77, səh.141, hədis 24
[511] Camiul Əxbar, səh. 247, hədis 631
[512] Səhihe-Tirmizi , hədis 2407
[513] Ğurərul-Hikəm, hədis1272
[514] Biharul-Ənvar, c.78, səh.56, hədis 119
[515] Nəhcül-Bəlağə, hikmət 392.
[516] Biharul-Ənvar, c.77, səh.231, hədis 2
[517] Nəhcül-Bəlağə, xutbə176.
[518] Nəhcül-Bəlağə, hikmət 40.
[519] Tuhəful-Uqul, səh.298

saxlamağındadır.»[520]

5681. Allahın Peyğəmbəri (s): «Kim öz dilini ağzına çəkməsə, günahlardan amanda qalmaz.»[521]

5682. Allahın Peyğəmbəri (s): «Dilini saxlamayan heç bir işi ərsəyə gətirməmişdir.»[522]

5683. Allahın Peyğəmbəri (s): «Insanın çətinlikləri onun dilindədir.»[523]

5684. Allahın Peyğəmbəri (s): «Dilini saxla! Çünki dilini saxlamaq özünçün verdiyin sədəqədir.»[524]

5685. Imam Əli (ə): «Kim öz  dilini saxlasa, Allah onun eybini örtər»[525]

5686. Imam Əli (ə): «Dilin zərbəsi nizə ucunun zərbəsindən ağırdır.»[526]

5687. Imam Əli (ə): «Dil bir yırtıcıdır. Açılıb buraxılarsa, dişləyər.»[527]

5688. Imam Əli (ə): «Heç bir şey, dil qədər uzunmüddətli həbsə layiq deyil.»[528]

ιooooooπ

[520] Biharul-Ənvar, c.71, səh.286, hədis 42
[521] Tuhəful- Uqul, hədis298
[522] Biharul-Ənvar, c.77, səh.85, hədis 3
[523] Biharul-Ənvar, c.71, səh.286, hədis 42
[524] əl-Kafi, c.2, səh.114, hədis7
[525]Biharul-Ənvar, c.71, səh.283, hədis 36
[526] Biharul-Ənvar, c.71, səh.286, hədis 42
[527] Nəhcül-Bəlağə, hikmət 60.
[528] Biharul-Ənvar, c.71, səh.277, hədis 11

**355**

# Boş sözlər və əməllər

***1617. Boş sözlər və əməllər***

**Quran**:

“O kəslər ki, boş şeylərdən üz döndəriblər.»[529]

“O kəslər ki, yalan yerə şəhadət verməz və boş şeylərlə rastlaşsalar, böyüklüklə ötüb keçərlər.»[530]

**Hədis:**

5689. Allahın Peyğəmbəri (s): «Insanların ən hörmətlisi, boş şeylərdən uzaq olanlarıdır.»[531]

5690. Imam Əli (ə): «Onda Allahın anılmadığı hər bir söz puçdur.»[532]

5691. Imam Əli (ə): «Xeyirli olanları kənara atmaqla, özünü boş şeylərin astanasında qoyma.»[533]

5692. Imam Əli (ə) *(Abdulla ibn Abbasa məktubundan):* «Elə bir şeyi axtar ki, faydalı olsun. Boş-boş şeyləri kənara qoy. Çünki faydasız işləri kənara atmaq xeyirli işlərə çatmağa səbəb olar.»[534]

5693. Imam Sadiq (ə)*(«Boş şeylərdən üz döndərənlər» ayəsi haqda):* «Yəni sənin barəndə nahaq (sözlər) danışanlardan, səndən olmayan şeyləri sənə aid edənlərdən Allaha xatir üz döndərəsən.»

Başqa bir rəvayətdə deyilir: Məqsəd avazla mahnı oxumaq, bayağı və qəflət yaradan musiqidir.»[535]

ιooooooπ

---

[529] Muminun, ayə 3.
[530] Furqan, ayə 72.
[531] Əmali-Səduq, səh.28, hədis 4
[532] Biharul-Ənvar, c.78, səh.92, hədis 101
[533] Biharul-Ənvar, c.78, səh.7, hədis 59
[534] Tuhəful-Uqul, hədis 218
[535] Məcməul-Bəyan, c.7, səh.157

**356**

# Allah-taala ilə görüş

***1618. Görüş şövqü***

5694. «Əl-muhəccətul Beyza»: Davudun (ə) xəbərləri barədə deyilir ki, Allah ona vəhy buyurmuşdur: «Ey Davud! Mən müştaqların qəlbini öz razılığımdan yaratdım və onları zatımın nuru ilə naz-nemət içində qərar verdim…»

Davud ərz etdi: «Ilahi! Hansı yolla Sənin yanında bu məqama çatdılar?» Buyurdu: «Xoş gümanla və dünyanı, onun əhlini özlərindən uzaq tutmaqla, xəlvətə çəkilib mənimlə münacat etməklə. Bu elə bir məqamdır ki, ona dünya və əhlini kənara qoyan, heç vaxt onu xatırlamayan, ürəyini mənimçün boşaltmayan və bütün yaratdıqlarımdan Məni seçəndən başqa heç kim ona çata bilməz.»[536]

5695. «Əl-muhəccətul Beyza»: «Ey Davud! Məndən üz döndərənlər, onlarçün neçə intizar çəkdiyimi, onlara necə mehr-məhəbbət bəslədiyimi, onların günahı tərk etməsinə necə də həvəs göstərdiyimi bilsəydilər, hər an mənə olan həvəsdən ölər, mənə olan eşqdən bədənləri hissə-hissə bir-birindən qopardı.»[537]

5696. Allahın Peyğəmbəri (s) *(Duada):* «Ilahi! Sənin qəzavü-qədərinə şadlığı, ölümdən sonrakı xoş həyatı, sənin üzünü görməyin ləzzətini, özünü görməyin sevincini dərgahından diləyirəm!»[538]

5697. Allahın Peyğəmbəri (s): «Kim Allahla görüşməyi istəsə, Allah da onunla görüşmək istər. Kim Allahla görüşü xoşlamasa, Allah da onunla görüşməyi xoşlamaz.»[539]

5698. Imam Əli (ə) *(Misir camaatına məktubunda):* «Mən Allahla görüşün müştağıyam, gözüm yolda, ümidim isə Onun yaxşı mükafatınadır.»[540]

5699. Imam Əli (ə): «Pak olan Allahla görüşü sevən dünyanı yadından çıxarar.»[541]

ιooooooπ

---

536 əl-Muhəcəətul-Beyza, c.8, səh.59-61
537əl-Muhəcəətul-Beyza, c.8, səh.62
538 Məkarimul-Əxlaq, c.2, səh.31, hədis2069
539 Kənzul-Ummal , hədis 42121
540 Nəhcül-Bəlağə, məktub 62.
541 Ğurərul-Hikəm, hədis 8425

**357**

# Əyləncə və qəflət

***1619. Əyləncə və qəflət.***

**Quran**:

«Bilin ki, dünya həyatı əslində oyun-oyuncaq, əyləncə, bər-bəzək və sizlərin bir-birinə öyünməsidir.»[542]

«Bir alış-veriş, yaxud bir əyləncə gördükdə səni ayaq üstə qoyub ona tərəf cumarlar. De ki, Allahın yanında olan, əyləncə və ticarətdən daha yaxşıdır. Allah ruzi verənlərin ən yaxşısıdır.»[543]

**Hədis:**

5700. Imam Əli (ə): «Ey camaat! Allahdan qorxun. Çünki heç kəs əbəs yerə yaradılmayıb ki, əyləncə və qəflətdə gününü keçirsin. Özbaşına buraxılmayıb ki, pis işlər görsün.»[544]

5701. Imam Əli (ə): «Əyləncə (və qəflət) axmaqlığın xörəyidir.»[545]

5702. Imam Əli (ə): «Ömrü tələf edən ən pis şey oyundur.»

***1620. Əyləncənin nəticələri.***

5703. Imam Əli (ə): «Əylənmək mehriban Allahı qəzəbləndirər, şeytanı sevindirər və Quranı yaddan çıxarar.»[546]

5704. Imam Əli (ə): «Əyləncə ciddi qərarları puç edər.»[547]

5705. Imam Əli (ə): «Uğurdan ən uzaq insanlar, əyləncə və zarafat vurğunu olanlardır.»[548]

5706. Imam Əli (ə): «Əyləncə məclisləri (küfr) imanı korlayar.»[549]

5707. Imam Əli (ə): «Əylənməyi çox olanın ağlı az olar.»[550]

***1621. Iman və əyləncə.***

5708. Imam Əli (ə) *(Mömini vəsf edərkən):* «Boş vaxtı olmaz.»[551]

---

542 Hədid, ayə 20
543 Cümə, ayə 11
544 Nəhcül-Bəlağə, hikmət 370.
545 Ğurərul-Hikəm, hədis937 və 5729
546 Biharul-Ənvar, c.78, səh. 9, hədis66
547 Ğurərul-Hikəm, hədis2165
548 Ğurərul-Hikəm, hədis9815
549 Ğurərul-Hikəm, hədis3333
550 Ğurərul-Hikəm, hədis8426
551 Nəhcül-Bəlağə, hikmət333

5709. Imam Həsən (ə): «Mömin əylənməz ki, onun nəticəsində də qəflətdə qalsın. Buna görə onu nə vaxt görsən, qəmgindir.»[552]

5710. Imam Sadiq (ə) *(Əylənmək üçün ova gedən kimsəyə):* «Möminin belə işləri görməyə vaxtı yoxdur. Axirət axtarışları onu əyləncədən saxlamışdır. Mömin belə işlərin heç birinə çatmaz. Onun əyləncədə nə işi? Eyş-işrət və əyləncələr daşürəklilik və nifaq qoyub gedər.»[553]

***1622. Möminin əyləncəsi.***

5711. Allahın Peyğəmbəri (s): «Bu üçündən başqa, mömin üçün hər bir əyləncə düzgün deyil: at bəsləmək, kamanla ox atmaq, həyat yoldaşı ilə oyun və zarafat. Çünki bu üç iş haqdır".[554]

5712. Allahın Peyğəmbəri (s): «Mömin üçün ən yaxşı əyləncə üzgüçülük, qadının ən yaxşı əyləncəsi isə toxumaqdır.»[555]

***1623.Əyləncə göyərçini.***

5713. Imam Əli (ə): «Peyğəmbər (s) bir kişinin göyərçin uçurtduğunu gördü. Buyurdu: Şeytan şeytanın dalınca gedər.»[556]

ιooooooπ

[552] Tənbihul-Xəvatir, c.1, səh.52
[553] Mustədrəkul-Vəsail, c.13, səh. 216, hədis 15163
[554] əl-Kafi, c.5, səh.50, hədis 13
[555] Kənzul-Ummal,hədis 40611
[556] Mustədrəkul-Vəsail, c.8 , səh.306 , hədis 9513

**358**

# Ləvat

***1624. Ləvat.***

**Quran**:

«(Göndərdiyimiz) Lut da öz tayfasına danışdı: «Sizdən əvvəl bəşər əhlindən heç kəsin etmədiyi murdar işləri görürsünüz? Siz şəhvətə görə qadınların yerinə kişilərlə əlaqədə olursunuz. Siz doğrudan da həddini aşmış bir tayfasınız!»[557]

**Hədis:**

5714. Allahın Peyğəmbəri (s): «Ümmətim üçün ən qorxduğum şey, Lutun tayfasının əməlidir.»[558]

5715. Allahın Peyğəmbəri (s): «Mənim ümmətimdən kimsə Lutun tayfasının işini görsə və bu halda ölsə, ona ləhədə qoyulmağa qədər möhlət veriləcək. Ləhədə qoyulduqdan sonra heç bir gün də çəkməyəcək ki, torpaq onu Lutun məhv olmuş tayfasının arasına atacaq və qiyamət günündə onlarla birgə diriləcək.»[559]

5716. Imam Əli (ə): «Allah imanı, şirkin həyasızlığını silmək üçün, …Ləvatı tərk etməyi isə nəsli artırmaq üçün vacib buyurmuşdur.»[560]

5717. Imam Sadiq (ə): «Allah nigah bağlamış arxalara, cənnətin zər ipəkli parçasında oturmağı haram etmişdir.»[561]

5718. Imam Rza (ə): «Kişilərin kişilərə, qadınların isə qadınlara üz tutmasının qadağan edilməsinin səbəblərindən biri, qadınların bədən quruluşu və kişilərin bədənlərinin təbiəti (hər biri əks cins üçün yaradılmışdır), başqa səbəbi isə budur ki, qadınların qadınlara, kişilərin isə kişilərə üz tutması (insan) nəslin aradan getməsinə, (cəmiyyətdəki) nizamın pozulmasına və dünyanın məhvinə səbəb olar.»[562]

ιοooooοπ

---

[557] Ə‘raf, ayə 80-81

[558] Ət-Tərğib-vət-Tərhib, c.3, səh. 285, hədis 24

[559] Biharul-Ənvar, c.79, səh. 72, səh.24

[560] Nəhcül-Bəlağə, hikmət 252

[561] Biharul-Ənvar, c.79, səh.72, hədis 27

[562] Iləlul-Şəraye, səh.547, hədis1

359

# Imtahan

***1625. Imtahan.***

5719. Imam Əli (ə): «Həqiqətən, bizim işimiz çətin və gectapılandır. Qəlbi iman üçün Allah tərəfindən imtahan edilən (xalisləşdirilən) mömin bəndədən başqa, kimsə ona dözməz.»[563]

5720. Imam Əli (ə) *(Peyğəmbərlər və övliyaları vəsf edərkən):* «Allah onları aclıqla sınadı, (müxtəlif) çətinliklərə giriftar etdi, qorxu-hürkülərlə imtahana çəkdi.»[564]

5721. Imam Əli (ə): «Nə qədər ki, düşməndir, sına!»[565]

5722. Imam Əli (ə): «Insan imtahan vaxtı başıuca və ya başıaşağı olar.»[566]

5823. Imam Əli (ə): «Kişi sözü ilə deyil, əməli ilə imtahana çəkilər.»[567]

5724. Imam Əli (ə): «Insanların ağılları üç şeylə sınanar: var-dövlət, vilayət və müsibət.»[568]

5725. Imam Sadıq (ə): «Insanlarla ünsiyyətdə ol ki, onları sınayasan. Imtahan etdikdə, onlarla düşmən olarsan.»[569]

5726. Imam Sadiq (ə): «Bizim şiələrimizi üç şeylə sınayın: namaz vaxtı namazdan muğayat olmaları, sirlərini bizim düşmənlərimizdən necə saxlamaları və öz mallarından qardaşlarına necə kömək etmələri ilə.» [570]

ιooooooπ

---

[563] Nəhcül-Bəlağə, xütbə189
[564] Nəhcül-Bəlağə, xütbə 192.
[565] Nəhcül-Bəlağə, hikmət434
[566] Ğurərul-Hikəm, hədis6206
[567] Ğurərul-Hikəm, hədis11026
[568] Ğurərul-Hikəm, hədis4664
[569] əl-Kafi, c. 8, səh.176, hədis 196
[570] əl-Xisal, səh.103, hədis 62

# 360

# Sitayiş

***1626. Sitayişin pislənilməsi.***

5727. Allahın Peyğəmbəri (s): «Mədhdən və sitayişdən çəkinin ki, bu baş kəsməkdir.»[571]

5728. Allahın Peyğəmbəri (s): «Bir kişinin iti bıçaqla başqa kişiyə hücum etməsi, onu üzünə tərifləməsindən, onunçun daha yaxşıdır.»[572]

5729 Allahın Peyğəmbəri (s): «Mədh və şişirdilmiş tərifləri xoşlamaq (mədh olunanı) dində kor və kar edər, evləri (əhlindən) boş qoyar.»[573]

5730. Miqdad ibn Əmru: «Allahın Peyğəmbəri (s) bizə buyurmuşdu ki, mədh edənlərin üzünə torpaq səpək.»[574]

5731. Əbu Musa: «Bir nəfər Peyğəmbərin (s) yanında başqa kişini tərifləyib təqdir edirdi. Allahın Peyğəmbəri (s) buyurdu: Bu sözləri ona çatdırma ki, onu öldürərsən. Əgər (bu tərif və sitayişləri) səndən eşitsə, nicat tapmaz.»[575]

5732. Imam Əli (ə): «Ey camaat! Bilin ki, hər kim özü barədə yalan və nahaq sözdən incisə, ağlı yoxdur. Kim nadanın, özü haqda mədh və vəsfindən xoşhal olarsa, ağıllı deyil.»[576]

5733. Imam Əli (ə): «Tərifləyəndə müxtəsər, pisləyəndə də qısa et!»[577]

5734. Imam Əli (ə): «Istəmirəm, hətta xəyalınızdan belə keçirsəniz ki, mən mübaliğəli tərifi, mədh və alqışları eşitməyi sevirəm. Allaha şükr ki, mən belə deyiləm. Əgər (fərzən) məni mədh edib öymələrini istəsəydim belə, bu istəkdən, əzəmət və böyüklüyə daha layiq olan Pak Allah qarşısında təvazökarlığa xatir əl çəkərdim. Ola bilər ki, camaat (bir işdə) əziyyət və zəhmətə dözdükdən sonra, mədh və tərifi şirin sansın. Ancaq siz məni mədh edib öyməyin. Çünki (sizin gördüyünüz kimi, özümü zəhmət və çətinliyə atmağım buna görədir ki) Allah və sizlər tərəfindən boynumda olan hüquqi mə'suliyyətdən özümü azad etmək istəyirəm. Bu elə bir hüquqdur ki, hələ də onları yerinə yetirməkdən asudəlik tapmamışam. Bunlar yerinə yetirilməli olduğum vacibat və vəzifələrdir. Mənimlə, dikbaş hökmdarlarla danışılan kimi danışmayın. Əsəbi hökmdarların

---

571 Kənzul-Umal, hədis 8331
572 əl-Muhəccətul-Beyza, c.5, səh. 284
573 Tənbihul-Xəvatir,c.2, səh. 122
574 Sunəne ibn Mace, hədis 3742
575 Kənzul-Ummal, hədis 8339
576 Tuhəful-Uqul, səh. 208
577 Ğurərul-Hikəm, hədis(3984+3983)

hüzurunda edilən mühafizəkarlığı mənim yanımda etməyin və mənimlə riyakarcasına, yaltaqlıqla rəftar etməyin.»[578]

5735. Imam Əli (ə) *(Bir dəstə, yanında onu tərifləyərkən):* «Ilahi! Sən məni özümdən yaxşı tanıyırsan, mən də özümü onlardan yaxşı tanıyıram. Ilahi! Bizi onların güman etdiklərindən daha yaxşı et. Onların barəmizdə bilmədiklərini də bizə bağışla.»[579]

5736. Imam Səccad (ə): «Mömin sakit olar ki, sağ qalsın və söz danışar ki, xeyir götürsün… Əgər təmizliklə öyünsə, deyilənlərdən qorxar və bilmədikləri barədə Allahdan bağışlanmaq dilər. Onu tanıyanın (və ya tanımayanın) sözü onu aldatmaz, əməllərinin (axirətdə) sadalanmasından qorxar.»[580]

### *1627. Başqalarını yersiz tərifləmək.*

5737. Allahın Peyğəmbəri (s): «Ey Məsudun oğlu! Belə olmadığın halda, camaat səni tərifləyib «gündüzlər oruc tutur, gecələr ibadət edir» desə, sevinmə. Çünki Allah-taala buyurub: Etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə təriflənməyi sevən kimsələrin əzabdan xilas olacağını güman etmə. Onları şiddətli bir əzab gözləyir.[581]»[582]

5738. Imam Əli (ə): «Kim səndə olmayan şeylərə görə səni tərifləsə, əgər aqil olsan, bu (əslində) səni pisləməkdir.» [583]

5739. Imam Əli (ə): «Yersiz yerə səni tərifləyib mədh edəndən çəkin. Çünki çox keçməz ki, yenə də yersiz yerə (onun tərəfindən) hörmətin və abrın tökülər.»[584]

5740. Imam Əli (ə) *(Malik Əştərə məktubundan bir hissə):*«Ibadət və düzlük əhlinə qoşul. Onları elə tərbiyələndir ki, səni öyməkdə mübaliğəyə yol verməsinlər və görmədiyin boş-boş işlərlə qəlbini şadlandırmasınlar. Çünki çox tərif xudpəsəndlik gətirər və dikbaşlığa, təkəbbürə çəkər.»[585]

5741. Imam Baqir (ə) *(Cabir ibn Yəzid Cufiyə):* «Bil ki, bütün yerlilərin sənin əleyhinə əlbir olub "sən pis adamsan" deyəndə kədərlənməyənə, "sən yaxşı adamsan" desələr şadlanmayana qədər bizim dostumuzsan (ardıcıllarımızdan). Sən özünü Quranla ölç. Onun yolunu gedirsənsə, səni e'tinasızlığa çağırdığı şeylərə e'tinasız, həvəsləndirdiyi şeylərə rəğbətlisənsə möhkəm dayan və şad ol! Çünki sənin barəndə deyilənlər sənə ziyan yetirməz. Yox əgər Qurandan ayrı olsan, nəyə görə camaatın yalanlarına aldanmalısan?»[586]

---

[578] Nəhcül-Bəlağə, xütbə 216.
[579] Nəhcül-Bəlağə, hikmət100
[580] əl-Kafi, c. 2, səh. 231, hədis 3
[581] Ali-Imran, ayə 188
[582] Məkaremul-Əxlaq, 2 353, səh. 2660.
[583] Ğurərul-Hikəm, hədis 9042
[584] Tənbihul-Xəvatir, c.2, səh.17
[585] Nəhcül-Bəlağə, məktub 53
[586] Tuhəful-Uqul, səh. 284

5742. Imam Əskəri (ə): «Kim tərifəlayiq olmayan şəxsi tərifləyərsə özünü ittiham və bədgümanlığa tuş gətirmişdir.»[587]

***1628. Pis əməl sahiblərini tərifləməkdən çəkinmək***

5743. Allahın Peyğəmbəri (s): «Pis əməl sahibi təriflənəndə ərş titrəyər və Allah qəzəbə gələr.»[588]

5744. Allahın Peyğəmbəri (s): «Kim zalım hökmdarı mədh etsə və təmənnasına görə özünü onun qarşısında zəif göstərib alçaltsa, cəhənnəm oduna səfərdə ona yoldaş olacaq.»[589]

***1629. Özünü öyməyin qadağan olunması***

**Quran**:

«Kiçik günahlarından başqa, böyük günahlardan və rəzil əməllərdən çəkinənlər. Həqiqətən Rəbbinin (onlara qarşı) mərhəməti genişdir. O, sizi torpaqdan yaratdığı andan bəri, ananızın qarınlarında (bətnlərində) gizlin olduğunuz vaxtda belə sizin (halınızı) çox yaxşı bilir. Belə isə özünüzü təmiz saymayın. O, pis əməllərdən çəkinənlərin kim oldüğunu gözəl biləndir.»[590]

**Hədis:**

5745. Allahın Peyğəmbəri (s): «Kim bütün insanlardan yaxşıyam» desə, insanların ən pisidir. Kim "mən cənnət əhliyəm" desə, o, cəhənnəmlikdir.»[591]

5746. Imam Sadiq (ə) *(«Özünüzü pak sanmayın...» ayəsi haqda suala cavabından):* «Insanın "dünən gecə namaz qıldım, dünən oruc tutdum» və buna bənzər sözlər deməsi kimi. Həzrət sonra buyurdu: Bir dəstə var idi ki, onlar səhər açılan kimi deyirdilər: biz dünən gecə namaz qıldıq,oruc tutduq. Bu zaman Əli (ə) (kinayə ilə) buyurdu: Ancaq mən gecə-gündüz yatıram. Gündüzlə gecənin arasında da bir fürsət tapan kimi yenə də yatıram.»[592]

ιooooooπ

[587] Ə'lamuddin, səh.313
[588] Tuhəful-Uqul, səh. 46
[589] Əmali-Səduq , səh.347 , hədis1
[590] Nəcm, ayə 32.
[591] Nəvadirul-Ravəndi, səh.11
[592] Məanil-Əxbar, səh.243, hədis1

**361**

# Qadın

***1630. Quranda qadınla kişinin bərabər olması.***

5747. Məqatil bin Həyyan: «Əsma bint Umeys öz əri Cəfər ibn Əbutaliblə Həbəşistandan qayıdandan sonra Allahın Peyğəmbərinin (s) arvadlarının yanına gedib dedi: «Bizim (qadınlar) barədə də Quranda bir şey varmı?» Dedilər: «Yox.» Əsma Allahın Peyğəmbərinin (s) yanına gəlib ərz etdi: «Ey Allahın Peyğəmbəri, qadınlar məhrum və uduzmuşlardır!» Buyurdu: «Nəyə görə?» Ərz etdi: «Çünki onları kişilər kimi yaxşılıqla xatırlamırlar.» Sonra Allah-taala bu ayəni «Həqiqətən, Allah müsəlman kişilər və qadınlar…»[593] ayəsini nazil etdi?»[594]

5748. əd-Durrul-Mənsur: «Beyhəqi Yəzid Ənsarinin qızı Əsmadan nəql edir ki, o, səhabələri ilə əyləşmiş Peyğəmbərin (s) yanına gəlib dedi: Atam, anam sənə fəda olsun! Mən qadınların təmsilçisi kimi sizin yanınıza gəlmişəm sənə fəda olum, bilirəm ki, dünyanın şərqində və qərbində elə bir qadın yoxdur ki, mənim sözlərimi eşidəndə mənimlə həmrəy olmasın. Allah səni haqdan, qadınlara və kişilərə göndərdi və biz də sənə və səni göndərən Allaha iman gətirdik. Biz qadın tayfası məhdud və hasarlıyıq, sizin evinizin bir əşyasıyıq və sizin istəklərinizi yerinə yetirir, övladlarınıza hamilə oluruq. Ancaq siz kişilərin bizdən üstünlükləri var. Məsələn, cümə və camaat namazları qılır, xəstələri yoluxmağa gedir, dəfn mərasimlərində iştirak edir, dalbadal həccə gedirsiniz. Bunlardan ən üstünü isə Allah yolunda cihaddır. Siz kişilər həcc və ya ümrə ziyarəti, yaxud Allah yolunda cihad üçün evdən bayıra çıxanda biz sizin mallarınızı qoruyur, paltarlarınızın parçasını toxuyur, övladlarınıza tərbiyə veririk. Bəs, ey Allahın Peyğəmbəri əcr və savabda necə sizlərə şərik deyilikmi?

Peyğəmbər (s) üzünü bütünlüklə səhabələrinə tutub buyurdu: Indiyə qədər bir qadının öz dini işlərinə aid suallar haqda belə gözəl danışdığını eşitmişdinizmi? Ərz etdilər: Ey Allahın Peyğəmbəri, qadının bu pilləyə qədər gəlib çatacağını güman etməzdik!

Sonra Peyğəmbər (s) üzünü Əsmaya tutub buyurdu: Ey qadın, qayıt və səni nümayəndə kimi göndərənlərə de ki, siz qadınların hər birinin ərinə yaxşı baxmağı, ərini özündən razı salmağı, onun (hər hansı bir işdə) müvafiq fikrinə tabe olmağı (kişilər üçün adını çəkdiyin) bütün bu işlərə bərabərdir. Əsma

---

[593] Əhzab, ayə35

[594] Nurus-Səqəleyn, c.4, səh.277, hədis113

sevincindən təhlil (La ilahə illəllah deməkik) və təkbir (Allahu Əkbər) deyə-deyə qayıtdı.»[595]

5749. Əbu Səid Xudrı: «Bir qadın Allahın Reyğəmbərinin (s) yanına gəlib ərz etdi: Ey Rəsuləllah! Kişilər Sizin sözlərinizdən faydalanırlar. Bir gün də bizimçün təyin et ki, hüzurunuza gələk və Allahın sizə öyrətdiyindən bizə də öyrədəsən. Peyğəmbər buyurdu: Filan gün, filan yerdə toplaşın. Qadınlar təyin olunan gün toplaşdılar və Peyğəmbər (s) onların yanına gedib Allahın təlimlərini onlara öyrətdi.»[596]

### *1631. Qadınların ən yaxşı xislətləri*

5750. Imam Əli (ə): «Qadınların ən yaxşı xüsusiyyətləri kişilərin ən pis xüsusiyyətləridir: Qürur, qorxaqlıq və xəsislik. Çünki qadın məğrur olsa özünü (naməhrəmin) ixtiyarına verməz. Xəsis (tutumcul) olsa, özünün və ərinin malını saxlayar, qorxaq olsa başına gələn (bədnamlığına səbəb ola biləcək) hər şeydən qorxar.»[597]

### *1632. Idarəçiliyin qadına tapşırılmasının qadağan olunması*

5751. Allahın Peyğəmbəri (s): «Öz işlərinin cilovunu qadınların əlinə verən kişi heç vaxt nicat və qurtuluşun üzünü görməz.»[598]

5752. Allahın Peyğəmbəri (s): «Öz işini qadına tapşıran camaat heç vaxt qurtuluşun üzünü görməz.»[599]

5753. Imam Əli (ə): «Qadına onun gücündən artıq olan işi tapşırma. Çünki o, işçi deyil, bir güldür. Onu əzizləməkdə də həddini aşma və elə eləmə ki, (sənin yanında) kimisə şəfaət etməyə cürət etsin.»[600]

### *1633. Qadını sevməyin təriflənməsi*

5754. Allahın Peyğəmbəri (s): «Bəndənin imanı artdıqca, onun qadına olan sevgisi də artar.»[601]

5755. Imam Sadiq (ə): «Kimin bizə məhəbbəti artarsa, qadın və halvaya məhəbbəti də artar.»[602]

5756. Imam Sadiq (ə): «Qadın sevgisi peyğəmbərlərin (s) əxlaqındandır.»[603]

### *1634. Qadın sevgisinin pislənilməsi*

5757. Allahın Peyğəmbəri: «Iblisin qadınlardan və qəzəbdən böyük ordusu yoxdur.»[604]

---

595 əd-Durətul-Mənsur, c.2, səh.518
596 ət-Tərğib-vət-Tərhib, c.3, səh.76, hədis 6
597 Nəhcül-Bəlağə, hikmət 234
598 Səhihe-Buxari, hədis 4163
599 Tuhəful-Uqul, səh.35
600 Nəhcül-Bəlağə, məktub 31.
601 Nəvadirul-Ravəndi, səh.12
602 Mustətrəfatus-Səraer, səh.143, hədis8
603 əl-Kafi, c. 5, səh.320 , hədis 1
604 əl-Kafi, c.5, səh.515, hədis5

5758. Imam Əli (ə): «Fitnələr üç növdür: Qadın sevgisi; bu şeytanın qılıncıdır… Kim qadın sevən olsa həyatından bəhrə götürməz.»[605]

5759. Imam Əli (ə): «Qadınlara məftun olmaqdan və dünya ləzzətlərinə hərislikdən çəkin. Çünki qadınlara məftun olan əziyyət və möhnət içində, ləzzətlərə həris olan isə xar olar.»[606]

ιooooooπ

[605] əl-Xisal, səh.113 , hədis 91
[606] Ğurərul-Hikəm, hədis2721

# 362

# Mərdlik

***1635. Mərdliyin izahı.***

5760. Allahın Peyğəmbəri (s) *(Səqif qəbiləsindən olan bir kişiyə):* «Ey Səqifli kişi! Sizlərdə mərdlik nə ilə ölçülür?» Ərz etdi: «Ey Allahın Peyğəmbəri! Insaflı olmaq və islah etməklə.» Həzrət buyurdu: «Bizdə də belədir.»[607]

5761. Imam Əli (ə) *(«Mərdlik nədir?» sualına cavabından):* «Aşkarda görməyə xəcalət çəkdiyin işi gizlində də görməyəsən.»[608]

5762. Imam Əli (ə): «Dinində fəqih və bilən, həyatında mötədil, qarşılaşdığı ağır hadisələrdə dözümlü olmayana, qardaşlarının acısı ona şirin gəlməyənə qədər kişinin mərdliyi kamil olmaz.»[609]

5763. Imam Əli (ə): «Mərdlik mülayimlik və xoş rəftarla kamilləşər.»[610]

5764. Imam Əli (ə): «Mərdlik sədaqət və doğruluqla kamilləşər.»[611]

5765. Imam Həsən (ə) *(mərdlik barədə suala cavabından):* «Dinin qorunması, insanın izzəti, yumşaqlıq, yaxşı və xeyir işlərdə davamlılıq, haqqı qaytarmaq və camaatla dostluqdur.»

5766. Imam Sadiq (ə) *(mərdlik barədə suala cavabından):* «Allahın səni qadağan etdiyi yerdə görməməsi, əmr etdiyi yerlərdə tapmasıdır.»[612]

---

607 Kənzul-Ummal,hədis 8763
608 Tuhəful-Uqul, səh. 223
609 Tuhəful-Uqul, səh. 223
610 Ğurərul-Hikəm, hədis4201
611 Ğurərul-Hikəm, hədis4224
612 Tuhəful-Uqul, səh. 225

363

# Xəstəlik

***1636. Xəstəlik***

5767. Allahın Peyğəmbəri: «Xəstə şəxsin günahları ağacın yarpaqlarıtək tökülər.»[613]

5768. Imam Əli (ə): «Xəstəlik iki zindandan biridir»[614]

5769. Imam Baqir ya Imam Sadiq (ə): «Bir gecəni xəstəlikdən və ya ağrıdan yatmamağın əcri bir ilin ibadətindən daha üstündür.»[615]

5770. Imam Kazim (ə): «Mömin xəstələndikdə Allah onun sol çiynindəki mələyə vəhy buyurar ki, həbsdə və mənim bəndimdə olduğu müddətdə bəndəm üçün heç bir günah yazma! Sağ çiynindəki mələyə də vəhy buyurar ki, bəndəm sağlam olduğu vaxt yazdığın xeyir əməlləri onunçun yaz.»[616]

***1637. Xəstəliyi gizli saxlamaq.***

5771. Allahın Peyğəmbəri: «Yaxşılıqların xəzinələrindən biri də müsibətləri, xəstəlik və sədəqələri gizli saxlamaqdır.»[617]

5772. Allahın Peyğəmbəri: «Kim üç gun xəstə olsa və ondan yoluxa bilənlərin heç birinə şikayətlənməsə, qanını, sümüyünü daha yaxşı qan və sümüklə əvəz edər. Ona sağlamlıq bəxş etsəm, günahsız bir sağlıq verərəm. Canını alsam, onu Öz rəhmətimin kənarına apararam.»[618]

5773. Imam Əli (ə): «Kim ona üz verən dərdi üç gün camaatdan gizlətsə və Allaha şikayət etsə, onun dərdini sağaltmaq Allahın işidir.»[619]

5774. Imam Əli (ə): «Öz xəstəliyini həkimlərdən gizlədən, bədəninə xəyanət etmişdir.»[620]

5775. Imam Əli (ə): «Özünün gizlin dərdini gizlədən kimsə, təbibini onu müalicə etməkdə acız qoyar.»[621]

---

613 ət-Tərğib vət-Tərhib, c.4, səh. 293 , hədis 56

614 Ğurərul-Hikəm, hədis1636

615 əl-Kafi, c.3, səh.114 , hədis6

616 əl-Kafi, c.7, səh.114 , hədis7

617 Mustədrəkul-Vəsail, c.2, səh.68 , hədis1435

618 əl-Kafi, c.3, səh.115 , hədis1

619 əl-Xisal, səh.630, hədis10

620 Ğurərul-Hikəm, hədis8545

621 Ğurərul-Hikəm, hədis8612

***1638.Ağrısızlıq dərdi.***

5776. «Əd-Dəvat»: «Davud (ə) deyərdi: Ilahi! Nə məni ağırlaşdırıb yatağa salan xəstəlik, nə də məni (səni xatırlamaqda) qəflətə çəkən sağlamlığı deyil, bunların arasındakı bir həddi (nəsibim et).» [622]

5777. Allahın Peyğəmbəri: «Sağlam qalmaq üçün ağrı kifayət edər.»[623]

5778. Allahın Peyğəmbəri: «Allah canına və malına bir ziyan çatmayan divsifət, murdar adama nifrət edər.» [624]

5779. Imam Baqır (ə): «Bədən xəstələnməzsə, məst olar. Xəstəliyə düçar olmayan və məst bədəndə xeyir olmaz.»[625]

***1369. Xəstəni yoluxmaq.***

5780. Allahın Peyğəmbəri (s): «Xəstəni yoluxan (Allahın) rəhmətə bürünər.»[626]

5781. Allahın Peyğəmbəri (s): «Allah qiyamət günü buyuracaq: Ey Adəm övladı! Mən xəstələndim, ancaq sən yoluxmağa gəlmədin? Ərz edəcəklər: Pərvərdigarə, sən dünyaların Rəbbi (və xəstələnmədiyin) olduğun halda necə Səni yoluxmadıq? Allah buyuracaq: Bəs bilmirdin ki, filan bəndəm xəstələndi və onu yoluxmadın? Məgər bilmirsənmi ki, onu yoluxmağa getsəydin Məni orada görəcəkdin?»[627]

5782. Imam Sadiq (ə): «Kim xəstəni yoluxmağa gedərsə, yetmiş min mələk onu müşayiət edər və öz mənzilinə qayıdana qədər onun bağışlanmasını diləyər.»[628]

***1640. Yoluxmağın qaydaları.***

5783. Allahın Peyğəmbəri (s): «Ən yaxşı baş çəkmək odur ki, yüngül keçirilsin.»[629]

5784. Allahın Peyğəmbəri (s): «Xəstəni yoluxmağa gedin və dəfndə iştirak edin ki, axirəti sizin yadınıza salsın.»[630]

5785. Imam Əli (ə): «Allah yanında ən yaxşı mükafat, xəstəni yoluxan elə kimsənindir ki, qardaşına baş çəkməyə getsə, onun yanında az müddət qalsın. Yalnız xəstənin özü bunu istəsin və daha çox qalmasını ondan xahiş etsin.»[631]

5786. Imam Sadiq (ə): «Xəstəyə baş çəkməyin vaxtı, dəvənin döşlərinin damarının dolması və ya sağılması müddəti qədər olmalıdır.»[632]

---

[622] əd-Də‘vat, səh.134 , hədis334
[623] Tənbihul-Xəvatir, c.2, səh.7
[624] əd-Də‘vat, səh.172, hədis482
[625] Muşkatul- Ənvar, səh.280
[626] Kənzul-Ummal , hədis25141
[627] ət-Tərğib və ət-Tərhib, c.4, səh.317 , hədis3
[628] əl-Kafi, c.3, səh.120 , hədis2
[629] Kənzul-Ummal,hədis 25139
[630] Kənzul-Ummal,hədis 25143
[631] əl-Kafi, c.3, səh.118 , hədis 6
[632] əl-Kafi, c.3, səh.118, hədis 2

5787. Imam Sadiq (ə): «Kamil yoluxmaq budur ki, əlini xəstənin biləyinə qoyasan və tez bir zamanda onun qabağından qalxasan. Çünki axmaqların baş çəkməsi xəstə üçün öz dərdindən daha ağırdır.»[633]

5788. «Munyətul Murid»: Imam Sadiqin (ə) tərəfdarlarından biri deyir: «Həzrətin dostlarından biri xəstələndi və biz, imamın dostlarından bir dəstə onu yoluxmağa getdik. Yolda Imam Sadiqlə (ə) rastlaşdıq. Bizdən soruşdu: Hara gedirsiniz? Ərz etdik ki, filankəsi yoluxmağa gedirik. Buyurdu: Daya-nın. Biz dayanlıq. Həzrət buyurdu: Sizlərdən kimsədə alma, heyva, turunc, bir az ətir və ya  varmı? Ərz etdik ki, üstümüzdə belə şey yoxdur. Həzrət buyurdu: Məgər bilmirsinizmi ki, xəstə ona bir şey aparanda rahatlıq tapar.»[634]

ιooooooπ

[633] əl-Kafi, c.3, səh.118, hədis4
[634] əl-Kafi, c.3, səh.118, hədis3

**364**

# Çəkişmək

***1641. Çəkişmənin pislənməsi.***

5789. Allahın Peyğəmbəri (s): «Heç bir bəndə haqq onda olsa belə, çəkişmədən əl çəkməsə, imanın tam həqiqətinə çatmaz.»[635]

5790. Allahın Peyğəmbəri (s): «Insanların ən ibadətkarı, haqlı olsa belə, çəkişməni buraxandır.»[636]

5791. Imam Əli (ə): «Çəkişmək və mübahisə etməkdən çəkinin! Çünki bu iki iş ürəklərdə qardaşlara qarşı xəstəlik yaradar və nifaq cücərdər.»[637]

5792. Imam Əli (ə): «Kim öz abrını istəyirsə, çəkişməyi buraxmalıdır.»[638]

5793. Imam Əli (ə): «Altı nəfər var ki, onlarla çəkişmək lazım deyil: fəqih, rəis, alçaq adam, acıdil, qadın və uşaq.»[639]

5794. Imam Sadiq (ə): «Insanın, haqlı olsa da çəkişməni buraxması…. təvazökarlıqdır.»[640]

5795. Imam Hadi (ə): «Çəkişmək köhnə dostluğu da aradan götürər, möhkəm telləri bir-birindən qoparar. Onda olan ən azacıq şey, üstünlüyə çalışmaqdır və bunun özü əlaqənin kəsilməsinin başlıca amilidir.»[641]

5796. Imam Əskəri (ə): «Mübahisə etmə ki, hörmətin itər. Zarafat etmə ki, sənə qarşı həyasız olarlar.»[642]

ıooooooπ

---

[635] Munyətul-Murid, səh.171
[636] Əmali-Səduq, səh.28 , hədis4
[637] əl-Kafi, c. 2, səh.300, hədis1
[638] Nəhcül-Bəlağə, hikmət 362
[639] Ğurərul-Hikəm, hədis5634
[640] Məaniəl-Əxbar, səh.381 , hədis9
[641] Ə‘lamuddin, səh. 311
[642] Tuhəful-Uqul, səh.486

**365**

# Zarafat

***1642. Zarafatın təqdir olunması.***

5797. Allahın Peyğəmbəri (s): «Mən zarafat edirəm, ancaq haqqdan başqa bir şey demirəm.»[643]

5798. Allahın Peyğəmbəri (s): «Mömin şən və zarafatcıl, münafiq isə qaşqabaqlı və acıqlı olar.»[644]

5799. «Tənbihul-Xəvatir»: Bir qoca qarı Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər ona buyurdu: «Qocalar cənnətə getməz.» Qoca qarı ağladı. Həzrət buyurdu: «Həmin gün sən qoca olmayacaqsan. Allah-taala buyurub ki, «Biz onları yaradılası kimi yaratdıq və onları gənc qızlar edəcəyik.[645]»[646]

5800. Imam Baqır (ə): «Allah, camaat arasında zarafat və məzəli söhbət edəni sevir. Bir şərtlə ki, (onda) söyüş olmasın.»[647]

5801. Imam Sadiq (ə): «Elə bir mömin yoxdur ki, onda «duabə» olmasın.» (Rəvayətçi deyir). Ərz etdim: «Duabə nədir?» Buyurdu: «Zarafatcıllıq»[648]

5802. Imam Baqır (ə) *(Yunis Şeybaniyə xitabən):* «Bir-birinizlə zarafat da edirsinizmi?» (Yunis deyir) Ərz etdim: «Bir az.» Buyurdu: «Belə etməyin. Çünki zarafat xoşbəxtlikdəndir və sən bu yolla qardaşını sevindirirsən. Allahın Peyğəmbəri (s) kimsəni sevindirmək üçün onunla zarafat edərdi.»[649]

***1643. Zarafatın pislənilməsi.***

5803. Allahın Peyğəmbəri (s): «Ey Əli! Zarafat etmə ki, hörmət-ehtiramın aradan getməsin. Yalan da danışma ki, nuraniliyin itməsin.»[650]

5804. Allahın Peyğəmbəri (s): «Çox zarafat etmək abrı aparar.»[651]

5805. Imam Əli (ə): «Əqlinin bir hissəsini çölə atandan başqa, heç kim zarafat etmədi.»[652]

5806. Imam Əli (ə): «Zarafatın yerində kin qalar.»[653]

---

[643] Nəhcül-Bəlağənin şərhi, c.6, səh.330
[644] Tuhəful-Uqul, səh. 49
[645] Vaqiə, ayə 36
[646] Tənbihul-Xəvatir, c. 1, səh.112
[647] əl-Kafi, c. 2, səh.663 , hədis 4
[648] əl-Kafi, c. 2, səh.663 , hədis 2
[649] əl-Kafi, c. 8, səh.663, hədis 3
[650] Məkarimul-Əxlaq, c.2, səh.321 , hədis 2656
[651] Əmali-Suduq, səh. 223, hədis 4
[652] Nəhcül-Bəlağə, xütbə 450.
[653] Tuhəful-Uqul, səh. 86

5807. Imam Əli (ə): «Kim zarafat edərsə, yüngül olar.»[654]

5808. Imam Əli (ə): «Nə qədər çox zarafat var ki, mübahisə ilə nəticələnir.»[655]

5809. Imam Sadiq (ə): «Zarafat kiçik söyüşdür.»[656]

5810. Imam Sadiq (ə): «Zarafat etmə! Çünki nuraniliyin aradan gedər.»[657]

5811. Imam Sadiq (ə): «Kimdən xoşun gəlsə, onunla nə zarafat et, nə də mübahisə.»[658]

ιooooooπ

---

[654] Biharul-Ənvar, c.77, səh. 235 , hədis 3

[655] Tuhəful-Uqul, səh. 85

[656] əl-Kafi, c. 2, səh.665 , hədis 15

[657] Əmali-Səduq, səh. 436 , hədis 3

[658] əl-Kafi, c. 2, səh.664, hədis 9

**366**

# Padşahlıq

***1644. Padşah.***

**Quran**:

«De ki: Ey mülkün sahibi olan Allah! Istədiyin kimsəyə hakimiyyət verərsən, istədiyindən də geri alarsan. Istədiyin hər kəsə izzət bəxş edir və istədiyini xar edirsən. Bütün yaxşılıqlar Sənin əlindədir və Sən hər şeyə qadirsən.»[659]

«Göylərin  və yerin hakimiyyəti Allahın əlindədir. (Hamının) Dönüş Allaha tərəfdir.»[660]

**Hədis:**

5812. Allahın Peyğəmbəri:  (s) «Allahdan başqa kimsənin şah olmadığı halda şahlar şahı olduğunu iddia edənə Allahın qəzəbi ağır olar.»[661]

5813. Imam Əli (ə): «Ondan (Allahdan) qeyri hər bir ağa, nökərdir.»[662]

***1645. Şahlarla ünsiyyət.***

5814. Imam Əli (ə): «Məbada, şahlarla çox gediş-gəlişin olsun! Çünki əgər onlarla həmsöhbət olsan səni kədərləndirərlər. Onlarla həmrəy olsan, sənə hiylə gələrlər.»[663]

5815. Allahın Peyğəmbəri (s): «Şahların yanında məqamı olmaq, möhnət və əziyyətin açarı, fitnənin toxumudur.»[664]

5816.Imam Sadiq (ə): «Dənizin qonşusu, padşahın dostu və sağlamlığın qiyməti yoxdur.»[665]

***1646. Hökmdarların ən yaxşısı.***

5817. Imam Əli (ə): «Hökmdarların ən yaxşısı, öz nəfsinə hökmran olanı və ədaləti yayandır.»[666]

5818. Imam Əli (ə): «Ən yaxşı padşah odur ki, zülmü öldürüb ədaləti diriltsin.»[667]

---

659 Ali-Imran, ayə 26.
660 Nur, ayə 42.
661 Kənzul-Ummal,hədis 45244
662 Nəhcül-Bəlağə, xütbə 65.
663 Ğurərul-Hikəm, hədis10321
664 Ğurərul-Hikəm, hədis2184
665 əl-Xisal, səh. 223, hədis 51
666 Ğurərul-Hikəm, hədis3206
667 Ğurərul-Hikəm, hədis5005

5819. Imam Əli (ə): «Şahların ən yaxşısı odur ki, camaat onun dövründə yaxşı həyat sürsün və öz ədalətini rəiyyəti arasında yaysın.»[668]

5820. Imam Sadiq (ə): «Padşahların ən üstünü, bu üç xislətə sahib olanıdır: mehribanlıq, bağışlanmaq və ədalət.»[669]

***1647. Hökmranlıq (digər məsələlər).***

5821. Allahın Peyğəmbəri (s): «Insanların ən bədbəxti padşahlardır.»[670]

5822. Imam Əli (ə): «Padşahların işi, qoşunundan əvvəl öz siyasəti və tərbiyəsi ilə məşğul olmaqdır.» [671]

5823. Imam Əli (ə): «Hər kim öz hakimiyyətini dininə xidmətinə çevirsə, hər sultan ona müti olar. Kim öz dinini hakimiyyətinə xidmətə çevirsə, hər insan ona tamah salar.»[672]

5824. Imam Əli (ə): «Padşahların eybi pis rəftar, vəzifələrin eybi isə pis fikirləridir»[673].

5825. Imam Əli (ə): «Hakimiyyət ədalət üzərində qurularsa və ağıl sütunlarına söykənərsə, Allah onu sevənlərə kömək olar, düşmənlərini isə kimsəsiz qoyar.»[674]

ıoooooπ

[668] Ğurərul-Hikəm, hədis3261
[669] Tuhəful-Uqul, səh. 319
[670] Muşkatul- Ənvar, səh. 226
[671] Ğurərul-Hikəm, hədis4940
[672] Ğurərul-Hikəm 3929, 3928
[673] Ğurərul-Hikəm, hədis4118
[674] Ğurərul-Hikəm, hədis4118

**367**

# Mələklər

***1648. Mələklərin yaradılması.***

**Quran**

«Həmd olsun göyləri, yeri, iki, üç, dörd qanadlı mələkləri elçi göndərən Allaha! Məxluqatda istədiyini artırar. Çünki Allah hər şeyə qadirdir.»[675]

**Hədis:**

5826. Imam Əli (ə): «Sonra Pak olan Allah öz səmalarında yerləşdirmək və Özünün uca qeyb aləminin səmasını abadlaşdırmaq üçün misli görünməmiş, heyrətamiz varlıqları, yəni mələkləri yaratdı.Mələklərin vasitəsilə səmaların geniş yollarının çatlarını doldurdu, səmaların fəzaları arasındakı məsafəni onlarla aşırıb daşırdı.»[676]

5827. Imam Sadiq (ə): «Allah mələkləri nurdan yaratdı.»[677]

5828. Imam Sadiq (ə): «Allah mələklərdən daha çox olan heç bir varlıq yaratmamışdır.»[678]

5829. Imam Sadiq (ə): «Canım onun əlində olana and olsun ki, səmalarda olan mələklərin sayı yerdə olan torpağın (zərrələrinin) sayından çoxdur. Səmada bir qarış da yer yoxdur ki, orada mələklər Allaha təsbih deməsinlər. Yer üzündə elə bir ağac və torpaq yoxdur ki, ona təyin edilmiş bir mələk olmasın.»[679]

***1649. Mələklərin sifətləri.***

5830. Imam Əli (ə) *(Mələkləri vəsf edərkən):* «Onlar yaradılmışlardan Səni ən çox tanıyanı, Səndən ən çox qorxanı və Sənə ən yaxın olanlarıdır. Nə (kişilərin) bellərdə, nə də uşaqlıqlarda olmayıb, murdar sudan yaradılmayıb, ruzigarın hadisələrindən pərişan olmayıblar. Onlar Sənin yanındakı məqam və mənzillərinə, bütün vücudları Sənə eşq olmalarına, Sənə ibadətlərinin çoxluğuna, Sənin işlərindən qəflətlərinin azlığına baxmayaraq Sənin onlardan gizlin olan həqiqətlərini və zatını görsələr, şübhəsiz öz əməllərini kiçik sayarlar.»[680]

5831. Imam Sadiq (ə): «Mələklər nə yeyir, nə içir və nə də evlənirlər. Onlar ərşin yeli ilə yaşayırlar.»[681]

---

675 Fatir, ayə 1
676 Nəhcül-Bəlağə, xütbə 91
677 əl-Ixtisas, səh.109
678 Əmali-Tusi, səh.214 , hədis372
679 Biharul-Ənvar, c.59, səh.176, hədis 7
680 Nəhcül-Bəlağə, xütbə109
681 Qommi təfsiri, c.2, səh.206

***1650. Qoruyan mələklər.***

**Quran**

«Bəndələrinə hakim (və qalib) olan Odur. Sizinçün gözətçilər göndərdi ki, birinizin ölümü çatanda onun canını alsın. Onlar bu işdə heç bir əksikliyə yol verməzlər.»[682]

**Hədis:**

5832. Imam Baqir (ə) *(«Insan üçün, onu öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar.»[683] ayəsi haqda):* «Allahın əmri ilə onu quyuya düşməkdən, ya başına divar uçmaqdan və ziyandan qoruyurlar. Ancaq elə ki, əcəli çatdı, onu əcəli ilə tək qoyub müqəddəratına doğru qovurlar. Bu təqib edənlər, onu gecələr qoruyan iki mələkdən və gündüzlər mühafizə edən iki mələkdən ibarətdir. Bu işi də növbə ilə görürlər.»[684]

5833. «Təfsirəl Qommi»: «Sizin üstünüzdə gözətçi mələklər»[685] (Məsum (ə)) Buyurdu: «Yəni, insan üçün təyin olunmuş iki mələk, «yazan və çox hörmətli olan mələklər»[686] vardır. (Yəni) Yaxşı və pis əməlləri yazan mələklərdir.»[687]

***1651. Mələklərin girmədikləri evlər.***

5834. Allahın Peyğəmbəri (s): «Cəbrayıl (ə) mənim yanına gəlib dedi: Ey Məhəmməd! Dişlərinə misvak vurmadığınız, su ilə təharət etmədiyiniz və pis barmaqlarınızı yumadığınız halda, mələk necə yanına gəlsin?»[688]

5835. Imam Baqir (ə): «Cəbrayıl dedi: Ey Allahın Peyğəmbəri! Biz orada insan təsviri olan otağa, sidik olan yerə və itin olduğu evə girmərik.»[689]

ιooooooπ

---

[682] Ə‘nam, ayə 61

[683] Rəd, ayə 11

[684] Biharul-Ənvar, c. 59, səh.179 , hədis16

[685] Infitar, ayə 10

[686] Infitar, ayə 11

[687] Qommi təfsiri, c.2, səh.409

[688] Nəvadirul-Rəvəndi, səh.40

[689] əl-Kafi, c.3, səh.393, hədis26

**368**

# Ölüm

***1652. Ölüm***

**Quran:**

(Allah) Ölümü və həyatı yaratdı ki, sizlərdən hansınızın yaxşı əməl sahibi olduğunu sınasın. O, izzət sahibi və bağışlayandır.»[690]

**Hədis:**

5836. Allahın Peyğəmbəri (s): «Sizlərdən kimsə öldükdə onun qiyaməti başlayır. Ona görə də Allaha elə ibadət edin ki, sanki Onu görürsünüz və hər an Ondan rəhmət diləyirsiniz.»[691]

5837. Allahın Peyğəmbəri (s): «Kim nə ilə (əməl və sifətlə) ölərsə, Allah da onu həmin şeylə dirildər.»[692]

5838. Imam Əli (ə): «Ölümlə (insanın) dünya başa çatır.»[693]

5839. Imam Əli (ə): «Ölüm axirətin darvazasıdır.»[694]

5840. Imam Sadiq (ə)*(«De ki: Ondan qaçdığınız ölüm, mütləq öz vaxtında sizi haqlayacaq.»[695] ayəsi haqda):* «Illəri sayırsan, sonra ayları, sonra da günləri sayırsan. Sonra saatları sayırsan, sonda da aldığın nəfəsləri. Əcəlləri çatanda nə bir saatını arxaya, nə də əvvələ ata bilməzlər.»[696],[697]

5841. Imam Sadiq (ə): «Keçmiş dövrlərdə bir dəstə insan öz peyğəmbərinə demişdi: «Dua et ki, Allah ölümü bizlərdən götürsün.» Həmin peyğəmbər da dua etdi və Allah ölümü onlardan götürdü. Sonra onlar o həddə artıb çoxalmağa başladılar ki, evləri darısqallıq etməyə başladı. Nəsilləri artdı. Səhər açılandan hər kəs öz ata-anasına, nənə-babasına, nənə babalarının ata-babalarına yemək verməklə, onları təmizləmək və onlara baxmaqla məşğul olurdu. Buna görə də işdən və qazancdan məhrum oldular. Sonra dedilər: «Allahından dilə ki, bizi əvvəlki halımıza qaytarsın.» Peyğəmbərləri də Allahdan xahiş etdi və Allah həmin camaatı əvvəlki halına qaytardı.»[698]

***1653.Ölümə yəqinlik.***

**Quran:**

---

690 Mülk, ayə 2.
691 Kənzul-Ummal,hədis 42123
692 Kənzul-Ummal,hədis 42721
693 Nəhcül-Bəlağə, 156.
694 Ğurərul-Hikəm, hədis319
695 Cümə, ayə 8
696 Ə‘raf, ayə 34
697 əl-Kafi, c.3, səh.262, hədis44
698 Biharul Ənvar, c.14 , səh.463 , hədis3

«Hər canlı ölümü (dadını) dadacaqdır. Həqiqətən də, qiyamət günündə mükafatlarınız tam olaraq sizlərə veriləcək. Oddan uzaq saxlanılan və cənnətə aparılanlar mütləq muradına çatacaqdır. Dünya həyatı yalanla dolu, alçaq bir məhsuldan başqa bir şey deyil.»[699]

5842. Imam Əli (ə): «Elə bir imanla qarışıq yəqinlik görmədim ki, bu insan üçün şübhəyə daha oxşar olsun. O, hər gün ölülərin cənazəsini qəbrə müşayət edir, gora tapşırır və bununla belə aldadıcı dünyaya üz tutur, şəhvət və günahlardan əl çəkmir. Əgər, binəva Adəm övladının nə törətməyə bir günahı, işində hesab-kitabı olmasaydı belə, elə onun nizamını pozan, dəstəsini pərən-pərən salan, övladlarını yetim qoyan ölümün özü, dünyadan uzaq durmasına layiq idi.»[700]

5843. Imam Əli (ə) *(Imam Həsənə (ə) tövsiyəsindən):–*«Ey oğlum! Bil ki, sən əslində dünya üçün deyil, axirət üçün yaradılmısan. Qalmaq üçün deyil, getməkçün və ya amaq üçün deyil, ölmək üçün xəlq olunmusan. Sən köçüləsi bir mənzildə, davamsız, müvəqqəti verilən bir sarayda, axirət yolunun üstündəsən. Sən ölümdən (təqib etdiyi) fərarisən. Ölüm elədir ki, nə qaçanı onun çəngindən xilas olar, nə də axtardığı əlindən çıxar, əksinə məcburən ona çatar. Ona görə qorx ki, ölüm, onlara görə tövbə edəcəyini və'd verdiyin günahların başında səni haqlasın və səni tövbə etməyə qoymasın. Bu vaxt özünü məhv etmiş olarsan.»[701]

5844. Imam Əli (ə): «Siz ölümün (təqib etdiyi) fərarilərisiz. Onunçün dayansanız sizi tutar, ondan qaçsanız da sizə çatar. O, sizin kölgənizdən sizə daha bitişikdir. Ölüm sizin alnınıza düyünlənmişdir.»[702]

5845. Imam Sadiq (ə): «Allah ölüm kimi elə bir şey yaratmayıb ki, əmin olmalarına və onda heç bir şəkk-şübhənin olmadığı halda, (azacıq belə) əminliyin olmadığı şəkkə bənzəsin.»[703]

### *1654. Köç vaxtı yaxındır.*

8546. Imam Əli (ə): «Sən həyata arxa çevirsən və ölüm sənə üz tutsa, görüş necə də tez müyəssər olar.»[704]

5847. Imam Əli (ə): «(Dünyadan) Köç vaxtı yaxındır.»[705]

5848. Imam Əli (ə): «Qeyblərdən heç nə ölüm qədər yaxın deyil.»[706]

### *1655. Ölümün izahı.*

5849. Imam Səccad (ə) *(«Ölüm nədir?» sualına cavabından):* «(Ölüm) Mömin üçün çirkin, bit-birəli paltarlarını bədənindən çıxarmaq, ağır zəncir və

---

699 Ali-Imran, ayə185

700 Biharul- Ənvar, c.6, səh.137, hədis 40

701 Nəhcül-Bəlağə, məktub 31

702 Nəhcül-Bəlağə, məktub 27.

703 Mən lə yəhzuhul fəqih, c.1, səh. 194, hədis 596

704 Nəhcül-Bəlağə, hikmət 29.

705 Nəhcül-Bəlağə, hikmət 187.

706 Biharul- Ənvar, c.71, səh. 263, hədis 2

halqaları çıxardaraq onları ən qiymətli, xoş ətirli paltarlarla, ən rahat yol gedən miniklərə və ən əmin-aman mənzillə dəyişməkdir. Kafir üçünsə, bədənindən qiymətli paltarı qoparıb atmaq, təhlükəsiz mənzillərdən köçmək və onları ən çirkin, ən cod paltarlarla, ən qorxunc mənzillər və ən böyük əzabla əvəz etməkdir.»[707]

5850. Imam Kazim (ə) *(Ölüm yatağında uzanmış bir kişinin yanına gedərkən):*«Ölüm, möminləri günahlarından təmizləyən bir saflaşdırıcıdır. Vücudunda olan son günahın kəffarəsi kimi ona çatır. Kafirləri də, yaxşılıqlarından təmizləyir və yaxşılığın son mükafatı kimi ona verilən son rahatlıq və asayişdir.»[708]

5851. Imam Cavad (ə) *(Ölüm barədə suala cavabından):* «Hər gecə sizin sorağınıza gələn, ancaq müddəti uzun olan yuxudur. Insan, yalnız qiyamət günü bu yuxudan oyanar. Yuxusunda müxtəlif növ saysız-hesabsız şadlıqlar, saysız qorxu-vəhşət görənin, yuxuda şad olan və ya qorxuya düşənin halı necə olacaq? Budur ölüm. Belə isə, özünüzü ona hazırlayın.»[709]

### *1656. Möminin ölümü.*

**Quran:**

«Mələklər canlarını pak olduqları halda aldıqları kəslərə deyərlər: Salam olsun sizlərə. Etdiyiniz əməllərə (mükafatına) görə cənnətə daxil olun.»»[710]

**Hədis:**

5852. Allahın Peyğəmbəri (s): «Ölüm möminin xoş ətirli gül çələngidir.»[711]

5853. Allahın Peyğəmbəri (s): «Ölüm möminin ərməğanıdır.»[712]

5854. Imam Sadiq (ə) *(«Dünya həyatında onlara müjdələr var»[713] ayəsi haqda):* «Ölüm vaxtı Məhəmməd və Əli (ə) ona cənnət müjdəsini verərlər.»[714]

5855. Imam Rza (ə) *(Səbahələrindən bir kişiyə yoluxarkən):* «Vəziyyətiniz necədir?» Ərz etdi: «Sizdən (gedəndən) sonra ölümü gördüm. (Məqsədi xəstəlikdən çəkdiyi şiddətli əzab-əziyyət idi).» Həzrət buyurdu: «Onu necə gördün?» Ərz etdi: «Ağır və əzablı idi.» Buyurdu: «Sən ölümü görməmisən. Ölümün xəbərçisini və onun bəzi xüsusiyyətlərini sənə tanıtdıran bir şeyi görmüsən.»[715]

### *1657. Ölümü xatırlamaq.*

5856. Allahın Peyğəmbəri (s): «Xoşluqları viran qoyanı çox yada salın.» Ərz olundu: «Ey Allahın Peyğəmbəri. Xoşluqları viran qoyan nədir?» Buyurdu:

---

[707] Məanil-Əxbar, səh. 289, hədis 4
[708] Məanil-Əxbar, səh. 289, hədis6
[709] Məanil- Əxbar, səh. 289 , hədis 5
[710] Nəhl, ayə 32
[711] Kənzul-Ummal, hədis 42136
[712] Kənzul-Ummal, hədis 42110
[713] Yunis, ayə 64
[714] Biharul- Ənvar, c. 6, səh.191, hədis 36
[715] Məanil-Əxbar, səh.289, hədis7

«Ölüm. Möminlərin ən zirəyi ölümü daha çox yada salan və ona hazırlaşandır.»[716]

5857. Allahın Peyğəmbəri (s): «Ölümü çox xatırlayın. Ölümü çox xatırlayan elə bəndə yoxdur ki, Allah onun ürəyini canlandırıb ölümü ona asanlaşdırmasın.»[717]

5858. Imam Əli (ə) *(əziz övladı Imam Həsənə (ə)*: «Övladım! Ölümü tez-tez yada sal. Ona ürcah olacağın və ölümdən sonra ona tərəf çəkiləcəyinin fikrində ol ki, üstünə gələndə var gücünlə qarşısında dayana biləsən və onun qəsdində ol. Yoxsa belə olmasın ki, qəfildən səni haqlayıb nəfəsini kəssin.»[718]

5859. Imam Sadiq (ə): «Ölümü yada salmaq nəfsin istəklərini öldurər, qəflət zəmilərini kökündən biçər və ürəyi Allahın və'dləri ilə qüvvətləndirər. Təbiəti lətifləşdirər, həvəs bayraqlarını bir-birinə qatar, tamah odunu söndürər və dünyanı nəzərlərdə kiçildər.»[719]

5860. Imam Sadiq (ə): «Ölümü tez-tez yada salın. Çünki ölümü çox xatırlayanlardan heç kim dünyaya meylli olmadı.»[720]

5861. Imam Hadi (ə): «Ailənin gözü qarşısında ölüm yatağına düşəcəyin, nə təbibin ölümünün qabağını ala biləcəyi, nə də dostunun haya gələcəyi günü yadına sal.»[721]

### *1658. Ölümə hazır olmaq.*

5862. Allahın Peyğəmbəri (s): «Gözü ölümün yolunu çəkən, yaxşı əməllər görməyə çalışar.»[722]

5863. Imam Əli (ə): «Ölüm üçün hazırlıq görün. Çünki ölüm öz kölgəsini başınızın üstünə atmışdır. Elə bir dəstə kimi olun ki, onların üstünə qışqırdıqda yuxudan ayıldılar və dünyanın onların sarayı olmadığını başa düşdüklərinə görə də onu (başqa dünya ilə) dəyişdilər….»[723]

5864. Imam Əli (ə): «Səni nə vaxt yaxalayacağını bilmədiyin işdə, layiqlisi budur ki, səni yaxalamamış özünü ona hazırlayasan.»[724]

5865.Imam Əli (ə): «Hər gün ömrünün və canının azaldığını görən və bununla belə ölümə hazırlaşmayan kimsəyə heyrət edirəm.»[725]

5866. Imam Əli (ə): «Ölümdən və onun çətinliklərindən əvvəl bir iş görün və o çatmamış, onun hazırlığını görün.O aşağı enməmiş hazır olun.» [726]

---

[716] Biharul Ənvar, c.82, səh.167, hədis 3
[717] Kənzul-Ummal, hədis 42105
[718] Nəhcül-Bəlağə, məktub 31.
[719] Biharul- Ənvar, c.6, səh.133, hədis 32
[720] Biharul- Ənvar, c. 82, səh. 168, hədis 3
[721] Biharul- Ənvar, c.18, səh. 370, hədis 4
[722] Biharul- Ənvar, c.77, səh. 171, hədis 7
[723] Nəhcül-Bəlağə, xütbə 64
[724] Ğurərul-Hikəm, hədis 3468
[725] Ğurərul-Hikəm, hədis 6253
[726] Nəhcül-Bəlağə, hikmət190.

5867. Imam Əli (ə): «Kim sabahı öz ömründən sayarsa, ölümə layiq olduğu yeri verməmişdir.»[727]

5868. Imam Əli (ə) *(Ölümə hazırlıq barədə suala cavabından):* «Vacib əməlləri yerinə yetirmək, haramlardan uzaq durmaq və yaxşı xasiyyətləri öyrənmək. Bu işlərə riayət edəndən sonra adamın ölümünün sorağına çıxmasının, yoxsa ölümün onun sorağına gəlməsindən nə qorxusu ola bilər? Allaha and olsun, Əbutalibin oğlunun, ölümün onun sorağına gəlməsindən və ya onun ölümün sorağına getməsindən heç bir qorxusu yoxdur.»[728]

### *1659. Ölüm arzusu.*

5869. Allahın Peyğəmbəri (s): «Sizlərdən heç biriniz, sizə ziyana görə heç vaxt özünə ölümü qarğış etməsin. Əksinə, belə desin: Ilahi, həyatın mənim üçün yaxşı olduğu vaxta qədər məni diri saxla. Ölüm mənimçün yaxşı olduqda, məni öldür.»[729]

5870. Allahın Peyğəmbəri (s): «Sizlərdən öz əməllərinə əmin olanlardan başqa heç kim, ölüm arzulamasın.»[730]

5871. Imam Əli (ə) *(Haris Həmədaniyə buyurdu):* «Ölümü və ölümdən sonrakıları çox yadına sal və heç vaxt ölüm arzulama, yalnız möhkəm şərtlə olmaqdan savayı.»[731]

5872. Imam Kazim (ə) *(Ölüm arzulayan kişiyə xitabən):* «Səninlə Allahın arasında bir qohumluq varmı ki, ona görə sənə köməyi çatsın?» Ərz etdi: «Xeyr.» Buyurdu: «Pisliklərdən artıq ola biləcək yaxşılıqları Onun dərgahına göndərmisənmi?» Ərz etdi: «Xeyr.» Buyurdu: «Deməli, belə olan halda sən əbədi məhv olmağı arzulayırsan!.»[732]

### *1660. Ölümün bihuşluğu.*

**Quran:**

«Ölüm bihuşluğu və süstlüyü həqiqətən gəlir. Bu sənin ondan qaçdığın şeydir.»[733]

**Hədis:**

5873. Allahın Peyğəmbəri (s): «Ölüm ayağında olanlarınızın başının üstünə gəlin və onlara «La ilahə illəllah»ı təlqin edin və cənnətlə müjdə verin. Çünki hətta səbrli kişi və qadınlar da, belə hallarda çox narahat və məyus olurlar. Şeytan bütün başqa vaxtlardakından daha çox ölüm ayağında insana yaxınlaşır. And olsun, canım onun əlində olana ki, ölüm mələyini (Əzrayılı) görmək min

---

[727] əl-Kafi, c.3, səh.259, hədis 30

[728] Əmalis-Səduq, səh. 97, hədis 8

[729] Sunəni-Əbi - Davod, hədis 3108

[730] Kənzul-Ummal, hədis 42153

[731] Nəhcül-Bəlağə, məktub 69.

[732] Kəşfül-Ğummə, c. 3, səh. 42

[733] Qaf, ayə19

qılınc zərbəsindən daha ağırdır. And olsun, canım onun əlində olana ki, heç bir bəndənin canı, hər bir damarı ağrı çəkməmiş dünyadan getməz.»[734]

5874. Allahın Peyğəmbəri (s): «Əgər heyvanlar sizin ölüm haqda bildiklərinizi bilsəydilər, heç vaxt kök heyvan yeməzdiniz.»[735]

5875. Imam Əli (ə): «Ölümün, vəsf edilməkdən, ya da dünya əhlinin ağlı ilə ölçülməkdən xaric çətinlikləri var.»[736]

***1661. Ölümü xoşlamamağın səbəbi.***

5876. Allahın Peyğəmbəri (s) *(«Ölümü xoşlamamağın səbəbi nədir?» deyə soruşan kişiyə cavabından):–*«Var-dövlətin varmı?» Ərz etdi: «Bəli.» Buyurdu: «Onu (axirət üçün) əvvəlcədən göndərmisənmi?» Ərz etdi: «Xeyr.» Buyurdu: «Ölümü xoşlamamağın da buna görədir.»[737]

5877. Imam Həsən (ə) *(Həmin suala cavabında):* «Çünki siz öz axirətinizi viran qoymusunuz, dünyanızı isə abad etmisiniz. Abadlıqdan xarabaya köçmək istəmirsiniz.» [738]

***1662. Peyğəmbərin və imamların can verən şəxsin gözünə görünməsi.***

5878. Imam Əli (ə): «Kim məni sevirsə, ölüm ayağında məni özünə xoş gələn şəkildə tapacaqdır. Kim məni düşmən bilirsə, öləndə məni narahat olacaq şəkildə tapacaq».[739]

5879. Imam Sadiq (ə) *(«Mömin canının alınmasından narahat olurmu?» sualına cavabından):–*«Yox, Allaha and olsun ki, yox! Ölüm mələyi (Əzrayıl) onun canını almağa gələndə, o dözmür. Ancaq Əzrayıl ona deyir: Ey Allahın dostu, dözümsüz olma! Çünki and olsun Məhəmmədi (s) seçənə ki, mən yastığının başına gələn mehriban atadan sənə qarşı daha xoşrəftar və daha mehribanam. Gözünü aç və bax.» Həzrət buyurdu: «Allahın Peyğəmbəri (s), Əmirəl-möminin, Fatimə, Həsən, Hüseyn və onun nəslindən olan imamlar (ə) gözünün önündə görünər və ona deyilər: Bu Allahın Peyğəmbəri və… sənin dostların və yoldaşlarındır … Belə bir şəraitdə, heç nə, canınının bədənindən ayrılması və carçıya qovuşması qədər onunçun xoş olmur.»[740]

5880. Imam Sadiq (ə): «Bizim dostlarımızdan və düşmənlərimizin düşmənlərindən elə bir kimsə yoxdur ki, ölsün və (ölüm ayağında) Allahın Peyğəmbəri (s), Əmirəl-möminin, Həsən və Hüseyn (s) onun yanında olmasınlar. Əgər bizi istəməyənlərdən olsa, onları özünü narahat edəcək şəkildə görər. Bunun səbəbi Əmirələl-mömininin (ə) Haris Həmədaniyə buyurduğu bu

[734] Kənzul-Ummal, hədis 58
[735] Əmali-Tusi, səh.453, hədis 1011
[736] Nəhcül-Bəlağə, xütbə 221.
[737] əl-Xisal, səh.13, hədis 47
[738] Məaniəl- Əxbar, səh.390, hədis 29
[739] Səhifətul- Imam Riza (ə): səh. 86, hədis 203
[740] əl-Kafi, c. 3, səh. 27, hədis 2

cümlədir: Ey Haris Həmədani, hər kim –istər mömin olsun, istərsə də kafir – öləndə bizi öz qarşısında görər.»[741]

***1663. Qəfil ölüm.***

5881. Allahın Peyğəmbəri (s): «Qəfil ölüm mömin (ölümün və ölü huşsuzluğunun əziyyəti) və kafirdən qəzəblə alınacaq (can üçün) bir güzəştdir.»[742]

5882. Allahın Peyğəmbəri (s): «Qəfil ölüm möminlər üçün güzəşt və kafirlər üçün bir qəzəbdir.»[743]

5883. Allahın Peyğəmbəri (s): «Qiyamətin (gəlib çatmağının) nişanələrindən biri də iflic xəstəliyinin və qəfil ölümlərin çoxalmasıdır.»[744]

***1664. Cənazəni müşayiət etmək.***

5884. Allahın Peyğəmbəri (s): «Ata-anana yaxşılıq üçün iki illik yolu qət et. Yaxın qohumlara yaxşılıq üçün bir illik yolu qət et. Xəstəyə baş çəkmək üçün bir mil, cənazəni müşayiət üçünsə iki mil yol get.»[745]

5885. Allahın Peyğəmbəri (s): «Sakitliyi və vüqarı saxlamaq sizinlə olsun. (Ölülərinizin) Cənazələri müşayiət edərkən aram-aram yol gedin.»[746]

5886. «əd-Dəvat»: «Allahın Peyğəmbəri (s) cənazənin ardınca gedəndə, onu qəm-kədər bürüyərdi. Daha çox öz içində fikirlərə dalardı. Öz-özünə düşünər, az danışardı.»[747]

5887. Imam Sadiq (ə): «(Ölmüş) Möminə verilən ilk ərməğan onun cənazəsini müşayiət edənlərin günahlarının bağışlanmasıdır.»[748]

5888. Imam Sadiq (ə): «Yaxşı olar ki, meyidin din qardaşlarına, onun ölümü barədə xəbər versinlər ki, onun cənazəsini müşayiət edib namazına dura bilsinlər. Beləliklə, həm onlar əcr sahibi olsunlar, həm də meyid bağışlansın.»[749]

***1665. Dəfn.***

5889. Allahın Peyğəmbəri (s): «Kim günün başlanğıcında ölsə, günortanı qəbrindən qeyri yerdə keçirməməlidir.»[750]

5890. Allahın Peyğəmbəri (s): «Naçar qalmaqdan savayı, ölülərinizi gecə dəfn etməyin.»[751]

---

[741] Qummi təfsiri, c.2, səh. 265
[742] əl-Kafi: c.3, səh. 112, hədis 5
[743] Kənzul-Ummal, hədis 4277
[744] əl-Kafi, c.3, səh. 261, hədis 39
[745] Nəvadirul Ravəndi, səh.5
[746] Əmali Tusi, səh.383, hədis 827
[747] əd-Də'vat, səh.258, səh.736
[748] əl-Kafi, c.3, səh.173, hədis 3
[749] Iləluş-Şərayə, səh.301, hədis 1
[750] əl-Kafi, c.3, səh.138, hədis 2
[751] Kənzul-Ummal,hədis 42385

5891. Allahın Peyğəmbəri (s): «Allahın bəndəyə ən çox mehriban olduğu vaxt, onu qəbrə qoyduqları vaxtdır.»[752]

5892. Imam Əli (ə): «Allahın Peyğəmbəri (s) bizə öz ölülərimizi əməli saleh adamların içində dəfn etməyi əmr etmişdir. Çünki ölülər də dirilər kimi pis qonşudan əziyyət çəkir.»[753]

***1666. Öldükdən sonra insanın ardınca gələnlər.***

5893. Allahın Peyğəmbəri (s): «Üç şey ölünün ardınca gələr: ailəsi, malı və əməlləri. Ancaq onların ikisi qayıdır, biri qalır. Ailəsi və malı qayıdır, əməlləri isə qalır.»[754]

5894. Imam Sadiq (ə): «Mömin öldükdən sonra 6 şeyin savabı ona çatar: onunçün bağışlanmasını diləyən övlad, özündən sonra qoyub getdiyi yazılı səhifə, əkdiyi ağac, axıtdığı (çay və kəhriz kimi) su sədəqəsi, qazdığı quyu və ondan sonra istifadə olunan sünnət (və yaxşı əməllər).»[755]

ιooooooπ

[752] Kənzul-Ummal,hədis 42386
[753] Kənzul-Ummal,hədis 42916
[754] Kənzul-Ummal,hədis 42761
[755] Mən lə yəhzuruhul fəqih, c.1, səh. 185, hədis 555

# 369

# Var-dövlət

***1667. Var-dövlət istəklərin mənşəyidir.***

**Quran:**

«Var-dövlət və övladlar, dünya həyatının zivərləridir. Əbədi qalan yaxşı əməllər, Rəbbinin yanında yaxşı və eləcə də ümid baxımından daha xeyirlidir.»[756]

**Hədis:**

5895. Allahın Peyğəmbəri (s): «Dinar və dirhəm sizdən əvvəlkiləri məhv etdi. Bu ikisi sizi də məhv edəndir.»[757]

5896. Allahın Peyğəmbəri (s): «Allahın lənətlədiyi şeytan dedi: Dövlətli adam bu üç haldan birində mənim əlimdən qurtara bilməz və gecə-gündüz bu üç şeylə onun yanına gedərəm: halal olmayan yolla var-dövlət qazanmaq, onu yersiz yerə xərcləmək və mal-dövləti ona sevdirəcəyəm və bunun nəticəsində, onun haqq-hüququnu ödəməyəcək.»[758]

5897. Imam Əli (ə): «Var-dövlət istəklərin mənbəyidir.»[759]

5898. Imam Əli (ə): «Var-dövlət arzuları gücləndirər.»[760]

***1668. Mal sevgisinin nəticələri.***

**Quran:**

«Mal-dövləti isə lap çox sevirsiniz.»[761]

5899. Məsih (ə): «Dünyapərəstlərin var-dövlətinə baxmayın. Çünki onların mal-dövlətinin parıltısı sizin imanınızın nurunu aparar.»[762]

5900. Imam Əli (ə): «Mal gələcəyi korlayır, arzuları böyüdür.»[763]

5901.Imam Əli(ə):«Mal-dövlət sevgisi dini süst və yəqinliyi puç edər.»[764]

***1669. Halal malı sevmək.***

---

[756] Kəf, ayə 46.
[757] əl-Kafi, c.2, səh. 316, hədis 6
[758] ət-Tərğib və ət-Tərhib, c.4, səh.182, hədis 68
[759] Nəhcül-Bəlağə, hikmət58.
[760] Ğurərul-Hikəm, hədis 577.
[761] Fəcr, ayə 20
[762] əl-Muhəccət-ul-Beyza, c.7, səh. 328.
[763] Ğurərul-Hikəm, hədis 1472
[764] Ğurərul-Hikəm, hədis 4876

5902. Allahın Peyğəmbəri (s): «Düzgün insan üçün düzgün mal necə də yaxşıdır.»[765]

5903. Imam Əli (ə): «Var-dövlət qürbətdə vətən, yoxsulluq isə vətəndə qürbətdir.»[766]

5904. Imam Səccad (ə): «Maldan faydalanmaq (sərmayəni işə qoymaq) kamil mərdlikdir.»[767]

5905. Imam Sadiq (ə): «Halal yolla mal-dövlət toplamaq istəməyən insanda xeyir yoxdur ki, onun vasitəsilə abrını qoruyub saxlasın, borcunu ödəsin və yaxın qohumları ilə mehriban olsun.»[768]

***1670. Çox var-dövlət.***

**Quran:**

«Daha çox olması ilə öyünmək, sizi işiniz qəbirstanlığa düşənə qədər qəflətdə saxladı.»[769]

«Qızıl-gümüşü xəzinə toplayıb onu Allah yolunda sərf etməyənlərə ağrılı bir əzabdan xəbər ver.»[770]

**Hədis:**

5906. Allahın Peyğəmbəri (s): «Mən sizinçün yoxsulluqdan qorxmuram. Əksinə, sizin çox istəməyinizdən və çox olmağa görə öyünmənizdən narahatam.»[771]

5907. Imam Əli (ə): «Var-dövlətin çoxluğu ürəkləri korlayar və günahlar yaradar.»[772]

5908. Imam Hüseyn (ə): «Var-dövlətin sənin malın olmasa, sən ona mal olacaqsan. Belə isə onu saxlama. Çünki o sənə qalmayacaq. O səni yeməmiş, sən onu ye.»[773]

5909. Imam Sadiq (ə): «Allahın hüccəti ona böyüməmiş, heç bir insanın sərvəti artmadı. Belə hüccəti özünüzdən uzaqlaşdıra bilirsinizsə, bu işi görün.» Ərz olundu: «Nə ilə?» Buyurdu: «Mallarınızla öz qardaşlarınızın ehtiyaclarını ödəməklə.»

5910. Imam Sadiq (ə): «Allah-taalanın Musaya (ə) pıçıldadıqlarından biri də bu olmuşdur: Heç kəsin sərvətinin çoxluğuna qibtə etmə. Çünki sərvətin çoxluğu günahların çoxluğuna səbəb olur. Belə ki, onlarla əlaqədar hüquqlar vacib olur.»[774]

---

[765] Tənbihul-Xəvatir, c.1, səh. 158.
[766] Nəhcül-Bəlağə, hikmət 56.
[767] əl-Kafi, c.1, səh. 20, hədis 12
[768] əl-Kafi, c.5, səh.72, hədis 5
[769] Təkasor, ayə 1və 2
[770] T[vbə, ayə 34
[771] Kənzul-Ummal, hədis 6139
[772] Ğurərul-Hikəm, hədis 7109
[773] əd-Durətul-Bahirə, səh. 24
[774] Əmali-Tusi, səh. 302, hədis 600

5911. Imam Sadiq (ə): «Qəlbin rahatlığını axtardım və onu malın, sərvətin azlığında tapdım.»[775]

5912. Imam Rza (ə): «Beş xislət olmadan mal-dövlət toplanmaz: bərk xəsislik, uzun-uzadı arzular, qalib tamah, özünə baxmamaq və dünyanı axirətdən üstün tutmaq.»[776]

***1671. Qeyri-düzgün yolla mal qazanan.***

5913. Allahın Peyğəmbəri (s): «Kim narəva yolla mal-dövlət qazansa, Allah onu yoxsul edər.» [777]

5914. Allahın Peyğəmbəri (s): «Kimsənin haradan mal-dövlət qazanmaq barədə qorxusu olmasa, Allah onu haradan cəhənnəmə aparmağa qorxmaz.»[778]

5915. Imam Əli (ə): «Kim nahaq yolla mal qazanarsa, onları əcri olmayan yollarda xərcləyər.»[779]

5916. Imam Sadiq (ə): «Kim qeyri-halal yolla mal-dövlət qazansa, bənnalıq, gil və su ona hakim kəsilər.»[780]

5917. Imam Sadiq (ə): «Kim nahaq yolla mal axtararsa, onun qalanından məhrum olacaqdır.»[781]

***1672. Var-dövlət odur ki, insanlara xeyri olsun.***

5918. Allahın Peyğəmbəri (s): «Sənin var-dövlətində üç nəfər şərikdir: özün, tələf və məhv olma, varis. Belə isə bacarırsansa elə et ki, bunların ən acizi olmayasan.»[782]

5919. Allahın Peyğəmbəri (s): «Adam deyir: Mənim mülküm, mənim mülküm! Mənim malım, mənim malım! Ey binəva, mülk olanda və sən olmayanda sən haradaydın? Sənin malın yalnız yediyin, işlətdiyin, geydiyin, köhnəltdiyin, sədəqə verdiyin və (axirət üçün) saxladığın, ona görə ya rəhmətə şamil edildiyin və ya cəzalanacağın qədərdir. Onda fikirləş ki, başqasının mal-dövlətini öz malından çox sevməyəsən.»[783]

5920. Imam Əli (ə): «Var-dövlət odur ki, camaata xeyri dəysin.»[784]

5921. Imam Əli (ə): «Mal və sərvət öz sahibini, onu bəxşiş və hədiyyə edənə qədər sevir. Nə vaxt xəsislik etsə, onu rüsvay edər.»[785]

---

[775] əl-Kafi, c. 2. səh. 135, hədis 21
[776] Mustədrəkul-Vəsail, c.12,səh. 174, hədis 29
[777] Əmali-Tusi, səh. 182, hədis 3056
[778] Biharul-Ənvar, c.103, səh.13, hədis 63
[779] Tuhəful-Uqul, səh. 94.
[780] əl-Məhasin, c.2, səh. 445, hədis 2528
[781] Tuhəful-Uqul, səh. 321.
[782] Kənzul-Ummal, hədis 16147
[783] Biharul-Ənvar, c.71, səh.356, hədis 17
[784] Ğurərul-Hikəm, hədis 508
[785] Ğurərul-Hikəm, hədis 1838

5922. Imam Əli (ə): «Mal-dövlətindən özünə zəruri olan qədər saxla. Onun artıq qalanını özünün ehtiyac gününçün göndər.»[786]

5923. Imam Əli (ə): «Ən yaxşı mal odur ki, onun vasitəsilə abır-həya qorunsun və hüquqlar təmin olunsun.»[787]

5924. Allahın Peyğəmbəri (s): «Sənin ən yaxşı malın odur ki, ehtiyacını ödəməkdə sənə kömək etsin.»[788]

5925. Imam Sadiq (ə): «Həqiqətən də, Allah bu çoxlu malı sizə vermişdir ki, onları Allahın məlum etdiyi yollarda işlədəsiniz. Onları sizə yığmaq üçün verməmişdir.»[789]

5926. Imam Rza (ə): «Insanın ən yaxşı malı, ehtiyat yığdığı sədəqədir.»[790]

ιoooooοπ

---

786 Nəhcül-Bəlağə, məktub21.

787 Biharul-Ənvar, c.78, səh.7, hədis 60

788 Biharul-Ənvar, c. 78, səh. 12, hədis 70

789 Mənla Yəhzəruhul Fəqih, c.2, səh.57, hədis 1693

790 Tənbihul-Xəvatir, c. 2, səh.182

**370**

# Peyğəmbərlik (1)

**Bütün insanlara peyğəmbərlik**

***1673. Peyğəmbərliyin fəlsəfəsi.***

**1. Təkamül.**

5927. Imam Sadiq (ə) *(«Peyğəmbərləri hansı yolla sübuta yetirərsən?» deyə soruşan zındığa cavabından):–*«Çünki sübut etmişik ki, bizdən və bütün yaratdıqlarından üstün bir yaradanımız vardır. O yaradan hikmət sahibi və ucadır. Belə ki, yaratdıqlarının onu görüb toxunmaları, bunun nəticəsində isə bir-birilə vasitəsiz birbaşa əlaqə yaradıb bəhs və mübahisə etmələri rəva deyil. Sübut olundu ki, öz yaratdıqları arasında Onun sözlərini bəndələrinə və yaratdıqlarına bəyan edərək onları xeyirlərinə, mənafelərinə, əbədi qalmaq və məhvolma amillərinə yönəldən elçi və nümayəndələri var.»[791]

**2. Insanı tağutların əsarətindən xilas etmək.**

**Quran**:

«Biz hər ümmətə «Allaha ibadət edin. Tağutdan çəkinin!» . deyə peyğəmbərlər göndərmişdik. Onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə haqq yoldan azmağa layiqdirlər. Yer üzündə gəzişib görün ki, yalançı hesab edənlərin axırı necə oldu!»[792]

**Hədis:**

5928. Imam Əli (ə): «Allah-taala Məhəmmədi (s) haqlı olaraq seçdi ki, öz bəndələrini (başqa) bəndələrinə ibadətdən özünə ibadətə çəksin. Bəndələrinin öhdəliklərindən Öz öhdəliklərinə, bəndələrinin itaətindən Özünə itaətə, bəndələrinin hakimiyyətindən Öz hakimiyyətinə gətirsin.»[793]

**3. Əxlaqın paklığı.**

**Quran**:

«Ayələrini onlara oxusun, onları paklaşdırsın, onlara kitabı və hikməti öyrətsin deyə savadsızlara özlərindən peyğəmbər göndərən Odur. Həqiqətən (onlar) bundan əvvəl açıq-aşkar azğınlıq içində idilər.»[794]

**Hədis**:

5929. Allahın Peyğəmbəri (s): «Mən gözəl əxlaqı kamilləşdirmək üçün seçilmişəm.»[795]

---

[791] əl-Kafi, c. 1, səh.1680, hədis 1
[792] Nəhl, ayə36
[793] əl-Kafi, c. 8, səh.386, hədis 586
[794] Cümə, ayə2
[795] Kənzul-Ummal, hədis 31969

5930. Allahın Peyğəmbəri (s): «Mən əslində gözəl əxlaqları kamilləşdirmək üçün seçilmişəm.»[796]

5931. Imam Əli (ə): «(Allah-taala) Peyğəmbəri onların arasından seçdi və peyğəmbərlərini dalbadal onlara göndərdi ki, fitrətlərində qoyulmuş ilahi əhdə əməl etmələrini istəsin. Onun unudulmuş nemətini yadlarına salsın və ilahi əmri çatdırmaqla hüccəti onlara tamam etsin və onların ağıl xəzinələrini çölə çıxararaq (Allahın) qüdrət nişanələrini onlara göstərsin.»[797]

**4.Camaatın insafa və ədalətə gəlməsi**

**Quran**:

«Həqiqətən, biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik. Biz onlarla birlikdə kitab və (ədalət) tərəzisi nazil etdik ki, insanlar ədalətlə rəftar etsinlər. Biz insanlar üçün bərk təhlükə olan və insanlara fayda verən dəmiri elə yaratdıq ki, Allah, kimlərin gizlində Ona və peyğəmbərlərinə kömək göstərdiyini bəlli etsin. Bəli, Allah yenilməz qüdrət və qüvvət sahibidir.»[798]

**5. Ixtilafları aradan götürmək.**

**Quran**:

«Insanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi. Insanlar arasında olan ixtilaflarda hakimlik etmək üçün O peyğəmbərlərlə birlikdə haqq olan kitabını nazil etdi. Halbuki, özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı zülm (kin və həsədə) üzündən (kitab) verilmişlərdən başqa (heç kəs) onun barəsində ixtilafda olmadı. Allah iman gətirənləri öz lütfü ilə onların ixtilafda olduqları şeyin həqiqətinə doğru yönəltdi. Allah istədiyini düz yola istiqamətləndirir.»[799]

**Hədis:**

5932. Imam Əli (ə): Baxın, Allah onlara tərəf peyğəmbər göndərərkən əta etdiyi nemətlərə. Onların itaətini öz dininə bağladı və onları öz dəvəti ətrafında həmrəy və əlbir etdi. (Baxın ki). Bu nemət öz kəramət qanadını onların başının üstünə necə sərdi və öz naz-nemət çaylarını onlar üçün axıtdı. Bu din öz fayda və bərəkətləri ilə onları bürüdü və onları öz naz-nemətinə qərq etdi.»[800]

**6. Hüccətin tamama yetməsi**

5933. Allahın Peyğəmbəri (s): «Allah peyğəmbərləri camaatın içinə göndərdi ki, məxluqlarına aydın hüccəti olsun və göndərilmiş elçiləri onlara sübut-dəlil olsun. Müjdə verən və qorxudan peyğəmbərləri onların arasından seçdi ki, əgər məhv edilsələr dəlil əsasında olsun. Əgər həyata və səadətə qovuşsalar, bu da dəlillə olsun. Bəndələri Yaradanları barədə bilmədiklərini bilsinlər, Onun inkar etdikləri tanrılığını tanısınlar, Ona şərik qoşduqları ilahiyyət məsələsində Onu tək bilsinlər.»[801]

---

[796] ət-Təbəqatul-Kubra, c.1, səh.193
[797] Nəhcül-Bəlağə, xütbə 1
[798] Hədid, ayə25
[799] Bəqərə, ayə 213
[800] Nəhcül-Bəlağə, xütbə 192.
[801] ət-Tovhid, səh. 45, hədis 4

***1674. Peyğəmbərlərin təbəqələri***

**Quran**:

«Heç bir bəşər övladına Allahla danışmaq müyəssər olmaz. Yalnız vəhylə (yolu) və ya pərdə arxasından (danışar.) Və ya bir elçi göndərər, o da Allahın izni ilə Allahın istədiyini vəhy edər. Bəli, Odur hər şeydən uca və hikmət sahibi.»[802]

5934. Imam Sadiq (ə): «Peyğəmbərlər və rəsulların dörd rütbəsi var: -Yalnız özünə peyğəmbər olan və başqasına təsiri olmayan peyğəmbər, yuxuda görən və (qeybdən) səs eşidən, ancaq ayıq vaxtı onu (səs sahibini) görməyən və heç kəs üçün göndərilməyən, özünün də imamı və rəhbəri olan peyğəmbər. Necə ki, Ibrahim Lutun (ə) imamı idi.

*Yuxuda görən, səsini eşidən, mələyi görən və az və ya çox müəyyən bir dəstəyə peyğəmbər göndərilən peyğəmbər:* Yunus peyğəmbər kimi. Allah onun barəsində buyurur: «Biz onu, yüz min nəfər və ya daha artıq insanlara göndərdik.»[803] Həzrət buyurdu: «Daha artıqdan» məqsəd 30 min nəfərdir (yəni yüz otuz min nəfər). Yunisin özünün də imamı və rəhbəri var idi (və nəhayət).

-Yuxu aləmində görən, səs eşidən, ayıq vaxtı da görən və özü imam olan peyğəmbər. Ulul-əzm peyğəmbərlər kimi. Ibrahim (ə) (əvvəlcə) yalnız peyğəmbər idi və imam deyildi. Sonra Allah-taala buyurdu: Mən səni camaatın imamı etdim…[804]»[805].

***1675. Peyğəmbərlərin sayı.***

5935. Allahın Peyğəmbəri(s) *(peyğəmbərlərin sayı barədə Əbuzərin sualına cavabında):* «Yüz iyirmi dörd min» (Əbuzər deyir). Ərz etdim: «Onlardan neçəsi rəsul idi?.» Peyğəmbər buyurdu: «Çoxu. Üç yüz on üç nəfər.» Ərz etdim: «Ilk peyğəmbər kim idi?» Buyurdu: «Adəm.»[806]

***1676. Ulul-əzm peyğəmbərlər.***

**Quran**:

«Ulul-əzm peyğəmbərlərin səbr etdiyi kimi səbr et. Onlar üçün tələsmə. Və'd edildikləri gün baxıb görəcəklər ki, sanki heç bir saat da (dünyada) qalmayıblar. Bu bir xəbərdarlıqdır. Məgər itaət etməyən camaatdan qeyrisi məhv olacaqmı?»[807]

5936. Imam Səccad (ə) *(öz səhabələrindən bəzisinə):* «Peyğəmbərlər arasında beş ulul-əzm peyğəmbər var.» Ərz etdik: «Onlar kimlərdir?» Buyurdu: «Nuh, Ibrahim, Musa, Isa və Məhəmməd (s)». Ərz etdik: « …Ulul əzm nə deməkdir?» Buyurdu: «(Yəni) Onlar yerin şərqinin və qərbinin insanlarına, cinni-insinə göndəriliblər».

---

[802] Şura, ayə 51

[803] Saffat, ayə147

[804] Bəqərə, ayə124

[805] əl-Kafi, c.1, səh.174, hədis1

[806] əl-Xisal, səh. 524, hədis 13

[807] Əhqaf, ayə35

5937. Imam Sadiq (ə) *(Səmaə bin Mehranın «Ulul-əzm peyğəmbərlərin səbr etdiyi kimi səbr et» ayəsi haqda sualına cavabında):* «(Ulul-əzm peyğəmbərlər) Nuh, Ibrahim, Musa, Isa və Məhəmməd (s) (ən ibarətdir). Səmaə deyir). Ərz etdim: «Bunlar nəyə görə ulul-əzm olublar?» Buyurdu: «Çünki Nuh kitab və şəriətlə peyğəmbər göndərilib. Nuhdan sonra gələn hər bir peyğəmbər Nuhun kitabı, şəriəti və yolunu davam etdirdilər. Ibrahimin (ə) zamanı çatanda, o, öz suhufu ilə - əlbəttə ki, ona küfr etməyə görə yox- onun kitabını kənara qoymaq əzmində oldu…»[808]

### *1677. Peyğəmbərlərin xüsusiyyətləri*

5938. Allahın Peyğəmbəri (s): «Biz peyğəmbərlərə əmr olunub ki, camaatla onların ağıl və dərrakələrinə uyğun danışaq».[809]

5939. Allahın Peyğəmbəri (s): «Biz peyğəmbərlərin gözləri yatsa da, ürəkləri yatmır. Arxamızı da önümüz kimi görürük».[810]

5940. Allahın Peyğəmbəri (s): «Peyğəmbərlərin və siddiqlərin əxlaqı başqa-ları ilə qarşılaşanda gülərüzlülük və onlara çatanda əl verməkdir».[811]

5941. Qətadə: «Allah xoş sifət və gözəl səsi olmayan peyğəmbər göndərmədi.»[812]

5942. Imam Əli (ə) *(Peyğəmbərləri vəsf edərkən):* «Bir dəstəsi zəif idi və Allah onları aclıqla sınadı, çətinliklərə mübtəla etdi, qorxu-hürkülərlə imtahana çəkdi və ağır həyatla altlarına üstlərinə çevirdi. …Musa ibn Imran qardaşı Harunla (ə) əyinlərində yun paltar və əlində taxta əsa Fironun yanına getdilər…»

Pak olan Allah peyğəmbərlərini seçəndə xalis qızıl mədən və xəzinələrini, ağaclarla dolu bağlarını onların üzlərinə açmaq istəsəydi... hər an bu işi görərdi və belə etsəydi, onda sınaq aradan gedər və mükafat götürülərdi...

Ancaq, Pak Allah göndərdiklərini möhkəm iradə sahibləri, zahiri vəziyyətlərinə görə kasıb etdi. Ancaq onların bu haləti ürəkləri və gözləri, ehtiyatsızlıqdan aşıb-daşıran qənaətlə və gözləri qulaqları narahatlıqdan dolduran ehtiyac və yoxsulluqla birgə idi.[813]

5943. Imam Sadiq (ə): «Allah-taala elə bir peyğəmbər göndərməmişdir ki, camaatı idarə etməyi ona öyrətmək üçün əvvəlcə onu qoyunlara çoban təyin etməmiş olsun.»[814]

5944. Imam Kazim (ə): «Allah səxavətli olmayan heç bir nəbi və vəsi göndərmədi.»[815]

5945. Imam Rza (ə): «Peyğəmbərlərin xislətindən biri də paklıqdır.»[816]

5946. Imam Rza (ə): «Xoş ətirdən istifadə peyğəmbərlərin əxlaqındandır.»[817]

---

[808] əl-Kafi, c. 2, səh. 17, hədis 2
[809] Biharul-Ənvar, c.77, səh.140, hədis19
[810] Biharul- Ənvar, c.16, səh. 172, hədis 17
[811] Tənbihul-Xəvatir, c.1, səh.29
[812] ət-Təbəqatul-Kubra, c.1 , səh.376
[813] Nəhcül-Bəlağə, 192
[814] Iləlul-Şəraye, səh.32, hədis 2
[815] əl-Kafi, c.4, səh.39, hədis 4
[816] Tuhəful-Uqul, səh. 442
[817] əl-Kafi, c.6, səh.510, hədis 1

**371**

# Peyğəmbərlik (2)

**Xüsusi peyğəmbərlik**

***1678. Adəm***

**Quran:**

«Ey camaat! Sizi tək bir şəxsdən xəlq edən, ondan da zövcəsini yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun. Qorxun o Allahdan ki, bir-birinizdən hər ehtiyacınızı onun adı ilə istəyirsiniz, həmçinin qohumluq əlaqələrini kəsməkdən çəkinin. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir.»[818]

**Hədis:**

5947. Imam Əli (ə) *(Adəmin yaradılışı haqda buyurduqlarından):* «Sonra Allah-taala yerin yumşaq və bərk yerlərindən, şirin və şoran hissələrindən torpaq götürdü və ona su tökdü. Pak və saf olanda onu yapışqan olana kimi rütubətlə qarışdırdı. Bu vaxt ondan üzvləri, bağları və çıxıntıları olan bədən düzəltdi. Bəlli müddət və məlum zaman ərzində onu saxladı o vaxta qədər ki, o qurudu, bir-birinə birləşdi və möhkəm gilə döndü. Bu vaxt öz ruhundan ona üfürdü və insan surətinə düşdü. Onları hərəkətə gətirən zehinlərə, onunla (işlərdə) müdaxilə edən düşüncəyə sahib etdi...

Müxtəlif rəngli təbiətlərlə və bir-birinə bənzər şeylərlə, istilik və soyuqluq, rütubət və quruluq kimi bir-birinə uyğun gəlməyən təzadlı halətlərlə qarışdırdı.»[819]

5948. Imam Əli (ə): «(Allah) torpağını hazırlayıb əmrini verəndə Adəmi (ə) özünün üstün məxluqu kimi seçdi və onu Özünün (insan növündən olan) ilk məxluquna çevirdi.»[820]

5949. Imam Sadiq (ə): «Adəmi Adəm adlandırırdılar. Çünki torpağın ədimindən (üzündən) yaradılmışdır.»[821]

5950. «Əbu Miqdəm»: «Həzrəti Baqirdən (ə) soruşdum: Allah Həvvanı nədən yaratdı? Buyurdu: Bu camaat nə deyir? Ərz etdim: Deyirlər ki, Allah onu Adəmin qabırğalarının birindən yaratdı. Buyurdu: Səhv edirlər. Məgər onu Adəmin qabırğasından başqa bir şeydən yaratmaqda aciz idi? Ərz etdim: Sənə fəda olum, yabnə Rəsulallah! Onu nədən yaratdı? Buyurdu: Atam atasından (ə) mənə nəql etmişdi ki, Allahın Rəsulu (s) belə buyurmuşdur: Allah-taala bir

---

[818] Nisa, ayə1

[819] Nəhcül-Bəlağə, xütbə 1

[820] Nəhcül-Bəlağə, xütbə 91

[821] Iləluş-Şəraye, səh.14, hədis 1

ovuc gil götürüb onu sağ əli (Allahın hər iki əli sağdır) ilə bir-birinə qarışdırdı və ondan Adəmi yaratdı. Ondan bir qədər gil artıq qaldı ki, ondan da Həvvanı yaratdı.»[822]

5951. Bureyd ibn Muaviyyə Icli: «Imam Baqir buyurdu: «Allah cənnətdən Adəmə tərəf bir huri göndərdi. O, həmin hurini iki oğlundan biri ilə evləndirdi və başqa oğlu üçün cinlərdən bir arvad seçdi. Onların hər ikisi dünyaya övladlar gətirdilər. Deməli, insanlarda olan bütün xoş əxlaqlar və gözəlliklər həmin cənnət hurisindəndir. Bütün bu (çirkinliklər) pis xasiyyətlər də həmin cindəndir. Imam Baqir (ə) Adəmin öz qızlarını oğlanları ilə evləndirmə (nəzəriyyəsini) inkar edirdi.»[823]

### *1679. Idris*

**Quran**

«Ey Məhəmməd! (Bu) kitabda Idrisi də yad et. O həqiqətən, doğru danışan bir peyğəmbər idi. Biz onu yüksək bir məqama çatdırdıq.»[824]

**Hədis:**

5952. Allahın Peyğəmbəri (s): «Allah Idrisə otuz səhifə nazil etdi.»[825]

5953. Allahın Peyğəmbəri (s): «Ey Əbuzər! Peyğəmbərlərin dördü Suryanidir: Adəm, Şis, Uxnux-yəni Idris (ə) o, qələmlə yazan ilk insanlar idi və bir də Nuh.»[826]

5954. Imam Sadiq (ə): «Səhlə məscili Idris peyğəmbərin onda dərzilik etdiyi evidir.»[827]

### *1680. Nuh*

**Quran:**

«Həqiqətən Nuhu öz tayfasına göndərdik. O dedi: Ey mənim qövmüm! Allaha ibadət edin! Sizin ondan başqa heç bir tanrınız yoxdur. Mən böyük günün sizə üz verəcək əzabından qorxuram.»[828]

«Onlara Nuhun xəbərini söylə. Bir zaman o öz qövmünə belə demişdi: Ey mənim qövmüm! Əgər aranızda qalmağım və Allahın ayələri ilə öyüd-nəsihət verməyim sizə ağır gəlirsə (bilin ki, mən) Allaha təvəkkül etmişəm.»[829]

**Hədis:**

5955. Allahın Peyğəmbəri (s): «Risaləti ilk öhdəsinə alan peyğəmbər Nuh olmuşdur.»[830]

---

[822] Biharul-Ənvar, c.11, səh.116, hədis 46
[823] Iləluş-Şəraye, səh.103, hədis 1
[824] Məryəm, ayə 56, 57
[825] Xəbərdə ə[stərilir: «Allah Idrisə əlli səhifə nazil etdi. Bu elə həmin Uxnuxdur. O xətlə yazan ilk kəsdir. Biharul-Ənvar, c.11, səh.60, hədis 5
[826] əl-Xisal, səh. 524, hədis 13
[827] Biharul-Ənvar, c.11, səh.284, hədis 12
[828] Ə‘raf, ayə 59
[829] Yunis, ayə 71
[830] Kənzul-Ummal, hədis 32391

5956. Allahın Peyğəmbəri (s): «Allah Nuha 40 yaşında peyğəmbərlik verdi. O, 950 il öz qövmünü dəvət etdi və tufandan sonra altmış il, camaatın sayı artıb çoxalana qədər yaşadı.»[831]

5957. Imam Baqir (ə) *(«Ona az bir qismindən savayı iman gətirən olmadı»[832] ayəsi haqda):* «Onlar səkkiz nəfər idilər.»[833]

5958. Imam Baqir (ə): «Nuh (ə) (xurma) toxumu əkəndə qövmü onun yanından keçirdi. Onlar ona gülməyə və ələ salmağa başlayıb dedilər: Işi ağac əkməyə qalıb. Ağac böyüyüb böyük və uca ağaca çevrilənə qədər Nuh onu budayıb yondu. Qövmü dedi: Işi daha nəccarlığa qalıb!

Nuh xurma liflərini bir-birinin üstünə yığıb bir gəmi düzəltdi. Yenə də qövmü onun yanından ötəndə onu ələ salıb gülməyə başladılar və dedilər: Işi çölün düzündə gəmiçiliyə qalıb! Nəhayət Nuh gəmini düzəldib başa çatdırdı.»[834]

5959. Imam Sadiq (ə): «Adəmlə Nuhun (ə) arasında on ata fasilə olmuş və onların hamısı peyğəmbərlər olmuşlar.»[835]

***Quranda Nuhun dastanı***

***Onun peyğəmbərliyə seçilməsi və göndərilməsi***

Həzrəti Adəmdən (ə) sonra insanlar öz aralarında təkəbbür ruhiyyəsi yayılana qədər bir ümmət şəklində insanı fitrətə əsaslanan sadə həyatlarını yaşayırdılar. Yavaş-yavaş iş o yerə çatdı ki, bir dəstə başqa bir dəstəyə hakim kəsildi.

Buna görə də Nuhun (ə) vaxtında yer üzündə pozgunluq və günah işlər yayılmışdı. Camaat təkallahlıqdan və ictimai ədalət qanunundan üz döndərib bütlərə sitayiş etməyə başladılar. Allah-taala bu bütlərdən Vədd, Suva, Yəğus, Yəuq və Nəsrin adlarını («Nuh» surəsi) çəkmişdir.

Cəmiyyətdəki siniflər bir-birindən uzaqlaşdı, sərvətləri və övladları qüdrət amillərinə çevrilmiş güc sahibləri zəiflərin hüquqlarını tapdaladılar, qolu zorlular əllərinin altında olanları daha da zəiflətdilər və ürəkləri istədikləri kimi onlara hökmranlıq etdilər («Əraf», «Hud», «Nuh» surələri).

Belə bir şəraitdə Allah Nuhu (ə) peyğəmbərliyə seçdi və onu kitabla, şərtlərlə camaata göndərdi ki, müjdə və qorxu vasitəsilə onları Pak olan Allahın tövhidinə, Ona şərirklər qoşmaqdan əl çəkməyə və özləri arasında bərabərliyə çağırsın («Bəqərə» surəsi, 213-cü ayə).

***Nuhun dəvət üçün çəkdiyi böyük zəhmətlər***

Nuh (ə) öz qövmünü Allaha və onun ayələrinə iman gətirməyə dəvət edir və bu yolda bütün gücündən istifadə edirdi. Gecə-gündüz, aşkarda və gizlində

[831] əl-Mostədrəkul əla Səhiheyn, c.2, səh.595, hədis 4005
[832] Hud, ayə 40
[833] Biharul-Ənvar, c.11, səh.336, hədis 64
[834] əl-Kafi, c.8, səh.283, hədis 425
[835] Nurəl-Səqəleyn, c.4, səh.62, hədis 71

onları haqqa dəvət edirdi. Ancaq camaatın ona cavabı inad və itaətsizlikdən başqa bir şey olmurdu.

***Nuhun dəvət müddəti***

Nuh (ə) 950 il öz qövmünü Pak Allahın yoluna dəvət etdi. Onlar Nuhu ələ salıb rişxənd etmək, dəlilkdə və üstünlük axtarmaqda ittiham etməkdən başqa bir şeylə cavab vermədilər. Nəhayət, o, Allahdan kömək dilədi («Ənkəbut», surəsi).

***Gəmi hazırlamaq***

Allah-taala Nuha vəhy buyurdu ki, Onun köməkliyi ilə gəmi düzəltsin. Nuh da gəmi düzəltməyə başladı.

***Əzabın gəlməsi və tufanın qopması***

Gəmi hazırlanıb başa çatdıqda, Allahdan əmr gəldikdə və təndir (Kufə) qızışdıqda Allah-taala Nuha hər heyvandan bir cütünü (erkək və dişi), eləcə də ailəsini – onların qərq olması barədə Allahın əvvəlcədən fərman verdiyi – yəni xain arvadı və gəmiyə minməkdən imtina edən övladından başqa – eləcə də iman gətirənləri gəmiyə mindirməyi vəhy etdi. («Hud» və «Möminin» surələri) Nuh onları yüklədikdə və hamı gəmiyə mindikdə Allah göylərin qapısını açdı və sular axmağa başladı. Yerdəki çeşmələri də qaynatdı və su təyin olunmuş əmrə uyğun olaraq axıb qarışdı. («Qəmər» surəsi) Su yüksəldi və gəmi suyun üzərinə qalxdı, dağ kimi dalğaların arasında yola düşdü. («Hud» surəsi).

***Allahın əmrinin yerinə yetirilməsi, gəmidən Nuhun və yoldaşlarının gəmidən düşməsi***

Tufan hər yanı bürüdükdə və (kafir) camaat qərq olduqda («Şaffat» surəsinin 77-ci ayəsində buyurulduğu kimi) Allah yerə öz suyunu geri çəkməyi, göylərə isə yağışı dayandırmağı əmr etdi. Su dayandı və gəmi Cud dağında qaldı.»[836]

***1687. Hud***

**Quran:**

«Ad tayfasına da qardaşları Hudu göndərdik. (O) Dedi: Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Məgər qorxmursunuz?»[837]

**Hədis:**

5960. Imam Baqir (ə): «Nuhun peyğəmbərliyi və ömrü başa çatdıqda Allah ona vəhy buyurdu: Ey Nuh! Sənin peyğəmbərliyin bitib və ömür müddətin də başa çatıb. Səndə olan elmi, imanı, böyük adı, elmin mirasını və peyğəmbərlik elminin nişanələri öz nəslindən olan yaxınların arasında qoy…

Nuh Sama Hudun (ə) gəlməsini müjdə verdi. Nuhla Hudun arasında da peyğəmbərlər olmuşdur.

Nuh dedi: Allah Hud adında bir peyğəmbər seçəcək və öz qövmünü Allaha tərəf çağıracaq. Ancaq camaatı onu yalanlayacaq və Allah onları küləyin

[836] Təfsirul-Mizan, c.10, səh.270

[837] Ə‘raf, ayə 65

vasitəsilə məhv edəcək. Sizlərdən hər biri onu görsə, ona iman gətirsin və tabe olsun ki, Allah onu küləyin əzabından xilas etsin.»[838]

5961. Imam Sadiq (ə): «Allah Hudu (ə) seçəndə Sam övladları arasında olan qohumları onu qəbul etdi. Ancaq başqaları dedilər: Bizdən güclü kim ola bilər? Sonra şiddətli (əzab gətirən) külək vasitəsi ilə məhv oldular. Hud (ə) da öz ardıcıllarına tövsiyələr edib Salehin (ə) gələcəyini müjdə vermişdir.»[839]

***Hud və Ad qövmünün əhvalatları haqda***

Qur'anda Hud və Ad qövmünün əhvalatları haqda xatırlananlar bundan ibarətdir ki, Ad – bəzən də o birinci Ad kimi adlandırılır. («Nəcm» surəsi, 50-ci ayə) Bunun özü də Ad adı ilə ikinci qövmün olduğunu göstərir– Bunlar Nuhun qövmündən sonra (Əraf surəsi,69) Ərəbistan yarımadasında yerləşən Əhqafda[840] yaşamışlar («Əhqaf» surəsi, 21-ci ayə).

Ad qövmü də əxlaq və rəftarları dəyişənə, aralarında bütpərəstik kök salana və hər bir hündür yerdə boş yerə saray tikənə qədər Allahın nemətlərindən bəhrələnmişlər.

Sonra haqq yola çağırmaları üçün Allah Hudu onlara göndərdi. Hud onları Allaha ibadətə, bütpərəstlikdən əl çəkməyə, ədalətə və böyüklərə qarşı mehribanlığa dəvət etdi. («Şüəra» surəsi, 130.cu ayə) Hud bütün gücü ilə onlara öyüd-nəsihət verməyə çalışdı, bu yolu onlar üçün açdı, üzr və bəhanə yolunu bağladı. Amma ondan boyun qaçırdılar və imtina etdilər.

Bu vaxt Allah onlara əzab nazil etdi, quru və əsdiyi hər şeyi ölü sümüyünə çevirən sərt külək göndərdi. *(«Zariyat» surəsi, 42-ci ayə)»*[841]

### *1682. Saleh*

**Quran:**

«Səmud tayfasına qardaşları Salehi göndərdik. O dedi: Ey camaatım! Allaha ibadət edin. Sizin ondan başqa heç bir tanrınız yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəldi. Allahın bu dişi dəvəsi sizin üçün bir nişanədir.»[842]

**Hədis:**

5962. Imam Əli (ə): «Ey camaat! (Bir əmələ) Razı olmaq və ya razılaşmamaqdan başqa bir şey insanları bir araya gətirməz. Səmudun dəvəsini yalnız bir kişi öldürsə də, Allah onların hamısına əzab verdi. Çünki onların hamısı bu işə razı idilər. Pak olan Allah buyurdu: Onu kəsdilər. Sonra da peşman oldular.[843] Onların başlarına gələn əzab bu idi ki, yurdları yumşaq

---

[838] əl-Kafi, c.8, səh.115, hədis 92

[839] Kəmalud-Din, səh.136, hədis 5

[840] «Əhqaf» dərəli-təпəli qumsallıq ərazi mə'nasыnы verən «həqəf» s[zünün cəm formasыdыr. Quranda qeyd olunan «Əhqaf» isə Ommanla Məhrə b[ləəsi arasыnda bir vadidir. Başqa s[zlə Ommandan Şəmər dənizinə чыxan Həzərəmut qumsallыqlarыna qədər olan ərazidir. Z[hrak demişdir: «Əhqaf Şamda bir dağdыr» (Mərasedul Ittila) əl-Mizanыn qeydlərindən.

[841] Təfsir əl-Mizan, c.10, səh.317

[842] Ə'raf, ayə 73

[843] Şüəra, ayə 157

hamar torpaqda batıb çıxan közərmiş kotan səsi kimi enib qalxırdı.»[844]

5963. Əbu Mətər: Məlun ibn Mülcəm Əmirəl-mömininə (ə) qılıncla zərbə vurduqdan sonra Imam Həsən (ə) Həzrətə ərz etdi: «Onu öldürüm?» Buyurdu: «Yox. Həbs et. Əgər ölsəm, onu öldürün. Ölsəm, məni bu arxada qardaşlarım Hud və Salehin qəbirlərinin yerində basdırın.»[845]

***Saleh və onun qövmü haqda bir neçə söz***

Səmud qövmü tayfa və qəbilə adət-ənənələrinə uyğun yaşayırdılar. Yəni, böyükləri və qocaları onlara hökmranlıq edirdi. Salehə peyğəmbərlik verilən şəhərdə yer üzündə günah işlər törədən və düz əməllə işləri olmayan doqquz dəstə var idi. («Nəml» surəsi, 48-ci ayə). Bu qövm yer üzündə Allaha qarşı üsyana qalxıb bütpərəstliklə məşğul olur, dikbaşlıq və zülmkarlıqda həddi aşmışdılar.

Səmud qövmü Allahı yaddan çıxarıb azğınlıq və zülmdə həddi aşdıqlarına görə Allah Saleh peyğəmbəri onlara göndərdi. O, şərafətli və fəxr olunası bir ailədən olmaqla ağıllı və iş bilən insan kimi məşhurlaşmışdı («Hud» surəsi, 62-ci və «Nəməl» surəsi 49-cu ayə) Saleh öz qövmünü tək olan Allaha ibadətə və bütpərəstlikdən əl çəkməyə dəvət edib onlardan öz cəmiyyətlərində ədalətlə və yaxşılıqla rəftar etmələrini istədi.

Onları, üstünlük axtarmağı kənara qoymağa, ifrata varmamağa və dikbaşlıq etməməyə çağırmış və onları əzabdan çəkindirərək təhlükə barədə xəbərdarlıq etmişlər. («Hud», «Şüəra», «Şəms» və başqa surələr).

Sonra Salehin qövmü üsyankarlıq və məkrə əl atdı. Özlərinin ən alçaq adamlarına dəvəni öldürməyi tapşırdılar. O dəvəni kəsdi və onlar Salehə dedilər: Əgər doğru deyirsənsə, bizə və'd etdiklərini həyata keçir. Saleh buyurdu: Üç gün evlərinizdə qalın və ləzzət alın. Bu və'dlərə yalan yoxdur («Hud» surəsi, 65-ci ayə).

Sonra, şəhərin qəbilə və tayfaları Salehə qarşı təxribat hazırladılar. Onlar öz aralarında and içdilər ki, Salehə və tərəfdarlarına qarşı gecəikən gözlənilməz hücum etsinlər, sonra isə onun vəlisinə qətl vaxtı hadisə yerində olmadıqlarını və bu sözlərinin doğru olduğunu söyləsinlər. Onlar hiyləyə əl atdılar. Allah da hiylə işlətdi və onların xəbərləri olmadı. («Nəməl» surəsi, 50-ci ayə) Baxdıqları halda onları şimşək, zəlzələ və əzab bürüdü («əz-Zariyat», 44-cü ayə) və öz evlərində öldülər. Sonra, Saleh onlardan üz döndərib dedi: Ey mənim qövmüm. Mən Allahımın sözünü sizə çatdırdım və sizin xeyrinizi istədim. Ancaq siz nəsihətverən və xeyirxah insanları sevmirsiniz («Əraf» 79-cu ayə, «Hud» 67-ci ayə). Allah iman gətirənlərə və təqvalı olanlara nicat verdi. («Fussilat» 18-ci ayə) Səmud qövmünün məhvindən sonra ilahi carçının nidası gəldi: Səmudlular öz Allahlarına kafir oldular. Məhv olsun Səmud.»[846]

---

[844] Nəhcül-Bəlağə, səh.201
[845] Biharul-Ənvar, c.11, səh.379, hədis 4
[846] Təfsirul-Mizan, c.10, səh.317

***1683. Ibrahim***

**Quran:**

«Rəbbin Ibrahimi bir neçə sözlə sınağa çəkdi və o bu imtahanların öhdəsindən yaxşı gəldikdə (Allah ona) buyurdu: Mən səni insanlara imam etdim. (Ibrahim) soruşdu: «Bəs mənim nəslim (necə?)» Buyurdu: Mənim əhdim zalımlara şamil olmaz.»[847]

**Hədis:**

5964. «Allahın Peyğəmbəri (s): «Ibrahimi tonqala atmaq istədikləri gün onu tonqala tərəf apardılar. Gözü tonqala sataşdıqda buyurdu: Allah bizə bəsdir və O necə də gözəl himayət edəndir.»[848]

5965. Allahın Peyğəmbəri (s): «Allah Ibrahimi başqa bir şeyə görə deyil, yalnız verdiyi təamlar və gecələr camaat yuxuda olarkən qıldığı namazlara görə öz dostluğuna götürmüşdü.»[849]

5966. Həssan ibn Ətiyyə: «Döyüşdə ilk dəfə olaraq qoşunu sol, sağ və mərkəz cinaha düzən Ibrahim (ə) olmuşdur. Bunu Lutu (ə) əsir götürənlərlə döyüşə gedərkən etmişdir.»[850]

5967. Imam Baqir (ə): «Allah-taala Ibrahimi (öz) xəlili (dostu) etmişdir ki, o heç kəsin əlini qaytarmamış və Allahdan başqa heç kəsdən heç nə istəməmişdir.»[851]

5968. Imam Sadiq (ə): «Allah-taala Ibrahimi (ə) peyğəmbər seçməmiş (öz) bəndəliyinə götürmüşdür. Risalətə seçməmiş peyğəmbərliyə seçdi və dostluğa götürməmiş onu risalətə seçdi. Onu imam etməmişdən əvvəl (öz) dostluğuna götürdü. Bütün bu məqamları onun üçün hazırladıqda buyurdu: Mən səni camaatın imamı təyin etdim.»[852]

***<u>Qurani Kərimdə Ibrahimin (ə) əhvalatı</u>***

Ibrahim (ə) öz uşaqlıq dövründən yetkinlik yaşına çatana qədər təcrid olunmuş və öz qövmünün mühitindən uzaq həyat sürmüşdür. Sonra onların əmisinin yanına, onların arasına gəldi, ancaq onun və qövmünün bütpərəst olduğunu nəzərə alırdı.

Buna görə də camaatla bütlər barədə mübahisə edirdi. ("Ənbiya", 51-56, "Şüəra", 69-77 və "Saffat", 83-87) Günəşə, aya və ulduzlara sitayiş edən digər dəstə ilə də mübahisələri edirdi. Beləliklə onların əqidələrinin səhvliyini sübuta yetirdi və onun bütlərin, məbudların yolundan azmağı haqda sözlər yayıldı. ("Ənam" surəsi, 74-82)

Bir gün camaat ibadət mərasimini yerinə yetirmək üçün hamılıqla şəhərdən çıxdıqda Ibrahim xəstəliyini bəhanə gətirərək onlarla getmədi və şəhərdə qaldı.

---

[847] Bəqərə, ayə 124
[848] Kənzul-Əmmal, hədis 32288
[849] Iləlul-Şəraye, səh.35, hədis 4
[850] əd-Durul Mənsur, c.1, səh.282
[851] Iləluş-Şəraye, səh.34, hədis 2
[852] əl-Kafi, c.1, səh.175, hədis 2

O, bütxanaya gedib bütün bütləri sındırdı. Yalnız böyük bütü saxladı ki, ola bilsin ki, onu axtarsınlar. Camaat qayıtdıqda və məbudlarının başına gələn bəladan xəbər tutandan sonra bu işi törədəni axtarmağa başladılar. Onlar dedilər: Eşitmişik ki, Ibrahim adlı bir gənc bütlər haqda çox pis şeylər danışır.

Buna görə də Ibrahimi öz yığıncaqlarına çağırıb camaatın qarşısına çıxardılar ki, camaat şəhadət versin. O Həzrəti sorğu-suala tutub dedilər: Ey Ibrahim! Bizim tanrılarımıza qarşı bu işi sən görmüsən? Həzrət buyurdu: Böyük büt bu işi görüb. Əgər danışırsa, ondan soruşun. Ibrahim ən böyük bütü sındırmamış və baltanı onun çiyninə ya da çiyninə yaxın yerə qoymuşdu ki, bu böyük bütün digər bütləri sındırdığı güman olunsun.

Camaat dedi: Onu yandırın və tanrılarınıza kömək edin. Sonra tonqal qalayıb oddan bir cəhənnəm düzəltdilər. Bu işdə hamı iştirak etdi. Sonra Ibrahimi oda atdılar. Ancaq Allahı odu onunçün sərin və əziyyətsiz etdi və onların planlarını pozdu. *(«Ənbiyya», surəsi 57-70, «Saffat» surəsi, 88-98)*

Allah Ibrahimi oddan xidas etdikdən sonra, o Həzrət haqq olan hənif və tovhid dininə dəvətə başladı və az sayda insanlar ona iman gətirdilər.

Ibrahim və ona iman gətirənlər öz qövmünün əlindən təngə gəldilər. Onun özü atası adlandırdığı, ancaq həqiqi atası olmayan Azərə[853] təngə gəldi və öz həyat yoldaşı və Lutla birgə bu zülmkar, azğın qövmün əzab əziyyətlərindən uzaq olaraq Allaha ibadət etmək üçün müqəddəs torpağa müraciət etdilər. *(«Mumtəhinə», 4 və «Ənbiya»,71).* Elə burada da Pak olan Allah artıq ahıl yaşına çatmış Ibrahimə Ismayıl və Ishaqın, eləcə də Ishaqın nəslindən Yəqubun dünyaya gələcəyinin müjdəsini verdi. Bir qədər sonra, əvvəlcə Ismayıl, sonra Ishaq dünyaya gəldi. Allah onun iki övladının və nəvələrinin vücudlarına bərəkət verdi.

Ibrahim, sonra Allahının əmri ilə susuz və otsuz bir vadi olan Məkkəyə yola düşdü. Azyaşlı uşaq olan oğlu Ismayılı orada qoyub özü müqəddəs torpağa qayıtdı. Ismayıl Məkkə torpağında böyüyüb başa çatdı. Orada yaşayan ərəblərin bir dəstəsi ətrafına toplaşdı. Beləliklə də Məkkə şəhəri salındı. Ibrahim (ə) Məkkəni və Kə'bəni tikməmişdən hərdənbir oğlu Ismayılı görmək üçün Məkkə torpağına gedirdi. *(«Bəqərə», 126 və «Ibrahim» 35-41)* O sonradan Ismayılın köməyi ilə Beytullahul Haramı (Kəbəni) tikdi və bu Allah tərəfindən camaat üçün tikilən ilk evdir. Bu ev dünya əhalisi üçün bərəkət və onları doğru yola yönəldən evdir. Orda aydın-aşkar nişanələr və məqami-Ibrahim var. Oraya daxil olan hər kəs amandadır. *(«Bəqərə» 127-129, «Ali-Imran» 96 və 97).* Ibrahim Kəbəni tikdikdən sonra Həcc barədə əmr verdi və ona aid ayinləri, mərasimləri dini qaydada *(«Həcc» 26-30)* müəyyənləşdirdi.

Bu zaman Allah Ibrahimə oğlu Ismayılı kəsməyi əmr etdi. Sonra Ibrahim həcc mərasimini yerinə yetirmək üçün oğlu Ismayılla bayıra çıxdı. «Səy» yerinə çatdıqda buyurdu: Oğulcuğazım! Yuxuda gördüm ki, sənin başını kəsirəm. Ismayıl dedi: Ey ata! Nəyə məmur edilmisənsə onu yerinə yetir və Allahın istəyi ilə mənim dözümlülərdən olduğumu görəcəksən. Hər ikisi ilahi əmr ilə

---

[853] Bu məsələ Ibrahim surəsində Həzrət Ibrahimin [z dilindən nəql olunan duadan mə'lum olur.

razılaşdıqdan sonra və Ibrahim oğlunun alnını torpağa qoydu. Nida gəldi ki, «Ey Ibrahim! Sən öz yuxunu yerinə yetirdin və Allah böyük bir qurbanı Ismayılın canına fəda etmişdir *(«Saffat» 101-107).*»[854]

***1684. Lut***

**Quran:**

«Lutu (göndərdik) o zaman o öz qövmünə dedi: Sizdən əvvəlkilərdən heç kimin görmədiyi murdar bir işi görürsünüz.»[855]

**Hədis:**

5969. Imam Baqir (ə): «Başına «Sədum», əzab yağışının töküldüyü yer Lutun qövmünün yeri idi. Allah «siccil»dən, yəni gilin bir növü olan daşları onların başlarına yağdırdı.»[856]

5970. Imam Sadiq (ə): «Allah Lutdan sonra elə bir peyğəmbər göndərmədi ki, onun öz qövmü arasında izzəti olmasın.»[857]

***Lutun və onun qövmünün əhvalatı barədə bir neçə söz***

Lut (ə) Babil torpağının kəldanilərindən və Ibrahimə (ə) iman gətirən ilk insanlardan biridir. O, Həzrəti Ibrahimə (ə) iman gətirib dedi: «Mən öz tanrımın yanına hicrət edirəm.»[858] Allah onu Ibrahimlə birgə xilas etdi və onlar müqəddəs yurd olan Fələstin torpağına getdilər («Ənbiya», 71). Lut bu torpağın şəhərlərindən birində məskunlaşdı. Tarixi mənbələrə, Tövrata və bəzi rəvayətlərə görə bu Sədum şəhəri idi.

Bu şəhərin və Quranda «mutəfikat» adlanan ona tabe digər şəhərlərin əhalisi («Tövbə»,70) bütə inanır və murdar ləvat (homoseksualizm) əməli ilə məşğul olurdular. Onlar, aralarında belə murdar əməl yayılmış ilk tayfa idilər. («Əraf», 80). Hətta öz yığıncaq və toplantılarında da onu pis bir iş bilmədən onunla məşğul olurdular («Ənkəbut», 29). Bu murdar əməl camaat arasında o qədər yayılmışdı ki, sonunda bir adət-ənənə halını almış, bütün camaat ona mübtəla olmuşdu. Qadınları kənara qoymuş və doğumun, nəsilartırmanın yolu bağlamışdılar («Ənkəbut», 29).

Belə bir şəraitdə Allah Lutu onlara göndərdi («Şüəra», 162). O, camaatı Allahdan çəkinməyə və pozğunluqdan əl çəkərək öz fitrətlərinə qayıtmağa çağırmışdır. Onlara təhlükə barədə xəbərdarlıq etsə də, (bu əməlin ağır nəticəsini və ilahi əzab ilə) qorxutsa da, nəticə üsyan və dikbaşlıqlarının artmasından başqa bir şey olmadı. Onların verdikləri yeganə cavab bu idi: «Əgər doğru danışırsansa Allahın əzabını bizim başımıza endir.» Eyni zamanda, o Həzrətə şəhərdən çıxarmaqla təhdid edib dedilər: «Ey Lut! Əl çəkməsən səni şəhərdən çıxaracağıq.»[859] Onlar dedilər: «Lutun ailəsini şəhərdən çıxarın. Çünki onlar paklıq axtaran camaatdır.»[860]

---

[854] Təfsirul-Mizan c.7, səh.215

[855] Ə'raf, ayə 80

[856] Biharul-Ənvar, c.12, səh.152, hədis 5

[857] Biharul-Ənvar, səh.157, hədis 8

[858] Ənkəbut, ayə26

[859] Şüara, ayə 167

Itaətsizlik və asilik o qədər canlarına oturmuşdu ki, nəhayət əzaba layiq oldular. Bu vaxt Allah öz sevimli mələklərindən olan məmurlarını onları məhv etmək üçün göndərdi…

Mələklər sonra yeniyetmə oğlan qiyafəsində Lutun yanına gedib qonaq olaraq orada qaldılar. Bu iş Luta baha başa gəldi, onların işlərindən çarəsiz qaldı. Çünki öz tayfasının tezliklə onlara təcavüz edəcəyini, heç vaxt onlardan əl çəkməyəcəklərini bilirdi. Çox keçmədi ki, camaat məsələdən hali oldu və tələsə-tələsə, sevinəcək Lutun evinə tərəf gəldilər və evə hücum çəkdilər. Lut (ə) evindən bayıra çıxıb bacardığı qədər onlara nəsihət verdi, onlarda qeyrət və mərdlik hisslərini oyatmağa çalışdı. Hətta onlara evlənmək üçün öz qızlarını təklif etdi. O, buyurdu: «Ey mənim qövmüm. Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər. Allahdan qorxun və məni qonaqlarımın yanında rüsvay etməyin. Sorna fəryadla köməyə çağırıb buyurdu: «Sizin aranızda rəşadətli və qavrayışlı bir adam tapılmazmı?» Ancaq camaat cavab verdi ki, sənin qızlarına ehtiyacımız yoxdur və heç vəchlə qonaqlarından əl çəkməyəcəyik. Axırda Lut ümidini itirib dedi: «Kaş sizin müqabilinizdə gücüm olaydı və ya mökəm bir dayağa pənah aparaydım.»[861]

Bu zaman mələklər dedilər: «Ey Lut! Biz sənin Allahının göndərdikləriyik. Xatircəm ol ki, bu qövm heç vaxt səni əlinə keçirə bilməz. Sonra camaatın gözünün nurunu aldılar və camaat kor-korənə dağıldılar («Qəmər», 37)

Cünəş doğan vaxtı Lutun qövmünü əzab bürüdü. Allah nişanəli olan gil daşları onların üzərinə yağdırdı və şəhərlərini başlarına uçurdu. Onları alt-üst etdi və şəhərdə olan bütün möminlərə nicat verdi. Orada Lutun evinindən başqa bir müsəlman evi yox idi. Bu torpaqda, ağrılı əzabdan qorxan insanlar üçün bir nişanə qoydu. («Zariyat», 37 və digər ayələr)»[862]

### *1658. Yaqub və Yusif*

**Quran:**

«Ibrahim və Yaqub öz oğullarını həmin (dini) tapşırdılar. (Hər ikisi öz vəsiyyətlərində belə dedilər). Ey mənim oğullarım! Allah bu dini sizin üçün seçmişdir. Əlbəttə, siz yalnız müsəlman kimi dünyadan gətməlisiniz.

Yaqubun ölümü yetişən zaman siz onun yanında idinizmi? «Məndən sonra nəyə ibadət edəcəksiniz?» deyə oğullarından soruşduqda dedilər: Sənin Allahın və ataların – Ibrahim, Ismayıl və Ishaqın – Allahı olan tək Allaha ibadət edəcəyik və biz ona təslimik.»[863]

**Hədis:**

5971. Musa ibn Səid Rasibi: «Yaqub Yusifi görməyə gedəndə Yusif öz atları ilə onun pişvazına çıxdı. Yolda, öz köşəsində ibadətlə məşğul olan Misir Padşahının həyat yoldaşını gördü. O da Yusifi görəndə onu tanıdı və kədərli bir

---

[860] Nəml, ayə 56
[861] Hud, ayə 40
[862] Təfsirul-Mizan, c.10, səh.352
[863] Bəqərə, ayə 132, 133

səslə onu səslədı: Ey süvari, bil ki, məni uzunmüddətli bir kədərə saldın. Təqva və günahlardan çəkinmək necə də gözəldir. (Baxın) Necə də qulları azad etdi! Necə də çirkindir, azad insanları qula çevirən günah!.»[864]

5972. Allahın Peyğəmbəri (s): «Gözəlliyin yarısı Yusifə verildi.»[865]

5973. Allahın Peyğəmbəri (s): «O kərəm sahibinin oğlu, o da kərəm sahibinin oğlu, o da kərəm sahibinin oğlu kərəm sahibi – (yəni) Ibrahimin oğlu Ishaqın oğlu Yaqubun oğlu Yusif idi.»

5974. Imam Sadiq (ə): «Yusifin də onlarla birgə (şəhərdən) getmələri üçün Yaqubun oğulları atalarından icazə istədikdə Yaqub onlara dedi: «Mən sizin Yusifdən xəbərsiz qalacağınızdan və canavarın onu yeyəcəyindən qorxuram.»[866]

Yaqub bu sözləri ilə onların əlinə bəhanə verdi və onlar da həmin bəhanədən Yusifin işində hiylə üçün istifadə etdilər.»[867]

### *1686. Əyyub*

**Quran:**

«Əyyubu da (yada sal) bir zaman o, Rəbbini çağırdı ki: «Mənə zərər toxunmuşdur. Sənsən mehribaqların ən mehribanı». Biz də onun duasını qəbul etdik, ona dəyən ziyanı uzaqlaşdırdıq. Həm ailəsini, həm də onlarla birlikdə bir o qədərini də (yenidən) ona əta etdik (ki) Bizim tərəfimizdən bir rəhmət və ibadət edənlər üçün bir ibrət olsun.»[868]

*(Bax: «Sad» surəsi, 41və 42-ci ayələr).*

**Hədis:**

5975. Allahın Peyğəmbəri (s): «Əyyub insanların ən səbrlisi və camaatın ən dözümlüsü idi. O, hamıdan daha çox qəzəbini udardı.»[869]

5976. Allahın Peyğəmbəri (s): «Allah Əyyuba (ə) vəhy buyurdu: Bilirsən-mi, Mənim yanımda günahın nə idi ki, sənə bəla çatdı? Ərz etdi: Yox. Buyurdu: Sən Fironun yanına gəlib onunla iki kəlmə yumşaq daşınmısan.»[870]

5977. Ibn Abbas: «Bir gün Əyyubun arvadı: «Kaş dua edərdin, Allah sənə şəfa verərdi.» dedi. Əyyub buyurdu: «Vay olsun, sənin halına! Biz yetmiş il nemət içində idik. Indi isə gəl həmin qədər çətinliyə dözək!» Ibn Abbas deyir: «Ondan az sonra Əyyub sağaldı.»[871]

5978. Imam Sadiq (ə): «Əyyub heç bir günahsız, yeddi il mübtəla oldu.»[872]

5979. Imam Sadiq (ə): «Allah-taala heç bir günahı olmadan Əyyubu bəlaya giriftar etdi və o, hətta isteza olunana qədər dözdü. Peyğəmbərlər istezaya dözmürlər.»[873]

---

[864] Əmali-Tusi, səh.457, hədis 1021
[865] Kənzul-Ummal, hədis 32400
[866] Yusif, ayə 13
[867] Nurəl-Səqəleyn, c.2, səh.415, hədis20
[868] Ənbiya, ayə 83, 84
[869] Kənzul-Ummal, hədis 32316
[870] əd-Də'vat, səh.123, hədis 304
[871] əd-Də'vat, səh. 165, hədis 456
[872] Iləluş-Şəraye, səh.75, hədis 3
[873] Iləlul-Şəraye, səh.75, hədis 4

5980. Imam Sadiq (ə): «Əyyub bəlalarının heç birində sağalmağı diləmədi.»[874]

### *1687. Şüeyb*

**Quran:**

«Mədyən (əhlinə də) qardaşları Şüeybi göndərdik. O dedi: «Ey mənim qövmüm! Allaha ibadət edin və sizin Ondan başqa tanrınız yoxdur. Həqiqətən, Rəbbiniz tərəfindən sizə açıq-aydın bir sübut gəlmişdir. Belə isə, çəkini və ölçünü düz edin! Camaatın malını əskiltməyin. Yer üzü islah oluduqdan sonra orada fəsad törətməyin! Bu (tövsiyələr) əgər möminsinizsə sizin üçün daha yaxşıdır.» * Şüeybi yalançı hesab edənlər sanki özləri orada (diyarda) heç yox imişlər.Şüeybi təkzib edənlərin özləri ziyankarlardan idi.[875]

*(Bax: «Hud» 84-95-ci ayələr, «Şüəra» 176-190-cı ayələr. «Qəsəs» 45-ci ayə, «Ənkəbut» 36 və 37-ci ayələr, «Qaf» 14-cü ayə.)*

**Hədis:**

5981. Imam Sadiq (ə): «Allah ərəblərdən yalnız beş nəfərə peyğəmbərlik vermişdir. Hud, Saleh, Ismayıl, Şüeyb və Məhəmməd xatəmül ənbiya (salavatullahi əleyhim), Şüeyb (Allaha məhəbbətindən) çox ağlayırdı.»[876]

***Qurani Kərimdə Şüeyb və onun qövmü barədə olan əhvalatlar***

Şüeyb (ə) Quranda adı çəkilən üçüncü ərəb peyğəmbəridir. O, peyğəmbərlər bunlardır: Hud, Saleh, Şüeyb və Məhəmməd (s). Allah-taala onun əhvalatının bəzi hissələrini «Əraf», «Hud», «Şüəra», «Qəsəs» və «Ənkəbut» surələrində buyurmuşdur.

O Həzrət Şamla Ərəbistan yarımadasının arasında yerləşən Mədyən şəhərinin sakini və Musanın (ə) müasirlərindən olmuşdur. Iki qızından birini Musa (ə) ilə evləndirmişdir. Bu şərtlə ki, səkkiz il onunçün işləsin və on il işlətmək istəsə bu onun öz ixtiyarındadır. («Qəsəs», 27) Musa on il Şüeybə xidmət etdi, sonra onunla sağollaşıb ailəsi ilə birgə Misirə getdi.

Şüeybin Mədyəndə yaşayan qövmü bütpərəst idi. Bu qövm əmin-amanlıq, rifah, firavanlıq və ucuzluq kimi nemətlərdən bəhrələnirdi.

Ancaq onların arasında fəsad, pozğunluq, tərəzidə və ölçüdə aldatmaq geniş yayılmışdı. («Hud», 84 və başqa surələr). Buna görə də, Allah Şüeybi onlara göndərdi və ona, camaatı bütpərəstlikdən, cəmiyyətdə fəsad yaymaqdan, tərəzidə aldatmaqdan çəkindirməyi əmr etdi. Həzrəti Şüeyb öz qövmünü göndərildiyi işlərə dəvət etdi. Qorxutmaq və öyüd verməklə moizə etdi. Nuh, Hud, Saleh və Lutun tayfalarının başına gələn əzab və bəlaları bir daha onlara xatırlatdı.

---

[874] Qəsəsul-Ənbiya, səh.139, hədis 147
[875] Ə‘raf, ayə 85, 92
[876] Qəsəsul-Ənbiya, səh.145, hədis 157

O, qövmünü islah edib doğru yola yönəltmək üçün böyük səylər göstərsə də onların yalnız asilik, küfr və itaətsizlikləri artdı. («Əraf», «Hud» və digər surələr) və yalnız çox az insan ona iman gətirdi. Ancaq camaat onları incitməyə, ələ salmağa və Şüeybin ardınca getməmək üçün hədə-qorxu gəlməyə başladılar. Onlar Allaha iman gətirən hər kimsəni qorxutmaq üçün hər keçidin başında dayanaraq onları Allahın yolundan çəkindirməyə və azdırmağa çalışırdılar («Əraf», 89).

Onlar Şüeybi (ə) sehr, ovsunlanmaq və yalançılıqda ittiham edir («Şüəra» 185 və 186), daş-qalaq etməklə qorxudur və onu, eləcə də iman gətirənləri öz dinlərinə qayıtmayacaqları halda şəhərdən çıxaracaqları ilə təhdid edirdilər («Əraf» /88).

Onlar Şüeybin əleyhinə çıxmaqda davam edirdilər. Belə ki, o Həzrət onların iman gətirməsinə ümidini itirdi və onları öz başlarına buraxdı («Hud», 193). Şüeyb Allahdan qələbə və işlərində irəliləyiş dilədi: «Ilahi, bizlə qövmümüz arasında haqla qəzavət et. Sən hakimlərin ən yaxşısısan.»

Bu vaxt Allah buludlu günün əzabını onlara göndərdi («Şüəra»,189). Onlarsa Şüeybi ələ salırdılar ki, doğru deyirsənsə göydən bizə bir parça bulud endir. Əzab («Hud»,94) və zəlzələ («Əraf»,91 «Ənkəbut»,37) onları bürüdü və öz evlərində öldürürdü. Şüeybə və iman gətirənlərə isə nicat verdi («Hud»,94). Həzrət onlardan üz döndərib dedi: «Ey mənim qövmüm! Mən Rəbbimin risalətini sizlərə çatdırıb sizə nəsihət verirdim. Belə isə, kafir insanın nəyinə görə təəssüflənim?» («Əraf»,93).[877]

### *1688. Musa və Harun*

**Quran:**

«Həqiqətən də, Musaya və Haruna Fürqanı verdik, (və kitabları) təqvalılar üçün işıq və öyüddür.»[878]

«Biz peyğəmbərlər göndərdik, bəzisinin əhvalatını bundan əvvəl sənə danışdıq, bəzisinin əhvalatını isə sənə danışmamışıq. Allah Musa ilə danışdı.»[879]

*(Bax: Bəqərə, 49-93; Maidə, 20-26; Əraf, 103-156, 159-162; Ənfal, 52-54; Yunis,75-93; Hud, 17, 110; Ibrahim, 5-8; Isra, 101-104; Məryəm, 51-53; Taha, 9-97; Möminun, 45-49; Mömin, 23-46, 53, 54...; Şüəra, 10-68, Qəsəs,3-46; Səcdə,23, 24; Əhzab, 69; Saffat, 114-122; Sad,12; Fusilət, 54; Zuxruf,46-56; Duxan,17-23; Əhqaf,12; Zariyat,38-40; Səff 5; Təhrim, 11; Müzəmmil,15, 16; Naziat 15-26-cı ayələr).*

**Hədis:**

5982. Allahın Peyğəmbəri (s): «Bəni Israildən olan ilk peyğəmbər Musa və sonuncusu isə Isa idi. Onlar altı yüz nəfər (peyğəmbər) olmuşdur.»[880]

---

877 Təfsir əl-Mizan, c.10, səh.377
878 Ənbiya, ayə 48
879 Nisa, ayə164
880 Biharul-Ənvar, c.13, səh.7, hədis 5

5983. Ibn Abbas (ə): «Allahın Peyğəmbəri (s) buyurdu: Mən Isa, Musa və Ibrahimi gördüm. Isanın cod saçları, qızılı sifəti və geniş sinəsi var idi. Musa yumşaq, düz saçlı, «Zot» camaatına bənzər və güclü bədənə malik idi. Ərz etdilər: Ibrahim necə idi? Buyurdu: Öz dostunuza, yəni Allahın Peyğəmbərinə (s) baxın.»[881]

5984. Imam Əli (ə): «Musa ilə söhbət edən və öz nişanələrindən böyük bir nişanəni üzvü, dili, dilçəyi və ya bir vasitəsi olmadan ona göstərən Allaha həmd olsun.»[882]

5985. Imam Əli (ə): «Ikinci nümunə göstərmək istəsəm Musa kəlimullahı xatırlayaram. Musa buyurmuşdur: «Rəbbim, Mənim üçün göndərdiyin yaxşılıqlara möhtacam»[883]. Allaha and olsun, o, Allahdan yemək üçün çörəkdən başqa bir şey istəmədi. Çünki yerdəki göyərti və otlarla qidalanırdı.»[884]

5986. Imam Sadiq (ə): «Allah Musa ibn Imrana vəhy buyurdu: Nəyə görə yaratdıqlarım arasından səni seçdiyimi və söhbət üçün sənə üstünlük verdiyimi bilirsənmi? Ərz etdi: Yox, ey mənim Rəbbim. Allah ona vəhy buyurdu: Mən yer üzünə baxdım və Mənim müqabilimdə səndən daha təvazökarını tapmadım.»[885]

5987.Imam Sadiq(ə):«Firon öz hakimiyyətinin Musanın əli ilə məhv olacağını bildikdə kahinləri çağırmağı əmr etdi. Onlar Fironu Musanın əsl-nəsəbindən və bəni-Israildən olmasından agah etdilər. Bundan sonra Firon öz adamlarına bənu-Israil qadınlarının hamilələrinin qarnını deşməyi əmr etdi. Musanı məhv etmək üçün iyirmi mindən çox ana bətnlərindəki uşağı öldürdü,ancaq Musanı öldürə bilmədi.Çünki Allah-taala onu qoruyurdu.» [886]

***Musa və Harunun əhvalatları haqda***

Musa Misirdə və bir Israillinin ailəsində dünyaya gəlmişdi. O Fironun əmrinə əsasən bəni-Israilin yeni doğulmuş körpələrinin başını kəsməyə dair əmr verdiyi vaxt anadan olmuşdur. Musanın anası onu sandığa qoyub Nilə buraxdı və Firon onu götürüb anasına qaytardı ki, uşağa süd verib onu böyütsün. Beləliklə də Musa Fironun evində böyüyüb boya-başa çatdı.

Yetkinlik yaşında olanda gibtilərdən (Fironun tərəfdarlarından) birini öldürdü və Fironun sarayındakıların həmin kişiyə görə qisas alacaqlarından qorxaraq Mədyənə qaçdı.

O, Mədyəndə Şüeyb peyğəmbərin (ə) yanında qaldı və onun qızlarından biri ilə evləndi. Şüeyb üçün təyin olunmuş vaxt başa çatdıqda və ailəsi ilə birgə Misirə yola düşəndə Tur dağı tərəfdə bir alov gördü. Həmin qaranlıq gecədə yolu itirdiyinə görə Musa ailəsini elə olduqları yerdə saxladı. Onlara bir az od gətirmək və ya odun ətrafında kimsə olarsa yolu soruşmaq üçün həmin oda tərəf getdi. Ona yaxınlaşanda Allah həmin bərəkətli torpaq vadisinin sağ tərəfindəki

---

[881] ət-Təbəqatul Kubra, c.1, səh.417
[882] Nəhcül-Bəlağə, xütbə 182
[883] Qəsəs, ayə 24
[884] Nəhcül-Bəlağə, xütbə 160
[885] Əmali-Tusi, səh.165, hədis 275
[886] Biharul-Ənvar, c.13, səh.47, hədis 15

ağacdan ona nida verdi. Onunla söhbət edib peyğəmbərliyə seçdi və doqquz peyğəmbərlik nişanəsini, o cümlədən əsa və «yəd-e beyza»-nı (ağ əl) ona verib onu ilahi əmri Firona və ətrafındakılara çatdırmaq, bəni Israilin nicatı üçün seçib Fironun yanına getməsini əmr etdi.

Musa (ə) Fironun yanına gedib onu haqq dinə çağırdı və ondan bəni Israili onunla buraxmasını, onlara əzab-əziyyət, işkəncə verməsinə son qoymağı istədi və əsa, yəd-e beyza möcüzələrini göstərdi. Ancaq Firon bunu qəbul etməyib cadugərlərin caduları ilə Musanın (ə) döyüşünə çıxdı.

Cadügərlər öz caduları ilə əjdaha və ilan göstərdilər. Ancaq Musa öz əsasını atdı və əsa qəfildən əjdahaya çevrildi və bütün caduları uddu. Cadugərlər torpağa (səcdəyə) düşüb dedilər: «Biz aləmlərin Rəbbinə, Musa və Harunun Allahına iman gətirdik.» Ancaq Firon inkar etməkdə israrlı olub cadugərlərə hədə-qorxu gəldi və iman gətirmədi.

Musa yenə də Fironu və onun sarayındakıları dinə dəvət edib peyğəmbərliyinin nişanələrini, o cümlədən tufan, çəyirtkə, bit, qurbağa və qanı bir-birinin ardınca onlara göstərdi. Ancaq onlar öz təkəbbür və itaətsizliklərində inad etdilər, başlarına hər nə bəla gəldisə dedilər: Ey Musa! Rəbbinin səninlə əhd etdiyini biz üçün oxu! Əgər bu əzabı bizdən uzaqlaşdırsan mütləq sənə iman gətirəcək və bəni Israili də səninlə göndərəcəyik. Ancaq Allah onlara təyin etdiyi əzabı onlardan götürəndə yenidən öz əhdlərini pozurdular.

Buna görə də, Allah Musaya bəni-Israili gecələr hərəkət etdirməyi əmr verdi. Onlar hərəkət edib dəniz sahilinə çatana qədər getdilər. Firon öz qoşunu ilə onları təqib etdi. Hər iki qrup bir-birini görəndə Musanın dəstəsi dedi: Bizə çatırlar. Musa buyurdu: Heç vaxt. Çünki mənim Rəbbim mənimlədir və tezliklə bizə yol göstərəcək. Sonra əmr gəldi ki, əsanı dənizə vur. Vuran kimi su yarıldı və bəni Israil dənizdən keçdi. Firon və onun süvariləri də dənizə girdilər. Hamısı daxil olduqda Allah hər tərəfdən suyu onların başına töküb Fironun adamlarını qərq etdi.

Allah bəni-Israili Fironun və qoşununun əlindən xilas etdikdən, onları nə su, nə də ot olan quru bir yerə çatdırdıqdan sonra onlara lütf və kəramətini göstərdi. Onlara mənnə və bildirçin nazil etdi və Musaya əsasını daşa vurmasını əmr etdi. Ondan on iki bulaq qaynadı. Bəni-Israilin hər bir qolu öz bulağına tərəf getdi və həmin bulaqlardan su içdilər, mənnə və bildirçindən yedilər. Bulud isə başlarının üstünə kölgə saldı.

Bu vaxt Allah Tövratı Musaya nazil etmək üçün onun qırx gecə Tur dağına getməsini qərara aldı. Musa, Allahın onunla söhbətini eşitmələri üçün öz qövmünün arasından yetmiş kişi seçdi. Həmin yetmiş kişi Allahın Musa ilə söhbətini eşitsələr də, dedilər ki, Allahı aydın-aşkar görməyincəyə qədər sənə iman gətirməyəcəyik. Bu zaman bəla onları gözləri baxdıqları halda tutdu. Ancaq Musanın duası ilə Allah onları diriltdi. Miqat (təyin olunmuş həmin qırx gecə) başa çatanda Allah Tövratı Musaya nazil etdi və o, gayıtdıqdan sonra Samirinin onun tayfasını yoldan çıxardığını və onların buzova ibadət etdiklərini Musaya xəbər verdi.

Musa kədərli və qəzəbli halda qövmünün yanına qayıtdı və buzovu yandırıb külünü dənizə tökdü, Samirini isə qovub ona dedi: «Gedəsən və həyatında həmişə deyəsən: «lə məsəs» (yəni mənə əl vurmayın) Qalan camaata da tövbə etməyi və özlərini (günahkarları) öldürmələrini əmr etdi. Bundan sonra tövbələri qəbul olundu. Ancaq, yenə də Tövratın hökmlərini qəbul etməkdən imtina etdilər və Allah Tur dağını onların başının üstündən yuxarı qaldırdı.

Bəni-Israil mənnə və bildirçin yeməkdən də bezib dedilər: «Biz bir növ xörəyə dözə bilmirik. Onlar Musadan Allahından onlara torpaqda bitən göyərti, xiyar, sarımsaq, mərci və soğan kimi tərəvəzlər bitirməsini diləməyini iştədilər. Sonra Allah onlara təyin etdiyi müyəddəs torpağa daxıl olmalarını əmr etdi. Ancaq bəni-Israil bunu qəbul etmədi. Buna görə də Allah həmin torpağı onlara haram etdi və onları səfil etdi. Belə ki, qırx il çöllərdə sərgərdan qaldılar.»[887]

### *1689. Musa və Xızır*

**Quran:**

«O zamanı (yada sal) ki, Musa (yoldaşı olan) o cavana dedi: Mən illərlə seyr etməli olsam da iki dənizin qovuşduğu yerə çatmayınca (yolumdan) dönməyəcəyəm. * Divara gəlincə o, şəhərdəki iki yetim uşağın idi və onun altında uşaqlara məxsus xəzinə var idi. Ataları xeyir əməl sahibi olan kişi idi. Sənin Allahın o iki yetimin böyüməsini və Allah tərəfindən bir rəhmət olan həmin xəzinəni çıxarmalarını istədi. Bu işləri də mən özbaşına görməmişəm. Budur sənin səbr edib dözə bilmədiklərinin izahı.»[888]

**Hədis:**

5988. Allahın Peyğəmbəri (s): «Allah qardaşım Musaya rəhmət etsin. Xəcalət çəkdi və o sözü dedi. Öz yol yoldaşı ilə qalsaydı, şübhəsiz ki, ən heyrətamiz şeyləri görərdi.»[889]

5989. Imam Sadiq (ə): «Xızır, Allahın onu qövmünə göndərdiyi və onları, Allahın təkliyini və Onun peyğəmbərlərini, kitablarını, elçilərini tanımağa dəvət etdiyi mürsəl peyğəmbərdir. Möcüzəsi bu idi ki, hər bir quru çöp və torpağın üstündə əyləşsəydi ora yaşıllıq olardı. Buna görə də Xızır adlandırılmışdı.»[890]

5990. Imam Sadiq (ə): «Səhlə məscidi o süvarinin igamətgahıdır.» Ərz etdilər: «O suvari kimdir? Buyurdu: «Xızır (ə).»[891]

5991. Imam Rza (ə): «Xızır dirilik suyundan içib və buna görə də diridir. Qiyamətdə sur çalınana qədər ölməyəcək.»[892]

**Musa və Xızırın hekayəsi Quranda**

O alim insan dedi: «Sən məndə gördüyün işlərə dözmək gücündə deyilsən və onların izahını, həqiqətini bilmirsən. Belə isə sirlərini bilmədiyin işlərə qarşı

[887] Təfsir əl-Mizan, c.16, səh.40
[888] Kəhf, ayə 60-82
[889] Biharul-Ənvar, c.13, səh.284, hədis1
[890] Iləluş-Şəraye, səh.59, hədis1
[891] Biharul-Ənvar, c.13, səh.303, hədis 25
[892] Kəmalud-Din, səh.390, hədis 4

necə səbr edib dözə bilərsən? Musa Allahın istəyi ilə səbr edəcəyinə, ona itaətsizlik və müxalifətçilik etməyəcəyinə söz verdi. Həmin alim insan, öz istək və və'dinə görə dedi. Mənə tabe oldunsa, onda özüm barələrində məlumat verməyincə qədər məndən heç bir şey haqda soruşmayasan.

Sonra həmin alim insan və Musa yola düşdülər və bir qədər sərnişin olan gəmiyə mindilər. Musa həmin kişinin fikrindən keçənlərdən xəbərsiz idi. O kişi gəmini elə deşdi ki, batmasına təhlükə yarandı. Bu Musanı çox təəccübləndirdi və verdiyi və'di yadından çıxartdı. Buna görə də dedi: Gəmini deşmisən ki, onun sərnişinlərini batırasan? Rəva olmayan bir iş gördün. Bilikli kişi dedi: Demədimmi ki, sən heç vaxt mənimlə səbr edə bilməzsən? Musa öz və'dini unutduğuna görə üzr istəyib dedi. Məni və'dimi unutduğuma görə mühakimə etmə və mənə qarşı çox tələbkar olma.»

Onlar yenidən yollarına davam etdilər və nəhayət bir yeniyetməni gördülər. Alim insan onu öldürdü. Musa özünü saxlaya bilməyib ona irad tutdu ki, qətl törətməmiş günahsız bir insanı öldürdün? Doğrudan da yaraşmayan bir iş tutdun. Alim insan yenə dedi: Sənə demədimmi ki, sən heç vaxt mənimlə səbr edə bilməzsən? Bu dəfə Musa ondan ayrılmağa razı olmasa da bunun qarşısını ala bilmək üçün üzr gətirə bilmədi. Buna görə də növbəti suala qədər yoldaşlıq etmələrini şərt qoydu ki, əgər üçüncü dəfə də sual etsə ondan ayırsın. Musa öz möhlət istəməyini belə bəyan etdi: Əgər bundan belə səndən nəsə soruşsam, mənə yoldaş olma və mən bunu üzrlü sayacam. Alim insan bunu qəbul etdi.

Onlar bir abadlığa çatana qədər yollarını davam etdirdilər. Bərk acmışdılar və oranın camaatından yemək istədilər. Ancaq heç kəs onları qonaq etmədi. Bu zaman uçmaq ərəfəsində olan divar gördülər. Camaat həmin divara yaxınlaşmaqdan çəkinirdi. Alim insan divarı düzəltdi. Musa dedi: Əgər bu işə görə muzd istəsəydin ala bilərdin, bu yolla biz də aclığımızı dəf edərdik. Çünki bizim bu işin əlmuzduna ehtiyacımız var və bu camaat da bizi qonaq etmədi.

Alim insan dedi: Indi bizim bir-birimizdən ayrılmağımızın vaxtı çatdı. Mən səni gördüyün, ancaq dözə bilmədiyin işlərin sirlərindən agah edirəm. Sonra dedi: O gəmi dənizdə işləyən və bu yolla da dolanışıqlarını təmin edən miskin insanların idi. Onların qarşı tərəfində gəmiləri zorla alan padşah olduğuna görə gəmini deşdim ki, qüsuru olsun və padşah onu bəyənməsin.

Ancaq o yeniyetmə isə, ata-anası mömin olsa da, özü kafir idi. O sağ qalsaydı öz küfr və asiliyi ilə onları da yoldan çıxaracaqdı. Buna görə də Allah öz lütfünü onlara şamil etdi və mənə onu öldürməyi əmr etdi ki, Allah onun yerini pak və mehriban uşaqla əvəz etsin. Mən də onu öldürdüm.

Ancaq o divar isə, həmin abadlıqda iki yetim uşağa məxsus idi. Divarın altında xəzinə var idi. Ataları xeyir əməl sahibi olduğuna görə atalarının paklığına görə ilahi rəhmət həmin uşaqlara şamil oldu. Mənə, divarın həmin uşaqların yetkinlik yaşına çatanda öz xəzinələrini çıxarana qədər dayanması üçün həmin divarı tikməyimi əmr etdi.Əgər divar uçsaydı xəzinə üzə çıxardı və camaat onu qarət edərdi.

Bu zaman dedi: Gördüyün bu işləri özbaşına etmədim. Bunlar Allahın əmri idi və onların sirri də sənə dediklərim idi. O sonra Musadan ayrıldı.

***1690 . Ismayıl ibn Hizqil***

**Quran:**

«Bu Kitabda Ismayılı yad et. Çünki o, vədinə sadiq və Allahın elçisi idi.* Ailəsinə namaz qılıb zəkat verməyi əmr etdi. Həmişə (rəftarı) Allahı tərəfindən bəyənilmişdir.»[893]

**Hədis:**

5992. Imam Sadiq (ə): «Allah-taalanın Öz kitabında barəsində «Bu kitabda Ismayılı yad et…» buyurduğu Ismayıl Ibrahimin oğlu Ismayıl deyil. O, Allah peyğəmbərlərindən biri idi. Allah onu öz qövmünə göndərdi, amma qövmü onun başının və üzünün dərisini soydu. Bir mələk gəlib ona dedi: Allah məni sənin yanına göndərmişdir. Hər nə əmr vermək istəyirsənsə, ver. O, dedi: Mən Hüseynin (ə) başına gələnlər mənə bir örnəkdir.»[894]

5993. Imam Sadiq (ə): «Ismayıl Allahın göndərilmiş rəsulu idi. Qövmü ona üstün gəldi və başının, üzünün dərisini soydular. Sonra aləmlərin Rəbbi tərəfindən bir mələk gəlib dedi: Allahın sənə salam göndərir və deyir ki, sənin başına gələnləri gördüm. Allah mənə əmr etdi ki, sənə itaət edim. Hər nə əmr vermək istəyirsənsə, ver. O, dedi: Hüseyn ibn Əli (ə) mənim örnəyimdir.»[895]

5994. «Quminin təfsirindən»: «Bu kitabda Ismayılı da yad et. O, və'dinə sadiq idi…» ayəsi barəsində deyilir ki, imam belə buyurmuşdur. Ismayıl və'd verdiyi üçün qarşı tərəfi bir il gözlədi. O Ismayıl ibn Hizqildir.»[896]

***1691. Yəsəə***

**Quran:**

«Ismayıl, Yəsəə, Yunis və Lutu hamılıqda bütün dünya əhlindən üstün etdik.»[897]

**Hədis:**

5995. Imam Rza (ə) *(xrisitian din xadimi mübahisəsindən):* «Yəsə'ə də Isanın (ə) işlərini görürdü: Suyun üstü ilə gəzər, ölüləri dirildər, anadan gəlmə korlara və ala xəstəliyinə tutulanlara şəfa verərdi. Buna baxmayaraq ümməti (sizdən fərqli olaraq) onu Allah sanmadılar.»

***1692.Zülkifl***

**Quran:**

«Hamısı səbr edənlərdən olan Ismayıl, Idris və Zülkifl (onları yad et) Onları Öz rəhmətimizə şamil etdik. Çünki onlar layiqlilər idilər.»

«Ismayıl, Yəsəə və Zülkifli yad et ki, onların hamısı yaxşı əməl sahibidirlər.»

**Hədis:**

---

[893] Məryəm, ayə 54, 55

[894] Iləlul-Şəraye, səh.72, hədis 2

[895] Iləlul-Şəraye, səh.78, hədis 3

[896] Təfsirəl-Qommi, c.2, səh.51

[897] Ə‘nam, ayə 86

5996. Imam Cavad (ə) *(«Zülkiflin adı nə idi və o da mürsəl peyğəmbərlərdən idimi?» deyə soruşan Əbdüləzim Həsəniyə cavabından):* Allah-taala yüz iyirmi dörd min peyğəmbər göndərmişdir ki, onun da üç yüz on üç nəfəri rəsul olmuşdur. Zülkifl (ə) də bu rəsullardan biri idi. O, Süleyman ibn Davuddan (ə) sonra yaşamış və camaat arasında Davud kimi hakimlik etmişdir, yalnız Allaha xatir qəzəblənərdi. Onun adı «Uyidya» idi və Allah-taala «Hamısı hamısı yaxşı əməl sahibi olan Ismayılı, Yəsəə və Zülkifli yad et» ayəsində onun adını çəkmişdir.»[898]

### *1693. Davud*

**Quran:**

«Onların dedikləri sözə səbr et və (geniş) imkanları olan bəndəmiz Davudu yadına sal. Bəli, o, daima (Allaha tərəf) qayıdan bir kimsə idi. * Ey Davud! Biz səni yer üzündə xəlifə etdik. Buna görə də camaat arasında haqla hakimlik et və heç vaxt nəfsinin istəklərinə uyma ki, səni Allah yolundan azdırar.Həqiqətən, Allahın yolundan azanlar hesab gününü unutduqlarına görə ağır bir əzaba düçar olacaqlar.»[899]

«Biz Tövratdan sonra Zəburda yazmışıq ki, yer üzünə saleh bəndəl varis olacaqlar.»[900]

5997. Allahın Peyğəmbəri (s): «Davud insanların ən çox ibadət edəni idi.»[901]

5998. Allahın Peyğəmbəri (s): «Camaat Davudun xəstəliyə düçar olduğunu güman edərək onu yoluxmağa gedirdi. Ancaq ona heç bir şey olmamışdı o, yalnız Allah-taala qorxusunun şiddətindən belə hala düşmüşdü.»[902]

5999. Imam Əli (ə): «Allah Davuda vəhy etdi: Beytulmaldan ruzi istəməsəydin və şəxsi gəlirin olsaydı necə də gözəl bəndə olardın.» Həzrət buyurdu: «Davud (ə) ağladı. Sonra Allah dəmirə vəhy etdi: Bəndəm Davud üçün yumşal. Sonra dəmir yumşaldı və Allah-taala dəmiri onunçün yumşaltdı. O üç yüz altmış zireh toxuyub üç yüz altmış min dirhəmə satdı və beytulmala ehtiyacı olmadı.»[903]

6000. Imam Sadiq (ə): «Davud Şamatla Əstəxr şəhərləri arasında olan əraziyə padşahlıq edirdi. Süleymanın padşahlıq etdiyi ərazi də bu qədər idi.»[904]

6001. Imam Sadiq (ə): «Allah-taala Davuda (ə) vəhy buyurdu: Nə olub ki, səni tək görürəm? Ərz etdi: Sənə xatir camaatı tərk etdim, onlar da məni tərk ediblər. Buyurdu: Nə olub ki, səni dinməz-söyləməz görürəm? Nə olub ki, səni incik görürəm? Ərz etdi: Səndən qorxu məni səssiz-səmirsiz etmişdir Buyurdu: Nə olub ki, səni incik görürəm? Ərz etdi: Sənin eşq-məhəbbətin məni incik

---

[898] Qəsəsul-Ənbiya, səh.213, hədis 277
[899] Sad, ayə17-26
[900] Ənbiya, ayə105
[901] Kənzul-Ummal, hədis 32322
[902] Kənzul-Ummal, hədis 32323
[903] Mənla Yəhzuruhul Fəqih, c.3, səh.162, hədis 3594
[904] əl-Xisal, səh.248 hədis 110

etmişdir. Buyurdu: Nə olub ki, səni yoxsul görürəm? Halbuki, sənə nemətlər vermişəm. Sənin haqqını yerinə yetirməyim məni yoxsul etmişdir. Buyurdu: Nə olub ki, səni xar görürəm? Ərz etdi: Sənin cəlalının təsvirəgəlməz əzəməti məni xar etmişdir. Bu Sənin haqqındır, ey mənim mövlam! Izzət və cəlal sahibi Allah buyurdu: Elə isə, fəzlim və lütfüm sənin müjdən olsun. Mənə qovuşacağın gün nə istəsən sənə verərəm. Camaatla ünsiyyətdə ol və onların əxlaqı ilə uyğunlaş, ancaq əməl və rəftarında onlara yoldaş olma ki, qiyamət günündə məndən istədiklərini əldə edə biləsən.»[905]

6002. «Biharul-Ənvar»: Rəvayət olunub ki, Davud (ə) tənha səhraya gedir. Sonra, Allah ona vəhy edir: Ey Davud! Nə olub ki, səni tək-tənha görürəm? Ərz edir: Ilahi, Səninlə görüş şövqüm artıb və mənimlə camaat arasında ayırıcıya çevrilib. Allah ona vəhy edir: Onlara tərəf qayıt. Çünki Məndən qaçan bir bəndəni mənə tərəf gətirsən sənin adını «Loh»da yaxşılardan yazaram.»[906]

### *1694. Süleyman*

**Quran:**

«Süleyman Davuddan irs alaraq dedi: Ey camaat! Quşların dili bizlərə öyrədilib, hər şeydən bizə verilib. Həqiqətən də, bu aşkar fəzilətdir.»[907]

**Hədis:**

6003. «Biharul-Ənvar»: Süleyman (ə) erkək sərçənin öz cütünə «Niyə özünü məndən əsirgəyirsən? Istəsəm, Süleymanın əbasını öz dimdiyinlə gətirib dənizə ataram» dediyini eşitdikdə təbəssümlə ona dedi: Həqiqətən, belə edə bilərsən? Sərçə dedi: Yox, ey Allahın Peyğəmbəri, ancaq bəzən kişi arvadına özünü göstərər, özünü onun gözündə böyüdər. Aşiqi dediklərinə görə danlamazlar. Süleyman dişi sərçəyə dedi: Niyə özünü ondan əsirgəyirsən, bir halda ki, o sənin aşiqindir. Dedi: Ey Allahın Peyğəmbəri. O, aşiq deyil, ancaq eşqdən danışır. Çünki mənimlə eyni vaxtda başqasını da sevir. Dişi sərçənin sözü Süleymana təsir etdi və o, bərk ağladı. Qırx gün camaatdan ayrıldı və bu müddətdə Allahdan onun ürəyini Rəbbinə məhəbbət üçün boşaltmasını, məhəbbətini özündən qeyrisinin məhəbbəti ilə qarışdırmamasını dilədi.»[908]

6004. Süleyman (ə): «Camaata verilənlər və verilməyənlər bizlərə verilmişdir. Camaata öyrədilən və öyrədilməyən bizə öyrədilmişdir. Ancaq aşkarda və gizlində Allahdan qorxmaqdan, imkanlı və kasıb vaxtı mötədil yaşayışdan, qəzəbli və şad vaxtı haqq sözü deməkdən və bütün hallarda dua edib zar-zar ağlamaqdan üstün bir şey tapmadım.»[909]

6005. Imam Əli (ə): «Əbədiyyətə yüksəlmək üçün bir nərdivan, ölümü özündən uzaqlaşdırmaq üçün bir yol tapılması mümkün olsaydı, şübhəsiz ki, bu peyğəmbərliyin yüksək məqamı ilə yanaşı ins və cinin hökmranlığı verilmiş Süleyman ibn Davud olardı. Ancaq, ruzi və qismətini tam şəkildə aldıqda və

---

[905] Əmali-Səduq, səh.164, hədis 26
[906] Biharul-Ənvar, c.14, səh.40, hədis 26
[907] Nəml, ayə16
[908] Biharul-Ənvar, c.14, səh. 95, hədis 3
[909] əl-Xisal, səh.241, hədis 91

ömür müddəti başa çatdıqda fanilik kamanının oxları onu öz ölüm oxlarının hədəfinə çevirdi. Evlər onsuz qaldı,məskənləri sahibsiz oldu və başqa bir dəstə onun varisi oldu.»[910]

6006. Imam Sadiq (ə): «Süleyman (ə) öz qonaqlarına ət və ağ çörək verər, ailəsinə isə kəpəkli buğda çörəyi yedizdirər, özü isə ələnməmiş arpa çörəyi yeyərdi.»[911]

6007. Imam Sadiq (ə): «Cənnətə axırıncı daxil olan peyğəmbər Süleyman ibn Davud (ə) olacaq. Bu dünyada ona verilənlərə görədir.»[912]

6008. Imam Sadiq (ə): «Bir gün Süleyman ibn Davud ətrafındakılara dedi: Allah-taala mənə elə bir hakimiyyət verib ki, məndən sonra kimsə ona layiq deyil. Küləyi, ins və cini, quşların və vəhşi heyvanları mənə tabe etdi. Uçan quşların dilini mənə öyrətmiş və hər bir şeydən mənə əta etmişdir. Ancaq verdiyi bütün bu hakimiyyətə rəğmən, elə bir gün olmadı ki, axşama qədər şad-xürrəm olum. Buna görə də sabah öz qəsrimə gedib onun damına çıxıb öz məmləktlərimə baxmaq istəyirəm. Heç kəsə icazə verməyin ki, saraya gəlib günümü acı və zəhərə döndərəcək xəbərlər gətirsin. Ətrafdakılar dedilər: Itaət edirik. Sonrakı gün Süleyman əsasını götürüb öz qəsrinin ən uca nöqtəsinə çıxdı və ona söykənib özünə əta edilənlərdən şad halda hakimiyyətinin ərazisinə baxmağa başladı. Birdən, gözü sarayının guşələrinin birindən ona tərəf gələn xoş sifətli və gözəl geyimli bir gəncə sataşdı. Süleyman onu gördükdə dedi: Mən bu gün sarayda tək qalmaq istədiyim halda səni buraya kim buraxıb? Kimin icazəsi ilə daxil olmusan? Həmin gənc dedi: Bu sarayın Allahı məni bura daxil edib və Onun icazəsi ilə girmişəm. Süleyman dedi: «Əlbəttə, bu sarayın Allahı ona məndən daha layiqdir. Sən kimsən? Dedi: Mən ölüm mələyiyəm. Süleyman dedi: Nə üçün gəlmisən? Dedi: Gəlmişəm ki, ruhunu alam.

Süleyman dedi: Öz vəzifəni yerinə yetir. Bu gün mənim şadlıq və sevinc günümdür. Allah istəməyib ki, mən yalnız Onunla görüşdə şad olum. Sonra Süleyman əsasına söykənmiş halda Əzrail onun canını aldı. Süleyman uzun müddət belə ölmüş halda əsasına söykənib qaldı. Camaat onu görüb sağ olduğunu fikirləşirdi. Bir qədər sonra onun barədə şübhəyə və ixtilafa düşdülər. Bəziləri dedilər: Xeyli müddətdir ki, Süleyman öz əsasına söykənib. Nə yorulub, nə yatıb, nə yeyib və nə də içib. Bu bizim ibadət eləməli olduğumuz Allahdır. Digərləri deyirdilər: Süleyman cadugərdir. O, bizim gözlərimizi cadulamaqla bizə özünü əsasına söykənmiş göstərir. Ancaq əslində belə deyil. Möminlər dedilər: Süleyman Allahın bəndəsi və onun peyğəmbəridir. Allah onun işlərini öz uzaqgörənliyi ilə idarə edir. Süleyman barədə belə fikir ayrılığı yarandığına görə Allah bir qarışqa göndərdi. O, Süleymanın əsasını içindən yedi, əsa sındı və Süleyman (ə) sarayın başından üzü üstə yerə düşdü.»[913]

### *1695. Zəkəriyya*

---

[910] Nəhcül-Bəlağə, xütbə 182.
[911] əd-Də'vat, səh.142, hədis 363
[912] Mustərəfatus-Sərair, səh.41, hədis 8
[913] Iləluş-Şəraye, səh.73, hədis2

**Quran:**

«Zəkəriyyanı (yad et) o zaman ki, O, Allahına xitabən dedi: Ilahi, məni tək qoyma və Sən varislərin ən yaxşısısan. Sonra onun (duasını) qəbul etdik və Yəhyanı ona bəxş etdik. Həyat yoldaşını ona (hamilə olmağa) layiq etdik. Çünki onlar xeyir işlərə tələsirdilər. Bizi rəğbətlərinə və qorxularına görə çağırır və Bizə qarşı təvazökar idilər.»[914]

**Hədis:**

6009. Allahın Peyğəmbəri (s): «Zəkəriyyanı öldürmək üçün Israil oğulları onu axtarmağa başladı. Zəkəriyya səhraya qaçdı. Bir ağac ağzını onunçün açdı və Zəkəriyya içəri daxil oldu, ancaq paltarının bir kənarı bayırda qaldı. Israil oğulları gəldilər, ağacın üstünə çıxıb onu mişarladılar.»[915]

6010. Allahın Peyğəmbəri (s): «Zəkəriyya xarrat idi.»[916]

***1696. Yəhya***

**Quran**

«Ey Zəkəriyya! Biz Yəhya adlı oğulla sənə müjdə veririk… Bundan əvvəl heç kimi ona adaş etməmişik. Ey Yəhya! (Allahın) kitabı ciddi-cəhdlə əlinə al. Ona uşaqlıqdan peyğəmbərlik verdik. Öz tərəfimizdən onu pak və mehriban etdik. O, təqvalılardan idi. Ata-anası ilə yaxşı rəftar edərdi. Zülmkar və asi deyildi. Salam olsun Onun doğulduğu, öləcəyi və diriləcəyi günə.»[917]

**Hədis:**

6011. Allahın Peyğəmbəri (s): «Allah rəhmət eləsin qardaşım Yəhyaya. Uşaq olanda başqa uşaqlar onu oynamağa çağıranda dedi: Məgər oynamaq üçünmü yaradılmışam? Belə insan həddi buluğa çatanda nə deyəcək?»[918]

6012. Imam Kazim (ə): «Yəhya ibn Zəkəriyyanın (ə) işi daim ağlamaq idi və heç gülməzdi. Ancaq Isa ibn Məryəm (ə) həm gülər və həm də ağlardı. Isanın (ə) gördüyü iş Yəhyanın (ə) gördüyündən daha üstün idi.»[919]

6013. Imam Sadiq (ə) *(Yəhya ilə şeytan arasındakı söhbət barəsində əziz atasından nəql edir)*: «Yəhya (ə) dedi: Elə olubmu ki, bir an olsa belə mənə üstün gələsən? Şeytan dedi: Yox, ancaq səndə mənim xoşuma gələn bir xislət var. Yəhya dedi: O nə xislətdir? Şeytan dedi: Sən çox yeyən kişisən. Iftar açanda o qədər yeyirsən ki, mədən ağırlaşır. Bu iş səni bəzi namazlardan və gecə ibadətlərindən saxlayır. Yəhya dedi: Allaha əhd bağlayıram ki, bundan sonra sağ olduğum müddətdə doyunca yemək yeməyəcəm. Iblis də ona dedi: Mən də, Allahla əhd bağlayıram ki, bundan sonra, nə qədər ki, həyatdayam heç bir müsəlmana öyüd verməyəcəyəm. Sonra çölə çıxdı və bir daha Yəhyanın yanına qayıtmadı.»[920]

---

[914] Ənbiya, ayələr 89 və 90
[915] Kənzul-Ummal, hədis 32330
[916] Kənzul-Ummal, hədis 32329
[917] Məryəm, ayə 7-15
[918] Kənzul-Ummal, hədis 32425
[919] əl-Kafi, c.2, səh.665, hədis 20
[920] Əmali-Tusi, 340 səh. hədis692

***1697. Isa***

**Quran:**

«Həqiqətən də, Allah yanında Isanın məsəli Adəmin məsəli (yaradılışı) kimidir. Onu torpaqdan yaradıb sonra ona: «Ol» dedi. O da oldu.»[921]
Və «Biz Allahın Peyğəmbəri olan Məryəm oğlu Isa Məsihi öldürdük.» dedilər. Halbuki onlar onu öldürmədilər və onu çarmıxa çəkmədilər. Ancaq bu onlara elə gəlirdi. Həqiqətən onun barəsində ixtilafda əlbəttə olanlar onun barəsində şək-şübhədədirlər və onların heç bir məlumatı yoxdur. Onlar yalnız zənn-gümanlarının ardınca gedir və mütləqa onu öldürmədilər. Allah onu özünə tərəf yuxarılara yüksəltdi. Allah qüvvət və hikmət sahibidir. Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən qabaq ona iman gətirməmiş olsun. Qiyamət günündə (Isa da) onlara qarşı şahid olacaqdır.[922]

**Hədis:**

6014. Məsih (ə): «Mənim xidmətçim mənim iki əllərimdir. Miniyim mənim iki ayağım, döşəyim torpaq, yastığım daş, qışda isindiyim yer günəş, tutan yerlərdir… Öz gecəmi yoxsulluq içində başa vururam. Günümü də kasıblıqla keçirirəm. Bununla belə yer üzündə məndən daha sərvətli və məndən daha ehtiyacsız bir kəs yoxdur.»[923]

6015. Allahın Peyğəmbəri (s): «Bəni-Israilin altı yüz peyğəmbəri var idi. Bunların ilki Musa və sonuncusu Isa olmuşdur.»[924]

6016. Allahın Peyğəmbəri (s): «Səmalara çəkilənə qədər Isanın xörəyi paxla idi. Isa səmalara çəkilənə qədər odda bişmiş xörək yemədi.»[925]

6017. Allahın Peyğəmbəri (s): «Ey Ummi Əymənə! Məgər qardaşım Isanın nə şamı səhərə saxladığını, nə də səhər yeməyini şama saxladığını bilmirsinizmi? Ağacların yarpaqları ilə qidalanır, yağışın suyundan içərdi. Palaza bürünər, gecələr çatdığı yerdə qalar və deyərdi: Hər gün öz ruzisini də özü ilə gətirər.»[926]

6018. Allahın Peyğəmbəri (s0: «Mən Məryəm oğlu Isanı gördüm. O, ağ dərili və ortası qılınctək dar bir kişi idi.»[927]

6019. Imam Əli (ə) *(Isanı vəsf edərkən):* «Əgər Məryəm olğu Isadan (ə) sənə danışmağımı istəsən…O, daşı özünə yastıq etmişdi. Cod paltar geyinər, bərk və boğazı ağrıdan çörək yeyərdi. Onun xörəyi aclıq idi, gecədə çırağı ay, qışda pənahı sübh və axşamın günəş tutan yerləri, meyvə və göyərtiləri isə yerin heyvanlar üçün bitirdiyi ot-ələflər idi. Nə arvadı var idi ki, onu çətinliyə salsın və onu kədərləndirəcək övladı, nə ürəyini özünə məşğul edəcək var-dövləti, nə

---

921 Ali-Imran, ayə59
922 Nisa, ayə 157-159
923 Biharul-Ənvar, c.14, səh.239, hədis17
924 əl-Xisal, səh.524, hikmət 13
925 Kənzul-Ummal, hədis 32357
926 Kənzul-Ummal, hədis 23258
927 Kənzul-Ummal, hədis 32359

də onu zəlilliyə salan tamahı var idi. Onun miniyi iki ayağı, xidmətçisi isə iki əli idi.»[928]

6020. Imam Sadiq (ə) *(Isanın (ə) Allah-taalaya xitabən «məni harda oluramsa olum, bərəkətli et» sözləri barədə):* «Yəni, xeyirli və mənfəətli et.»[929]

***Isanın əhvalatı barədə bir neçə söz***

***Isa və anasının əhvalatı barədə Quranda qeyd olunanlar***

Isanın (ə) anası Məryəm Imranın qızı idi. Məryəmin anası ona hamilə olanda nəzir etmişdi ki, övladı dünyaya gəldikdə, onu məbədə xidmət etmək üçün Allahın yolunda azad qoyacaqdır. O, bətnində olanı oğlan güman etsə də, ondan azad olduqda qız olduğu məlum oldu. O, bundan kədərlənib həsrət çəkməyə başladı. Bununla belə,övladının adını Məryəm yəni, xadimə qoydu. Məryəmin atası Imran, o, dünyaya gəlməmiş, vəfat etmişdi. Məryəmin anası onu kahinlərə tapşırmaq üçün məbədə gətirdi. Zəkəriyya da onların arasında idi. Məryəmi hamiliyə götürmək məsələsində kahinlər ətrafında mübahisə düşdü və nəhayət püşk atmaq qərarına gəldilər. Püşk Zəkəriyyaya düşdü və o, Məryəmə hamiliyi öhdəsinə götürdü. Məryəm yetkinlik yaşına çatdıqda Zəkəriyya onunla kahinlər arasına pərdə çəkdi və Məryəm həmin pərdənin arxasında Pak Allaha ibadət edirdi. Zəkəriyyadan başqa heç kim onun yanına gedib-gəlmirdi. Zəkəriyya hər dəfə mehraba- Məryəmin yanına gəldikdə orada xörək görərdi. Ondan soruşardı: Ey Məryəm, bu sənə hardandır? Məryəm deyərdi: Bu Allahın tərəfindəndir. Allah istədiyinə saysız-hesabsız ruzi verər. Məryəm (ə) sədaqətli, ismət baxımdan məsum, Allahın qoruduğu, pak, xanım idi. O, mühəddisə idi. Mələklər onunla söhbət edirdi. Mələklər Allahın onu təmiz və seçilmiş bəndə etdiyini ona xəbər verdilər. O, ibadət edənlərdən və Allahın dünya əhalisi üçün nişanələrindən idi.*(Ali-Imran 35-44, Məryəm 16, Ənbiya91, Təhrim 12)*

Sonra Allah-taala Ruhu pərdənin arxasında olan Məryəmə tərəf göndərdi. Ruh tam insan şəklində Onun qarşısında göründü və özünün Allahın elçisi olduğunu və Allahın icazəsi ilə, əri olmadan, ona bir övlad bəxş etmək üçün gəldiyini Məryəmə dedi. O, Məryəmə müjdə verdi ki, tezliklə onun övladı parlaq möcüzələr törədəcəkdir. Həmçinin, onun oğlunu Allahın müqəddəs Ruhla da təsdiqləyəcəyini, kitabı-hikməti, Tövratı və Incili ona öyrədəcəyini, onu aydın nişanə və möcüzələrlə Israil övladlarına göndərəcəyini də xəbər verdi. Ruh Isanın əhvalatını və tərcümeyi-halını Məryəmə danışdı və bu vaxt ona üfürdü. Bunun nəticəsində Məryəm də digər qadınlar kimi hamilə olmuşdur. *(Ali-Imran, 35-44)*

Məryəm bətnindəki uşaqla ucqar bir yerə pənah apardı. Doğuş ağrıları onu xurma ağaclarının kölgəsinə çəkib gətirdi. Məryəm öz-özünə deyirdi: «Kaş bundan əvvəl ölub tamam-kamal unudulaydım. Bu zaman, ayağının altında bir mələk səsləndi: Qəm çəkmə. Allahın sənin ayağının altında su çeşməsi yaratmışdır. Xurma ağacının gövdəsini özünə tərəf çək, səninçün təzə xurma töksün. Həmin xurmadan ye, həmin bulaqdan iç ki, gözlərinə işıq gəlsin.

---

[928] Nəhcül-Bəlağə, xütbə 160

[929] Məryəm, ayə 31

Insanlardan kimsəni görəndə de: Mən rəhman Allah üçün oruc nəzir etmişəm və bu gün heç kəslə danışmayacağam. Məryəm öz övladını ağuşuna alıb onu öz qövmünün yanına gətirdi. *(Məryəm 20-27)* Onun Isaya hamiləlik dövrü, onu dünyaya gətirməsi, söz danışması və vücud baxımdan və bu kimi məsələlərdə o başqa insanlar kimi idi.

Məryəmin qövmü onu bu halda gördükdə ona tənə və qaxınc vurmağa başladılar və əri olmaya-olmaya hamilə qalan arvadlar haqda işlənən sözləri deməyə başladılar. Onlar dedilər: Ey Məryəm! Doğrudan da çox xoşagəlməz bir iş tutmusan. Ey Harunun bacısı, atan pis kişi deyildi, anan da pis əməl sahibi qadın olmayıb. Məryəm Isaya işarə etdi. Ancaq onlar dedilər: Qundaqdakı uşağı ilə necə söhbət edək? Uşaq dilə gəlib dedi: Mənəm Allahın bəndəsi. Mənə kitab verib və məni peyğəmbər seçib. Harda oluramsa olum məni bərəkətli edib. Mənə nə qədər ki, sağam namaz qılmağı, zəkat verməyi və anama yaxşılıq etməyi tövsiyə buyurmuşdur. Məni kobud və asi etməmişdir. Mənim doğulduğum, öləcəyim və diriləcəyim günə salam olsun. *(«Məryəm» 27-33)*

… Isa böyüyüb gənclik dövrünə çatdı. O və anası digər sadə camaat kimi dolanırdı. Başqa insanların da üzləşdiyi zərər və çətinliklə üzləşdilər və ömürlərinin sonralarına qədər adi insan həyatı yaşadılar.

Bir müddət sonra Isa risaləti ilə Israil övladlarına tərəf göndərildi. Onları tohid və təkallahlıq dininə dəvət etməyə başlayıb dedi: Mən Allahınız tərəfindən sizə bir möcüzə gətirmişəm. Mən gildən sizinçün quş şəklində bir şey düzəldəcəm. Sonra ona üfürəcəm və Allahın izni ilə quşa dönəcək. Allahın izni ilə anadangəlmə kor və cüzam tutmuş xəstəyə şəfa bəxş edirəm. Ölüləri dirildərəm və sizlərə nə yediklərinizdən, evlərinizdə və ehtiyat yığdıqlarınızdan xəbər verərəm. Heç şübhəsiz, mömin olsanız bu möcüzələrdə, sizlər üçün bir ibrət var. Həqiqətən də Allah mənim Rəbbim və sizin Rəbbinizdir. Elə isə ona ibadət edin…

… O Həzrət həmişə onları Allahın birliyinə və özünün yeni şəriətinə dəvət etsə də, camaatın itaətsizliyini və inadkarlığını, kahinlərin və yəhudilərin dini alimlərinin onun dəvətindən boyun qaçırmasını gördü, nəticədə onların iman gətirəcəyindən məyus oldu. Ona iman gətirən azsaylı insanlar arasından həvariləri Allahın yoluna dəvətdə özünün dostları olaraq seçdi.

Nəhayət, yəhudilər o Həzrətin əleyhinə ayağa qalxdılar və onu öldürmək qəsdinə düşdülər. Ancaq Allah onu götürüb göylərə çəkdi və bu məsələ yəhudilərə aydın olmadı. Bəziləri onu öldürdüklərini və bəziləri isə onu çarmıxa çəkdiklərini güman etdilər. Əslində isə bunlardan heç biri olmamışdı və onlar səhv edirdilər.»[930]

***1698. Ermiya***

**Quran:**

---

[930] Təfsirul-Mizan, c.3, səh.279

«Dam-divarı tamam uçmuş bir kəndin yanından keçərkən dedi: Allah bu (xarabalığın əhalisini) ölümdən sonra necə yenidən dirildəcək?.»[931]

**Hədis:**

6021. «əl-Kafi» : «Bir xristian alim Imam Baqirdan (s) soruşdu: Kişi öz qadını ilə yaxınlıq etdi və qadın ekiz uşaqlara hamilə qaldı. Onların hər ikisinə eyni vaxdta hamilə oldu, eyni vaxtda doğdu, eyni vaxtda öldu və hər ikisi eyni qəbrdə dəfn etdilər.Amma onlardan biri 150 il, digəri 50 il ömür sürdü.Bu iki nəfər kimlər idi? Həzrət buyurdu: Üzeyir və Üzrə. Anaları, sənin dediyin kimi eyni vaxtda onlara hamilə qaldı. Dediyin kimi eyni vaxtda da doğdu. Üzeyir və Üzrə müəyyən qədər yaşadılar. Sonra Allah-taala Üzeyiri yüz il müddətində ölü saxladı və sonra yenidən diriltdi. Əlli ilə Üzrə il yaşadı və hər ikisi eyni saatda vəfat etdilər.»[932]

6022. Imam Sadiq (ə): «Ermiya Bəxtunnəsirin yəhudiliklə döyüşdə viranə qoyduğu Beytül-müqəddəsin və ətrafının xarabalıqlarına baxıb «Allah, bunları ölümlərindən sonra necə dirildəcək» dedikdən sonra Allah onu yüz il müddətində ölü saxladı və sonra diriltdi. O, üzvlərinin necə bir-birinə birləşdiyini, onların üstünün necə ətlə örtüldüyünü, toxuma və damarlarının necə birləşdiyini gördü. Sonra düz oturaraq dedi: Bilirəm ki, Allah hər şeyə qadirdir.»[933]

***1699. Yunis***

**Quran:**

«Yunis peyğəmbərlərdən idi. O zaman ki, o dolu bir gəmiyə tərəf qaçdı (gəmidə olanlar) püşk atdılar və (Yunis) uduzanlardan oldu. (Onu dənizə atdılar) Balıq onu uddu. O isə özünü qınayırdı. Heç şübhəsiz, o, təsbih deyənlərdən olmasaydı diriləcəyi günə qədər onun (balığın) qarnında qalacaqdı. Sonra onu xəstə halda sahilə atdıq. Onun (başının) üstündə qabaq (və ya kədu) bitirdik. Onu yüz min nəfər və daha artıq insana göndərdik. Onlar iman gətirdilər və biz də müəyyən vaxta qədər onlara nemət verdik.»[934]

**Hədis:**

6023. Allahın Peyğəmbəri (s): «Heç bir peyğəmbərə "Mən Allahın yanında Yunis ibn Məttadan yaxşıyam" deməк yaraşmaz.»

6024. «Biharul-Ənvar»: «Yəhudi kişi Imam Əlidən (ə) soruşdu: «O hansı zindandır ki, öz məhbusunu yerin ətrafında dolandırdı?.» Həzrət buyurdu: «Ey yəhudi! Öz məhbusunu yerin ətrafında dolandıran zindan, qarnında Yunisi məhbus edən Val balığı idi.»[935]

***Yunisin əhvalatı barədə bir neçə söz***

---

[931] Bəqərə, ayə 259
[932] əl-Kafi, c.8, səh.113, hədis 94
[933] əl-Ihticac, c.2, səh.230, hədis 223
[934] Saffat, ayə 139-148
[935] Biharul-Ənvar, c.14, səh.381, hədis 2

Yunis (ə) peyğəmbərlərdən biri idi. Allah onu sayı yüz min nəfərdən artıq olan qövmünə göndərdi. Yünis öz qövmünü dəvət etdi. Onların cavabı yalnız təkzib və dəvətin rədd olunması idi. Nəhayət, Yunisin onları qorxutduğu əzabın vaxtı gəlib çatdı və Yunis onların arasından getdi.

Onlar əzabın astanasında olduqda və onu aşkar halda gördükdə hamısı iman gətirib pak Allahın dərgahına tövbə etdilər. Allah onları dünyada yüngül hesab etdikləri əzabı onlardan götürdü.

Yunis (ə) öz qövmünün halıyla maraqlandı. Əzabın onlardan götürüldüyünü başa düşdü. Sanki onların tövbə edib iman gətirmələrindən xəbərsiz idi. Bununla belə, öz qövmünün yanına qayıtmadı və onların əlindən qəzəbli halda öz yoluna davam etdi. Zahiri vəziyyəti öz ağasına qəzəblənib ondan qaçana və ağasının ona əli çatmayacağını güman edənə bənzəyirdi. O, (yük və sərnişinlə) dolu bir gəmiyə mindi.

Yolda Val adlı böyük balıq gəminin qabağını kəsdi və Valın onu yeməsi, gəminin isə xilas olması üçün sərnişinlərdən birini suya atmaqdan başqa çarə tapmadılar. Bu məqsədlə öz arasında püşk atdılar. Püşk Yunisə düşdü və onu dənizə atdılar.Val onu uddu və gəmi xilas oldu.

Pak Allah Yunisi bir neçə gün Valın qarnında sağ-salamat saxladı. Yunis bunun, etdiyi əməlin cəzası olaraq Allahın verdiyi bəla olduğunu bilirdi və balığın qarnında qışqırırdı: Səndən başqa heç bir məbud yoxdur. Sən paksan, şübhəsiz ki, mən zülmkarlardan olmuşam.»

Allah Yunisin duasını qəbul etdi və Vala onu atmağı əmr buyurdu. Val xəstə vəziyyətdə olan Yunisi quruya atdı. Pak Allah onunçün qabaq və kədu bitirdi ki, onun yarpaqlarının kölgəsində rahatlıq tapsın.

Vəziyyəti yaxşılaşanda onu qövmünə göndərdi. Bu dəfə camaat onun dəvətini qəbul etdi və ona iman gətirdi. Allah da bir müddət onları nemətəndirdi.»[936]

ιοooooooπ

[936] Təfsirul-Mizan, c.17, səh. 165

**372**

# Nübüvvət (3)

**Məhəmməd – Rəsulullah**

***1700. Məhəmməd – Allahın Peyğəmbəri.***

**Quran:**

«Məhəmməd Allahın Peyğəmbəridir.»[937]

«Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizi əziyyətə və məşəqqətə salan şey ona ağırdır. O, sizə çox bağlı və möminlərə qarşı şəfqətli, mehribandır.[938]

«Ya Peyğəmbər! Həqiqətən, Biz səni bir şahid, bir müjdəçi, bir qorxudan, Allahın izni ilə Ona tərəf dəvət edən və nurlu bir çıraq kimi göndərdik.»[939]

**Hədis:**

6025.Allahın Peyğəmbəri (s) *(bir yəhudinin o Həzrətin Məhəmməd, Əhməd, Əbulqasim, eləcə də müjdəçi, qorxudan və dəvət edən adlandırılmasının səbəbi barədəki sualının cavabında):* «Məhəmmədə (adlandırılmağımın səbəbinə) gəldikdə, bu mənim yer üzündə mədh olunmuş olduğuma görədir. Əhməd isə ona görədir ki, mən göydə mədh edilmişəm. Əbulqasim adlandırılmağımın səbəbi budur ki, Allah-taala qiyamət günü od hissəsini ayıracaq və insanların birincisindən sonuncusuna kimi mənə kafir olanların hamısının yeri odda olacaqdır. Həmçinin Cənnət hissəsini ayıracaq və mənə iman gətirən və mənim peyğəmbərliyimi qəbul edən hər bir kəsin yeri Cənnətdə olacaqdır. «Dəvət edən» (adlandırılmağım) insanları Rəbbimin dininə dəvət etdiyim üçündür. «Qorxudan» ona görədir ki, mənə qarşı itaətsizlik edəni odla qorxuduram. «Müjdəçi» isə ona görədir ki, mənə itaət edəni Cənnətlə müjdələyirəm.»[940]

***1701.Peyğəmbərlərin sonuncusu.***

**Quran**:

«Məhəmməd, aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir.»[941]

**Hədis:**

6026.Allahın Peyğəmbəri (s): «Mən «aqib»əm, yəni ondan sonra peyğəmbər olmayan kimsəyəm!»[942]

---

[937] Fəth, ayə 29
[938] Tovbə, ayə 128
[939] Əhzab, ayə 45-46
[940] Məani əl-Əxbar, səh.52, hədis 2
[941] Əhzab, ayə 40
[942] ət-Təbəqatul-Kubra, c.1, səh.105

6027.Imam Sadiq (ə): «Allah-taala sizin peyğəmbərinizlə peyğəmbərlik silsiləsini xətm edib sona çatdırdı. Odur ki, ondan sonra heç vaxt peyğəmbər göndərilməyəcək. Həmçinin, sizin kitabınızla da kitablara (səma kitablarına) son qoydu. Buna görə də sizin kitabınızdan sonra əsla bir kitab nazil olmayacaqdır.»[943]

6028.Imam Sadiq (ə): «Məhəmməd (s) gəldi və öz Quranı, şəriəti və yolunu gətirdi. Buna görə də onun halalı qiyamət gününə kimi halal, onun haramı isə qiyamət gününə kimi haramdır.»[944]

***1702.Məhəmməd Məhəmmədin dili ilə.***

6029.Allahın Peyğəmbəri (s): «Mən, Allahın tərbiyə etdiyi, Əli isə mənim tərbiyə etdiyimdir.»[945]

6030.Allahın Peyğəmbəri (s): «Ey insanlar! Mən əslində (Allah tərəfindən) hədiyyə edilmiş bir rəhmətəm.»[946]

6031.Allahın Peyğəmbəri (s): «Mən, Ibrahimin Kə'bənin sütunlarını ucaldarkən «Ey Rəbbimiz! Onların arasında özlərindən bir peyğəmbər göndər…»[947] deyə etdiyi duasıyam.»[948]

6032.Allahın Peyğəmbəri (s): «Özünü tərifləmək olmasın, mən Adəm övladlarının ağasıyam.»[949]

6033.Allahın Peyğəmbəri (s): «Məqsədim özümü təriflərmək deyil, mən peyğəmbərlərin bələdçisiyəm. Özünü təriflərmək olmasın, mən peyğəmbərlərin xatəm və sonuncusuyam. Özünü təriflərmək olmasın, mən ilk şəfaət edən və şəfaəti ilk qəbul edilən şəxsəm.»[950]

6034.Allahın Peyğəmbəri (s): «Qiyamət günü izzət və qüdrət sahibi olan Allahın dərgahına daxil olan ilk şəxs mən, Onun kitabı və mənim əhli-beytimdir və sonra ümmətim. Sonra, onlardan Allahın kitabı və mənim əhli-beytimlə nə etmələrini soruşacağam.»[951]

6035.Allahın Peyğəmbəri (s): «Sizin ən təqvalınız və Allahı ən yaxşı tanıyanınız mənəm.»[952]

6036.Allahın Peyğəmbəri (s): «Allah-taala məndən üstün elə bir məxluq yaratmayıb ki, Onun yanında məndən əziz olsun.»[953]

6037.Allahın Peyğəmbəri (s): «Mənə beş şey verilib ki, (onlar) məndən əvvəlki peyğəmbərlərdən heç birinə verilməyib: Mən ağ, qara və qırmızılara göndərilmişəm, yer mənim üçün pak və səcdəgah edilib, qorxu və xof vasitəsilə

---

[943] əl-Kafi, c.1, səh.269, hədis 3
[944] əl-Kafi, c.2, səh.17, hədis 2
[945] Məkarimul-Əxlaq, c.1, səh.51, hədis 19
[946] ət-Təbəqatul-Kubra, c.1, səh.192
[947] Bəqərə, ayə 129
[948] Kənzul-Ummal, hədis 31833
[949] Biharul-Ənvar, c.8, səh.48, hədis 51
[950] Kənzul-Ummal, hədis 31883
[951] əl-Kafi, c.2, səh.600, hədis 4
[952] Kənzul-Ummal, hədis 31991
[953] Uyun Əxbar Rza (ə) , c.1, səh.262, hədis 22

kömək olunmuşam, qənimətlər mənim üçün halal edilib, halbuki məndən qabaq heç kimə – yaxud buyurdu «heç bir peyğəmbərə» – halal olmayıb və mənə «Cəvamiul kəlam» (Qur'an) əta edilib.»[954]

***1703.Məhəmməd Əlinin dili ilə.***

6038.«ət-Təbəqatul kubra»: –Bir nəfər, Əmirəl-mömininindən (ə), o Həzrət qılıncının qayışını belinə bağlamış halda Kufə məscidində olarkən Peyğəmbərin (cismani) xüsusiyyətləri barədə sual soruşdu. Imam (ə) buyurdu:- «Allahın Peyğəmbərinin (s) ağ və qırmızımtıl üzü, qara və böyük gözü, hamar və yumşaq saçı, sıx saqqalı, əti az və sümüklü yanağı, qulağının yumşaq yerinə çatan saçı və gümüş cama bənzər boynu var idi. Boğazının altından göbəyinə kimi qamış kimi nazik tük xətti bitmişdi, sinə və qarnında ondan başqa tük yox idi. Əli və ayağı böyük və sümüklü idi. Yol gedəndə yuxarıdan aşağı düşən adama oxşayırdı. Ayağa qalxanda çevik və cəld idi. Bir tərəfə dönəndə bütün bədəni ilə dönərdi. Tər, üzündə mirvari dənələri kimi olardı. Bədəninin təri tünd iyli müşkdən də xoş ətirli idi. Boyu nə qısa idi, nə də uzun. Nə aciz idi, nə də xar. Nə ondan əvvəl və nə də ondan sonra, onun kimisini görməmişəm.»[955]

6039.Imam Əli (ə): «Nəhayət, Allah Məhəmmədi (s) şahid, müjdəçi və qorxudan kimi göndərdi. Uşaqlığında insanların ən yaxşısı, orta yaşlarında yaradılmışların ən nəcibi idi. Əxlaq və xisləti bütün paklardan pak idi. Səxavətlilik və əliaçıqlığı (bütün) səxavətlilərdən daha çox və davamlı idi.»[956]

6040.Imam Əli (ə): «O Həzrət nə vaxt iki işlə qarşılaşsaydı, onun daha çətinini götürərdi.»[957]

6041.Imam Əli (ə): «Allah, Məhəmməddən (s) yaxşı insan yaratmayıb.»[958]

6042.Imam Əli (ə): «O öz elmi ilə insanların arasında gəzən bir təbib idi. Mərhəmlərini düzəldib hazırlamışdı və dağlamaq alətlərini qızdırmışdı. Onları lazım olan yerə – kor qəlblərə, kar qulaqlara və lal dillərə– basardı. O, öz dərmanı ilə hikmət nurundan işıq götürməmiş və parlaq elmlərin çaxmağı ilə bir alov şöləndirməmiş, gövşəyən heyvanlar və daş parçası kimi olan şəxslərdə qəflət və sərgərdanlıq xəstəliyini müalicə edirdi.»[959]

6043.Imam Əli (ə): «Doğrudan da mən, Məhəmmədin (s) qullarından olan bir qulam.»[960]

***1704.Məhəmmədin peyğəmbərliyinin cahanşümul olması.***

**Quran:**

«Biz, səni bütün insanlara müjdə verən və qorxudan bir peyğəmbər göndərdik. Lakin, insanların çoxu bilmir.»[961]

---

[954] Əmali-Tusi, səh.484, hədis 1059
[955] ət-Təbəqatul-Kubra, c.1, səh.410
[956] Nəhcül-Bəlağə, xütbə 105
[957] Məkarimul-Əxlaq, c.1, səh.61, hədis 55
[958] əl-Kafi, c.1, səh.440, hədis 2
[959] Nəhcül-Bəlağə, hikmət 108
[960] ət-Tovhid, səh.174, hədis 3
[961] Səba, ayə 28

**Hədis:**

6044.Allahın Peyğəmbəri (s): «Mən, həm mənimlə (bir dövrdə) olanların, həm də məndən sonra dünyaya gələnlərin peyğəmbəriyəm.»[962]

6045.Allahın Peyğəmbəri (s): «Məndən qabaq hər bir peyğəmbər ümmətinə, öz qövmünün dili ilə göndərilirdi. Amma, Allah məni ərəb dili ilə bütün ağ və qaralara göndərib.»[963]

***1705.Peyğəmbərin sülaləsi.***

6046.Imam Əli (ə): «Onun sülaləsi ən yaxşı sülalə, şəcərəsi[964] ən yaxşı şəcərədir. Həmin şəcərənin qol-budaqları taraz, meyvələri asılmışdır. Doğulduğu yer Məkkə, hicrət etdiyi yer isə Teyyibədir (gözəl Mədinə şəhəridir). Şöhrəti orada ucaldı və (dəvətinin) səsi hər yerə oradan çatdı.»[965]

6047.Imam Əli (ə): «Şəhadət verirəm ki, Məhəmməd Allahın bəndəsi və peyğəmbəri, Onun bəndələrinin ağasıdır. Allah-taala yaratdıqlarını iki dəstəyə ayıranda, Onu ən yaxşı dəstəyə saldı.»[966]

***1706.Peyğəmbərin xüsusiyyətləri.***

**1.Yüksək əxlaq.**

**Quran:**

«Doğrudan da, sən böyük əxlaq sahibisən!»[967]

**Hədis:**

6048.Imam Əli (ə) *(Peyğəmbərin (s) vəsfində):* «O, insanların ən səxavətlisi, ən şücaətlisi, ən doğruculu, əhd-peymana ən vəfalısı, ən mülayim xasiyyətlisi və ən alicənab rəftarlısı idi. Kim onu ilk dəfə görsəydi, Peyğəmbərin (s) zəhmi onu basardı. Onunla qaynayıb-qarışan və tanıyan şəxs Onu sevərdi. Nə keçmişdə, nə də indi onun kimisini görməmişəm.»[968]

6049. Ayişə *(«Peyğəmbərin (s) əxlaqı evdə necə idi?» sualının cavabında):* «O, insanların ən xoş xasiyyətlisi idi. Nə söyüş söyərdi, nə pis söz danışardı, nə küçə-bazarda səs-küy salardı və nə də pisliyin əvəzini pisliklə çıxardı. Əksinə, bağışlayar və güzəşt edərdi.»[969]

6050.Ayişə: «Allahın Peyğəmbəri (s) üçün, yalan danışmaqdan mənfur bir xislət yox idi. Səhabələrindən birinin yalan danışmasından xəbər tutanda, həmin şəxsin tövbə etməsini bilənə kimi ona etinasız olardı.»[970]

---

[962] ət-Təbəqatul-Kubra, c.1, səh.191

[963] Biharul-Ənvar, c.16, səh.316, hədis 6

[964] Şəcər əslində ağac deməkdir. Şəcərə isə keчmişdə hər bir sülalənin nəsil qollarыnы və həmin sülalədən olan [vladlarыn ağacbudağы kimi bir.birindən ayrыlmasыnы əks etdirən sənəd olub.

[965] Nəhcül-Bəlağə, xütbə 161

[966] Nəhcül-Bəlağə, xütbə 214

[967] Qələm, ayə 4

[968] Məkarimul-Əxlaq, c.1, səh.51, hədis 20

[969] ət-Təbəqatul-Kubra, c.1, səh.365

[970] ət-Təbəqatul-Kubra, c.1, səh.378

6051.Ayişə: «Allahın Peyğəmbəri (s) insanların ən mülayim xasiyyətlisi və ən alicənabı idi. O da sizin kişiləriniz kimi bir kişi idi. Fərqi bunda idi ki, həmişə gülərüz idi və dodaqlarında təbəssüm olardı.»[971]

6052.Məhəmməd ibn Hənəfiyyə: «Allahın Peyğəmbəri (s) demək olar ki, heç vaxt bir şeyə «yox» deməzdi. Ondan bir şey istənilən zaman, onu yerinə yetirmək istəyəndə «bəli» deyərdi. Yerinə yetirmək istəməyəndə isə sakit durardı və nəticədə həmin şəxs başa düşərdi ki, o Həzrətin həmin işə meyli yoxdur.»[972]

6053.Abdullah ibn Haris: «Mən dodağında Peyğəmbərdən (s) çox təbəssüm olan bir adam görmədim.»[973]

**2.Əmin.**

6054.Allahın Peyğəmbəri (s): «Bilin! And olsun Allaha ki, mən göydə də inanılmışam, yerdə də!»[974]

6055.Ibn Ishaq: «Allahın Peyğəmbərinə (s) vəhy nazil olmamışdan qabaq, Qüreyş o Həzrətə «Əmin» deyirdi.»[975]

6056.Ibn Ishaq: «Xuvəylidin qızı Xədicə tacir və varlı bir qadın idi. O, ticarət etmək üçün öz malı ilə adamları xidmətə götürər və işlərinin müqabilində ticarətdən əldə edilmiş qazancın müəyyən bir hissəsini onlara verərdi. Qüreyş qəbiləsi tacirliklə məşğul olan bir tayfa idi. Peyğəmbərin doğruçuluğu, inanılmış və gözəl əxlaq sahibi olması Xədicəyə çatanda, o Həzrətin yanına adam göndərdi və belə bir təklif verdi ki, onun malı ilə ticarət etmək üçün Şama getsin.»[976]

**3.Adil.**

6057.Imam Sadiq (ə): «Allahın Peyğəmbəri (s) baxışlarını öz səhabələri arasında bölərdi və onların hər birinə bərabər həddə baxardı.»[977]

**4.Şücaətli.**

6058.Imam Əli (ə): «Döyüş qızışanda və iki qoşun bir-birinin canına düşəndə, biz Allahın Peyğəmbərinə sığınırdıq və heç kəs düşmənə o Həzrətdən yaxın olmurdu.»[978]

6059.Bəra ibn Azib: «Döyüş qızışanda, biz Peyğəmbərə sığınırdıq və o şəxs şücaətli idi ki, onunla çiyin-çiyinə olurdu.»[979]

6060.Ənəs: «Allahın Peyğəmbəri (s) insanların ən gözəli, ən səxavətlisi və ən şücaətlisi idi. Bir gecə Mədinə əhalisi bir səs eşitdi və qorxuya düşdü. Əhalinin bir dəstəsi səsə tərəf getdi. Səsə tərəf daha çox irəliləmiş Peyğəmbər

---

[971] ət-Təbəqatul-Kubra, c.1, səh.365
[972] ət-Təbəqatul-Kubra, c.1, səh.368
[973] ət-Təbəqatul-Kubra, c.1, səh.372
[974] Kənzul-Ummal, hədis 32147
[975] əs-Sirətun-Nəbəviyyə libn Hişam, c.1, səh.210
[976] əs-Sirətun-Nəbəviyyə libn Hişam, c.1, səh.199
[977] əl-Kafi, c.8, səh.268, hədis 393
[978] Məkarimul-Əxlaq, c.1, səh.53, hədis 26
[979] Kənzul-Ummal, hədis 35347

Əbu Təlhənin çılpaq atına minmişdi və çiynində qılınc geri qayıdırdı. Həzrət həmin dəstəni görüb buyurdu: Qorxmayın, qorxmayın.»[980]

**5.Mehriban.**

6061.Ənəs: «Peyğəmbərin xasiyyəti belə idi ki, qardaşlarından birini üç gün görməyəndə, onun vəziyyəti ilə maraqlanardı. Əgər həmin şəxs səfərə getmiş olsaydı, onun barəsində dua edər, şəhərdə olsaydı görüşünə gedərdi və əgər xəstələnmiş olsaydı, ona dəyərdi.»[981]

**6.Həlim.**

6062.Ənəs: «Mən Allahın Peyğəmbəri (s) ilə yol gedirdim və onun əynində Nəcran kətanından qıraqları sərt əba var idi. Bir bədəvi ərəb gəlib çıxdı və o Həzrətin əbasını möhkəm dartdı. Mən Peyğəmbərin boynuna baxıb gördüm ki, əbanın möhkəm çəkilməsi nəticəsində onun qıraqları Peyğəmbərin boynunu cızıb. Sonra həmin bədəvi ərəb dedi: Ey Məhəmməd, göstəriş ver sənin yanında olan Allah malından mənə versinlər. Peyğəmbər (s) ona tərəf döndü, güldü və sonra göstəriş verdi ki, ona bir şey əta etsinlər.»[982]

**7.Həyalı.**

6063.Əbu Səid əl-Xudəri: «Allahın Peyğəmbəri (s) pərdə arxasında oturan bakirə qızlardan da həyalı idi.»[983]

6064.Əbu Səid əl-Xudəri: «Allahın Peyğəmbəri (s) o qədər həyalı idi ki, ondan nə istənilirdisə, onu verirdi.»[984]

**8.Təvazökar.**

6065.Allahın Peyğəmbəri (s): «Nə qədər ki sağam, beş şeyi – yerdə qullarla yemək yeməyi, çılpaq uzunqulağa minməyi, keçini öz əlimlə sağmağı, yun paltar geyinməyi və uşaqlara salam verməyi tərk etməyəcəyəm ki, onlar məndən sonra sünnə olsunlar.»[985]

6066.Əbu Məsud: «Bir kişi, Peyğəmbərin (s) yanına gəlib bədəni titrəyə-titrəyə o Həzrətlə söhbət etməyə başladı. Peyğəmbər buyurdu: Sakit ol, mən ki, padşah deyiləm. Mən qaxac ət yeyən arvadın oğluyam.»[986]

6067.Həmzə ibn Abdullah ibn Ütbə: «Peyğəmbərdə (s) padşahlarda olmayan xislətlər var idi. Qırmızı, ağ və qara dərili insanlardan kim onu dəvət etsəydi, həmin şəxsin dəvətini qəbul edərdi. Bəzən yerdə bir xurma görəndə onu götürərdi və sədəqə xurması olmasından qorxmasına baxmayaraq, onu ağzına qoyardı. Bir də çılpaq, palansız uzunqulağa minərdi.»[987]

6068.Imam Baqir (ə): «Cəbrayil (ə) yerin xəzinələrinin açarlarını üç dəfə Peyğəmbərin (s) yanına gətirdi və Allah-taalanın onun üçün qiyamətdə hazırladıqlarından bir şey azaltmaması şərti ilə onu, onları seçməkdə azad

---

[980] səhih-Müslim, hədis 2307
[981] Məkarimul-Əxlaq, c.1, səh.55, hədis 34
[982] ət-Tərğib vət-Tərhib, c.3, səh.418, hədis 20
[983] Kənzul-Ummal, hədis 17817
[984] Məkarimul-Əxlaq, c.1, səh.50, hədis 15
[985] Əmali-Səduq, səh.68, hədis 2
[986] Sünən ibn Macə, hədis 3312
[987] ət-Təbəqatul-Kubra, c.1, səh.370

qoydu. Lakin Peyğəmbər (s) hər dəfə Allah-taala qarşısında təvazökarlığı seçdi.»[988]

6069.Imam Baqir (ə): «Allahın Peyğəmbəri (s) qul kimi yemək yeyər və qul kimi oturardı, yerdə yeyər və yerdə yatardı.»[989]

**9.Təvəkkül edən.**

6070.Imam Sadiq (ə): «Zatur-Riqa» döyüşündə Peyğəmbər (s) dərənin kənarına bir ağacın altına gəldi. Elə bu vaxt sel gəldi və o Həzrəti səhabələrindən ayırdı. Müşriklərdən biri Peyğəmbəri (orada tək) gördü. Müsəlmanlar isə dərənin o tərəfində selin kəsilməsini gözləyirdilər. Müşriklərdən bir kişi öz silahdaşlarına dedi: Mən Məhəmmədi öldürəcəyəm. O, gəlib Peyğəmbərə qılınc çəkdi və dedi: Ey Məhəmməd! Səni mənim əlimdən kim qurtara bilər? Peyğəmbər buyurdu: Mənim və sənin Rəbbin! Bu vaxt Cəbrayil (ə) həmin kişini atın üstündən yerə yıxdı və o, arxası üstə yerə dəydi. Allahın Peyğəmbəri (s) durub qılıncını götürərək onun sinəsində oturdu və dedi: Ey Qorəs, səni mənim əlimdən kim qurtara bilər? Həmin şəxs dedi: Ey Məhəmməd, sənin comərdlik və alicənablığın! Peyğəmbər (s) onu buraxdı. Həmin kişi «vallah sən məndən daha yaxşı və daha alicənabsan» deyə-deyə ayağa qalxdı.»[990]

**10.Səbirli.**

6071.Allahın Peyğəmbəri (s): «Heç kəs Allah yolunda mənim kimi əziyyət çəkməyib.»[991]

6072.Allahın Peyğəmbəri (s): «Heç kəs Allah yolunda mənim qədər əziyyət görməyib və heç kəs mənim qədər Allah yolunda qorxudulub hədələnməyib. Mən Bilalla birlikdə, Bilalın qoltuğunun altına qoyulacağı təqdirdə görünməyən miqdarı çıxmaq şərti ilə canlı varlığın yeyə biləcəyi qidamız olmadan, otuz gecə-gündüzü arxada qoymuşam.»[992]

6073.Ismayıl ibn Əyyaş: «Allahın Peyğəmbəri (s) camaatın (xəta və) günahları qarşısında hamıdan səbirli idi.»[993]

6074.Ibn Məsud: «Sanki, Peyğəmbəri (s) digər peyğəmbərlər kimi görürəm ki, qövmü onu vurur, qana bulaşdırır və O, üzünün qanını silərək deyir: Allahım, mənim qövmümü bağışla, çünki onlar nadandır.»[994]

**11. Dünyaya rəğbətsiz.**

6075. «Məkarimul əxlaq»: «Allahın Peyğəmbəri (s) həsirin üstündə uzanmışdı və o Həzrətin böyründə həsirin yeri qalmışdı. O Həzrətə dedilər: Gərək bir döşək götürəydiniz. Həzrət buyurdu: Mənim dünya ilə nə işim? Mənimlə dünyanın əhvalatı, isti yay günündə yol gedən və günün bir neçə

---

[988] əl-Kafi, c.8, səh.130, hədis 100
[989] əl-Məhasin, c.1, səh.244, hədis 1759
[990] əl-Kafi, c.8, səh.127, hədis 97
[991] Kənzul-Ummal, hədis 5818
[992] Kənzul-Ummal, hədis 16678
[993] ət-Təbəqatul-Kubra, c.1, səh.378
[994] ət-Tərğib vət-Tərhib, c.3, səh.419, hədis 21

saatını bir ağacın kölgəsində dincələn, sonra hərəkət edərək (yol) gedən süvarinin əhvalatına bənzəyir.»[995]

6076.Imam Baqir (ə): «Allahın Peyğəmbəri (s) irs olaraq nə bir dinar qoyub getdi, nə bir dirhəm, nə qul, nə kəniz, nə qoyun və nə də dəvə. Vəfat edən zaman onun zirehi Mədinə yəhudilərindən birinin yanında girov qoyulmuşdu. Həzrət onu, ailəsi üçün altmış kiloqram arpa borc götürməyin müqabilində girov qoymuşdu.»[996]

6077.Ömər: «Peyğəmbərin hüzuruna getdim. O Həzrət həsirin üstündə oturmuşdu. Mən də oturdum. Gördüm ki, əynində fitədən başqa bir şey yoxdur və həsir bədəninə xətt salıb. Otağın bir küncündə (təqribən) üç kiloqram arpa və (dabbaqlıq üçün) bir az sürmə yarpağı görünürdü. Bir dənə aşılanmamış dəri də (divardan) asılmışdı. Gözlərimdən yaş axmağa başladı. Allahın Peyğəmbəri buyurdu: Xəttabın oğlu, nə üçün ağlayırsan? Dedim: Ey Allahın Peyğəmbəri, bu həsirin sizin böyrünüzə xətt salmasını, xəzinənizin bu gördüklərim olmasını müşahidə edəndə necə ağlamayım? Kəsra və Qeysər (şahları) meyvə dolu və çaylar axan bağlarda yaşadıqları halda, Allahın Peyğəmbəri və seçilmiş bəndəsi olan Sizin xəzinənizin vəziyyəti belədir? Peyğəmbər buyurdu: Ey Xəttabın oğlu! Axirətin bizim, dünyanın isə onların olmasına razı deyilsən?»[997]

6078 «Məkarimul əxlaq»: «Ibn Xuli Peyğəmbərə (s) bir qab süd və bal gətirdi. Allahın Peyğəmbəri (s) onları yeməkdən imtina edərək buyurdu: Bir öynədə iki içməli şey? Iki qabı bir qaba? Həzrət onu yemədi və buyurdu: Mən bunları (yeməyi) haram hesab etmirəm, amma öyünməyi və sabah (qiyamətdə) dünyanın artıq şeylərinə görə hesaba çəkilməyi xoşlamıram. Mən təvazökarlığı sevirəm. Çünki kim Allaha görə təvazökarlıq etsə Allah onu ucaldar.»[998]

**12.Başqalarını özündən və ailəsindən qabağa salmaq.**

6079.Imam Baqir (ə) *(Məhəmməd ibn Müslimə xitabən):*–«Ey Məhəmməd! Səncə Allahın Peyğəmbəri (s), Allah onu peyğəmbər kimi göndərəndən canını alana kimi üç gün dalbadal doyunca buğda çörəyi yeyib?» Imam (ə) sonra özü cavab verərək buyurdu: «And olsun Allaha, xeyr! O Həzrət Allah onu göndərəndən canını alana kimi heç vaxt üç gün dalbadal doyunca çörək yemədi.

Bilin! Mən onun (yeməyə) bir şey tapmamasını demək istəmirəm. O Həzrət bəzən bir nəfərə yüz dəvə hədiyyə edərdi. Deməli, yemək istəsəydi, yeyərdi.»[999]

**13.Özünə görə qəzəblənməmək.**

6080. «əl-Mənaqib»: «Allahın Peyğəmbəri (s) Rəbbinə görə qəzəblənərdi, özünə görə isə yox.»[1000]

6081.Ayişə: «Allahın Peyğəmbəri (s), Allah yolunda vuruşması istisna olmaqla heç vaxt, heç kəsi-nə bir qadını və nə də bir xidmətçini- vurmadı. Heç

---

[995] Məkarimul-Əxlaq, c.1, səh.64, hədis 65
[996] Qurbul-Isnad, səh.91, hədis 304
[997] ət-Tərğib vət-Tərhib, c.4, səh.199, hədis 120
[998] Məkarimul-Əxlaq, c.1, səh.79, hədis 124
[999] əl-Kafi, c.8, səh.130, hədis 100
[1000] əl-Mə‘naqib, Ibn Şəhr Aşub, c.1, səh.145.146

vaxt öz şəxsi işinə görə kimsədən intiqam almazdı. Allahın haramının pozulması istisna idi ki, onda da, Allah-taalaya görə intiqam alardı.»[1001]

**14.Ibadətdə özünü məşəqqətə salmaq.**

**Quran:**

«Ta Ha. Biz Quranı sənə məşəqqətə düşməyin üçün nazil etmədik.»[1002]

**Hədis:**

6082.Imam Əli (ə): «Ey paltarını özünə bürümüş, gecəni– az bir hissəsi istisna olmaqla– ayağa dur»[1003] ayəsi Peyğəmbərə nazil olanda, o Həzrət bütün gecəni səhərə kimi, ayaqları şişənə qədər ibadətlə məşğul olardı. Belə ki, (namaz qılanda) ayağının birini qaldırır və o birini yerə qoyardı. Sonra Cəbrail o Həzrətə nazil oldu və dedi: «Ta Ha.» Yəni ayaqlarının hər ikisini yerə qoy, ey Məhəmməd «Biz, Quranı sənə məşəqqətə düşməyin üçün nazil etmədik.» Həmçinin o bu ayəni nazil etdi: «Qurandan sizə müyəssər olanı oxuyun.»[1004]

6083.Imam Baqir (ə): «Allahın Peyğəmbəri (s) bir gecə Ayişənin növbəsində onun yanında idi. O, Peyğəmbərə dedi: Ey Allahın Peyğəmbəri (s), nə üçün özünü əziyyətə salırsan, halbuki Allah sənin keçmiş və gələcək günahlarını bağışlayıb? Həzrət buyurdu: Ey Ayişə, şükr edən bəndə olmayım?»[1005]

ιooooooπ

---

[1001] Səhih-Müslim, hədis 2328

[1002] Ta-ha, ayə 1, 2

[1003] Muzzəmmil, ayə 1, 2

[1004] Təfsir əl-Mizan, c.14, səh.126

[1005] -Kafi, c.2, səh.95, hədis 6

**373**

# Nücum

***1707.Nücum elmi.***

6084.Imam Əli (ə): «Ey camaat! Nücum elmini, səhra və dənizdə yolu tapmağınıza səbəb olan qədəri istisna olmaqla, öyrənməkdən çəkinin. Çünki münəccimlik kahinlik və öncəgörmələrə gətirib çıxarır və münəccim kahin kimidir. Kahin sehrbaz kimi, sehrbaz isə kafir kimidir. Kafir isə oddadır.»[1006]

6085.Imam Sadiq (ə) *(nücum elmi barədə sualın cavabında):* «Nücum, peyğəmbərlərin elmlərindən biridir.»[1007]

6086. «əl-Kafi»: «Imam Sadiqə (ə) dedilər ki, nücum elmi camaat arasında, insanın dininə ziyan vuran və məşğuliyyəti haram olan elm kimi məşhurlaşıb. O Həzrət buyurdu: Dedikləri kimi deyil, dininə ziyan vurmur. Sonra buyurdu: Siz elə bir mövzuya toxunursunuz ki, onun çoxunu əldə etmək mümkün deyil, azının isə xeyri yoxdur.»[1008]

6087.Imam Sadiq (ə) *(münəccimliyə aid sual soruşan bir dinsizin cavabında):* «O xeyri az, zərəri isə çox olan bir elmdir. Münəccim Allahın elmi ilə çarpışır və belə güman edir ki, Allahın qəzavü-qədərini Onun yaratdıqlarından dəf edəcəkdir.»[1009]

6088.Əbdülməlik ibn Əyən: «Həzrət Sadiqə (ə) dedim: Mən bu elmə düçar olmuşam. Buna görə də bir iş görmək istəyəndə ulduz falına baxıram. Əgər fal pis olsa otururam və həmin işin dalınca getmirəm. Ulduz falı yaxşı olanda, həmin işin dalınca gedirəm. Həzrət mənə buyurdu: Ona əməl də edirsən? Dedim: Bəli. Buyurdu: Kitablarını yandır.»[1010]

---

[1006] Nəhcül-Bəlağə, xütbə 79

[1007] Biharul-Ənvar, c.58, səh.235, hədis 15

[1008] əl-Kafi, c.8, səh.195, hədis 233 Məkasib kitabının münəccimlik bəhsində deyilir: Ulduzların vəziyyəti və onların hərəkətlərinə əsaslanaraq эələcək barəsində bir şey demək caizdir. Belə ki, məsələn bir nəfər ulduzların müəyyən vəziyyətdə olmalarını, məsələn ulduzların bir.birinə yaxın və ya uzaq olmalarını, yaxud bir-birinin qarşısında və ya bir-birinin kənarında dayanmalarını müşahidə etməklə təxmin və эüman ilə эələcəkdə filan hadisənin baş verməsini xəbər verə bilər…..Hətta эəər qabaqcadan xəbər vermək qəti təcrübələrə əsaslanmış olsa, hadisə barəsində qəti xəbər vermək də caizdir. Məsələn, biri yağış yağan эecə [z itinin damdan evin iчinə эəlməsi təcrübəsinə əsaslanaraq «bu axşam mütləq yağış yağacaq» deməsi caizdir. Deyilənə э[rə belə bir hadisə nücum elmini yayanlardan, bəlkə də onu dirчəldənlərdən birinin başına эəlib. O [zünün səfərlərinin birində şəhərin kənarında olan bir dəyirmanın yanında oturaq salır. Dəyirmanчının evinə эirəndə hava чox isti olduğu üчün evin damında yatmaq qərarına эəlir. Ev sahibi ona deyir: Эəl aşağı otağın iчində yat ki, yağışdan qorunasan. Həmin tədqiqatчı э[yün vəziyyətinə baxır, amma yağışın yağmasına dəlalət edən bir nişanə э[rmür. Ev sahibi deyir: Mənim bir itim var, hansı axşam hiss etsə ki, yağış yağacaq, otağın iчinə эedir. Amma tədqiqatчı onun s[zünü qəbul etmir və эecəni evin damında qalır. Lakin эecə yarısı yağış yağır və o, чox təəccüblənir. Məkasib, səh.25

[1009] Biharul-Ənvar, c.58, səh.223, hədis 3

[1010] əl-Fiqh, c.2, səh.267, hədis 2402

**374**

# Nəzir

***1708.Nəzir***

**Quran:**

«O zaman ki Imranın zövcəsi dedi: Ey Rəbbim, bətnimdəkini azad olunmuş (dünya məşğuliyyətlərindən azad olaraq Sənə ibadət və xidmətkar) olmaq üçün Sənə nəzir edirəm. Bunu məndən qəbul et ki, Sən eşidən və bilənsən!»[1011]

«Xərclədiyiniz və nəzir etdiyiniz hər hansı şeyi, şübhəsiz ki, Allah bilir, lakin özlərinə zülm edənlərin heç bir köməkçisi olmaz.»[1012]

«…öz nəzirini yerinə yetirir və dəhşəti (hər yeri) bürüyəcək gündən qorxurlar.»[1013]

**Hədis:**

6089.Imam Baqir (ə) *(«öz nəzirini yerinə yetirir...» ayəsi haqda):* «Həsənlə Hüseyn (ə) uşaq olanda xəstələndilər. Allahın Peyğəmbəri (s) iki nəfərlə birlikdə onlara dəyməyə getdi. Həmin şəxslərdən biri dedi: «Ey Əbəlhəsən, kaş Allahın bu iki uşağına şəfa verməsi üçün onlara nəzir edəydin.» Əli (ə) buyurdu: «Allah-taalaya şükr etmək üçün üç gün oruc tutaram.» Fatimə (ə) və onların kənizi Fizzə də həmin sözü təkrar etdilər. Beləliklə, Allah həmin iki uşağa şəfa verdi və onlar oruc tutdular.»[1014]

***1709.Insanın özünə bir şeyi vacib etməsinin məkruh olması.***

6090.«Vəsailuş şiə»: Ishaq ibn Əmmar Imam Sadiqə (ə) Allaha şükr etmək üçün həm səfərdə, həm də vətəndə iki rəkət namaz qılmaq öhdəliyi götürməsini deyib, həmin namazı səfərdə olanda gündüz qıla bilib-bilməyəcəyini soruşdu. Həzrət buyurdu: «Bəli.» Sonra buyurdu: «Mən kiminsə özünə bir şey vacib etməsini xoşlamıram.» Dedim: «Mən həmin iki rəkəti öz boynuma Allaha görə qoymamışam, əksinə, özüm özümçün öhdəlik götürmüşəm ki, şükr etmək üçün iki rəkət namaz qılım, onu özümə vacib etməmişəm. Belə olan halda, əgər istəməsəm onu qılmaya bilərəmmi?» Imam buyurdu: «Bəli.»[1015]

ιooooooπ

[1011] Ali-Imran, ayə 35
[1012] Bəqərə, ayə 270
[1013] Insan, ayə 7
[1014] Vəsailuş-Şiə, c.16, səh.190, hədis 5
[1015] Vəsailuş-Şiə, c.16, səh.189, hədis 1

**375**

# Nəsihət və xeyirxahlıq

***1710.Nəsihət və başqasının xeyrini istəmək***

**Quran:**

«Mən sizə Rəbbimin əmrlərini çatdırıram və sizin üçün inanılmış nəsihətçiyəm.»[1016]

Həmçinin müraciət et: « Əraf», 79, 93; «Tovbə» 91.

**Hədis:**

6091.Allahın Peyğəmbəri (s): «Allah-taala buyurub: Bəndəmin, vasitəsi ilə Mənə ibadət etdiyi ən sevimli şey, onun Mənə nikbin (və saf niyyətli) olmasıdır.»[1017]

6092.Allahın Peyğəmbəri (s) *(öz səhabələrinə xitabən):–*«Din nəsihət və başqasının xeyrini istəməkdir.» Dedik: «Kimə görə nəsihət və xeyir istəmək?» Buyurdu: «Allaha, Onun Kitabına, Onun Peyğəmbərinə, müsəlmanların imamlarına və bütün insanlara görə.»[1018]

6093.Allahın Peyğəmbəri (s): «Qiyamət günü Allah yanında insanların ən yüksək dərəcəlisi, Allahın yaratdıqlarının nəsihət və xeyri yolunda başqalarından daha çox addımlayanıdır.»[1019]

6094.Allahın Peyğəmbəri (s): «Sizlərdən hər biriniz öz xeyrini istədiyi kimi qardaşının da xeyrini istəməlidir.»[1020]

6095.Imam Əli (ə): «Qardaşına sədaqətlə nəsihət ver, həmin nəsihət istər ona xoş gəlsin, istərsə də yox!»[1021]

6096.Imam Sadiq (ə): «Möminə, mömінin xeyrini istəməsi vacibdir, istər birlikdə olanda olsun, istərsə də yanında olmayanda!»[1022]

6097.Imam Sadiq (ə): «Allaha görə, Onun yaratdıqlarına qarşı xeyirxah olun. Çünki Allahın görüşünə bundan yaxşı əməllə getməyəcəksən.»[1023]

***1711.Nəsihət verən şəxsin nişanəsi.***

6098.Allahın Peyğəmbəri (s): «Nəsihət verən şəxsin dörd nişanəsi var: O, haqq hökm çıxarır, özündənsə başqalarına haqq qazandırır, özü üçün

---

[1016] Ə’raf, ayə 68
[1017] ət-Tərğib vət-Tərhib, c.2, səh.577, hədis 16
[1018] səhih-Müslim, hədis 55
[1019] əl-Kafi, c.2, səh.208, hədis 5
[1020] əl-Kafi, c.2, səh.208, hədis4
[1021] Nəhcül-Bəlağə, məktub 31
[1022] əl-Kafi, c.2, səh.208, hədis 2
[1023] əl-Kafi, c.2, səh.208, hədis 6

bəyəndiyini başqaları üçün də bəyənir və heç kəsə (heç kəsin haqqına) əl uzatmır.»[1024]

6099.Imam Əli (ə): «Insanın nəsihətçi və başqalarının xeyrini istəməsinə, onun (başqalarını) özü üçün bəyənmədiyi şeydən çəkindirməsi kifayətdir.»[1025]

6100.Imam Əli (ə): «Insanların özünə qarşı ən xeyirxahı, onların öz Rəbbinə ən itaətkar olanı və onların özünə ən xəyanətkarı, Rəbbinə qarşı üsyankar olanıdır.»[1026]

6101.Imam Səccad (ə): «Çox nəsihət vermək bədbinlik və töhmətə səbəb olar.»[1027]

6102.Imam Sadiq (ə): «Paxıla nəsihət vermək (və ona doğru yolu göstərmək) qeyri-mümkündür.»[1028]

6103.Imam Sadiq (ə): «Hansı müsəlman bəndə Allaha görə öz nəfsinə nəsihət verdisə, haqqı nəfsindən aldısa və Onunçün aldısa, ona iki nemət verildi: Allah tərəfindən ona bəs edən ruzi və Allah tərəfindən ona nicat verən razılıq.»[1029]

***1712.Nəsihəti qəbul etmək.***

6104.Imam Əli (ə): «Xoşa, ona doğru yolu göstərən nəsihətçisinə tabe olan və onu məhvə sürükləyən azğından uzaqlaşanın halına.»[1030]

6105.Imam Əli (ə): «Nəsihəti qəbul etməkdən boyun qaçıran şəxs məhv olar.»[1031]

6106.Imam Baqir (ə): «Səni ağladan, amma sənin xeyrini istəyən şəxsə tabe ol, səni güldürən, amma sənə qarşı hiyləgərlik işlədənə tabe olma.»[1032]

ıooooooπ

---

1024 Tuhəful-Uqul, səh.20
1025 Kəşful-Ğummə, c.3, səh.137, 138
1026 Nəhcül-Bəlağə, xütbə 86
1027 əd-Dürrə əl-Bahirə, səh.26
1028 Biharul-Ənvar, c.78, səh.194, hədis 9
1029 əl-Xisal, səh.46, hədis 47
1030 Ğurərul-Hikəm, hədis 5944
1031 Ğurərul-Hikəm, hədis 7743
1032 əl-Məhasin, c.2, səh.440, hədis 2526

376

# Insaf

***1713.Insaf***

6107.Imam Əli (ə): «Insaf xislətlərin ən üstünüdür.»[1033]

6108.Imam Əli (ə): «Insaf qəlbləri bir-birinə bağlayır.»[1034]

6109.Imam Əli (ə): «Əlaqə telləri insafın olması nəticəsində davam edir.»[1035]

6110.Imam Əli (ə): «Insaflı olmaq dostların artmasına səbəb olur.»[1036]

6111.Imam Əli (ə): «Qüdrətin zəkatı insafdır.»[1037]

6112.Imam Əli (ə) *(«Həqiqətən, Allah ədalətli olmağı və yaxşılıq etməyi əmr edir.»[1038] ayəsi barədə):* «Ədalətlilik insaflı olmaqdır, yaxşılıq isə səxavət əlinin açılması.»[1039]

6113.Imam Baqir (ə): «Insaf kimi ədalət yoxdur.»[1040]

***1714.Insafsızla insaflı davranmağa təşviq.***

6114.Imam Əli (ə): «Mömin, (hətta) ona qarşı insaflı olmayanla da, insaflı davranar.»[1041]

6115.Imam Əli (ə): «Insanların ən ədalətlisi, ona zülm edənlə insafla davranandır.»[1042]

6116.Imam Sadiq (ə): «Qardaşları insafa dəvət etmək, insafdan uzaqdır.»[1043]

***1715.Özündən insaflılığı tələb etmək.***

6117.Allahın Peyğəmbəri (s): «Yoxsula maddi kömək edən və camaata qarşı insafla davranan şəxs, elə həqiqi mömindir.»[1044]

6118.Imam Əli (ə): «Insanların ən insaflısı, hakimin hökmü olmadan özündən insaf tələb edəndir.»[1045]

---

[1033] Ğurərul-Hikəm, hədis 971
[1034] Ğurərul-Hikəm, hədis 1130
[1035] Ğurərul-Hikəm, hədis 4190
[1036] Nəhcül-Bəlağə, hikmət 224
[1037] Ğurərul-Hikəm, hədis 5448
[1038] Nəhl, ayə 90
[1039] Nəhcül-Bəlağə, hikmət 231
[1040] Biharul-Ənvar, c.78, səh.165, hədis 1
[1041] Ğurərul-Hikəm, hədis 1410
[1042] Ğurərul-Hikəm, hədis 3186
[1043] Əmali-Tusi, səh.280, hədis 537
[1044] əl-Xisal, səh.47, hədis 48
[1045] Ğurərul-Hikəm, hədis 3345

6119.Imam Əli (ə): «Bilin! Hər kim camaata qarşı insaflı olsa, Allah mütləq onun izzətini artırar.»[1046]

6120.Imam Əli (ə): «Insanın ağıllı olmasına bu kifayətdir ki, o, özündən insaflı olmağı tələb etsin və insaflı olsun……Onun insaflı olmasına (da) bu kifayətdir ki, həqiqət ona məlum olanda, onu qəbul etsin.»[1047]

6121.Imam Əli (ə) *(Malik Əştərə məktubundan):*–«Özündən, qohumlarından, yaxınlarından və rəiyyətin sənin meyl və diqqətində olanlarından Allahın və camaatın haqqını tələb et. Çünki belə etməsən zülm etmisən.»[1048]

6122.Imam Baqir (ə): «Allahın bir Cənnəti var ki, ora yalnız üç dəstə daxil olar. Onlardan biri, özü barədə haqla qəzavət edəndir.»[1049]

***1716.Özlərindən insaflı olmağı tələb etməyənlər.***

6123.Imam Əli (ə): «Üç dəstə heç vaxt (digər) üç dəstədən onlara qarşı insaflı olmağı tələb etməz: ağıllı ağılsızdan, yaxşı əməl sahibi pis əməl sahibindən, alicənab alçaqdan.»[1050]

6124.Imam Əli (ə): «Yaxşı əməl sahibi pis əməl sahibindən öz haqqını tələb etməz. Heç bir alim nadandan haqqını tələb etməz.»[1051]

---

[1046] əl-Kafi, c.2, səh.144, hədis 4
[1047] Kəşful-Ğummə, c.3, səh.137,138
[1048] Nəhcül-Bəlağə, məktub 53
[1049] əl-Kafi, c.2, səh.148, hədis 4
[1050] Ğurərul-Hikəm, hədis 4674
[1051] Ğurərul-Hikəm, hədis 10732.10733

**377**

# Baxmaq

***1717.Göz qəlbin bələdçisidir.***

6125.Imam Əli (ə): «Göz qəlbin qasididir.»[1052]

6126.Imam Əli (ə): «Göz qəlbin xəfiyyəsi və ağlın qasididir.»[1053]

6127.Imam Əli (ə): «Qəlb gözün kitabıdır.»[1054]

***1718.Gözlər şeytanın torlarıdır.***

6128.Allahın Peyğəmbəri (s): «Çox və lazımsız baxışlardan çəkinin. Çünki o nəfsi istəklərin toxumunu səpir və qəflət doğurur.»[1055]

6129.Imam Əli (ə): «Gözlər(in baxışları) şeytanın torlarıdır.»[1056]

6130.Imam Əli (ə): «Gözün korluğu çox baxmaqdan daha yaxşıdır.»[1057]

6131.Imam Əli (ə): «Gözünün cilovunu buraxan şəxs həyatını çətinliyə salar. Baxışlarının arası kəsilməyənin həsrəti uzun çəkər.»[1058]

6132.Imam Əli (ə): «Içində Allah zikr edilərək xatırlanmayan hər bir söz, bihudədir. Təfəkkürlə birgə olmayan hər bir sükut səhvdir.Içində ibrət olmayan hər bir baxış, əbəsdir.»[1059]

6133.Imam Sadiq (ə): «Nə çox bir baxış var ki, uzun bir həsrət yaradıb.»[1060]

***1719.Üzlərinə baxmaq ibadət olan kəslər.***

6134.Allahın Peyğəmbəri (s): «Alimə baxmaq ibadətdir. Ədalətli rəhbərə baxmaq ibadətdir. Ata-anaya məhəbbətlə baxmaq ibadətdir. Allaha xatir sevdiyin qardaşa baxmaq ibadətdir.»[1061]

6135.Allahın Peyğəmbəri (s): «Üç şeyə: ata-anaya, Qurana və dənizə baxmaq ibadətdir.»[1062]

***1720.Gözü yerə dikməyə təşviq.***

---

1052 Ğurərul-Hikəm, hədis 368
1053 Biharul-Ənvar, c.104, səh.41, hədis 52
1054 Nəhcül-Bəlağə, hikmət 409
1055 Biharul-Ənvar, c.72, səh.199, hədis 29
1056 Ğurərul-Hikəm, hədis 950
1057 Tuhəful-Uqul, səh.95
1058 Biharul-Ənvar, c.104, səh.38, hədis 33
1059 Biharul-Ənvar, c.78, səh.92, hədis 101
1060 əl-Kafi, c.5, səh.559, hədis 12
1061 Biharul-Ənvar, c.74, səh.73, hədis 59
1062 səhifə əl-Imam ər-Rza (ə) , səh.90, hədis 19

**Quran:**

«Mömin kişilərə de ki, gözlərini (naməhrəmlərdən çevirərək) yerə diksinlər, ayıb yerlərini qorusunlar. Bu, onlar üçün daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır. Mömin qadınlara da de ki, gözlərini (naməhrəmlərdən çevirib) yerə diksinlər, ayıb yerlərini qorusunlar, öz-özlüyündə görünən istisna olmaqla, zinətlərini göstərməsinlər.»[1063]

**Hədis:**

6136.Allahın Peyğəmbəri (s): «Adəm oğlunun bədən üzvlərinin hər birinin zina payı var, gözün zinası da baxmaqdır.»[1064]

6137. Allahın Peyğəmbəri (s): «Gözlərinizi (harama) yumun ki, füsunkarlıqları görəsiniz.»[1065]

6138. Allahın Peyğəmbəri (s): «Kim gözlərini haramla doldursa, tövbə edib əməlindən əl çəkməsə, Allah qiyamət günü onun gözlərini odla doldurar.»[1066]

6139.Allahın Peyğəmbəri (s): «Gözlərini ərindən qeyrisi və ya ona məhrəm olmayan şəxslərlə dolduran ərli qadına qarşı Allahın qəzəbi, şiddətlidir.»[1067]

6140.Imam Əli (ə): «Gözünü aşağı dikən kəs qəlbini rahat edər.»[1068]

6141.Imam Sadiq (ə): «Baxış iblisin zəhərli oxlarından biridir. Kim başqası üçün deyil, Allaha xatir öz gözünü (naməhrəmə) yumsa, bunun ardınca Allah ona tamını daddığı bir iman verər.»[1069]

6142.Imam Rza (ə) *(Məhəmməd ibn Sinanın suallarının birinin cavabında):* «Ərli qadınların, həmçinin digər qadınların saçlarına baxmaq ona görə haram edilib ki, bu, kişilərin təhrik olunmalarına səbəb olur, fəsada və harama, xoşagəlməz əməllərə düçar olmaqla nəticələnir. (Təhrik etmək baxımından) Tük kimi olan (digər) şeylər də belədir. Allah-taalanın «ərə getməyə ümidi qalmayan yaşlı qadınlar….»[1070] deyə buyurduğu hallar istisnadır və belə qadınların saçlarına baxmağın eybi yoxdur.»[1071]

***1721.Ilk baxış qeyri-ixtiyari, ikinci baxış isə qəsdəndir.***

6143.Allahın Peyğəmbəri (s) *(Əliyə (ə) buyurmuşdur):–*«Ey Əli, ilk baxış sənə məxsusdur, ikinci baxış isə sənin xeyrinə deyil, ziyanınadır.»[1072]

6144.Imam Sadiq (ə): «Ilk baxış sənə məxsusdur, ikinci baxış sənin xeyrinə deyil, ziyanınadır, üçüncü baxış isə məhv olmaq amilidir.»[1073]

---

[1063] Nur, ayə 30, 31
[1064] Camiul-Əxbar, səh.408, hədis 1129
[1065] Biharul-Ənvar, c.104, səh.41, hədis 52
[1066] Biharul-Ənvar, c.76, səh.344, hədis 1
[1067] Savabul-Ə'mal, səh.338, hədis 1
[1068] Ğurərul-Hikəm, hədis 9122
[1069] əl-Fəqih, c.4, səh.18, hədis 4969
[1070] Nur, ayə 60
[1071] Uyun Əxbar Rza (ə), c.2, səh.97
[1072] əl-Fəqih, c.4, səh.19, hədis 4971
[1073] əl-Fəqih, c.3, səh.474, hədis 4658

6145.Imam Sadiq (ə): «Baxışdan sonra (təkrar) baxış, şəhvət toxumu səpir və bu, sahibini fitnəyə (və günaha) sürükləmək üçün kifayətdir.»[1074]

***1722.Kim gözəl bir qadın görsə…***

6146.Imam Əli (ə): «Sizlərdən kim gözəl bir qadın görsə və ondan xoşu gəlsə, gedib öz xanımı ilə yaxınlıq etsin. Çünki gördüyünün bənzəri onun öz xanımında da var. Şeytana öz qəlbinə girmək üçün yol verməsin və gözünü həmin qadından döndərsin. Əgər arvadı yoxdursa, iki rəkət namaz qılsın, Allaha çoxlu şükr etsin, Peyğəmbərə və onun əhli-beytinə salavat göndərsin və sonra Allahdan ona öz fəzlindən əta etməsini istəsin. Allah Öz mehribanlıq və mərhəmətiylə onun ehtiyacını aradan qaldıracaqdır.»[1075]

ιoooooοπ

[1074] əl-Fəqih, c.4, səh.18, hədis 4970
[1075] Biharul-Ənvar, c.10, səh.115, hədis 1

**378**

# Mübahisə

***1723.Mübahisə.***

6147.Imam Əli (ə) *(Kumeylə tövsiyəsindən):–*«Ey Kumeyl, insanların hər təbəqəsinin içində, başqalarından üstün və möhtərəm olan bir dəstə var. Buna görə də onların alçaq və aşağı dərəcəli dəstələri ilə mübahisə etməkdən çəkin. Əgər sənə xoşagəlməz bir söz desələr, döz və Allah-taalanın «cahillər onlara söz atdıqları zaman onlarla gözəl, yumşaq danışarlar.»[1076] deyə vəsf etdiyi kəslərdən ol.»[1077]

6148.Imam Sadiq (ə) *(Təyyarın, camaatla mübahisə etməyin xoşagəlməzliyi barədə sualının cavabında):–*«Sənin kimi insanların söhbətləri xoşagəlməz deyil. Yüksələndə gözəl şəkildə aşağı enməyi, aşağı düşəndə gözəl şəkildə yüksəlməyi və belə bir qüdrəti olan şəxsin mübahisə etməsini xoşlayırıq.»[1078]

6149.Imam Sadiq (ə) *(Əbu Cəfər Əhfələ buyurmuşdur):* «Təyyardan nə xəbər?» (Əhfəl deyir) Dedim: «Dünyadan köçdü.» Həzrət buyurdu: «Allah rəhmət eləsin. Allah ona rəhmət və sevinc bəxş etsin! Çünki o, biz əhli-beyti müdafiə edirdi.»[1079]

***1724.Imamın, o Həzrəti mübahisəyə dəvət edən şəxsə cavabı.***

6150.«Biharul ənvar»: «Bir kişi imam Hüseynə (ə) dedi: Otur, bir-birimizlə din barəsində mübahisə edək. Həzrət buyurdu: Ey kişi, mən öz dinimi tanıyıram, ondan xəbərdaram, doğru yol mənə məlum və aydındır. Əgər sənin dindən xəbərin yoxdursa, get onu öyrən. Mənim mübahisə ilə nə işim? Həqiqətən şeytan insana vəsvəsə salır və onun qulağına pıçıldayaraq deyir: Din barəsində camaatla mübahisə et ki, sənin aciz və nadan adam olmağını fikirləşməsinlər.»[1080]

ıooooooπ

[1076] Furqan, ayə 63
[1077] Bəşarətul-Mustafa, səh.26
[1078] Biharul-Ənvar, c.2, səh.136, hədis 39
[1079] Biharul-Ənvar, c.2, səh.136, hədis 41
[1080] Biharul-Ənvar, c.2, səh.135, hədis 32

**379**

# Təmizlik

***1725.Təmizliyə təşviq.***

6151.Allahın Peyğəmbəri (s): «Allah pakdır və pak şəxsi sevir, təmizdir və təmizliyi sevir.»[1081]

6152.Allahın Peyğəmbəri (s): «Bu bədənləri təmizləyin, Allah sizi təmizləsin. Çünki hansı bəndə gecə təmiz bədənlə yatsa, onunla paltarı arasında bir mələk yatar və gecənin hansı saatında o tərəf-bu təfərə çevrilsə, həmin mələk deyər: Allahım! Bəndəni bağışla. Çünki o, təmiz bədənlə yatıb.»[1082]

6153.Allahın Peyğəmbəri (s): «Nə pisdir çirkli və qarmaqarışıq bəndə.»[1083]

6154.Allahın Peyğəmbəri (s): «Çirkli adamlar məhv olarlar.»[1084]

6155.Allahın Peyğəmbəri (s)*–(bir kişini qarmaqarışıq saç, çirkli paltar və səliqəsiz vəziyyətdə görəndə):–*«Allahın nemətlərindən istifadə etmək və neməti üzə çıxarmaq dindəndir.»[1085]

6156.Allahın Peyğəmbəri (s): «Toz-torpağı qapının dalına yığmayın. Çünki o, şeytanın yuvası olur.»[1086]

6157.Allahın Peyğəmbəri (s): «Zibili gecə öz evinizdə saxlamayın, onu gündüz evinizdən çıxarın. Çünki zibil Şeytanın oturaq yeridir.»[1087]

6158.Cabir ibn Abdullah: «Allahın Peyğəmbəri (s) bizim yanımıza gəldi. Gözü saçları qarmaqarışıq olan bir kişiyə sataşdı. Buyurdu: Məgər bu kişi öz saçlarını səliqəyə salmağa bir şey tapmadı? (O Həzrət) Əynində çirkli paltar olan digər bir kişini gördü. Buyurdu: Məgər bu kişi paltarlarını yumağa su tapmayıb?»[1088]

6159.Imam Əli (ə): «Başqalarını narahat edən xoşagəlməz iydən özünüzü su ilə təmizləyin. Özünüzə (üst-başınıza) baxın. Çünki Allah-taala özünün çirkli və laqeyd bəndələrinə, onunla bir yerdə oturan hər bir kəsin burnunu tutub bezdiyi kimsəyə nifrət edir.»[1089]

---

[1081] Sunən ət-Tirmizi, hədis 2799
[1082] Kənzul-Ummal, hədis 26003
[1083] əl-Kafi, c.6, səh.439, hədis 6
[1084] Kənzul-Ummal, hədis 7422
[1085] əl-Kafi, c.6, səh.439, hədis 5
[1086] Vəsailuş-Şiə, c.3, səh.572, hədis 3
[1087] əl-Fəqih, c.4, səh.5, hədis 4968
[1088] Sunən Əbu Davud, hədis 4062
[1089] əl-Xisal, səh.620, hədis 10

6160.Imam Əli (ə): «Otaqlarınızı hörümçək torundan təmizləyin. Çünki onu evdə saxlamaq yoxsulluq gətirir.»[1090]

6161.Imam Baqir (ə): «Otaqları süpürmək yoxsulluğu aradan götürür.»[1091]

6162.Imam Sadiq (ə): «Qabı yumaq və evin qapısının ətrafını süpürmək ruzinin cəlb olunmasına səbəb olur.»[1092]

***1726.Islam və təmizlik.***

6163.Allahın Peyğəmbəri (s): «Imkanınız çatan bütün vasitələrlə özünüzü təmizləyin. Çünki Allah-taala Islamı təmizlik üzərində qurub və Cənnətə yalnız təmiz şəxs gedəcəkdir.»[1093]

6164.Allahın Peyğəmbəri (s): «Allah təmizkar abidi sevir.»[1094]

6165.Allahın Peyğəmbəri (s): «Paltar geyinən hər bir kəs onu təmiz saxlamalıdır.»[1095]

6166.Imam Əli (ə): «Təmiz paltar qəm-kədəri aradan aparır və namazın paklıqlarındandır.»[1096]

6167. Imam Rza (ə): «Təmizlik peyğəmbərlərin xüsusiyyətlərindəndir.»[1097]

ιooooooπ

[1090] Vəsailuş-Şiə, c.3, səh.575, hədis 2
[1091] Vəsailuş-Şiə, c.3, səh.571, hədis 2
[1092] əl-Xisal, səh.54, hədis 73
[1093] Kənzul-Ummal, hədis 26002
[1094] Kənzul-Ummal, hədis 26000
[1095] əl-Kafi, c.6, səh.441, hədis 3
[1096] əl-Kafi, c.6, səh.444, hədis 14
[1097] Biharul-Ənvar, c.78, səh.335, hədis 4

**380**

# Nemət

***1727.Allahın saysız-hesabsız nemətləri.***

**Quran:**

«Allah sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, həm də çox nankordur.»[1098]

**Hədis:**

6168.Allahın Peyğəmbəri (s): «Kim Allahın yemək, içmək və geyimdən başqa nemətlərini görməsə, şübhəsiz, əməli qısa və əzabı yaxın olar.»[1099]

6169.Imam Əli (ə): «Şükr olsun o Allaha ki, natiqlər Onu mədh etməyin öhdəsindən gəlməz, sayanlar nemətlərini saya bilməzlər.»[1100]

6170.Imam Əli (ə) *(Kumeylə tövsiyəsində):* «Sən həmişə Allahın nemətindən və sənə bəxş etdiyi sağlamlıqdan bəhrələnirsən. Buna görə də heç bir halda Onu mədh, tərif, zikr, sitayiş və şükr etməkdən və anmaqdan əl çəkmə.»[1101]

***1728.Nemətləri unutmaq.***

6171.Allahın Peyğəmbəri (s): «Iki nemət var ki, insanların çoxu onun vasitəsi ilə sınanır (və ya onların vasitəsi ilə yollarını azır və fəsada düşürlər): asudəlik və sağlamlıq.»[1102]

6172.Allahın Peyğəmbəri (s): «Iki nemət var ki, onlar görməməzliyə vurulur: əmin-amanlıq və sağlamlıq.»[1103]

6173.Imam Əli (ə): «Nemət içində olan şəxs çətinliyin qədrini bilmir.»[1104]

6174.Imam Həsən (ə): «Nemətlər nə qədər ki, var idi, bilinməzdilər (qədirləri bilinmir), elə ki getdilər, (qədirləri) yerləri görünər.»[1105]

***1729.Nemətlərlə gözəl qonşuluq.***

6175. Imam Əli (ə): «Nemətlər sizdən ayrılmamış onlar üçün yaxşı

[1098] Ibrahim, ayə 34
[1099] əl-Kafi, c.2, səh.316, hədis 5
[1100] Nəhcül-Bəlağə, xütbə 1
[1101] Bəşarətul-Mustafa, səh.28
[1102] əl-Xisal, səh.35, hədis 7
[1103] Biharul-Ənvar, c.81, səh.170, hədis 1
[1104] Biharul-Ənvar, c.78, səh.12, hədis 70
[1105] Biharul-Ənvar, c.78, səh.115, hədis 12

yoldaş olun. Çünki nemətlər gedirlər və yoldaşının onunla rəftarı barədə şəhadət verirlər.»[1106]

6176.Imam Əli (ə): «Nemətləri hürküdüb qaçırtmaqdan çəkinin. Çünki hər qaçan geri dönmür.»[1107]

6177.Imam Hadi (ə): «Nemətlərə yaxşı qonşu olun və onlara görə şükr və minnətdarlıq etməklə öz nemətlərinizi artırın. Bilin ki, nəfs ona veriləni rahatlıqla qəbul edir və ondan əsirgənilən şeyə ciddi müqavimət göstərir.»[1108]

***1730.Nemətin davamlılığına səbəb olan amillər.***

**Quran:**

«Əgər o məmləkətlərin əhalisi iman gətirib pərhizkar olsaydılar sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar (peyğəmbərləri) yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə məhv etdik.»[1109]

«Bu (əzab) ona görədir ki, bir tayfa özünə bəxş edilən neməti dəyişməyincə, Allah da onlara əta etdiyi neməti dəyişdirən deyildir. Allah eşidən və biləndir.»[1110]

**Hədis:**

6178.Allahın Peyğəmbəri (s): «Allahın (bəzi) bəndələri var ki, nemətləri onlara məxsus edib. Bu bəndələr nemətləri camaata bağışlayıb payladıqları vaxta qədər, onları (nemətləri) həmin bəndələrin əlində saxlayır. Əsirgəyib verməyəndə isə Allah nemətləri onlardan başqalarına keçirir.»[1111]

6179.Imam Əli (ə): «Kimin Allahın nemətlərindən payı çox olsa, camaatın ona ehtiyacı da çox olar. Buna görə də kim Allahın razılığı xatirinə nemətlərlə əlaqədar öz vəzifəsinə əməl etsə, onları davamlılığa çevirib. Bu barədə öz vəzifəsinə əməl etməyən şəxs isə həmin nemətləri məhvə və puçluğa düçar edib.»[1112]

6180.Imam Əli (ə): «Sizin boynunuzda olan ən kiçik vəzifə, Allahın nemətlərindən Ona qarşı itaətsizlik yolunda istifadə etməməyinizdir.»[1113]

6181.Imam Sadiq (ə): «Nemətlər yalnız üç işdən sonra uzunmüddətli olar: nemətlərdə Allahın layiqli yerini tanımaq, onların şükrünü etmək və onlara görə zəhmət çəkmək.»[1114]

6182.Imam Sadiq (ə): «Allahın neməti kimə çox olsa, camaatın onun boynuna düşən zəhmət və xərc yükü də ağırlaşar. Buna görə də camaatın zəhmət və xərc yükünü boynunuza götürməklə neməti(nizi) davamlı edin və

---

[1106] Iləluş-Şəraye, səh.464, hədis 12
[1107] Nəhcül-Bəlağə, hikmət 246
[1108] Ə'lamud-Din, səh.312
[1109] Ə'raf, ayə 96
[1110] Ənfal, ayə 53
[1111] Biharul-Ənvar, c.75, səh.353, hədis 62
[1112] Nəhcül-Bəlağə, hikmət 372
[1113] Nəhcül-Bəlağə, hikmət 330
[1114] Tuhəful-Uqul, səh.318

onu puç etməyin. Çünki birinin puç olmuş nemətinin, yenidən bir daha ona qayıtması çox nadir hallarda baş verir.»[1115]

6183.Imam Kazim (ə): «Kim qənaətcil və qane olsa, nemət onun üçün qalar. Kim israf edib dağıtsa, nemət ondan uzaqlaşar.»[1116]

6184.Imam Rza (ə): «Ədalətli və yaxşı işlər görmək nemətin davamlılığından xəbər verir.»[1117]

### *1731.Nemətlərin bir-birinin ardınca gəlməsi və Allahın möhlət verməsi.*

**Quran:**

«Küfr edənlər, onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar. Bizim onlara verdiyimiz möhlət, ancaq günahlarını daha da artırmaları üçündür. Onlar üçün alçaldıcı bir əzab vardır.»[1118]

**Hədis:**

6185.Imam Əli (ə): «Ey Adəm övladı! Nə vaxt görsən ki, günah edirsən və bununla belə eyb, nöqsan sifətlərdən pak və uzaq olan Allah bir-birinin ardınca sənə nemətlərini verir, Ondan qorx!»[1119]

6186.Imam Əli (ə): «Camaat! Allah sizi çətinlik və əzabdan qorxan gördüyü kimi, gərək nemətdən də qorxan görsün. Çünki nemət qapısı kimin üzünə açılsa və o, bunu Allahın möhləti hesab etməsə, özünü qorxulu hadisədən amanda sanmışdır. Kim yoxsulluğa düçar olsa və onu (ilahi) sınaq hesab etməsə, onu gözləyən mükafatı əldən çıxarmışdır.»[1120]

6187.Imam Əli (ə): «Nə çox nemət verilmiş şəxs ki, tədricən Allahın qəzəbinə yaxınlaşır və nə çox bəlaya düçar olmuş şəxs ki, həmin bəla ilə ona yaxşılıq edilmişdir.»[1121]

6188.Imam Hüseyn (ə): «Eyb, nöqsan sifətlərdən pak və uzaq olan Allahın bəndəsinə möhlət verməsi və (bəlanı) tərdicən yaxınlaşdırması, ona çoxlu nemət verməsi və şükr etməyi ondan almasıdır.»[1122]

### *1732.Allahın nemətlərindən söhbət açmaq.*

**Quran:**

«(Insanlara) Rəbbinin nemətlərindən söhbət aç.»[1123]

**Hədis:**

6189.Allahın Peyğəmbəri (s): «Allah bəndəsində Öz nemətinin nişanəsini görməyi sevir.»[1124]

---

[1115] əl-Kafi, c.4, səh.37, hədis 1
[1116] Biharul-Ənvar, c.78, səh.327, hədis 4
[1117] Uyun Əxbar Rza (ə), c.2, səh.24, hədis 52
[1118] Ali-Imran, ayə 178
[1119] Nəhcül-Bəlağə, hikmət 25
[1120] Nəhcül-Bəlağə, hikmət 358
[1121] Nəhcül-Bəlağə, hikmət 273
[1122] Biharul-Ənvar, c.78, səh.117, hədis 7
[1123] Züha, ayə 11
[1124] Sunən ət-Tirmizi, hədis 2819

6190.Əbul Əhvəs *(atasından nəql edir):–*«Üst-başım pis vəziyyətdə Peyğəmbərin yanına getdim. Peyğəmbər (s) buyurdu: Var-dövlətin var? Dedi: Bəli, Allah mənə hər şey verib. Buyurdu: Əgər sərvətin varsa, (onun nişanələri) sənin vücudunda görünməlidir.»[1125]

6191.Imam Əli (ə): «Allah gözəldir və gözəlliyi sevir. Həmçinin sevir ki, Öz bəndəsində nemətin nişanəsini görsün.[1126]

6192.Imam Sadiq (ə): «Allah Öz bəndəsinə bir nemət verəndə, həmin nemət bəndənin vücudunda gözə görünsə, o, Allahın nemətindən söhbət açan dost adlandırılar. Əgər Allah bir bəndəyə nemət verən zaman, həmin nemət onun vücudunda görünməsə, o, Allahın nemətini təkzib edən düşmən adlandırılar.»[1127]

6193.Imam Sadiq (ə): «Mən, insanın Allah tərəfindən nemətə malik olub onu izhar etməməsini xoşlamıram.» [1128]

### *1733.Nemətin kamilliyi.*

6194.Allahın Peyğəmbəri (s): «Kim üç şeydən bəhrələnmiş halda günlərini arxada qoysa, dünyanın neməti ona tam və kamil verilib: gecə-gündüzünü sağlam halda və əmin-amanlıqla keçirən və gününün yeməyi olan kəs. Əgər dördüncü nemətə də malik olsa, dünya və axirət nemətinə tam və kamil şəkildə sahib olub. O, (yəni dördüncü nemət) iman nemətidir.»[1129]

6195.Imam Əli (ə): «Nemət təvazökarlıqla kamilləşir.»[1130]

6196.Imam Əli (ə): «Allaha itaətdə səbr etməklə və Ona qarşı itaətsizlikdən, günahdan uzaqlaşmaqla Onun sizə olan nemətlərini kamilləşdirin.»[1131]

6197.Imam Sadiq (ə): «Dünyanın neməti əmin-amanlıq və sağlamlıqdır. Axirətdə kamil nemət, Cənnətə daxil olmaqdır. Cənnətə getməyən bəndəyə, nemət əsla kamilləşməyib.»[1132]

ιοooooπ

[1125] Sünən ən-Nəsayi, c.8, səh.196
[1126] əl-Kafi, c.6, səh.438, hədis 1
[1127] əl-Kafi, c.6, səh.438, hədis 2
[1128] əl-Kafi, c.6, səh.439, hədis 9
[1129] Tuhəful-Uqul, səh.36
[1130] Nəhcül-Bəlağə, hikmət 224
[1131] Nəhcül-Bəlağə, xütbə 188
[1132] Məani əl-Əxbar səh.408, hədis 87

**380**

# Nəfs

***1734.Pis işlərə əmr edən nəfs***

**Quran:**

«Mən öz nəfsimi təmizə çıxartmıram. Çünki nəfs həmişə- Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla- pis işlər görməyi əmr edir. Həqiqətən, Rəbbim bağışlayan və rəhm edəndir.»[1133]

**Hədis:**

6198.Imam Əli (ə): «Pis işlərə əmr edərək zahiri yalandan gözəl göstərən nəfs, münafiq kimi yaltaqlanır və özünü münasib və ürəyiyanan dost kimi göstərir. Elə ki, (insanı) aldadaraq (onu) ələ aldı, düşmən kimi hakim olur, özündən razılıq və quldurluqla hökmranlıq edir, (insanı) pis və məhvə səbəb olan yerlərə sürükləyir.»[1134]

6199.Imam Səccad (ə) *(münacatlarının birində):* «Allahım! Həmişə pis işləri əmr edən, günaha tərəf tələsən və Sənə qarşı itaətsizliyə həris olan nəfsdən Sənə şikayət edirəm…. Üzr və bəhanəsi çoxdur və uzun arzuları var. Ona bir ziyan dəyəndə dözümsüzlük, xeyir--bərəkət yetişəndə isə xəsislik edir. Oynamaq və əylənməyə vurğundur və qəflət və xəbərsizliklə doludur. Məni günaha tələsdirir və tövbə məsələsində bu gün-sabah edir.»[1135]

***1735.Qınayan nəfs və ya oyaq vicdan.***

**Quran:**

«And içirəm özünü qınayan nəfsə.»[1136]

**Hədis:**

6200.Allahın Peyğəmbəri (s) *(Ibn Məsuda tövsiyələrindən):–*«Ey Məsudun oğlu! Çoxlu yaxşı və gözəl işlər gör. Çünki həm yaxşı işlər görən şəxs, həm də pis işlər görən kimsə peşman olacaqdır. Yaxşı işlər görmüş şəxs «kaş daha çox yaxşı işlər görəydim», pis əməl sahibi isə «səhlənkarlıq etdim» deyəcək. Bu mətləbə şahid Allah-taalanın «And içirəm özünü qınayan nəfsə.» kəlamıdır.»[1137]

***1736.Nəfsin təlim-tərbiyəsi və təmizlənməsi.***

**Quran:**

---

[1133] Yusif, ayə 53
[1134] Ğurərul-Hikəm, hədis 2106
[1135] Biharul-Ənvar, c.94, səh.143
[1136] Qiyamət, ayə 2
[1137] Məkarimul-Əxlaq, c.2, səh. 353, hədis 2660

«And olsun nəfsə (insan nəfsinə) və onu şəklə salana. Sonra ona günahlarını və pəhrizkarlığını ilham edənə. Onu təmizləyən, mütləq nicat tapdı. Onu (günaha) batıran isə, əlbəttə ki, ziyana uğradı.»[1138]

**Hədis:**

6201.Imam Əli (ə): «Camaat! Nəfslərinizin tərbiyəsi ilə məşğul olun və onu adətlərinə hərislikdən saxlayın.»[1139]

6202.Imam Əli (ə): «Nəfslərinizlə daim cihad etməklə onlara hakim olun.»[1140]

6203.Imam Əli (ə): «Həqiqətən, ilahi təqva sizin qəlblərinizin dərdinin dərmanı….və nəfslərinizin çirkinliklərini təmizləyəndir!»[1141]

6204.Imam Əli (ə): «(Pis işlərə əmr edən) Nəfsinə arxa çevirməklə özünə (fəzilətli insani nəfsinə) üz tut!»[1142]

6205.Imam Əli (ə): «Kim öz nəfsini məzəmmət etsə, onu islah edər, kim öz nəfsini tərifləsə, onu öldürər.»[1143]

6206.Imam Əli (ə): «Kim özünü islah etməsə, çirkin adətlər onu rüsvay edər.»[1144]

6207.Imam Əli (ə): «Kim öz eyb və nöqsanı ilə məşğul olmasa, nəfsi istəklər ona hakim olar. Kim (başdan-ayağa) nöqsan içində olsa, onun üçün ölüm daha yaxşıdır.»[1145]

***1737.Özünə ehtiramın nişanəsi.***

6208.Imam Əli (ə): «Öz nəfsinə (və şəxsiyyətinə) hörmət qoyan kəs, onu günahla xar etməz.»[1146]

6209.Imam Əli (ə): «Özünə hörmət qoyan kimsənin gözündə nəfsi istəklər dəyərsiz olar.»[1147]

6210.Imam Əli (ə): «Dünya özünə hörməti olan şəxsin gözünə kiçik və dəyərsiz görünər.»[1148]

ιοοοοοοπ

---

[1138] Şəms, ayə 7-10
[1139] Nəhcül-Bəlağə, hikmət 359
[1140] Ğurərul-Hikəm, hədis 2489
[1141] Nəhcül-Bəlağə, xütbə 198
[1142] Ğurərul-Hikəm, hədis 2434
[1143] Ğurərul-Hikəm, hədis 9103 və 9104
[1144] Ğurərul-Hikəm, hədis 9170
[1145] Əmali-Səduq səh.322, hədis 4
[1146] Ğurərul-Hikəm, hədis 8730
[1147] Ğurərul-Hikəm, hədis 8771
[1148] Ğurərul-Hikəm, hədis 9130

**382**

# Nifaq

***1738.Nifaq.***

**Quran:**

«Nəticədə, Allaha verdikləri və'də xilaf çıxdıqlarına və yalan danışdıqlarına görə, Allah da onların ürəyində Ona qovuşacaqları günə qədər nifaqın izlərini saxladı.»[1149]

**Hədis:**

6211.Allahın Peyğəmbəri (s): «Nifaq əvvəlcə bir qara nöqtə kimi zahir olur və nifaq artdıqca həmin nöqtə də böyüyür. Nifaq təkmilləşəndə, qəlb tamamilə qaralır.»[1150]

6212.Imam Əli (ə): «Nifaq, şirkin qardaşıdır.»[1151]

6213.Imam Əli (ə): «Insanın münasib zahir və münafiq batininin olması necə də pisdir!»[1152]

6214.Imam Əli (ə): «Insanın nifaqı, onun özündə hiss etdiyi rəzillikdən yaranır.»[1153]

***1739.Münafiqin xüsusiyyətləri.***

**Quran:**

«Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki, əslində Allah onları aldadır. Onlar namaza durduqları zaman tənbəlliklə qalxar, özlərini xalqa göstərər və Allahı olduqca az yad edərlər. Onlar (imanla küfr arasında) tərəddüddədirlər, nə bunlarladırlar, nə də onlarla. Allahın azdırdığı şəxs üçün heç bir yol tapa bilməzsən.»[1154]

*Həmçinin müraciət et: «Bəqərə» 8, 20; «Ali-Imran» 167, 168; «Nisa» 61, 138, 145; «Ənkəbut» 10, 11; «Muhəmməd» 30; «Mucadilə» 14,16.*

6215.Allahın Peyğəmbəri (s): «Münafiq və’d verəndə və’dinə xilaf çıxan, bir iş görəndə onu faş edən (aləmə car çəkən), danışanda yalan deyən, əmanət tapşırılanda xəyanət edən, ruzi veriləndə özbaşınalıq edən və ruzi verilməyəndə (yoxsullaşanda) isə hiyləgərliyə əl atan kəsdir.»[1155]

---

[1149] Tovbə, ayə 77
[1150] Kənzul-Ummal, hədis 1734
[1151] Ğurərul-Hikəm, hədis 483
[1152] Ğurərul-Hikəm, hədis 9559
[1153] Ğurərul-Hikəm, hədis 9988
[1154] Nisa, ayə142, 143
[1155] Biharul-Ənvar, c.72, səh.207, hədis 8

6216.Allahın Peyğəmbəri (s): «Münafiqin gözləri onun ixtiyarındadır, istədiyi kimi ağlayır.»[1156]

6217.Allahın Peyğəmbəri (s): «Münafiqlərin bir sıra nişanələri var və onlar həmin nişanələrlə tanınarlar: salamları lənətdir, çox yeyən və qarınquludurlar, qənimətləri çalıb-çaparlar, məscidlərə yalnız ikrah və riyakarlıqla yaxınlaşarlar, namazı onun axır vaxtında qılarlar, özlərini böyük tutarlar, belə ki, heç kəslə qaynayıb qarışmırlar və heç kəs də onlarla ünsiyyət yaratmır, axşam quru çubuq kimi düşərlər (gecə oyaq qalıb ibadətlə məşğul olmazlar) və gündüz mübahisə və səs-küy etməklə səslərini ucaldarlar.»[1157]

6218.Allahın Peyğəmbəri (s): «Kimliyindən asılı olmayaraq batini ilə zahiri bir-birinə zidd olan kəs münafiqdir.»[1158]

6219.Allahın Peyğəmbəri (s): «Bizim nəzərimizdə bədənin mütiliyinin qəlbin mütiliyindən çox olması nifaqdır.»[1159]

6220.Imam Əli (ə): «Münafiq başını qarışdırmaq üçün baxır, sükutu qəflətlədir, danışanda boş şeylər danışır, imkanlı olanda tüğyan edir, çətinliyə düşəndə fəryad qoparır. Tez narahat olur və gec razı qalır. Allah tərəfindən olan aza narazılıq edir və çox da onu razı salmır. Beynində çoxlu şər niyyətlər dolandırır və onların bir qədərini gerçəkləşdirir. Hansısa bir pis işi görməməsinə təəssüflənir.»[1160]

6221.Imam Əli (ə): «Əgər bu qılıncımla, mənə qarşı düşmənçilik etsin deyə, möminin burnunu kökündən vursam da, əsla düşmənçilik etməz. Əgər bütün dünyanı münafiqin ayağına töksəm ki, məni sevsin, məni əsla sevməz. Bunun səbəbi qəzavü-qədər qələminin belə yazması və bu ilahi təqdirin yazıb-oxumamış Peyğəmbərin (s) dilindən söylənilməsi və «Ey Əli, heç bir mömin səninlə düşmənçilik etməz və heç bir münafiq səni sevməz.» buyurmasıdır.»[1161]

6222.Imam Səccad (ə): «Münafiq çəkindirər, özü isə çəkinməz, başqalarına əmr etdiyini özü yerinə yetirməz, namaz qılanda sağa-sola baxar, ruku edəndə özünü (qoyunlar kimi) yerə atar (yəni rukudan sonra qalxmaz və elə həmin halda səcdəyə gedər), səcdə edəndə (qarğa və dən yeyən digər quşlar kimi) yerə dimdik vurar və oturanda «çöməltmə»[1162] halında oturar, axşam olanda oruc tutmamasına baxmayaraq elə hey yemək fikrində olar və gündüz axşam oyaq qalmamasına baxmayaraq bütün fikri-zikri yatmaq olar. Əgər sənə bir söz (yaxud hədis) desə, yalan deyər və əgər və'd versə, və'dinə xilaf çıxar. Əgər ona

---

[1156] Kənzul-Ummal, hədis 854

[1157] Kənzul-Ummal, hədis 862

[1158] Biharul-Ənvar, c.72, səh.207, hədis 8

[1159] əl-Kafi, c.2, səh.396, hədis 6

[1160] Tuhəful-Uqul, səh.212

[1161] Nəhcül-Bəlağə, hikmət 45

[1162] Üsuli-Kafinin şərhinə yazılmış haşiyənin müəllifi bu ibarənin mə'nası barəsində belə yazır:yəni ayağının ikibaldırını yerdən qaldırsın və dabanları üstündə otursun. Üsuli Kafinin tərcüməчisi yazır: Чox ehtimal ki, bu ibarət «istirahət oturuşu»nun tərk edilməsinə işarədir. Məclisi yazır: Mənim fikrimcə bu ibarət müxaliflərin чoxunun təşəhhüddə müstəhəbb hesab etdikləri oturuş, yəni sol bud üstündə oturub sağ ayağı sol ayağın üstünə qoymaq və sağ ayağı barmaqların ucu qibləyə tərəf düşən şəkildə qaldırmaqdır.

inanıb əmanət tapşırsan, sənə xəyanət edər və əgər ona qarşı çıxsan, arxanca danışaraq qeybətini edər.»[1163]

6223.Imam Sadiq (ə): «Dörd şey nifaqın nişanələrindəndir: daşqəlblilik, gözdən yaş gəlməməsi, günahı davam etdirmək və dünyaya hərislik.»[1164]

***1740.Ən aşkar münafiq.***

6224.Imam Əli (ə): «Ən aşkar münafiq o kəsdir ki, (başqalarını Allaha) itaətə dəvət edir, amma özü ona əməl etmir və (başqalarını) günahdan çəkindirir, amma özü ondan əl çəkmir.»[1165]

6225.Imam Əli (ə): «Insanların ən münafiqi, (başqalarını Allaha) itaətə əmr edərək özü əməl etməyən və başqalarını (günahdan) çəkindirərək özü çəkinməyəndir.»[1166]

***1741.Dilli münafiqdən çəkinmək.***

6226.Imam Əli (ə): «Allahın Peyğəmbəri (s) mənə buyurdu: «Mən ümmətim üçün nə mömindən qorxuram və nə də müşrikdən. Çünki Allah möminin qarşısını imanı vasitəsi ilə alır və şirkinə görə də müşrikin kökünü kəsir. Mənim sizə görə qorxum, sizin etiqadlarınızın əsasında danışan və etiqad bəslədiyinizə zidd işlər görən dilli münafiqdəndir.»[1167]

***1742.Münafiqlərin məhşərə gətirilmələri və onların aqibəti.***

**Quran:**

«Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içində əbədi qalacaqları cəhənnəm odu və’d etmişdir. O atəş onlara kifayətdir. Allah onları lənətlədi. Onları əbədi əzab gözləyir.»[1168]

«Əlbəttə, münafiqlərin yeri cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan.»[1169]

**Hədis:**

6227.Allahın Peyğəmbəri (s): «Qiyamət günü ikiüzlü şəxs, bir dili boynunun arxasından və bir dili önündən asılmış və onlarda şö'lələri onun bədənini bürüyən od yandırılmış halda gələcəkdir. Sonra ona deyiləcək: «Bu, dünyada ikiüzlü və ikidilli olmuş şəxsdir.» O, qiyamət günü belə tanınacaq.»[1170]

6228.Allahın Peyğəmbəri (s): «Dünyada ikiüzlü olan şəxs qiyamət günü məhşərə alov içində olan iki üzlə gələcəkdir.»[1171]

---

[1163] Əmali-Səduq, səh.399, hədis 12
[1164] əl-Ixtisas, səh.228
[1165] Ğurərul-Hikəm, hədis 3214
[1166] Ğurərul-Hikəm, hədis 3309
[1167] Nəhcül-Bəlağə, məktub 27
[1168] Tovbə, ayə 68
[1169] Nisa, ayə 145
[1170] əl-Xisal, səh.38, hədis 16
[1171] ət-Tərğib vət-Tərhib, c.3, səh.603, hədis 3

***1743.Nifaqı aradan götürən amillər.***

6229.Allahın Peyğəmbəri (s): «Mənə və əhli-beytimə salavat göndərmək nifaqı aradan aparır.»[1172]

6230.Allahın Peyğəmbəri (s): «Mənə uca səslə salavat göndərin. Çünki bu, nifaqı aradan aparır.»[1173]

[1172] əl-Kafi, c.2, səh.492, hədis 8
[1173] əl-Kafi, c.2, səh.493, hədis 13

## 383

# Malın Allah yolunda sərf olunması

***1744.Malın Allah yolunda sərf olunması.***

**Quran:**

«Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün gəlməmiş, sizə verdiyimiz ruzidən (Allah yolunda) paylayın. Kafirlər isə özlərinə zülm edənlərdir.»[1174]

«Allaha və Onun Peyğəmbərinə iman gətirin. Sizi varis etdiyi maldan xərcləyin. Sizdən iman gətirib (mallarını Allah yolunda) sərf edənləri, böyük bir mükafat gözləyir.»[1175]

«Malınızdan sərf etdiyiniz hər hansı bir şeyi, özünüz üçün etmisiniz.»[1176]

Həmçinin müraciət et: «Bəqərə» 261,265; «Insan» 8.

**Hədis:**

6231.Allahın Peyğəmbəri (s): «Qiyamət torpağı, mömінin kölgəsi istisna olmaqla, tamamilə od içindədir. Çünki onun verdiyi sədəqə başı üzərinə kölgə salır.»[1177]

6232.Allahın Peyğəmbəri (s): «Kim Allah yolunda bir dirhəm versə, Allah onun üçün yeddi yüz savab yazar.»[1178]

6233.Allahın Peyğəmbəri (s) *(öz səhabələrinə xitabən):–*«Sizlərdən kim öz varisinin malını öz malından daha çox istəyir?» Səhabələr dedilər: «Ey Allahın Peyğəmbəri, bizim hamımız öz malımızı varisimizin malından daha çox istəyirik.»

Peyğəmbər buyurdu: «Hər bir kəsin malı, yalnız (axirət üçün) qabağa göndərdiyidir. Varisinin malı isə insanın özündən sonra qoyub getdiyi maldır.»[1179]

6234.Imam Əli (ə): «Xoşa o adamın halına ki, malının artığını Allah yolunda xərcləyir və özünün artıq danışmasının qarşısını alır.»[1180]

6235.Imam Əli (ə): «Siz bağışladığınız şeydən, onu əldə etmiş şəxsdən daha çox xeyir qazanırsınız.»[1181]

---

[1174] Bəqərə, ayə 254
[1175] Hədid, ayə 7
[1176] Bəqərə, ayə 272
[1177] əl-Kafi, c.4, səh.3, hədis 6
[1178] Əmali-Tusi, səh.183, hədis 306
[1179] ət-Tərğib vət-Tərhib, c.2, səh.50, hədis 8
[1180] Biharul-Ənvar, c.96, səh.117, hədis 9
[1181] Ğurərul-Hikəm, hədis 3834

6236.Imam Əli (ə) *(əziz oğlu imam Həsənə (ə) tövsiyəsindən):–*«Əslində sənin dünyadan payın, onun vasitəsiylə axirətini qurduğun şeydir. Buna görə də haqq yolda xərclə və başqalarının xəzinədarı olma.»[1182]

6237.Imam Baqir (ə): «Heç nəyi, müqabilində daha artıq bir şey almaq məqsədi ilə bağışlama.»[1183]

6238.Imam Sadiq (ə): «Məlundur, məlundur o şəxs ki, Allah ona mal bağışlasın və o, həmin maldan sədəqə verməsin.»[1184]

### *1745.Allah-taala Onun yolunda sərf edilmiş şeyin əvəzini verəcəyini və'd etmişdir*

**Quran:**

«De ki: Həqiqətən, Rəbbim bəndələrindən istədiyinin ruzisini bol edər və yaxud azaldar. (Allah yolunda) Nə xərcləsəniz, O, onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır.»[1185]

**Hədis:**

6239.Allahın Peyğəmbəri (s): «Heç bir mal sədəqə verməklə azalmayıb. Odur ki, verin və qorxmayın.»[1186]

6240. «Kənzul-Ummal»: «Ayişə deyir: Bir qoyun kəsdilər (və onun ətini payladılar). Peyğəmbər (s) buyurdu: Bir şey qalıb? Ayişə dedi: Baş-ayağından başqa bir şey qalmayıb. Peyğəmbər buyurdu: Baş-ayağından başqa hamısı qalıb.»[1187]

6241.Imam Əli (ə): «Əvəzə (verdiyinin əvəzini alacağına) əminliyi olan kəs, bağışlamaqda əliaçıq olar.»[1188]

6242.Imam Sadiq (ə): «(Malını Allah yolunda) Xərclə və əvəzə əminliyin olsun.»[1189]

6243.Imam Sadiq (ə) *(«malınızdan sərf etdiyiniz....» ayəsinə işarə edərək, malını Allah yolunda xərcləməsinə baxmayraq əvəzini görməməsini iddia edən şəxsə):–*«Elə güman edirsən ki, Allah və'dinə xilaf çıxır?» (Həmin şəxs deyir) Dedim: «Xeyr!» Buyurdu: «Bəs səbəb nədir?» Dedim: «Bilmirəm.» Həzrət buyurdu: «Əgər sizdən bir nəfər halal mal qazansa və onu düzgün şəkildə (Allaha görə) haqq yerə xərcləsə, Allah mütləq onun xərclədiyi bir dirhəmin əvəzini verər.»[1190]

6244.Imam Sadiq (ə): «Sədəqə vermək borcu ödəyir və bərəkət gətirir.»[1191]

---

1182 Tuhəful-Uqul, Imam Sadiq (ə), hədis 83
1183 Biharul-Ənvar, c.96, səh.144, hədis 13
1184 Biharul-Ənvar, c.96, səh.133, hədis 62
1185 Səba, ayə 39
1186 Biharul-Ənvar, c.96, səh.131, 62
1187 Kənzul-Ummal, hədis 16150
1188 Nəhcül-Bəlağə, hikmət 138
1189 Biharul-Ənvar, c.96, səh.130, hədis 57
1190 Məkarimul-Əxlaq, c.2, səh.21, hədis 2053
1191 əl-Kafi, c.4, səh.9, hədis 1

***1746.Insanın öz sevdiyi şeydən bağışlaması.***

**Quran:**

«Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə, əsla (kamil) yaxşılığa nail ola bilməzsiniz. Allah, şübhəsiz ki, (Onun yolunda) xərclədiyiniz hər şeyi biləndir.»[1192]

**Hədis:**

6245.Əbuttufeyl: «Əli (ə) bir paltar aldı. Ondan xoşu gəldi və buna görə də onu sədəqə verdi.»[1193]

6246.«əl-Kafi»: «Imam Sadiq (ə) şəkər sədəqə verirdi. O Həzrətə dedilər: Şəkər sədəqə verirsiniz? Buyurdu: Bəli. Şəkəri hər şeydən çox sevirəm və buna görə də istəyirəm ki, daha çox sevdiyim şeydən sədəqə verim.»[1194]

***1747.Allaha itaət yolunda xərcləməyən, Ona qarşı günah yolunda xərcləyəcəkdir.***

6247.Allahın Peyğəmbəri (s): «Kim öz xoşu ilə malını yaxşı insanlardan əsirgəsə, Allah məcburi olaraq onun malını pislərə nəsib edər.»[1195]

6248.Imam Sadiq (ə): «Haqq yolda bir dirhəm xərcləməkdən imtina edən elə bir bəndə yoxdur ki, nahaq yolda iki dirhəm xərcləməsin.»[1196]

6249.Imam Kazim (ə): «Allaha itaət yolunda xərcləməkdən imtina etmə ki, (mütləq) onun ikiqat artığını Allaha itaətsizlik yolunda xərcləyərsən (xərcləməli olarsan).»[1197]

***1748.Yoxsulun Allah yolunda bir şey xərcləməsinin fəziləti.***

6250.Allahın Peyğəmbəri (s): «Üç şey imanın həqiqətlərindəndir: yoxsul olanda xərcləmək, camaatla insafla davranmaq və elm axtarana elm bağışlamaq.»[1198]

6251.Imam Səccad (ə): «Möminin xislətlərindən biri (Allah yolunda) yoxsulluğu həddində xərcləməkdir.»[1199]

***1749.Allah yolunda xərclədiyi qəbul edilməyən şəxs.***

**Quran:**

«De: Istər könül xoşluğu, istərsə də zorla xərcləyin. Onsuz da sizdən qəbul olunmayacaq. Çünki siz fasiq bir tayfasınız. Onların xərclədiklərinin qəbul olunmasına mane olan, yalnız Allahı və Onun Peyğəmbərini inkar etmələri, namaza tənbəl-tənbəl gəlmələri və istəməyə-istəməyə xərcləmələridir.»[1200]

---

[1192] Ali-Imran, ayə 92
[1193] Məcməul-Bəyan, c.2, səh.792
[1194] əl-Kafi, c.4, səh.61, hədis 3
[1195] Camiul-Əxbar, səh.505, hədis 1395
[1196] əl-Kafi, c.3, səh.504, hədis 7
[1197] Tuhəful-Uqul, səh.408
[1198] Biharul-Ənvar, c.77, səh.52, hədis 3
[1199] Tuhəful-Uqul, səh.282
[1200] T[vbə, ayə 53, 54

**Hədis:**

6252.Imam Baqir (ə) *(«pak olmayan (pis və haram) malı xərcləmək fikrinə düşməyin»[1201] ayəsi barədə sualın cavabında):–*«Insanlar Islamı qəbul edəndə, onların əllərində sələm və haram mallardan olan gəlirlər var idi. Onlar mallarının içində həmin gəlirləri axtarır və onları sədəqə verirdilər. Lakin Allah-taala onları bu işdən çəkindirdi. Pak və halal qazancdan başqa şeydən sədəqə vermək düzgün deyil.»[1202]

6253.Imam Sadiq (ə): «Əgər insanlar Allahın buyurduğu yolla qazanc əldə etsələr və onu Allahın qadağan etdiyi yolda xərcləsələr, Allah bunu onlardan qəbul etməz. Əgər qadağan etdiyi yolla qazanc əldə etsələr və onu Allahın buyurduğu yolda xərcləsələr, yenə də qəbul etməz. O vaxta kimi ki, düz (və halal) yolla qazansınlar və düz (və halal) yolda xərcləsinlər.»[1203]

[1201] Bəqərə, ayə 267

[1202] Təfsir əl-Əyyaşi, c.1, səh.149, hədis 492

[1203] əl-Fəqih, c.2, səh.57, hədis 1694

**384**

# Xəbərçilik

***1750. Xəbərçilik.***

6254.Allahın Peyğəmbəri (s): «Kim hökmdarın yanında öz qardaşından xəbərçilik etsə, Allah-taala onun bütün əməllərini puç edər. Əgər haqqında xəbərçilik etdiyi şəxsə bir narahatçılıq və ya ziyan dəysə, Allah-taala xəbərçilik edəni Haman (Fironun vəziri) ilə odun bir dərəcəsində yerləşdirər.»[1204]

6255.Imam Əli (ə): «Ən pis doğru, xəbərçilikdir.»[1205]

6256.Imam Sadiq (ə): «Xəbərçi üç nəfərin–özünün, barəsində xəbərçilik etdiyi şəxsin və yanında xəbərçilik etdiyi şəxsin– qatilidir.»[1206]

***1751.Xəbərçilikdən çəkindirmək.***

**Quran:**

«Həm də itaət etmə hər and içənə, alçağa, eybaxtarana, söz gəzdirmək üçün addım atana.»[1207]

**Hədis:**

6257.Allahın Peyğəmbəri (s): «Söz gəzdirməkdən (və xəbərçilikdən) çəkinin.»[1208]

6258.Allahın Peyğəmbəri (s): «Sizə ən pisinizin kim olmasını xəbər verimmi?» Dedilər: «Bəli, ey Allahın Peyğəmbəri (s)!» Buyurdu: «Xəbərçilik edənlər, dostları bir-birindən ayıranlar, pak və günahsız şəxslər üçün eyb uyduranlar.»[1209]

6259.Imam Əli (ə): «Xəbərçilikdən çəkin. Çünki o kin-küdurət toxumu səpər və (insanı) Allahdan və camaatdan uzaqlaşdırar.»[1210]

6260.Imam Sadiq (ə): «Xəbərçilik ən böyük cadulardandır. (Çünki) Xəbərçiliklə dostlar arasına ayrılıq salınır, qəlbibir yoldaşlar bir-birinə düşmən edilir, onun vasitəsi ilə qanlar tökülür, evlər dağıdılır və pərdələr aradan götürülür. Xəbərçi yer üzündə addımlayan ən pis şəxsdir.»[1211]

---

[1204] Kənzul-Ummal, hədis7545
[1205] Ğurərul-Hikəm, hədis 2939
[1206] əl-Xisal, səh.108, hədis 73
[1207] Qələm, ayə 10, 11
[1208] Kənzul-Ummal, hədis 8354
[1209] əl-Xisal, səh.183, hədis 249
[1210] Ğurərul-Hikəm, hədis 2663
[1211] Biharul-Ənvar, c.63, səh.21, hədis 14

**385**

# Müstəhəbb ibadətlər

***1752.Müstəhəbb ibadət.***

**Quran:**

«Gecənin bir vaxtı durub, ancaq sənə xas olan nafilə (müstəhəbb) namazı qıl. Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama çatdırsın.»[1212]

**Hədis:**

6261.Allahın Peyğəmbəri (s): «Həqiqətən, qəlblərin üz tutmaları və üz döndərmələri var. Buna görə də üz tutanda müstəhəbbiləri yerinə yetirin, üz döndərəndə isə vacibləri yerinə yetirməklə kifayətlənin.»[1213]

6262.Fuzeyl: «Həzrət Imam Baqirdən (ə) «o kəslər ki, namazlarını hifz edərlər»[1214] ayəsi haqda sual soruşdum. Buyurdu: Məqsəd, vacib olan namazlardır.»Dedim: «O kəslər ki, daim namaz qılarlar»[1215] ayəsinin mənası nədir? Buyurdu: Məqsəd müstəhəbb namazdır.»[1216]

***1753.Vacibləri müstəhəblərdən qabağa salmaq və üstün tutmaq.***

6263.Imam Əli (ə): «Heç bir vacib əməldə səhlənkarlıq, heç bir müstəhəbdə isə məcburiyyət olmamalıdır.»[1217]

6264.Imam Əli (ə): «Müstəhəblər vaciblərə ziyan vurduqda, müstəhəbləri kənara qoyun.»[1218]

6265.Imam Əli (ə): «Müstəhəblər vacib olan əməllərə ziyan vuran zaman, Allaha yaxınlaşmağa səbəb olmazlar.»[1219]

ιooooooπ

[1212] Isra, ayə 79
[1213] əl-Kafi, c.3, səh.454, hədis 16
[1214] Məaric, ayə34
[1215] Məaric, ayə23
[1216] əl-Kafi, c.3, səh.269, hədis 12
[1217] Bəşarətul-Mustafa, səh.28
[1218] Nəhcül-Bəlağə, hikmət 279
[1219] Nəhcül-Bəlağə, hikmət 39

**386**

# Nur

***1754.Bəsirət nuru.***

**Quran:**

«Heç (qəlbi) ölü olub diriltdiyimiz, sonra insanlar arasında gəzmək üçün özünə bir nur verdiyimiz adam, zülmət içində qalıb oradan çıxa bilməyən şəxs kimi ola bilərmi? Kafirlərin etdikləri əməllər onlar üçün beləcə zinətlənmişdir.»[1220]

«Ey iman gətirənlər! Allahdan qorxun və Onun Peyğəmbərlərinə iman gətirin ki, Allah sizə Öz mərhəmətindən iki pay versin, sizə getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayan və rəhm edəndir.»[1221]

**Hədis:**

6266.Imam Səccad (ə) *(etdiyi duaların birində):–*«Mənə nur bəxş et ki, onunla insanlar arasında yol gedim, onun vasitəsi ilə qaranlıqlarda yolu tapım və onun işığında şəkk-şübhələrdən çıxım.»[1222]

6267.Imam Sadiq (ə): «Elm, öyrənməklə deyil. Əksinə, elm əslində bir nurdur ki, Allah-taalanın hidayət etmək istədiyi şəxsin qəlbinə düşür.»[1223]

***1755.Qəlbin nuru və üzün nuru.***

6268.Imam Əli (ə): «Çox sükut et düşüncən zənginləşsin, qəlbin nurlansın və camaat sənin əlindən amanda qalsın.»[1224]

6269.Imam Səccad (ə) *(«gecə oyaq olub ibadətlə məşğul olanlar nə üçün insanların ən göyçəyidirlər?» sualının cavabında):–*«Çünki onlar Allahla xəlvətə çəkiliblər və Allah onların qamətini Öz nuruna bürümüşdür.»[1225]

6270.Imam Sadiq (ə): «Qəlbin nurunu (onun nurlanmasının yolunu) axtardım və onu təfəkkür və ağlamaqda tapdım. Siratdan keçməyi (yolunu) axtardım və onu sədəqə verməkdə tapdım. Üzün nurunu axtardım və onu gecə namazında tapdım.»[1226]

---

[1220] Ən'am, ayə 122
[1221] Hədid, ayə 28
[1222] əs-səhifə əs-Səccadiyyə, 95, dua: 22
[1223] Biharul-Ənvar, c.1, səh.225, hədis 17
[1224] Ğurərul-Hikəm, hədis 3725
[1225] Iləluş-Şəraye, səh.366, hədis 1
[1226] Müstədrəkül-Vəsail, c.12, səh.173, hədis 13810

***1756.Hər bir doğru işdə nur var.***

6271.Allahın Peyğəmbəri (s): «Namaz nurdur.»[1227]

6272.Allahın Peyğəmbəri (s): «Kim Allah yolunda bir ox atsa, həmin ox qiyamət günü onun üçün nur olar.»[1228]

6273.Allahın Peyğəmbəri (s): «Quran oxu! O sənin üçün yer üzündə nur, göydə isə azuqədir.»[1229]

6274.Allahın Peyğəmbəri (s): «Kim bir müsəlmanın haqqını diriltmək üçün haqq bir şahidlik etsə, qiyamətdə üzü nurani halda gələr. Onun nuru göz işlədikcə parlayar, yaradılmışlar onu ad və nəsəbi ilə tanıyarlar.»[1230]

6275.Imam Əli (ə): «Hər bir haqq işlə bir həqiqət var, hər bir düz işlə bir nur!»[1231]

***1757.Qiyamət nuru.***

**Quran:**

«O gün mömin kişilərin və qadınların nurunun onların önlərindən və sağ tərəflərindən axıb şö'lə saçdığını görəcəksən. (Onlara deyiləcək:) Bu gün sizin müjdəniz, altından çaylar axan cənnətlərdir, siz orada əbədi qalacaqsınız. Bu ən böyük qurtuluş və uğurdur.»[1232]

**Hədis:**

6276.Allahın Peyğəmbəri (s) *(«mən qiyamətdə məhşərə nurla gəlmək istəyirəm» deyən şəxsə):–*«Heç kəsə zülm etmə ki, qiyamət günü məhşərə nur içində gələsən.»[1233]

ιοοοοοοπ

[1227] ət-Tərğib vət-Tərhib, c.1, səh.156, hədis 12
[1228] ət-Tərğib vət-Tərhib, c.2, səh.281, hədis 18
[1229] ət-Tərğib vət-Tərhib, c.2, səh.349, hədis 10
[1230] Biharul-Ənvar, c.104, səh.311, hədis 9
[1231] əl-Kafi, c.2, səh.54, hədis 4
[1232] Hədid, ayə 12
[1233] Kənzul-Ummal, hədis 44154

**387**

# Insanlar

***1758.Insanlar.***

6277.Imam Əli (ə): «Insanlar ağaclar kimidir. Hamısı bir sudan içirlər, amma meyvələri bir-birindən fərqlidir.»[1234]

6278.Imam Sadiq (ə): «Üç şey var ki, onlara insanların hamısının ehtiyacı var: əmin-amanlıq, ədalət və rifah.»[1235]

6279.Imam Sadiq (ə): «Insanların (özünüzə) oxşarı və cəmiyyətin orta təbəqəsi ilə olun. Çünki cəvahir mədənlərini onların arasında taparsınız.»[1236]

***1759.Insanların hüquq bərabərliyi.***

6280.Allahın Peyğəmbəri (s): «Insanlar darağın dişi kimi bərabərdirlər.»[1237]

6281.Imam Əli (ə): «Insanlar haqq qarşısında bərabərdirlər.»[1238]

6282.Imam Əli (ə): «(Həzrət) Adəmə kimi insanların hamısı bir-biri ilə bərabərdirlər.»[1239]

6283.«Nəhcül Bəlağənin şərhi»: «Əmirəl-möminin (ə) bir ərəb qadınla bir əcəm qadına eyni miqdarda dirhəm və yemək verdi. Ərəb qadın dedi: Mən ərəbəm, bu isə əcəm. Həzrət buyurdu: And olsun Allaha, mən beytul-mal (bölüşdürülməsi) baxımından Ismayılın övladlarında Ishaqın övladlarından bir üstünlük görmürəm.»[1240]

***1760.Insanlardan olmayan kəs.***

6284.Imam Sadiq (ə) *(«bu camaatın hamısı insanların sırasındadır?» deyə soruşan kişinin cavabında):*–«Dişlərini yumayan, dar yerdə bardaş qurub oturan, boş şeylərlə məşğul olan, bilmədiyi mövzulardan danışaraq mübahisə edən, özünü səbəbsiz olaraq xəstəlik yatağına yıxan, müsibətə düçar olmadan baş-gözü qarmaqarışıq və səliqəsiz olan, yoldaşları ilə hamısının yekdil olduğu həqiqət barədə müxalifətçilik edən, atalarının iftixarları ilə öyünən, amma onların yaxşı və bəyənilən əməllərindən bir nəsibi olmayanları, onlardan (insanlardan) çıx. Beləsi (ataları ilə öyünərək özünün əməli olmayan şəxs) xələng bitkisinə oxşayır ki, cövhər və iliyinə çatana kimi onun qabıqlarını qat-

---

[1234] Ğurərul-Hikəm, hədis 2097
[1235] Tuhəful-Uqul, səh.320
[1236] Müstədrəkül-Vəsail, c.12, səh.310, hədis 14167
[1237] Kənzul-Ummal, hədis 24822
[1238] Nəhcüs-Səadə, c.2, səh.97
[1239] Biharul-Ənvar, c.78, səh.57, hədis 119
[1240] Nəhcül-Bəlağənin şərhi, Ibn Əbil Hədid, c.2, səh.200,201

qat soyurlar. Həmçinin Allah-taalanın «Onlar heyvan kimidirlər. Bəlkə də daha çox zəlalətdədirlər.[1241]» buyurduğu kimidirlər.» [1242]

***1761.«Imməə» sözünün təfsiri.***

6285.Imam Kazim (ə) *(Fəzl ibn Yunisə):–*«Xeyir ver, xeyir danış, «imməə» olma. Dedim: Imməə nə deməkdir? Buyurdu: «Mən insanların arasındayam və mən də onların biri kimiyəm» demək. Allahın Peyğəmbəri (s) buyurub: «Ey insanlar, yalnız iki yol var: yaxşı yol və pis yol.» Buna görə də pis yol sizinçün yaxşı yoldan sevimli olmamalıdır.».[1243]

ιooooooπ

[1241] Ə'raf, ayə 179
[1242] əl-Xisal, səh.409, hədis 9
[1243] Tuhəful-Uqul, səh.413

## 388

# Yuxu

***1762. Yuxu.***

**Quran:**

«Yuxunuzu da, istirahət (amili) etdik.»[1244]

«Allah canlarını onlar öldüyü zaman tam, ölməyənlərin canlarını isə yuxuda alar. Ölümünə hökm olunmuş kimsələrin nəfəslərini saxlayar. Digər kimsələrin nəfəslərini isə müəyyən bir müddətədək qaytarar. Həqiqətən, bunda düşünən insanlar üçün nişanələr vardır.»[1245]

**Hədis:**

6286.Allahın Peyğəmbəri (s): «Yuxu ölümün qardaşıdır. Cənnət əhli ölmür.»[1246]

6287.Imam Rza (ə): «Yuxu beyinin hökmdarı, bədənin bərqərarlıq və qüvvət mənbəyidir.»[1247]

6288.Imam Hadi (ə): «Gecə oyaq qalmaq yuxunu daha da ləzzətli və şirin edir.»[1248]

***1763. Çox yatmaqdan çəkinmək.***

6289.Allahın Peyğəmbəri (s): «Çox yatmaqdan çəkinin. Çünki çox yatmaq sahibini qiyamətdə əliboş qoyar.»[1249]

6290.Imam Əli (ə): «Qəflətən edilən gecə hücumundan qorxan şəxsin yuxusu azalar.»[1250]

6291.Imam Əli (ə): «Nə çox (gecə) yuxular(ı) var ki, gündüzün qərarlarını bir-birinə vurub.»[1251]

6292.Imam Baqir (ə): «Musa (ə) Allaha dedi: Sənin yanında hansı bəndə daha mənfurdur? Buyurdu: Gecənin leşi, gündüzün bekarı.»[1252]

6293.Imam Əli (ə): «Çox yatmaq din və dünyanın əldən çıxmasına səbəb olur.»[1253]

---

[1244] Nəbə, ayə 42
[1245] Zumər, ayə 42
[1246] Kənzul-Ummal, hədis 39321
[1247] Biharul-Ənvar, c.62, səh.316
[1248] Ə'lamud-Din, səh.311
[1249] əl-Ixtisas, səh.218
[1250] Əmali-Səduq, səh.322, hədis 4
[1251] Nəhcül-Bəlağə, hikmət 440 və xütbə 241
[1252] Qisəsul-Ənbiya, səh.163, hədis 185
[1253] əl-Kafi, c.5, səh.84, hədis 1

6294.Imam Kazim (ə): «Gözlərini çox yatmağa öyrətmə. Çünki gözlər bədənin ən naşükür üzvüdür.»[1254]

6295.Imam Kazim (ə): «Allah-taala çox yatan bekar bəndəyə nifrət edir.»[1255]

6296.Imam Əskəri (ə): «Kim çox yatsa, pərişan yuxular görər.»[1256]

***1764.Yatan zaman ruhların göyə getməsi.***

6297.Imam Əli (ə): «Müsəlman cənabətli halda yatmaz və yalnız pak halda yatar. Çünki möminin ruhu Allaha tərəf gedir və Allah onu qəbul edərək bərəkət verir. Əgər əcəli çatmış olsa, onu Öz rəhmətinin pənahına daxil edir. Əgər əcəli hələ çatmamış olsa, onu Özünün etibarlı mələkləri ilə birlikdə göndərir və onlar onu bədəninə qaytarırlar.»[1257]

***1765.Yuxu qaydaları.***

**1.Təmizlik.**

6298.Allahın Peyğəmbəri (s): «Heç biriniz əli yağlı halda yatmasın. Əgər (kimsə) belə etsə və şeytandan ona bir ziyan dəysə, özündən başqa heç kəsi məzəmmət etməsin.»[1258]

**2.Paklıq.**

6299.Allahın Peyğəmbəri (s): «Kim dəstəmazlı yatsa və həmin gecə onun əcəli çatsa, Allahın yanında şəhid sayılar.»[1259]

6300.Imam Sadiq (ə): «Kim paklanıb (dəstəmaz alıb) sonra yerinə girsə, həmin axşam onun üçün məscid kimi olar.»[1260]

6301.Imam Sadiq (ə): «Kim paklanıb sonra yerinə girsə, həmin axşam yeri ona məscid kimi olar. Dəstəmazı olmadığı yadına düşsə, nə olmasından asılı olmayaraq elə öz yorğanına təyəmmüm etsin. Əgər belə etsə, həmişə namaz və Allahı zikr etmək halında olar.»[1261]

**3.Ayaqyoluna getmək.**

6302.Imam Əli (ə) *(öz oğlu Həsənə (ə) buyurmuşdur):* «Övladım! Sənə dörd şey öyrədimmi ki, onlara əməl etməklə təbibə ehtiyacın olmasın? Dedi: Bəli, ey Əmirəl-möminin. Həzrət buyurdu: Acmayınca süfrə başında oturma, iştahan

---

[1254] Təfsir əl-Əyyaşi, c.2, səh.115, hədis 149
[1255] əl-Kafi, c.5, səh.84, hədis 2
[1256] əd-Dürrətul-Bahirə, səh.43
[1257] Biharul-Ənvar, c.81, səh.153, hədis 8
[1258] Əmali-Səduq, səh.345, hədis 1
[1259] Biharul-Ənvar, c.76, səh.183, hədis 7
[1260] Savabul-Ə'mal, Imam Sadiq (ə), səh.35, hədis 1
[1261] Biharul-Ənvar, c.86, səh.183, hədis 6

küsməmiş yeməkdən əl çək, yeməyi yaxşı çeynə və yatmaq istəyəndə ayaqyoluna get. Əgər bunlara əməl etsən, təbibə möhtac olmazsan.»[1262]

**4.Gündüz görülən işləri araşdırmaq.**

6303.Imam Sadiq (ə): «Yatağına girəndən sonra həmin gün qarnına nə yemək göndərdiyini, nə əldə etdiyini fikirləş, öləcəyini və qarşıda qayıdış yerinin olmasını yadına sal.»[1263]

**5.Yatanda Quran oxumaq və dua etmək.**

6304.Allahın Peyğəmbəri (s): «Kim yatağına girəndə «Qul huvəllahu əhəd» surəsini oxusa, Allah onun əlli illlik günahlarını bağışlayar.»[1264]

6305.Allahın Peyğəmbəri (s): «Kim yatanda «əlhakumut təkasur» surəsini oxusa, qəbr əzabından qorunar.»[1265]

6306.Allahın Peyğəmbəri (s): «Sizlərdən kim yatağına girsə, ….(bu duanı) desin: «Allahummə in əmsəktə nəfsi fi mənami fəğfir ləha və in ərsəltəha fəhfəzha bima təhfəzu bihi ibadəkəs salihin.» (yəni) Allahım! Əgər mənim canımı yuxuda alacaqsansa, onu bağışla, əgər bədənimə qaytaracaqsansa, onu qoru, necə ki, Özünün saleh bəndələrini qoruyursan.»[1266]

**6.Arxası və ya sağ böyrü üstə yatmaq.**

6307.Imam Əli (ə): «Dörd cür yatmaq var: Peyğəmbərlər (ə) arxası üstə uzanar və yatarlar, amma gözləri oyaq və Allahın vəhyinin intizarında olar. Mömin sağ böyrü üstə, üzü qibləyə yatar. Şahlar və şahzadələr sol böyürü üstə yatarlar ki, yedikləri yeməyi həzm etdirsinlər. Iblis, onun qardaşları, hər bir dəli və bəlaya uğramış kəs, qarnı üstə (ağzı aşağı) yatar.»[1267]

**7.Yuxudan duranda dua oxumaq.**

6308.Hüzeyfə: «Peyğəmbər həmişə yatağına girən zaman deyərdi: «Bismikəllahummə əmutu və əhya» (Allahım, Sənin adın ilə ölür və dirilirəm).» Yuxudan duranda isə deyərdi: «Əlhəmdu lillahilləzi əhyana bədə ma əmatəna və iləyhin nuşur.» Şükr olsun O Allaha ki, bizi öldürəndən sonra diriltdi və hamı yenidən Onun yanına (məhşərə aparılmaq üçün qəbrdən) qaldırılacaqdır.»[1268]

---

[1262] əl-Xisal, səh.229, hədis 67
[1263] Biharul-Ənvar, c.76, səh.190, hədis 12
[1264] Əmali-Səduq, səh.22, hədis 3
[1265] Biharul-Ənvar, c.76, səh.196, hədis 12
[1266] Iləluş-Şəraye, səh.589, hədis 34
[1267] əl-Xisal, səh.263, hədis 140
[1268] Biharul-Ənvar, c.76, səh.218, hədis 25

# 1000000π

# 389

# Niyyət

***1766.Niyyət.***

6309.Imam Əli (ə): «Niyyət işin təməlidir.»[1269]

6310.Imam Səccad (ə): «Əməl yalnız niyyətlədir.»[1270]

6311.Imam Sadiq (ə): «Heç bir bədən, niyyətin güclü olduğu şeyi yerinə yetirməkdə aciz deyil.»[1271]

6312.Imam Sadiq (ə): «Cəhənnəm əhli əslində odda ona görə əbədi saxlanılır ki, onların dünyada niyyətləri, onda əbədi qalsalar, Allaha qarşı həmişə itaətsizlik etmək olub. Cənnət əhli də əslində ona görə Cənnətdə əbədi qalır ki, onların da niyyətləri, əgər dünyada qalsalar, əbədi olaraq Allaha itaət etmək olub. Deməli, hər iki dəstənin əbədiliyinin səbəbi onların niyyətləridir. Həzrət sonra «De: Hərə öz qabiliyyətinə görə iş görər»[1272] ayəsini oxudu və buyurdu: Yəni, öz niyyəti əsasında.»[1273]

6313.Imam Sadiq (ə): «Allah qiyamət günü insanları məhşərə niyyətləri əsasında gətirəcəkdir.»[1274]

***1767.Niyyətin əməldə rolu.***

6314.Allahın Peyğəmbəri (s): «Ey camaat! Əməllər yalnız niyyətlərlədir (niyyətə bağlıdır). Əslində, hər bir kəsə niyyətində olduğu şey çatacaqdır. Buna görə də mühacirəti Allaha və Onun Peyğəmbərinə görə olan şəxs, Allaha və Onun Peyğəmbərinə tərəf hicrət etmişdir. Kimin mühacirət etməkdə məqsədi dünyadan bir şey əldə etmək, yaxud bir qadınla evlənmək olsa, onun hicrəti niyyətini tutub hicrət etdiyi şeyə tərəfdir.»[1275]

6315. «Əmali Tusi»: «Həzrət Peyğəmbər (s) Əlini (ə) bir qoşuna başçı təyin edərək müharibəyə göndərən zaman bir nəfər öz qardaşına dedi: Əlinin qoşununda bizimlə birlikdə müharibəyə gəl, bəlkə bir qul, yaxud bir heyvan və ya halımıza yarayan başqa bir şey əldə etdik. Allahın Peyğəmbəri (s) buyurdu: Əməllər yalnız niyyətlərlədir (niyyətlərə bağlıdır) və hər bir kəsə niyyətində olduğu şey çatacaqdır. Buna görə də Allahın yanında olanları əldə etmək üçün vuruşan kəsin mükafatı, şübhəsiz ki, Allahın öhdəsindədir. Amma kim dünya

[1269] Ğurərul-Hikəm, hədis 1040
[1270] əl-Kafi, c.2, səh.84, hədis 1
[1271] əl-Fəqih, c.4, səh.400, hədis 5859
[1272] Isra, ayə 85
[1273] əl-Kafi, c.2, səh.85, hədis 5
[1274] əl-Məhasin, c.1, səh.409, hədis 929
[1275] Kənzul-Ummal, hədis 7272

malı əldə etmək və ya dəvənin ayağına bağlanan məxsus kəndir niyyəti ilə vuruşsa, ona niyyəti ilə vuruşduğu şeydən başqa heç nə çatmaz.»[1276]

***1768.Yaxşı və xeyir niyyətin mükafatı.***

6316.Allahın Peyğəmbəri (s): «Biz Mədinədə, keçdiyimiz hər bir dərədə, qalxdığımız hər bir təpədə və qədəm basdığımız hər bir enişdə bizimlə birlikdə olan kəsləri qoymuşuq. Dedilər: Burada olmaya-olmaya necə bizimlədirlər? Buyurdu: Niyyətləri ilə.»[1277]

6317.Allahın Peyğəmbəri (s): «Ey Əbuzər! Hətta yerinə yetirməsən belə, yaxşı iş niyyəti et ki, qəflətdə olanlardan yazılmayasan.»[1278]

6318.Imam Əli (ə): «Yaxşı niyyətin özü bir növ əməldir.»[1279]

6319.Imam Əli (ə) *(qardaşının da, Cəməl müharibəsində iştirak edib Allahın Öz düşmənlərinə qalib gəlməsinin şahidi olmasını arzulayan kişiyə):* «Qardaşının ürəyi bizimlədir?» Dedi: «Bəli.» Həzrət buyurdu: «Onda, o bizimlə olub. Həqiqətən, bizim bu qoşunumuzda, hələ atalarının belləri və analarının bətnlərində olan kəslər var. Zəmanə tezliklə onları varlıq aləminə gətirər və iman (cəbhəsi) onların vücudu ilə güclənər.»[1280]

6320.Imam Əli (ə): «Allahın hər bir kəsə bəxşişi, (onun) niyyəti qədərincədir.»[1281]

6321.Imam Baqir (ə): «Allah birindən xoş məram görsə, onu öz pənahında saxlayar.»[1282]

***1769.Möminin niyyəti onun əməlindən daha yaxşıdır.***

6322.Allahın Peyğəmbəri (s): «Möminin niyyəti onun əməlindən yaxşıdır. Kafirin niyyəti isə onun əməlindən pisdir. Iş görən hər bir kəs öz niyyətinə uyğun iş görür.»[1283]

6323.Allahın Peyğəmbəri (s): «Möminin niyyəti onun əməlindən yetərlidir. Günahkarın (kafirin) niyyəti də belədir.»[1284]

6324.Imam Baqir (ə): «Möminin niyyəti onun əməlindən üstündür. Çünki o bəzən xeyir işlər görməyi niyyət edir, amma onları yerinə yetirməyə nail ola bilmir. Eləcə də kafirin niyyəti onun əməlindən pisdir. Çünki kafir başında pis niyyətlər dolandırır və pisliklərini gerçəkləşdirməyə ümid bəsləyir. Amma onları yerinə yetirməyə imkan tapmır.» [1285]

6325.Imam Sadiq (ə) *(mömininin niyyətinin onun əməlindən üstün olmasının səbəbi barədə sualın cavabında):*–«Çünki ola bilər ki, bəzən əməl insanın

---

[1276] Əmali-Tusi, səh.618, hədis 1274
[1277] Kənzul-Ummal, hədis 7261
[1278] Məkarimul-Əxlaq, c.2, səh.378, hədis 2661
[1279] Ğurərul-Hikəm, hədis 1624
[1280] Nəhcül-Bəlağə, xütbə 12
[1281] Ğurərul-Hikəm, hədis 6193
[1282] Ə'lamud-Din, səh.301
[1283] əl-Kafi, c.2, səh.84, hədis 2
[1284] Əmali-Tusi, səh.454, hədis 1013
[1285] Iləluş-Şəraye, səh.524, hədis 2

riyakarlıq etməsi və özünü yaradılmışlara göstərməsi üçün yerinə yetirilsin. Niyyət isə, xalis şəkildə aləmlərin Rəbbinə məxsusdur. Buna görə də Allah-taala niyyətə görə əməl üçün vermədiyi bəxşişləri əta edir.»[1286]

***1770.Bütün işlərdə niyyət etməyə təşviq.***

6326.Allahın Peyğəmbəri (s): «Ey Əbuzər! Bütün işlərdə, hətta yatmaq və yemək yeməkdə də pak niyyətli ol.»[1287]

6327.Imam Sadiq (ə): «Insan gərək bütün hərəkətlərində və hərəkətsizliyində pak niyyətli olsun. Çünki əgər ortada bu məna olmasa, o qafillərdəndir.»[1288]

***1771.Gözəl niyyət***

6328.Allahın Peyğəmbəri (s): «Ən fəzilətli əməl düzgün niyyətdir.»[1289]

6329.Imam Əli (ə): «Niyyətin gözəlliyi, insan təbiətinin gözəlliyidir.»[1290]

6330.Imam Əli (ə): «Gözəl niyyət amal və arzulara çatmağa səbəb olur.»[1291]

6331.Imam Sadiq (ə): «Kimin niyyəti gözəl olsa, Allah onun ruzisini artırar.»[1292]

6332.Imam Sadiq (ə) *(«insanın öz vəzifəsini yerinə yetirməsi üçün nə qədər ibadət etməsi lazımdır?» sualının cavabında):–*«Itaətdə gözəl niyyətə malik olması.»[1293]

***1772.Bədniyyətlilik.***

6333.Imam Əli (ə): «Bədniyyətlilik gizlin bir dərddir.»[1294]

6334.Imam Əli (ə): «Niyyətin pisliyi ilə bərəkət aradan gedir.»[1295]

6335.Imam Əli (ə): «Niyyət pisləşəndə, qarşıya bəla və çətinlik çıxar.»[1296]

6336.Imam Sadiq (ə): «Həqiqətən, mömin günah niyyəti edir və həmin səbəbdən öz ruzisindən məhrum olur.»[1297]

ιoooooπ

---

[1286] Iləluş-Şəraye, səh.524, hədis1
[1287] Məkarimul-Əxlaq, c.2, səh.370, hədis 2661
[1288] Biharul-Ənvar, c.70, səh.210, hədis 32
[1289] Kənzul-Ummal, hədis 7238
[1290] Ğurərul-Hikəm, hədis 4806
[1291] Ğurərul-Hikəm, hədis 4766
[1292] əl-Məhasin, c.1, səh.406, hədis 922
[1293] əl-Kafi, c.2, səh.85, hədis 4
[1294] Ğurərul-Hikəm, hədis 5568
[1295] Ğurərul-Hikəm, hədis 6228
[1296] Ğurərul-Hikəm, hədis 4021
[1297] Biharul-Ənvar, c.71, səh.247, hədis 6

**390**

# Hicrət

***1773.Hicrət.***

6337.Allahın Peyğəmbəri (s): «Ey insanlar! Mühacirət edin və Islama sarılın. Çünki nə qədər ki, cihad var, hicrət kəsilməz.»[1298]

6338.Allahın Peyğəmbəri (s): «Hicrət iki növdür: Bir hicrət, günahlardan uzaqlaşmaq və hicrət etməkdir, digəri isə Allaha və Onun Peyğəmbərinə tərəf hicrət etməyindir. Nə qədər ki, tövbə qəbul edilir, hicrət kəsilməz.»[1299]

6339.Imam Əli (ə): «Hicrət hələ də öz əvvəlki qüvvəsində qalmaqdadır. Allahın yer üzünün insanlarına, istər öz imanlarını gizlədənlərə, istərsə də aşkar edənlərə, ehtiyacı yoxdur. Allahın yer üzündəki hüccətini tanımadan heç kəsə mühacir adı qoyulmur. Buna görə də mühacir həmin hüccəti tanı-yan və onu dilinə gətirən şəxsdir. Həmçinin, hüccətin çatdığı, qulağı onu eşidən və qəlbi onu qəbul edən şəxsə «müstəzəf» adı şamil olmaz.»[1300]

6340.Imam Baqir (ə): «Mühacir könüllü surətdə Islamı qəbul edən şəxsdir.»[1301]

***1774.Ən üstün hicrət.***

**Quran:**

«Pis şeylərdən uzaqlaş.»[1302]

**Hədis:**

6341.Allahın Peyğəmbəri (s): «Ən üstün və fəzilətli hicrət, Allahın sevmədiyi şeydən hicrət etməyindir (uzaqlaşmağındır).»[1303]

6342.Allahın Peyğəmbəri (s): «Ən üstün hicrət, pislikdən hicrət etməyindir (uzaqlaşmağındır).»[1304]

6343.Allahın Peyğəmbəri (s): «Mühacir, xəta və günahlardan hicrət edən şəxsdir.»[1305]

---

[1298] Kənzul-Ummal, hədis 46260
[1299] Kənzul-Ummal, hədis 46262
[1300] Nəhcül-Bəlağə, xütbə 189
[1301] əl-Kafi, c.8, səh.148, hədis 126
[1302] Muddəssir, ayə 5
[1303] Kənzul-Ummal, hədis 46263
[1304] Kənzul-Ummal, 46224
[1305] Kənzul-Ummal, hədis 676

***1775.Günahkarların ölkəsindən hicrət etmək.***

**Quran:**

«Mələklər öz nəfslərinə zülm edənlərin canlarını alarkən deyəcəklər: «Siz nə vəziyyətdə idiniz?» Onlar söyləyəcəklər: «Biz yer üzündə zəif kəslər idik!» (Mələklər onlara) «Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz?» deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora necə də pis yerdir!»[1306]

«Ey iman gətirən bəndələrim! Şübhəsiz ki, Mənim yerim genişdir. Buna görə də yalnız Mənə ibadət edin!»[1307]

**Hədis:**

6344.Allahın Peyğəmbəri (s): «Kim öz dinini bir yerdən digər bir yerə, hətta bir qarış olan yerə, qaçırdıb nicat versə, Cənnət ona vacib olar və o, Ibrahim və Məhəmmədlə (ə) yoldaş olar.»[1308]

6345.Imam Sadiq (ə) *(«ey iman gətirən bəndələrim...» ayəsi haqda):* «Sən olduğun torpaqda Allaha itaətsizlik edilən zaman, oradan başqa yerə köç!»[1309]

***1776.Hicrətdən sonra ərəbləşmənin qadağan olması.***

6346.Allahın Peyğəmbəri (s) *(Əliyə (ə) tövsiyəsində):–*«Hicrətdən sonra ərəbləşmək yoxdur (düzgün deyil).»[1310]

6347.Allahın Peyğəmbəri (s): «Mən düşmən şəhərində müşriklə bir yerdə yaşayan müsəlmandan bizaram.»[1311]

6348.Imam Sadiq (ə): «Hicrətdən sonra ərəbləşən, bu işi (əhli-beytin vilayətini) tanıyandan sonra, onu tərk edən kimsədir.»[1312]

6349.Imam Rza (ə): «Allah-taala hicrətdən sonra ərəbləşməyi haram edib. Çünki bu, dindən dönməyə, peyğəmbərlərə və (Allahın) hüccətlər(in)ə köməkdən əl çəkməyə, eləcə də hər bir haqq sahibinin haqqının məhv edilib batırılmasına səbəb olur. Ona görə ki, o, bədəvilərlə yoldaşlıq edir. Həmçinin, dinlə kamil tanışlığı olan şəxsin nadan və (dindən və onun maarifindən) xəbərsiz insanların içində yaşaması caiz deyil. Çünki onun elmdən əl çəkmə, nadanlara qarışma və cəhalətə batma qorxusu var.»[1313]

ιooooooπ

[1306] Nisa, ayə 97
[1307] Ənkəbut, ayə 56
[1308] Məcməul-Bəyan, c.3, səh.153
[1309] Məcməul-Bəyan, c.8, səh.455
[1310] Vəsailuş-Şiə, c.11, səh.75, hədis 1
[1311] Nəvadir ər-Ravəndi, səh.23,
[1312] Məani əl-Əxbar, səh.265
[1313] Vəsailuş-Şiə, c.11, səh.75, hədis 2

**391**

# Küsmək

***1777.Küsmək.***

6350.Allahın Peyğəmbəri (s): «Müsəlmanın qardaşından küsməsi, onun qanını tökməsi kimidir.»[1314]

6351.Allahın Peyğəmbəri (s): «Ey Əbuzər! Qardaşından küsməkdən çəkin. Çünki küsülü halda olanda, əməl qəbul edilmir.»[1315]

6352.Imam Sadiq (ə): «Iki müsəlman bir-biri ilə küsülü olduğu müddətdə Iblis şad olar. Onlar bir-biri ilə (barışaraq) görüşən zamansa, onun dizləri bir-birinə dəyər, oynaqlarının bağları qırılar və fəryad qoparar: Vay mənim halıma! Məhv oldum!»[1316]

6353.Imam Sadiq (ə): «Küsülü halda bir-birindən ayrılan iki şəxsdən biri mütləq nifrətə (Allahın və Peyğəmbərin ona nifrətinə) və lənətə layiqdir, (hətta) bəlkə də onların hər ikisi buna layiqdir.» Müəttəb dedi: «Allah məni sizə fəda etsin! Zalım barəsində düzdür (zalım bu cəzaya layiqdir), bəs məzlum nə üçün?»

Həzrət buyurdu: «Ona görə ki, qardaşını onunla barışmağa dəvət etmir və onun (küsməyə səbəb olan) sözünə göz yummur. Atamın belə buyurduğunu eşitmişəm ki: «iki nəfər bir-biri ilə dalaşanda, onlardan biri digərinə qalib gələndə, zülm edilmiş şəxs o birisinin yanına gedib ona «qardaş, zalım (və müqəssir) mənəm» deməlidir ki, onunla dostu arasındakı küsülülük və ayrılıq aradan qalxsın. Çünki Allah-taala ədalətli hakimdir və zülmə məruz qalmış şəxsin haqqını zalımdan alacaqdır.»[1317]

***1778.Müsəlmanın öz qardaşından üç gündən artıq küsülü qalması qadağandır.***

6354.Allahın Peyğəmbəri (s): «Üç gündən artıq küsmək rəva deyil.»[1318]

6355.Allahın Peyğəmbəri (s): «Möminin, öz qardaşından üç gündən artıq küsməsi rəva deyil.»[1319]

6356.Allahın Peyğəmbəri (s): «Üç gündən artıq küsmək rəva deyil. Buna görə də əgər bir-birləri ilə qarşılaşsalar və onlardan biri salam versə və digəri onun salamının cavabını alsa, hər ikisi savabda şərikdirlər. Amma əgər o,

---

[1314] Kənzul-Ummal, hədis 24789
[1315] Biharul-Ənvar, c.77, səh.89, hədis 3
[1316] əl-Kafi, c.2, səh.346, hədis 7
[1317] əl-Kafi, c.2, səh.344, hədis 1
[1318] əl-Kafi, c.2, səh.344, hədis 2
[1319] Kənzul-Ummal, hədis 24793

salamın cavabını verməsə salam verən günahdan uzaq, o birisi isə günahkardır.»[1320]

6357.Allahın Peyğəmbəri (s): «Bir-birinizə arxa çevirməyin, bir-birinizdən qırılmayın, ey Allahın bəndələri! Bir-birinizə qardaş olun. Iki möminin bir-birindən küsməsi üç gündür. Əgər (üç gündən sonra) danışmasalar, bir-biriləri ilə kəlmə kəsməyənə qədər Allah onlardan üz çevirər.»[1321]

6358.Allahın Peyğəmbəri (s): «Bir-birindən küsüb, küsülülüyü üç gün davam etdirən və barışmayan müsəlmanların hər ikisi Islamdan çıxar və onların arasında heç bir dini bağlılıq qalmaz. Onlardan kim, öz qardaşından qabaq digəri ilə danışsa, hesab günü Cənnətə digərindən qabaq gedər.»[1322]

6359.Imam Baqir (ə): «Hansı iki mömin bir-biri ilə üç gündən artıq küsdüsə, mən onlardan təngə gələrək kənarlaşdım.» Dedilər: «Ey Allahın Peyğəmbərinin oğlu, zalım və müqəssir olan barəsində bəli (o buna layiqdir), amma məzlumdan nə üçün?» Buyurdu: «Həmin məzlum nə üçün müqəssirin yanına gedib barışmaq üçün «mənəm müqəssir» demir?»[1323]

ιοooooπ

[1320] ət-Tərğib vət-Tərhib, c.3, səh.457, hədis 7
[1321] ət-Tərğib vət-Tərhib, c.3, səh.457, hədis 8
[1322] əl-Kafi, c.2, səh.345, hədis 5
[1323] Biharul-Ənvar, c.75, səh.188, hədis 10

# 392

# Hidayət

***1779.Allahın ümumi hidayəti.***

**Quran:**

«Dedi: «Rəbbimiz hər şeyə, onun özünə layiq xilqətini verən, sonra da onu hidayət edən Allahdır.»[1324]

**Hədis:**

6360.Imam Sadiq (ə): –«Biz onu yola hidayət etdik…»[1325] ayəsi barədə– «Yəni biz ona yolu tanıtdıq, ya onunla gedəcək, ya da onu tərk edəcək.»[1326]

***1780.Hidayət vasitəsi ilə diriltmək.***

**Quran:**

«Hər kəs, kimsəni diriltsə, bütün insanları diriltmiş kimidir.»[1327]

**Hədis:**

6361.Imam Sadiq (ə) *(yuxarıda qeyd edilən ayə haqda suala cavab verər-kən):* «Yəni, kim birini azğınlıqdan doğru yola gətirsə, onu diriltmiş kimidir. Həmçinin, birini doğru yoldan azğınlığa aparan şəxs onu öldürüb.»[1328]

***1781.Birini hidayət edərək doğru yola gətirməyin savabı.***

6362.«Biharul ənvar»: Rəvayət edilir ki, Davud (ə) tək səhraya gedir. Allahdan ona vəhy gəlir: «Ey Davud, nə üçün səni tək görürəm?» Deyir: «Ilahi, canımda Səni görmək şövqüm güclənib və mənimlə Sənin yaratdıqlarının arasını kəsib.» Allah ona vəhy göndərir: «Onların arasına qayıt. Çünki əgər sən Mənim yanıma (Məndən) qaçan bir bəndə gətirsən, sənin adını Lövhü Məhfuzda «təriflənmiş» adı ilə qeyd edərəm.»[1329]

6363.Allahın Peyğəmbəri (s) *(Əlini (ə) Yəmənə göndərəndə):*–«Ey Əli! Heç kəslə, onu əvvəlcə (Islama) dəvət etməmiş vuruşma. And olsun Allaha, əgər Allah sənin əlinlə bir nəfəri hidayət etsə, bu sənin üçün günəşin, üzərində doğaraq batdığı şeydən daha yaxşıdır. Sənin onlar üzərində vilayətin var, ey Əli!»[1330]

---

[1324] Ta-ha, ayə50
[1325] Insan, ayə 3
[1326] Biharul-Ənvar, c.5, səh.196, hədis 4
[1327] Maidə, ayə 32
[1328] əl-Kafi, c.2, səh.210, hədis 1
[1329] Biharul-Ənvar, c.14, səh.40, hədis 26
[1330] əl-Kafi, c.5, səh.28, hədis 4

6364.Allahın Peyğəmbəri (s) *(o Həzrətdən tövsiyə istəyən şəxsə):–*«Sənə tövsiyə edirəm ki, heç nəyi Allaha şərik qoşmayasan ……və camaatı Islama dəvət edəsən. Bil ki, sənin dəvətini qəbul edən hər bir şəxsə görə Yaqubun övladlarından olan bir qul azad etməyin savabını əldə edəcəksən.»[1331]

***1782.Hidayət etmək Allaha məxsusdur.***

**Quran:**

«Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri O daha yaxşı bilir.»[1332]

**Hədis:**

6365.Allahın Peyğəmbəri (s): «Mən (yalnız) dəvət etmək və (Allahın əmrlərini) çatdırmaq üçün göndərilmişəm, hidayət məsələsi əsla mənim ixtiyarımda deyil. Iblis də (günahları insanların gözündə) gözəl göstərmək üçün yaradılıb və azdırmaq məsələsində onun da heç bir ixtiyarı yoxdur.»[1333]

6366.Allahın Peyğəmbəri (s): «Allah-taala buyurub: Ey Mənim bəndələrim! Mənim hidayət etdiyim kəs istisna olmaqla, sizin hamınız azğınsınız. Mənim ehtiyacsız etdiyim kəs istisna olmaqla, siz hamınız möhtacsınız. Mənim günahdan saxladığım kəsi çıxmaqla, siz hamınız günahkarsınız.»[1334]

***1783.Allahın hidayət etdiyi kəslər.***

**Quran:**

«Allahın izni olmadan heç bir müsibət üz verə bilməz. Kim Allaha iman gətirsə, Allah onun qəlbini haqqa doğru yönəldər. Allah hər bir şeyi biləndir.»[1335]

«Bizim uğrumuzda cihad edənləri Öz yollarımıza qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməl sahibləriylədir.»[1336]

«Şübhəsiz, Allah zalım tayfanı hidayət etməz.»[1337]

«Şübhəsiz, Allah kafir tayfanı hidayət etməz»[1338]

**Hədis:**

6367.Imam Baqir (ə): «Allah-taala həlim və alimdir. Həqiqətən, Allah Onun razılığını qəbul etməyənə qəzəblənir, Allahın bəxşişini qəbul etməyəndən əsirgəyir və Onun hidayətini qəbul etməyəni azdırır.»[1339]

ιooooooπ

---

[1331] Vəsailuş-Şiə, c.11, səh.448, hədis 5
[1332] Qəsəs, ayə 56
[1333] Kənzul-Ummal, hədis 546
[1334] Əmali-Səduq, səh.90, hədis 1
[1335] Təğabun, ayə11
[1336] Ənkəbut, ayə 69
[1337] Qəsəs, ayə 50
[1338] Maidə, ayə 67
[1339] əl-Kafi, c.8, səh.52, hədis 16

393

# Hədiyyə

***1784.Hədiyyənin məhəbbət yaranmasında rolu.***

6368.Allahın Peyğəmbəri (s): «Bir-birinizə hədiyyə verin ki, qəlbləriniz bir-birinə qarşı məhəbbətli olsun. Bir-birinizə hədiyyə verin. Çünki hədiyyə kin-küdurəti aradan götürür.»[1340]

6369.Allahın Peyğəmbəri (s): «Hədiyyə vermək məhəbbət gətirir, qardaşlığı qoruyur, kin və düşmənçiliyi aradan götürür. Bir-birinizə hədiyyə verin ki, bir-birinizi sevəsiniz.»[1341]

6370.Imam Əli (ə): «Mənim üçün, müsəlman qardaşıma onun işinə yarayan bir hədiyyə vermək, həmin şeyin mislini sədəqə verməkdən daha xoşdur.»[1342]

***1785.Dövlət məmurlarına hədiyyə haramdır.***

6371.Allahın Peyğəmbəri (s): «Məmurlara verilən bütün hədiyyələr haramdır.»[1343]

6372.Əbu Hamid Saidi: «Peyğəmbər (s) Bəni Əsəd qəbiləsindən olan Ut-biyyə adlı bir şəxsi zəkat yığmağa məmur etdi. O, zəkat mallarını gətirəndə dedi: Bu sizindir, bu da mənə hədiyyə edilib. Peyğəmbər (s) minbərə çıxdı….. Allaha həmd-sənadan sonra buyurdu: «Necə olur ki, məmuru göndəririk və o gələndə «bu sənindir, bu da mənimdir» deyir. Nə üçün ata-anasının evində oturmur ki, görsün ona yenə də hədiyyə gətirirlər, yoxsa yox? And olsun canım əlində olan Allaha, (həmin məmur) nə götürsə qiyamət günü onu öz çiyinlərində daşıyacaqdır, hətta səs çıxaran dəvə, inək və qoyun olsa belə!»[1344]

***1786.Müşrikin hədiyyəsini qəbul etmək qadağandır.***

6373.Allahın Peyğəmbəri (s): «Biz heç bir müşrikin hədiyyəsini qəbul etmirik.»[1345]

6374.Imam Əli (ə): «Allahın Peyğəmbəri (s) müşriklərin bəxşişlərini qəbul etməyi qadağan edib. Onun məqsədi müharibə edən müşriklərin hədiyyəsi idi.»[1346]

***1787.Hədiyyəni qəbul etməyə təşviq.***

---

[1340] əl-Kafi, c.5, səh.144, hədis 14
[1341] Biharul-Ənvar, c.77, səh.166, hədis 2
[1342] əl-Kafi, c.5, səh.144, hədis 12
[1343] Kənzul-Ummal, hədis 15068
[1344] səhih-Buxari, hədis 6753
[1345] Kənzul-Ummal, hədis 4475, 14479
[1346] Müstədrəkul-Vəsail, c.13, səh.208, hədis 15128

6375.Allahın Peyğəmbəri (s): «Əgər mənə qoyun ayağı da hədiyyə versələr, qəbul edərəm.»[1347]

6376.Allahın Peyğəmbəri (s): «Insanın öz qardaşına ehtiramının nişanələrindən biri də, onun hədiyyəsini qəbul etməsi, yanında olan şeydən ona hədiyyə verməsi və ona hədiyyə vermək üçün özünü zəhmətə salmamasıdır.»[1348]

6377.»Kənzul-Ummal»: Yoxsul bir qadın Ayişəyə hədiyyə gətirdi. Amma Ayişə ona canı yandığı və yazığı gəldiyi üçün hədiyyəni qəbul etmədi. Allahın Peyğəmbəri (s) ona buyurdu: «Nə üçün onu qəbul etmədin və əvəzində ona hədiyyə vermədin ki, onu təhqir etdiyini fikirləşməsin? Ey Ayişə, təvazökar ol! Çünki Allah təvazökarları sevir və təkəbbürlülərə nifrət edir.»[1349]

***1788.Hədiyyəni geri almaq.***

6378.Allahın Peyğəmbəri (s): «Verdiyi hədiyyəni geri alan, qusduğunu yeyən şəxs kimidir.»[1350]

6379.Imam Sadiq (ə) *(dilənçiyə vermək üçün sədəqə gətirən və gəlib çatanda onun getmiş olduğunu görən şəxs barədə):*–«Gərək onu ehtiyacı olan başqa birisinə versin, malının içinə qaytarmasın.»[1351]

ɩooooooπ

[1347] əl-Kafi, c.5, səh.143, hədis 9
[1348] əl-Kafi, c.5, səh.143, hədis 8
[1349] Kənzul-Ummal, hədis 14482
[1350] Kənzul-Ummal, hədis 46164
[1351] Biharul-Ənvar, c.103, səh.189, hədis 5

**394**

# Qocalıq

***1789.Qocalıq.***

6380.Allahın Peyğəmbəri (s): «Adəm övladı ilə yanaşı doxsan doqquz ölüm amili sıraya düzülüb. Onlar ona dəyməyəndə (insan) qocalığa çatır.»[1352]

6381.Imam Əli (ə): «Uzun ömürün məhsulu xəstəlik və qocalıqdır.»[1353]

**1790.Insanın qocalığında cavanlaşan şey.**

6382.Allahın Peyğəmbəri (s): «Adəm övladı qocalır, ancaq onda iki şey: tamah və arzu cavanlaşır.»[1354]

6383.Allahın Peyğəmbəri (s): «Adəm övladı qocalır, onun vücudunda iki şey isə cavanlaşır: mala, sərvətə tamah və yaşamağa hərislik.»[1355]

***1791.Qocalığın səbəbləri.***

6384.Imam Əli (ə): «Qəm-qüssə qocalığın yarısıdır.[1356]

6385.Imam Sadiq (ə): «Dörd şey vaxtsız qocalıq gətirir: qaxac ət yemək, nəm yerdə oturmaq, pilləkanla (və nərdivanla) yuxarı çıxmaq və qoca arvadla yaxınlıq etmək.»[1357]

ıoooooπ

1352 Tənbihul-Xəvatir, c.1, səh.272
1353 Ğurərul-Hikəm, hədis 4623
1354 Tuhəful-Uqul, səh.56
1355 əl-Xisal, səh.73, hədis 112
1356 Nəhcül-Bəlağə, hikmət 143
1357 Tuhəful-Uqul, səh.317

**395**

# Məhv olmaq

***1792.Məhvə səbəb olan amillər.***

**Quran:**

«Biz yalnız əhalisi zalım olan məmləkətləri məhv etdik.»[1358]

*Həmçinin müraciət et: «Ənfal», 56; «Yunis», 13; «Ibrahim», 13; «Kəhf», 59; «Həcc», 45; «Şüəra», 139; «Duxan», 37.*

**Hədis:**

6386.Allahın Peyğəmbəri (s): «Simiclik, nəfsi istəklərə tabe olmaq və xudpəsəndlik məhvedicidirlər.»[1359]

6387.Allahın Peyğəmbəri (s): «Doğrudan da keçmişlərin dirhəm və dinarları sizi məhv və yox etdi. Sizi məhv edən də elə bu ikisidir.»[1360]

6388.Imam Əli (ə): «Sizin məhv olmuş əcdadlarınızın məhvolma səbəbi, əslində onların günah etmələri və Allahpərəst alimlərin, rahiblərin onları çəkindirməmələri idi….»[1361]

6389.Imam Əli (ə): «Yəqini şəkkə, haqqı batilə və axirəti dünyaya satan kəs məhv oldu.»[1362]

6390.Imam Əli (ə): «Öz qədir-qiymətini bilməyən məhv olar.»[1363]

6391.Imam Əli (ə): «Mənim barəmdə iki dəstə məhv və həlak oldu: ifrata varan dost və kin bəsləyən düşmən.»[1364]

6392.Imam Sadiq (ə): «Iki iş ölüm gətirir: camaata öz nəzərinə uyğun fitva vermək və bilmədiyin şeyin ardınca getmək.»[1365]

6393.Imam Sadiq (ə): «Allah altı dəstəni altı xislətə görə: hökmdarları zülmkarlıqlarına, ərəbləri təəssübkeşliklərinə, torpaq sahiblərini təkəbbürlərinə, tacirləri xəyanətlərinə, kəndliləri nadanlıqlarına və fəqihləri paxıllıqlarına görə məhv edir.»[1366]

---

[1358] Qəsəs, ayə 59
[1359] ət-Tərğib vət-Tərhib, c.1, səh.86, hədis 10
[1360] əl-Kafi, c.2, səh.316, hədis 6
[1361] Nəhcüs.səadə, c.1, səh.477
[1362] Ğurərul-Hikəm, hədis 1003
[1363] Nəhcül-Bəlağə, hikmət 149
[1364] Nəhcül-Bəlağə, hikmət 117
[1365] Tuhəful-Uqul, səh.369
[1366] Biharul-Ənvar, c.78, səh.207, hədis 67

# 1000000π

# 396

# Himmət[1367]

***1793. Yüksək himmət.***

6394.Allahın Peyğəmbəri (s): «Allah-taala yüksək və şərəfli işləri sevir, Onun alçaq və həqarətli işlərdən xoşu gəlmir.»[1368]

6395.Imam Əli (ə): «Insanın dəyəri, onun himməti qədərdir.»[1369]

6396.Imam Əli (ə): «Kimin himməti yüksəkdirsə, dəyəri çoxdur.»[1370]

6397.Imam Səccad (ə) *(dualarının birində):–*«(Ilahi,) Səndən şahidliyin ən ədalətlisini və ibadətin ən sevincli və ruhiyyəlisini istəyirəm…..və himmətin ən yüksəyini.»[1371]

6398.Imam Baqir (ə): «Yüksək himmətə malik olmaq kimi şərəf və iftixar yoxdur.»[1372]

***1794. Yüksək himmətə malik olmağın nəticələri.***

6399.Imam Əli (ə): «Həlimliklə vüqar, yüksək himmətdən doğan yaşıdlardır.»[1373]

6400.Imam Əli (ə): «Comərdlik himmətin yüksəkliyinin nəticəsidir.»[1374]

6401.Imam Əli (ə): «Gözəl əməl himmətin yüksəkliyindən xəbər verir.»[1375]

6402.Imam Əli (ə): «Qəm-qüssə himmətlərin qədərindədir.»[1376]

6403.Imam Əli (ə): «Qeyrətlilik himmətlərin miqdarındadır.»[1377]

6404.Imam Əli (ə): «Kişinin şücaəti onun himməti qədərdir.»[1378]

6405.Imam Əli (ə): «Gözütoxluğun izzətini himmətin yüksəkliyi ilə qazan.»[1379]

---

1367 Bu kəlmənin эüclü iradə, əzm, qəsd, чalışmaq, səy, yüksək düşüncə, məram və bu kimi эeniş mə‘nalarы vardыr.
1368 Kənzul-Ummal, hədis 43021
1369 Nəhcül-Bəlağə, hikmət 47
1370 Ğurərul-Hikəm, hədis 832
1371 əs-səhifə əs-Səccadiyyə, səh.439, dua 199
1372 Biharul-Ənvar, c.78, səh.165, hədis 1
1373 Nəhcül-Bəlağə, hikmət 460
1374 Ğurərul-Hikəm, hədis 1477
1375 Ğurərul-Hikəm, hədis 1388
1376 Ğurərul-Hikəm, hədis 4277
1377 Ğurərul-Hikəm, hədis 1674
1378 Ğurərul-Hikəm, hədis 7850
1379 Biharul-Ənvar, c.78, səh.164, hədis 1

***1795.Himmətin azlığı.***

6406.Imam Əli (ə): «Kimin himməti az olsa, fəziləti aradan gedər.»[1380]

6407.Imam Əli (ə): «Dostun nemətinə paxıllıq etmək, himmətin aşağı olmasındandır.»[1381]

6408.Imam Əli (ə): «Alçaq adamın himməti olmaz.»[1382]

6409.Imam Sadiq (ə): «Insanı yüksək məqam və ali hədəflərin arxasınca getməkdən üç şey saxlayır: himmətin azlığı, çarə axtarmamaq və fikrin zəifliyi.»[1383]

***1796.Fikri-zikri yemək olan adam.***

6410.Allahın Peyğəmbəri (s): «Kimin himməti yemək olsa, onun qiyməti yediyi şeyin miqdarındadır.»[1384]

6411.Imam Əli (ə): «Kimin fikiri-zikri qarnına gedən şey olsa, onun dəyəri qarnından çıxan şey qədər olar.»[1385]

6412.Imam Əli (ə): «Xeyir, himməti və fikri-zikri qarnı və şəhvəti olan şəxsdən nə qədər də uzaqdır!»[1386]

ιooooooπ

[1380] Ğurərul-Hikəm, hədis 8019
[1381] Ğurərul-Hikəm, hədis 9256
[1382] Biharul-Ənvar, c.78, səh.10, hədis 67
[1383] Tuhəful-Uqul, səh.318
[1384] Tənbihul-Xəvatir, c.1, səh.48
[1385] Ğurərul-Hikəm, hədis 883
[1386] Ğurərul-Hikəm, hədis 9642

**397**

# Nəfsi istəklər

***1797.Nəfsi istəklərin təhlükəsi.***

**Quran:**

«Lakin zülm edənlər nadanlıqla nəfslərindən gələn istəklərə uydular. Allahın yoldan çıxartdıqlarını doğru yola kim sala bilər? Onlara kömək edə bilən kəslər də olmaz.»[1387]

**Hədis:**

6413.«əl-Kafi:» Allah-taalanın Isaya (ə) öyüdlərindən birində deyilir: «Ey Isa! Oyaq olanda günah etmə, ayıq olanda qəflətə düşmə. Öz nəfsini məhvə səbəb olan şəhvətlərdən ayır və səni Məndən uzaqlaşdıran hər bir şəhvətdən uzaqlaş.»[1388]

6414.Allahın Peyğəmbəri (s): «Nəfsi istəkləri ona görə elə adlandırıblar ki, o, öz sahibini yerə çırpar.»[1389]

6415.Allahın Peyğəmbəri (s): «Iblis dedi: Mən onları günahlarla məhv etdim, onlar da (Allahdan) əfv diləməklə məni məhv etdilər. Buna görə də (vəziyyəti) belə görüb onları nəfsi istəklərinin vasitəsi ilə məhvə atdım. Çünki onlar (belə olan halda) doğru yolda olduqlarını zənn edir və bu səbəbdən istiğfar diləmirlər.»[1390]

6416.Imam Əli (ə): «Həqiqətən, fitnələrin başlanğıc nöqtəsi nəfsi istəklərə tabe olmaq və hökmlərdə bid'ət qoymaqdır.»[1391]

6417.Imam Əli (ə) *(«ən qüdrətli və güclü hökmdar kimdir?» sualının cavabında):* «Nəfsin istəyi!»[1392]

6418.Imam Əli (ə): «Cənnət xoşagəlməz işlərin qatlarına bürünmüşdür, cəhənnəm isə şəhvətlərin.»[1393]

6419.Imam Əli (ə): «Ləzzət qəflətə (Allahın və axirətin unudulmasına) səbəb olur.»[1394]

6420.Imam Əli (ə): «Birinin ləzzət hərisi olub onun vasitəsi ilə məhv olmaması çox nadir hallarda baş verir.»[1395]

---

[1387] Rum, ayə 29
[1388] əl-Kafi, c.8, səh.136, hədis 103
[1389] Sunən əd-Darəmi, hədis 401
[1390] ət-Tərğib vət-Tərhib, c.1,səh.87, hədis 13
[1391] Nəhcül-Bəlağə, xütbə 50
[1392] Biharul-Ənvar, c.70, səh.76, hədis 6
[1393] Nəhcül-Bəlağə, xütbə 176
[1394] Ğurərul-Hikəm, hədis 27
[1395] Ğurərul-Hikəm, hədis 6813

6421.Imam Əli (ə): «Kim Allaha qarşı itaətsizlikdən və günahdan ləzzət alsa, Allah onu xar edər.»[1396]

***1798.Nəfsi istəyə də «tanrı» kimi ibadət edənlər var.***

**Quran:**

«Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola sala bilər? Məgər düşünüb ibrət almırsınız?»[1397]

**Hədis:**

6422.Allahın Peyğəmbəri (s): «Bu səmanın kölgəsi altında Allahın yerinə ibadət edilən məbudların heç biri, Allahın yanında nəfsi istəkdən daha mənfur deyil.»[1398]

6423.Imam Əli (ə): «Nəfsin istəyi ibadət edilən «tanrı», ağıl isə tərif edilən dostdur.»[1399]

6424.Imam Əli (ə): «Nadan, öz nəfsinin istəyinin quludur.»[1400]

***1799.Nəfsin istəyinə tabe olmağın nəticələri.***

6425.Allahın Peyğəmbəri (s): «Bir saatdan artıq çəkməyən, amma arxasınca uzun qəm-qüssə gətirən nə çox şəhvət var.»[1401]

6426.Imam Əli (ə): «Sizə nəfsi istəklərdən uzaq durmağı tövsiyə edirəm. Çünki nəfsi istək (insanı) korluğa çağırır və o, dünya və axirətdə azğınlıqdır (azğınlığa səbəb olur).»[1402]

6427.Imam Əli (ə): «Nəfsi istək korluğun (qəlbin kor olmasının) şərikidir.»[1403]

6428.Imam Əli (ə): «Kim nəfsin istəyinə tabe olsa, nəfsi istək onu kor, kar, xar edər və azdırar.»[1404]

6429.Imam Əli (ə): «Şəhvətin başlanğıcı məstlik, sonu isə məhv olmaqdır.»[1405]

6430.Imam Əli (ə): «Şəhvətlərin qəlblərinizə qalib və hakim olmalarından çəkinin. Çünki onların əvvəli qula çevrilmək, sonu isə məhv olmaqdır.»[1406]

6431.Imam Əli (ə): «Şəhvətpərəst adamın canı xəstə, ağlı naqis olar.»[1407]

---

[1396] Ğurərul-Hikəm, hədis 8823
[1397] Casiyə, ayə 23
[1398] əd-Durrul-Mənsur, c.6, səh.261
[1399] Ğurərul-Hikəm, hədis 2217-2218
[1400] Ğurərul-Hikəm, hədis 449
[1401] Biharul-Ənvar, c.77, səh.82, hədis 3
[1402] Mustədrəkul-Vəsail, c.12, səh.113, hədis 13666
[1403] Nəhcül-Bəlağə, məktub 31
[1404] Ğurərul-Hikəm, hədis 9168
[1405] Ğurərul-Hikəm, hədis 3133
[1406] Ğurərul-Hikəm, hədis 2746
[1407] Ğurərul-Hikəm, hədis 679

6432.Imam Əli (ə): «Şəhvətin qulu, pul ilə satılan quldan da xardır.»[1408]

6433.Imam Əli (ə): «Əmr verən nəfsin əlində əsir olan nə çox ağıl var.»[1409]

6434.Imam Əli (ə): «Kim şəhvətlərdə nəfsinin istəklərinə tabe olsa, ona həlak olmaqda kömək edib.»[1410]

6435.Imam Sadiq (ə): «Düşmənlərinizdən ehtiyat edib çəkindiyiniz kimi, nəfsi istəklərinizdən də çəkinin. Çünki kişilər üçün nəfsi istəklərinə tabe olmaqdan və dillərinin biçdiklərindən (puç və boş sözlərdən) pis düşmən yoxdur.»[1411]

***1800.Nəfsi istəklərə qarşı çıxmaq.***

**Quran:**

«Amma Rəbbinin hüzurunda durmaqdan qorxub öz nəfsini istəklərdən qoruyanın yurdu həqiqətən, Cənnət olar.»[1412]

**Hədis:**

6436.Imam Əli (ə): «Ağlın başı, nəfsi istəklərlə mübarizədir.»[1413]

6437.Imam Əli (ə): «Nəfsi, onun istəklərindən saxlamaq böyük cihaddır.»[1414]

6438.Imam Əli (ə): «Nəfsi istəyə, düşmən düşməninə qalib gəldiyi kimi qalib gəl və onunla düşmən düşmənlə vuruşduğu kimi vuruş.»[1415]

6439.Imam Əli (ə): «Adətləri tərk etmək üstündə öz nəfslərinizlə onlara qalib gələnədək vuruşun və nəfsi istəklərinizlə, onları zəncirləyənə kimi mübarizə aparın.»[1416]

6440.Imam Əli (ə): «Şəhvətinə, adəti güclənməmişdən qabaq qalib gəl. Çünki o güclənsə, sənə hakim olacaq, səni öz arxasınca çəkəcək və ona müqavimət göstərə bilməyəcəksən.»[1417]

6441.Imam Əli (ə): «Nicat şəhvətin əleyhinə olmaqda, ona qarşı çıxmaqdadır.»[1418]

6442.Imam Sadiq (ə) *(«asayiş və rahatlığın yolu nədədir?» sualının cavabında):*–«Nəfsi istəklərlin əleyhinə çıxmaqda.»[1419]

6443.Imam Kazim (ə): «Iki işlə qarşılaşıb onlardan hansı birinin daha düzgün olduğunu bilməyəndə, hansının sənin nəfsi istəyinə daha yaxın olmasına

---

[1408] Ğurərul-Hikəm, hədis 6298
[1409] Nəhcül-Bəlağə, hikmət 211
[1410] Ğurərul-Hikəm, hədis 8794
[1411] əl-Kafi, c.2, səh.335, hədis 1
[1412] Naziat, ayə 40, 41
[1413] Ğurərul-Hikəm, hədis 5263
[1414] Ğurərul-Hikəm, hədis 5393
[1415] Ğurərul-Hikəm, hədis 6421
[1416] Ğurərul-Hikəm, hədis 6418
[1417] Ğurərul-Hikəm, hədis 6444
[1418] Biharul-Ənvar, c.78, səh.53, hədis 87
[1419] Tuhəful-Uqul, səh.370

bax və ona qarşı çıx. Çünki sənin nəfsi istəyinə qarşı çıxmağında çoxlu savab gizlənmişdir.»[1420]

***1801.Nəfsi istəklərin hakim olması.***

6444.Allahın Peyğəmbəri (s): «Şəhvətlərə məftun olan qəlbdə pəhrizkarlığın məskunlaşması haramdır.»[1421]

6445.Allahın Peyğəmbəri (s): «Şəhvətlərlə dinclik tapan qəlbə, göylərin mələklər aləmində dolanmaq haramdır.»[1422]

6446.Allahın Peyğəmbəri (s): «Allah-taala buyurur: Izzət və əzəmətimə and olsun ki,….hansı bəndə öz istəyini Mənim istəyimdən üstün tutsa, onun işini bir-birinə vurar, dünyasının nizamını pozar, qəlbini ona məşğul edər və beləsinə dünyadan yalnız onunçün müəyyənləşdirdiyimi verərəm.»[1423]

6447.Imam Əli (ə): «Kimin nəfsi istəyi güclənsə, iradəsi zəifləyər.»[1424]

6448.Imam Əli (ə): «Şəhvətin zəncirində olan ağıla, hikmətdən bəhrələnmək haramdır.»[1425]

***1802.Insanların ən şücaətlisi, öz nəfsi istəyinə qalib gələndir.***

6449.Süleyman (ə): «Öz nəfsi istəyinə qalib gəlmiş şəxs, təkbaşına bir şəhəri fəth etmişdən də güclüdür.»[1426]

6450.Allahın Peyğəmbəri (s): «Insanların ən şücaətlisi, öz nəfsi istəyinə qalib gələn şəxsdir.»[1427]

6451.Allahın Peyğəmbəri (s): «Pəhləvan camaata qalib gələn deyil, öz nəfsinə qalib gələn kimsədir.»[1428]

***1803.Şəhvəti zəiflədən amil.***

6452. «əl-Məhəccətul beyza»: Allah-taala Musaya (ə) vəhy etdi: «Yadında saxla ki, sən qəbir sakini olacaqsan. Bu xatırlama səni şəhvət və istəklərin çoxundan saxlayacaqdır.»[1429]

6453.Imam Əli (ə): «Hikmət (və ağıl) hər nə qədər güclənsə, şəhvət və nəfsi istəklər (bir o qədər) zəifləyər.»[1430]

6454.Imam Əli (ə): «Ağlı kamil olan kimsə, şəhvət və nəfsi istəkləri xar sayar.»[1431]

---

[1420] Tuhəful-Uqul, səh.398
[1421] Tənbihul-Xəvatir, c.2, səh.122
[1422] Tənbihul-Xəvatir, c.2, səh.122
[1423] əl-Kafi, c.2, səh.335, hədis 2
[1424] Ğurərul-Hikəm, hədis 7959
[1425] Ğurərul-Hikəm, hədis 4902
[1426] Tənbihul-Xəvatir, c.1, səh.60
[1427] Məaniul.əxbar, səh.195, hədis 1
[1428] Tənbihul-Xəvatir, c.2, səh.10
[1429] əl-Məhəccətul-Beyza, c.5, səh.169
[1430] Ğurərul-Hikəm, hədis 7205
[1431] Ğurərul-Hikəm, hədis 8226

6455.Imam Əli (ə): «Iffət şəhvət və nəfsi istəkləri zəiflədir.»[1432]

6456.Imam Əli (ə): «Kim özünə qiymət qoysa, şəhvət və nəfsin istəkləri onun gözündə dəyərdən düşər.»[1433]

6457.Imam Əli (ə): «Ey Allahın bəndələri, Allahdan qorxun! (Yaradılışın başlanğıc və sonu barədə) Fikirləşmək onu məşğul edən…və dünyaya rəğbətsizlik onun şəhvət və nəfsi istəklərinin qarşısını aldığı ağıllı bir şəxs kimi.»[1434]

6458.Imam Əli (ə): «Cənnət arzusunda olan kimsə şəhvət və nəfsi istəklərə göz yumar.»[1435]

***1804.Kim öz nəfsi istəklərinə qalib gəlsə…***

6459.Allahın Peyğəmbəri (s): «Allah-taala buyurur: And olsun izzət və əzəmətimə, hansı bəndə Mənim istəyimi öz istəyindən üstün tutsa, mələklərimi onu qorumağa göndərər, göyləri və yeri onun ruzisinin zamini, təminatçısı edər, hər tacirin ticarətinin ardınca onun fikrində olaram və dünya öz istəyi ilə (yaxud zəlil halda) ona üz tutar.»[1436]

6460.Imam Əli (ə): «Kim şəhvət və nəfsi istəyinə qalib gəlsə, ağlı aşkara çıxar.»[1437]

6461.Imam Əli (ə): «Öz şəhvət və nəfsi istəklərinin ixtiyarı əlində olmayan kəs öz ağlının da sahibi olmaz.»[1438]

6462.Imam Əli (ə): «Hər hansı bir eybdən pak və uzaq olmaq, şəhvət və nəfsi istəklərə hakim olmaqla mümkündür.»[1439]

6463.Imam Əli (ə): «Şəhvət və nəfsi istəyi rədd etmək onu məhv edir, təmin etmək isə gücləndirir!»[1440]

6464.Imam Baqir (ə): «Allah-taala buyurur: Izzət, cəlal, əzəmət və ululuğuma and olsun ki, hansı bəndə Mənim istəyimi öz istəyindən üstün tutsa, onun iş və həyatını öz yoluna qoyar, göylər və yeri onun ruzisinin zamin və təminatçısı edər, hər bir tacirin ticarətinin arxasınca onun (xeyrinin) fikrində olaram.»[1441]

---

[1432] Ğurərul-Hikəm, hədis 2148
[1433] Nəhcül-Bəlağə, hikmət 449
[1434] Nəhcül-Bəlağə, xütbə 83
[1435] Nəhcül-Bəlağə, hikmət 31
[1436] əl-Kafi, c.2, səh.335, hədis 2
[1437] Ğurərul-Hikəm, hədis 7953
[1438] Ğurərul-Hikəm, hədis 8995
[1439] Ğurərul-Hikəm, hədis 4354
[1440] Ğurərul-Hikəm, hədis 5390
[1441] əl-Kafi, c.2, səh.137, hədis 1

ιοooooοπ

**398**

# Miras

***1805.Miras.***

**Quran:**

«Allah övladlarınızın haqqında sizə tövsiyə edərək buyurur ki: oğula, iki qız hissəsi qədər pay düşür. Əgər qızların sayı ikidən artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir qız olsa, mirasın yarısı onundur. (Vəfat edənin) Övladı olarsa, ata və anasının hər birinə mirasın altıda bir hissəsi verilir…..»[1442]

*Həmçinin müraciət et: «Nisa», 7.12, 23, 32, 127, 176; «Məryəm», 6; «Nəml», 16; «Fəcr», 19.*

**Hədis:**

6465.Imam Sadiq (ə) *(«Nə üçün oğlanın miras payı qızın miras payının iki misli qədərdir?» sualının cavabında):* «Çünki qadına nə cihad vacibdir, nə ailənin dolanışığını təmin etmək və nə də (həddi-buluğa çatmamış qohumlarının ödəməli olduğu) diyəni ödəmək! Əksinə bunlar kişinin öhdəsinə qoyulub.»[1443]

6466.Imam Rza (ə) *(həmin sualın cavabında):* «Qadınlara mirasdan kişilərin payının yarısı qədər verilməsinin səbəbi budur ki, evlənəndə arvad (mehriyyə) alır, kişi isə (mehriyyə) verir. Bu səbəbdən kişilərin payı artıq edilib. Kişilərin payının qadınların payından iki dəfə çox olmasının digər bir səbəbi də budur ki, arvad (bir şeyə) möhtac olsa da kişinin öhdəsindədir və kişi onun ehtiyacını ödəməyə, dolanışığını təmin etməyə görə mə'suliyyət daşıyır. Lakin qadın nə kişinin məişətini təmin etməyə zamindir, nə də kişinin ehtiyacı olanda onun dolanışığını ödəməyə görə mə'suliyyət daşıyır. Bu səbəblərdən Allah-taala kişilərin payını artırıb. Bu, Allah-taalanın kəlamıdır ki, «Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu, Allahın onlardan birini digərinə üstün etməsi və kişilərin öz mallarından (qadınlar üçün) xərcləmələrinə görədir.[1444]»[1445]

***1806.Varisliyə mane olan amillər.***

6467.Allahın Peyğəmbəri (s): «Qatilə, (qətlə yetirdiyi şəxsdən) miras çatmır.»[1446]

---

[1442] Nisa, ayə 11
[1443] əl-Kafi, c.7, səh.85, hədis 3
[1444] Nisa, ayə 34
[1445] Uyun Əxbar Rza (ə), c.2, səh.98, hədis 1
[1446] əl-Kafi, c.7, səh.141, hədis 5

6468.Allahın Peyğəmbəri (s): «Zinadan olana nə kimsədən miras qalır, nə də ondan kimsəyə miras düşür.»[1447]

6469.Imam Sadiq (ə): «Müsəlman, kafirə miras çatmasının qarşısını alır, amma (özünə) ondan irs çatır. Kafir isə, nə möminə mirasın qarşısını alır, nə də irs götürür.»[1448]

### *1807.Peyğəmbərlərin mirası.*

**Quran:**

«Süleyman Davuda vərəsə oldu və dedi: Ey insanlar, bizə quş dili öyrədildi və hər şeydən verildi. Bu həqiqətən açıq-aşkar bir lütfdür.»[1449]

«Mən özümdən sonra gələn qohum-əqrəbamdan qorxuram. Zövcəm də ki, doğmur. Buna görə də mənə Öz dərgahından bir oğul bəxş et ki, həm mənə, həm də Yaqub nəslinə varis olsun. Pərvərdigara! Həm də elə et ki, o, Sənin razılığını qazanmış olsun.»[1450]

**Hədis:**

6470. «ət Təbəqatul kubra»: «Fatimə (ə) və Abbas ibn Əbdülmüttəlib öz miraslarını almaq üçün Əbubəkrin yanına gəldilər. Əli (ə) də onlarla birlikdə getdi. Əbubəkr dedi: Allahın Peyğəmbəri (s) buyurub: «Biz miras qoymuruq, qoyub getdiklərmiz sədəqədir.» (Əbubəkr dedi) Yaşayışları Peyğəmbər tərəfindən təmin edilənlərin xərcləri də mənim öhdəmədir. Əli buyurdu: «Süleyman Davuda vərəsə oldu. Zəkəriyya da «həm mənə, həm də Yaqub nəslinə varis olsun.» deyə buyurub.»

Əbubəkr dedi: «Məsələ elə (mənim Peyğəmbərdən nəql etdiyim kimi) belədir. And olsun Allaha, (Peyğəmbərin hədislərindən) mənim bildiklərimi sən də bilirsən.»

Əli buyurdu: «Bu (isə) Allahın kitabıdır ki, (peyğəmbərlərin miras qoyub getmələrini açıq-aşkar) bəyan edir.» Onlar (Əli, Fatimə və Abbas) daha bir söz deməyib getdilər.»[1451]

ιoooooπ

[1447] Kənzul-Ummal, hədis 30447
[1448] əl-Kafi, c.7, səh.143, hədis 5
[1449] Nəml, ayə 16
[1450] Məryəm, ayə 5, 6
[1451] ət-Təbəqatul-Kübra, c.2, səh.315

**399**

# Günahlardan çəkinmək

***1808.Günahlardan çəkinmək.***

6471.Allahın Peyğəmbəri (s): «Hər bir şeyin əsası və təməli var, imanın təməli də günahlardan çəkinməkdir.»[1452]

6472.Allahın Peyğəmbəri (s): «Dinin sütunu günahlardan çəkinməkdir.»[1453]

6473.Allahın Peyğəmbəri (s): «Dininizin ən üstünü, günahlardan çəkinməkdir.»[1454]

6474.Imam Əli (ə): «Günahlardan çəkinməkdən gözəl səngər yoxdur.»[1455]

6475.Imam Əli (ə): «Günahlardan çəkinmək qalxandır.»[1456]

6476.Imam Əli (ə): «Kim bizi sevirsə, bizim kimi əməl etməli, davranmalı və günahdan çəkinməkdən kömək götürməlidir. Çünki günahlardan çəkinmək dünya və axirət işində ən yaxşı köməkçidir.»[1457]

6477. Imam Baqir (ə): «Ibadətlərin ən çətini günahlardan çəkinməkdir.»[1458]

6478.Imam Sadiq (ə): «Günahlardan çəkinən olun! Çünki günahdan çəkinmək bizim tabe olduğumuz, vasitəsi ilə Allaha bəndəlik və itaət etdiyimiz və (Ona tabe olmağı) bizi sevənlərdən istədiyimiz dindir.»[1459]

6479.Imam Sadiq (ə): «O şəxs ki, yüz min və ya daha artıq əhalisi olan bir şəhərdə yaşayır və orada ondan da pəhrizkar olan bir kəs var, bizdən deyil və dəyərsiz adamdır.»[1460]

***1809. Günahlardan çəkinməyin nəticəsi.***

6480.Imam Əli (ə): «Günahlardan çəkinməyin nəticəsi nəfs və dinin düzəlməsidir.»[1461]

6481.Imam Əli (ə): «Günahlardan çəkinmək haramları yerinə yetirməyə mane olur.»[1462]

---

[1452] Kənzul-Ummal, hədis 7284
[1453] Kənzul-Ummal, hədis 7300
[1454] Biharul-Ənvar, c.70, səh.304, hədis 18
[1455] Nəhcül-Bəlağə, hikmət: 371
[1456] Nəhcül-Bəlağə, hikmət 4
[1457] Biharul-Ənvar, c.70, səh.306, hədis 30
[1458] əl-Kafi, c.2, səh.77, hədis 5
[1459] Əmali-Tusi, səh.281, hədis 544
[1460] əl-Kafi, c.2, səh.78, hədis 10
[1461] Ğurərul-Hikəm, hədis 4636
[1462] Ğurərul-Hikəm, hədis 1436

6482.Imam Əli (ə): «Günahlardan çəkinmək təqvanın təməlidir.»[1463]

6483.Imam Əli (ə): «Elm, günahlardan çəkinmə olmadan inkişaf etmir.»[1464]

6484.Imam Sadiq (ə): «Allahdan qorxun və dininizi günahlardan çəkinməklə qoruyun.»[1465]

***1810. Günahlardan çəkinməyin rolu.***

6485.Imam Əli (ə): «Günahlardan çəkinməklə müşayiət olunmayan ibadətdə xeyir yoxdur.»[1466]

6486.Imam Səccad (ə): «Günahlardan çəkinmək, ibadətin (nəzmə düzüldüyü) ipidir. Əgər bu ip qırılsa, (təsbeh və bu kimi şeylərin) sap(ı) qırılanda nəzm pozulduğu kimi dindarlıq da eləcə aradan gedər.»[1467]

6487.Imam Sadiq (ə): «Günahlardan çəkinmə olmadan ibadətdə çalışmaq, xeyir verməz.»[1468]

6488.Imam Sadiq (ə) *(Əmr ibn Səidə xitabən):–*«Sənə ilahi təqvaya yiyələnməyi, günahlardan çəkinən olmağı və (ibadətdə) çalışmağı tövsiyə edirəm. Bil ki, günahlardan çəkinməklə birgə olmayan çalışqanlıq xeyir verməz.»[1469]

***1811. Günahlardan çəkinməyin mənası.***

6489.Allahın Peyğəmbəri (s): «Günahlardan çəkinmək əməllərin ağası və başçısıdır. Hər kimdə onu xəlvətdə Allaha qarşı itaətsizliklə qarşılaşdıq-da həmin işi yerinə yetirməkdən saxlayan çəkinmə olmasa, Allah onun digər əməllərinə etina etməz. Çünki günahlardan çəkinmək gizlin və aşkarda Allahdan qorxmaq, yoxsul və varlı olanda mötədillik, şad və qəzəbli olanda ədalətə riayət etməkdir.»[1470]

6490.Imam Əli (ə): «Günahlardan çəkinməyin kökü günahlardan uzaq-laşmaq və haramdan çəkinməkdir.»[1471]

6491.Imam Əli (ə): «Günahlardan çəkinmək (haramlıq ehtimalı olan) şübhəli şeylə qarşılaşan zaman dayanmaqdır.»[1472]

6492.Imam Sadiq (ə) *(günahlardan çəkinən şəxs barədə sualın cavabında):–*«Günahlardan çəkinən, Allah-taalanın haramlarından çəkinən şəxs-dir.»[1473]

---

[1463] Ğurərul-Hikəm, hədis 1107
[1464] Ğurərul-Hikəm, hədis 10689
[1465] əl-Kafi, c.2, səh.76, hədis 2
[1466] əl-Məhasin, c.1, səh.65, hədis 9
[1467] Tənbihul-Xəvatir, c.2 səh.88
[1468] əl-Kafi, c.2, səh.77 hədis 4
[1469] Biharul-Ənvar, c.70, səh.296, hədis 1
[1470] Kənzul-Ummal, hədis 7299
[1471] Ğurərul-Hikəm, hədis 3097
[1472] Ğurərul-Hikəm, hədis 2161
[1473] əl-Kafi, c.2, səh.77, hədis 8

6493.Imam Sadiq (ə) *(həmin suala verdiyi digər bir cavabda):* «Günahlardan çəkinən, Allahın haramlarından uzaq duran şəxsdir. Əgər o, şübhəli şeylərdən çəkinməsə, bilmədən harama düşər.»[1474]

***1812.Insanların günahlardan ən çox çəkinəni.***

6494.Allahın Peyğəmbəri (s): «Allahın haramlarından çəkin ki, insanların ən pəhrizkarı olasan.»[1475]

6495.Imam Əli (ə): «Insanların günahlardan ən çox çəkinəni, onların xahiş və yalvarıb-yaxarmaqdan ən uzaq olanıdır.»[1476]

6496.Imam Əli (ə): «Sizin ən zirənginiz ən pərhizkar olanınızdır.[1477]

6497.Imam Baqir (ə): «Allah-taala buyurub: Ey Adəm övladı! Sənə haram etdiklərimdən uzaqlaş ki, insanların günahlardan ən çox çəkinəni olasan.»[1478]

ιooooooπ

[1474] Biharul-Ənvar, c.7, səh.303, hədis 15
[1475] Biharul-Ənvar, c.69, səh.368, hədis 4
[1476] Ğurərul-Hikəm, hədis 3368
[1477] Ğurərul-Hikəm, hədis 2839
[1478] əl-Kafi, c.2, səh.77, hədis 7

**400**

# Tərəzi

***1813.Əməl tərəzisi.***

**Quran:**

«O gün əməllərin çəkilməsi haqqdır. Tərəziləri ağır gələnlər nicat tapanlardır. Tərəziləri yüngül gələnlər isə ayələrimizə haqsızlıq etdiklərindən özlərinə zərər edənlərdir.»[1479]

*Həmçinin müraciət et: Kəhf 105; Muminun 102, 103; Qariə 6-11.*

**Hədis:**

6498.Allahın Peyğəmbəri (s): «Qiyamət günü Allah (Həzrət) Adəmə buyuracaq: «Tərəzinin yanında dayan və onların əməllərindən sənə tərəf qalxanlara bax. Onlardan kimin yaxşılıqları pisliklərindən zərrə qədər ağır gəlsə, Cənnət onundur. Bu, Mənim onların heç birini nahaq yerə zülm səbəbindən Cəhənnəmə aparmadığımı bilməyin üçündür.»[1480]

6499.Imam Baqir (ə): «Allah yaxşı işi dünya əhalisinə ağır edib, necə ki, (bu) onların qiyamət tərəzilərində də ağırdır. Həmçinin, Allah pisliyi dünya əhalisinə yüngül edib, necə ki, o, onların qiyamət tərəzilərində də yüngüldür.»[1481]

6500.Imam Sadiq (ə) *(dinsiz bir kişinin «məgər əməllər çəkilməyəcək?» sualının cavabında buyurmuşdur):* «Xeyr, əməllər cism deyil, bəlkə o, əslində camaatın yerinə yetirdiyi işin sifətidir. Sonra (da ki,) bir şeyi çəkməyə onun sayını və çəkisini bilməyən şəxs möhtacdır. Lakin Allaha heç nə gizli deyil.»

Həmin dinsiz kişi dedi: «Bəs mizan və tərəzinin mənası nədir?» Həzrət buyurdu: «Ədalət.»

Kişi dedi: «Bəs onda Allahın Öz kitabında buyurduğu «tərəziləri ağır gələn…» ayəsinin mənası nədir?» Həzrət buyurdu: «Yəni əməli ağır gələn şəxs.»[1482]

---

1479 Ə'raf, ayə 8, 9

1480 Kənzul-Ummal, hədis 39768

1481 əl-Kafi, c.2, səh.143, hədis 10

1482 əl-Ehticac, c.2, səh.247, hədis 223. Bu rəvayət bizim чəkinin təfsirində dediklərimizin təsdiqidir. Rəvayətdə olan чox incə məqamlardan biri imamыn buyurduğu «əməllər camaatыn yerinə yetirdiyi işin sifətidir» cümləsinin təsdiqidir. Imam (ə) həmin cümlədə bu məqama toxunur ki, belə yerlərdə əməllərdən məqsəd insanыn etdiyi təbii hərəkətlər deyil. Чünki bu hərəkətlər həm itaətdə, həm də эünahda baş verir. Əməllərdən məqsəd onlara verilən sifətlər və dini və ictimai adət və qanunlarыn onlar barəsində m[təbər hesab etdiyi sifətlərdir. Məsələn, yaxыnlыq zamanы bir sыra hərəkətlər edilir ki, эəər onlar ictimai adət-ənənə və ya şəriətin icazəsi ilə uyğun olsa evlilik adlandыrыlыr, onlara müvafiq olmasa isə zina hesab edilir. Halbuki, edilən hərəkətlər hər iki halda eynidir. Imam (ə) [z kəlamыnda iki dəlil эətirir. Birincisi budur ki, həmin əməllər sifətdirlər və onlarыn чəkisi yoxdur. Ikincisi budur ki, Allahыn onlarы чəkməyə ehtiyacы yoxdur, чünki O nadanlыq sifəti ilə vəsf olunmur. əl-Mizan c.8, səh.16

# 401

# Vəsvəsə

***1814.Vəsvəsə***

**Quran:**

«De ki: pənah aparıram insanların Rəbbinə, insanların ixtiyar sahibinə, insanların Tanrısına, vəsvəsə salan, qaçıb gizlənən Şeytanın şərindən. O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. O şeytan ki, cinlərdən də olur, insanlardan da!»[1483]

Həmçinin müraciət et: «Ə'raf», 20; «Ta Ha», 120.

**Hədis:**

6501.Allahın Peyğəmbəri (s) «bəzən adamın zehnindən elə şeylər keçir ki, adamın göydən düşməsi və səmanın ortasında bir quşun onu sürətlə alıb aparması zehindən keçən həmin şeyləri dilə gətirməkdən daha xoşdur» sualının cavabında buyurmuşdur: «Bu sırf iman və ya xalis imandır.»[1484]

6502.Allahın Peyğəmbəri (s): «Allah-taala mənim ümmətimin zehni vəsvəsələri və şəkk-şübhələrindən. nə qədər ki, onlar həmin şeyləri əməl mərhələsinə çatdırmayıblar (yerinə yetirməyiblər) keçmişdir.[1485]

***1815.Dəstəmaz və namazda vəsvəsəyə düçar olmaqdan çəkindirmək***

6503. Imam Sadiq (ə) Abdullah ibn Sənan, o Həzrətin yanında dəstəmaz və namazda vasvası olan bir kişinin adını çəkərək onun ağıllı bir şəxs olmasını iddia edərkən buyurmuşdur: «O ki, şeytana tabe olur, onun nə ağlı var? (Ravi deyir:) Dedim: Şeytana necə tabe olur? Buyurdu: Ondan soruş gör ona vəsvəsə edən şey nədəndir? O mütləq deyəcək ki: Şeytanın işidir.»[1486]

6504.Imam Sadiq (ə) *(«namazın rəkətlərində çox şəkk edən və ümumiyyətlə neçə rəkət qıldığını və neçə rəkətin qaldığını bilməyən şəxsin vəzifəsi nədir?» sualının cavabında buyurmuşdur):* «Gərək namazını təzədən qılsın. (Zurarə ilə Əbu Bəsir deyir:) Biz dedik: Çox şəkk edir.»Belə ki, əgər yenidən qılsa, yenə də şəkk edəcək. Buyurdu: Öz şəkkinə etina etməsin (və namazını davam etdirsin).

Sonra buyurdu: Namazı kəsməklə murdan şeytanı özünüzə öyrəşdirməyin, sizin bu işinizlə şiriniklәşsin, tamaha düşsün (hər an sizin yanınıza gəlsin və vəsvəsə etsin). Çünki şeytan xəbisdir və nəyə öyrəşdirsələr öyrəşir. Buna görə

---

[1483] Nas, ayə 1,6
[1484] Kənzul-Ummal, hədis 1709
[1485] Tənbihul-Xəvatir, c.2, hədis 120
[1486] əl-Kafi, c.2, səh.463, hədis 2

də sizin (çox şəkk edən) heç biriniz şəkkinə etina etməsin və namazını çox pozmasın. Çünki əgər şəkkinə bir neçə dəfə etina etməsə, daha şəkkə düçar olmayacaq.

Zurarə deyir: Həzrət daha sonra buyurdu: Xəbis şeytan sizin ona tabe olmağınızı istəyir. Buna görə də əgər itaətsizlik olsa, daha sizin heç birinizə tərəf gəlməyəcək.»[1487]

***1816. Vəsvəsələrin əlacı***

**Quran**

«Və de ki: Ya Rəbb! Mən şeytanların vəsvəsələrindən Sənə sığınıram. Onların yanımda olmalarından Sənə pənah gətirirəm, ya Rəbb!»[1488]

6505.Imam Əli (ə): «Hər ayın üç gününü: ayın birinci və sonuncu cümə axşamını və orta çərşənbəsini, eləcə də Şəban ayını oruc tutmaq sinədəki vəsvəsəni və qəlbin pərişanlığını aradan aparır.»[1489]

6506.Imam Əli (ə): «Biz Əhli-beyti xatırlamaq hər bir narahatçılıq, xəstəlik və şəkk-şübhə gətirən vəsvəsənin dərmanıdır.[1490]

6507.Imam Sadiq (ə) çox olan vəsvəsə barəsindəki sualın cavabında buyurmuşdur: «Eybi yoxdur, «la ilahə illəllah» de.»[1491]

ιoooooπ

---

[1487] əl-Kafi, c.1, səh.12, hədis 10
[1488] Muminun, ayə 97-98
[1489] əl-Xisal, səh.612, hədis 10
[1490] Biharul-Ənvar, c.81, səh.203, hədis 5
[1491] əl-Kafi, c.2, səh.424, hədis 1

**402**

# Əl tutmaq və dərdə şəriklik

***1817.Əl tutmaq və dərdə şəriklik***

6508.Allahın Peyğəmbəri (s): «Kimin iki köynəyi olsa, onun birini özü geyinsin və digərini qardaşına versin.»[1492]

6509.Imam Əli (ə): «Ən yaxşı ehsan və yaxşılıq qardaşların dərdinə şərik olmaqdır.»[1493]

6510.Imam Əli (ə): «Malı ilə (sənə) kömək etməyən şəxsi dost sayma.»[1494]

6511.Imam Əli (ə): «Din qardaşının dərdinə şərik olmaq ruzini çoxaldır.»[1495]

6512.Imam Sadiq (ə): «Qardaşlarınıza əl tutmaqla özünüzü Allah-taalaya yaxınlaşdırın.»[1496]

6513.Imam Sadiq (ə): «Kimdə iki xislət olmasa, ondan uzaq ol, uzaq ol, uzaq ol! Dedilər: Nədir o iki xislət? Buyurdu: Namazı vaxtında qılmaq və onu davam etdirmək, bir də dərdə şəriklik (qardaşlara əl tutmaq).»[1497]

6514.Imam Kazim (ə) Cəfər ibn Məhəmməd Asimiyə xitab edərək buyurmuşdur: «Ey Asim, qarşılıqlı münasibət və bir-birinizin dərdinə şərik çıxmaqda nə vəziyyətdəsiniz? Dedim: Birinin ola biləcəyi ən yaxşı vəziyyətdə. Buyurdu: Olurmu ki, sizin biriniz kasıbçılıq vaxtı qardaşının dükan, yaxud mənzilinə gedib onun daxilini çıxararaq ehtiyacı olanı götürsün və qardaşı ona etiraz etməsin? Asim dedi: Xeyr. Həzrət buyurdu: Onda qarşılıqlı münasibətlərdə mən istəyən kimi deyilsiniz.»[1498]

ιoooooπ

[1492] Məkarimul-Əxlaq, c.2, səh.380, hədis 2661
[1493] Ğurərul-Hikəm, hədis 3023
[1494] Ğurərul-Hikəm, hədis 10276
[1495] Biharul-Ənvar, c.74, səh.395, hədis 22
[1496] əl-Xisal səh.8, hədis 26
[1497] əl-Xisal səh.47, hədis 50
[1498] Biharul-Ənvar, c.74, səh.231, hədis 28

**403**

# Vəsiyyət

***1818.Vəsiyyət***

**Quran**

«Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə vəsiyyət etməyiniz zəruridir. Bu, təqvalılara vacibdir.»[1499]

**Hədis:**

6515.Allahın Peyğəmbəri (s): «Vəsiyyət etmək hər bir müsəlmanın vəzifəsidir.»[1500]

6516.Allahın Peyğəmbəri (s): «(Allahın rəhmətindən) o şəxs məhrumdur ki, vəsiyyət etməkdən məhrum olsun.»[1501]

6517.Allahın Peyğəmbəri (s): «Heç bir müsəlmana gecəni vəsiyyətnaməsi başının altında olmadan keçirmək yaraşmaz.»[1502]

6518.Imam Baqir (ə): «Kim öləndə miras haqqı olmayan qohumlarına vəsiyyət etməsə, əməlini günahla sona çatdırıb.»[1503]

***1819.Vəsiyyətdə ziyan vurmaq, zülm və haqsızlıq etmək olmaz***

6519.Imam Əli (ə): «Kim vəsiyyət etsə və (öz vəsiyyətində) zülm etməsə, (varisə) ziyan vurmasa, onu (vəsiyyət etdiyi malı) öz sağlığında sədəqə vermiş şəxs kimidir.»[1504]

6520.Imam Əli (ə): «Vəsiyyətdə zülm və haqsızlıq etmək böyük günahlardandır.»[1505]

6521.Imam Sadiq (ə): «(Var-dövlətinin) Üçdə birini vəsiyyət edən kəs varislərinə ziyan vurub. Beşdə birini və dörddə birini vəsiyyət etmək üçdə birini vəsiyyət etməkdən daha fəzilətli və üstündür.»[1506]

ɩooooooπ

---

[1499] Bəqərə, ayə 180
[1500] Vəsailuş-Şiə, c.13, səh.352, hədis 6
[1501] Kənzul-Ummal, hədis 46051
[1502] Biharul-Ənvar, c.103, səh.194, hədis 3
[1503] Təhzibul-Ehkam, c.9, səh.174, hədis 708
[1504] əl-Kafi, c.7, səh.62, hədis 18
[1505] əl-Fəqih, c.4, səh.184, hədis 5420
[1506] əl-Kafi, c.7, səh.11, hədis 5

**404**

# Dəstəmaz

***1820.Dəstəmaz***

**Quran:**

«Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və əllərinizi dirsəkləriniz də daxil olmaqla yuyun, başınıza məsh edin, ayaqlarınızı topuqlarınıza qədər məsh edin…. Allah sizi çətinliyə salmaq istəməz, lakin O, sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükr edəsiniz.»[1507]

**Hədis:**

6522.Allahın Peyğəmbəri (s): «Dəstəmaz imanın yarısıdır.»[1508]

6523.Allahın Peyğəmbəri (s): «Kim çox soyuq havada kamil dəstəmaz alsa, iki pay savab qazanır. Kim çox isti havada kamil dəstəmaz alsa, bir pay savab qazanır.»[1509]

6524.Allahın Peyğəmbəri (s): «Müsəlman şəxs dəstəmaz alan zaman onun günahları qulaq, göz, əl və ayaqlarından xaric olarlar. Beləliklə, oturanda (artıq) bağışlanmış halda oturar.»[1510]

6525.Allahın Peyğəmbəri (s): «Bəndə dəstəmaz alanda günahları bu ağacın yarpaqları kimi tökülər.»[1511]

6526.Imam Əli (ə): «Kim təharət (dəstəmaz) alıb məscidə getsə, ondan dəstəmazı pozan bir iş baş verməyincə namaz halında olar (həmin müddət ərzində namaz qılan adam kimi sayılar).»[1512]

6527.Imam Baqir (ə): «Namaz yalnız təharətlə düzgündür.»[1513]

***1821.Dəstəmazın fəlsəfəsi***

6528.Imam Baqir (ə): «Dəstəmaz Allahın bəndələrindən kimin Ona tabe olub kimin itaətsizlik etməsini bilmək üçün (təyin etdiyi) həddlərindən biridir.»[1514]

6529.Imam Rza (ə) dəstəmazın fəlsəfəsi barəsində buyurmuşdur: «(Dəstəmazın fəlsəfəsi) Bəndənin Allahla münacat edəndə Onun qarşısında

---

[1507] Maidə, ayə 6
[1508] Biharul-Ənvar, c.80, səh.238, hədis 12
[1509] Kənzul-Ummal, hədis 26059
[1510] Kənzul-Ummal, hədis 26031
[1511] Kənzul-Ummal, hədis 26030
[1512] Biharul-Ənvar, c.80, səh.237, hədis 11
[1513] əl-Fəqih, c.1, səh.58, hədis 129
[1514] Iləluş-Şəraye, səh.279, hədis 1

dayanarkən pak olması, Onun əmrinə tabe olması, çirkinlik və murdarlıqdan təmiz olmasıdır. Bundan əlavə dəstəmaz yorğunluğun aradan qalxması, mürgünün qaçması və qəlbin Allahın hüzurunda dayanmaq üçün təmizlənməsinə səbəb olur.»[1515]

***1822.Dəstəmazın nəticəsi***

6530.Allahın Peyğəmbəri (s): «Allah-taala qiyamət günü mənim ümmətimi məhşərə dəstəmazlarının nəticəsi olaraq gözəl üz və ağ əl-ayaqla gətirəcəkdir.»[1516]

***1823.Həmişə dəstəmazlı olmağın fəziləti***

6531.Allahın Peyğəmbəri (s): «Çox dəstəmaz al ki, Allah ömrünü artırsın. Əgər gecə-gündüz təharətli ola bilirsənsə, et bunu! Çünki əgər dəstəmazlı ölsən şəhid (hesab) olacaqsan.»[1517]

6532.Allahın Peyğəmbəri (s): «Dəstəmazlı yatan şəxs gecə oyaq qalıb (gündüz) oruc tutmuş şəxs kimidir.»[1518]

***1824.Dəstəmazı təzələmək***

6533.Allahın Peyğəmbəri (s): «Kim dəstəmazlı olub (yenidən) dəstəmaz alsa, onun üçün on savab yazılar.»[1519]

6534.Imam Sadiq (ə): «Kim dəstəmazı pozan bir iş görmədən yenidən dəstəmaz alsa, Allah istiğfar etmədən onun tövbəsini təzələyər.»[1520]

6535.Imam Sadiq (ə): «Dəstəmaz üstündən dəstəmaz, nur üstündən nurdur.»[1521]

ιooooooπ

1515 Iləluş-Şəraye, səh.257, hədis 9
1516 Biharul-Ənvar, c.80, səh.237, hədis 11
1517 Əmali-Mufid, səh.60, hədis 5
1518 Kənzul-Ummal, hədis 25999
1519 Kənzul-Ummal, hədis 26042
1520 Vəsailuş-Şiə, c.1, səh.264, hədis 7
1521 Vəsailuş-Şiə, c.1, səh.265, hədis 8

## 405

# Təvazökarlıq

***1825.Təvazökarlıq***

6536.Allahın Peyğəmbəri (s): «Nə üçün sizdə ibadətin şirinliyini görmürəm? Dedilər: Ibadətin şirinliyi nədir? Buyurdu: Təvazökarlıq.»[1522]

6537.Allahın Peyğəmbəri (s): «Insanların bəndəlikdə ən üstünü böyük olmasına baxmayaraq təvazökarlıq edən şəxsdir.»[1523]

6538.Allahın Peyğəmbəri (s): «Xoş o adamın halına ki, heç bir nöqsan və çatışmazlığı olmadan Allah-taalaya görə təvazökarlıq etsin və heç bir xarlıq və acizliyi olmadan özünü həqirləşdirsin.»[1524]

6539.Imam Əli (ə): «Təvazökarlıq kimi şərəf yoxdur.»[1525]

6540.Imam Əli (ə): «Şərəfli (və alicənab) insanın zinəti təvazökarlıqdır.[1526]

6541.Imam Əli (ə): «Təvazökarlıq (təvazökar insanın) fəzilətlərin (camaat arasında) yayılmasına səbəb olur.»[1527]

6542. Imam Əli (ə): «Təvazökar ol! Çünki o ibadətlərin ən böyüklərindəndir.»[1528]

6543.Imam Əli (ə): «Insanın təvazökar olması üçün onun öz həddini bilməsi kifayətdir.»[1529]

6544.Imam Əli (ə): «Kim varlı bir şəxsin yanına getsə və varlılığına görə onun qarşısında təzim etsə, dininin üçdə ikisi aradan gedər.»[1530]

6545.Imam Əli (ə): «Allahın mükafatını əldə etmək məqsədi ilə varlıların yoxsullar qarşısındakı təvazökarlıqları necə də gözəldir! Ondan daha gözəl isə yoxsulların Allaha arxalanaraq varlılar qarşısında etinasızlıq göstərmələri və başlarını uca tutmalarıdır.»[1531]

6546.Imam Rza (ə): «Təvazökarlıq, camaatla səninlə edilməsini istədiyin tərzdə rəftar etməyindir.»[1532]

---

[1522] Tənbihul-Xəvatir, c.1, səh.201
[1523] Biharul-Ənvar, c.77, səh.179, hədis 10
[1524] Tənbihul-Xəvatir, c.2, səh.66
[1525] Nəhcül-Bəlağə, hikmət 113
[1526] Biharul-Ənvar, c.75, səh.120, hədis 11
[1527] Ğurərul-Hikəm, hədis 522
[1528] Biharul-Ənvar, c.75, səh.119, hədis 5
[1529] Biharul-Ənvar, c.78, səh.80, hədis 66
[1530] Nəhcül-Bəlağə, hikmət 228,
[1531] Nəhcül-Bəlağə, hikmət 406
[1532] əl-Kafi, c.2, səh.124, hədis 13

6547.Imam Əskəri (ə): «Təvazökarlıq elə bir nemətdir ki, paxıllığı çəkilmir.»[1533]

### *1826.Təvazökarlığın nişanələri*

6548.Imam Sadiq (ə): «Insanın məclisdə öz məqam və dərəcəsindən aşağı yerdə oturması təvazökarlıqdandır.»[1534]

6549.Imam Sadiq (ə) *(atalarından (ə) nəql edir):* «Insanın məclisin aşağısı ilə razılaşması, rastlaşdığı hər bir kəsə salam verməsi, haqq olsa da mübahisə və qalmaqalı tərk etməsi və pərhizkar kimi təriflənməyi xoşlamaması təvazökarlıqdandır.»[1535]

### *1827.Təvazökarlığın səmərəsi*

6550.Allahın Peyğəmbəri (s): «Həqiqətən təvazökarlıq sahibini daha da ucaldır. Odur ki, təvazökar olun ki, Allah sizi ucaltsın.»[1536]

6551.Allahın Peyğəmbəri (s): «Kim Allaha görə təvazökarlıq etsə Allah onu ucaldar. Beləliklə, o, öz nəzərində zəif, camaatın gözündə isə böyük olar. Kim təkəbbürlük etsə, özünü böyük tutsa, Allah onu alçaldar. Beləliklə o, camaatın gözündə kiçik, öz nəzərində isə böyük olar. O, camaatın gözündə hətta it və donuzdan da aşağı olar.»[1537]

6552.Imam Əli (ə): «Təvazökarlığın səmərəsi məhəbbət, təkəbbürlüyün səmərəsi isə söyüşdür (söyüş eşitməkdir).»[1538]

6553.Imam Əli (ə): «Təvazökarlıq sən(in əynin)ə vüqar və əzəmət paltarı geyindirər.»[1539]

6554.Imam Əli (ə): «Təvazökarlıqla işlər qaydasına düşür.»[1540]

6555.Imam Əli (ə): «Təvazökarlıq fəziləti yayır, təkəbbürlülük alçaqlığı üzə çıxarır.»[1541]

6556.Imam Kazim (ə): «Həqiqətən əkin torpaqda bitir, daş parçası üzərində isə bitmir. Hikmət də elədir. Təvazökar adamın qəlbində bitir, təkəbbürlü və lovğa adamın qəlbində isə bitmir. Çünki Allah təvazökarlığı ağlın, təkəbbürlüyü isə nadanlığın aləti edib.»[1542]

6557.Imam Kazim (ə): «Allah təvazökarları onların təvazökarlıqlarının miqdarında ucaltmır, əksinə onları Öz əzəmət və böyüklüyü qədər qaldırır.»[1543]

---

1533 Tuhəful-Uqul, səh.489
1534 əl-Kafi, c.2, səh.123, hədis 9
1535 Biharul-Ənvar, c.75, səh.118, hədis 3
1536 əl-Kafi, c.2, səh.121, hədis 1
1537 Kənzul-Ummal, hədis 5737
1538 Ğurərul-Hikəm, hədis 4613-4614
1539 Biharul-Ənvar, c.77, səh.287, hədis 1
1540 Ğurərul-Hikəm, hədis 4302
1541 Ğurərul-Hikəm, hədis 522,523
1542 Biharul-Ənvar, c.78, səh.312, hədis 1
1543 Tuhəful-Uqul, səh.399

***1828.Təvazökarlığa nail olmaq yolunda insana kömək edən şeylər***

6558.Imam Əli (ə): «Təvazökarlığa yalnız sinənin salamat olması (və pak qəlb) ilə çatmaq olar.»[1544]

6559.Imam Əli (ə): «Təvazökarlıq elmin səmərəsidir.»[1545]

6560.Imam Əli (ə): «Allahın əzəmətini tanıyan şəxsə özünü böyük hesab etmək yaraşmaz. Çünki Allahın əzəmətini tanıyan şəxslərin ucalığı Onun qarşısında təvazökar olmalarıdır.[1546]

ιooooooπ

---

[1544] Biharul-Ənvar, c.78, səh.7, hədis 59
[1545] Ğurərul-Hikəm, hədis 301
[1546] Nəhcül-Bəlağə, xütbə 147

**406**

# Vətən

***1829.Vətəni sevmək***

6561.Imam Əli (ə): «Ölkələr vətən sevgisi ilə abad olublar.[1547]

6562.Imam Əli (ə): «Insanın ömrünün keçən (hissəs)inə ağlaması, vətəninə bağlılığı və köhnə dostlarını qoru(yub saxla)ması onun alicənablığındandır.[1548]

6563. «Səfinətul-bihar»: «Nəql edilib ki: vətəni sevmək imandandır.»[1549]

***1830.Vətəni müdafiə etmək***

6564.Allahın Peyğəmbəri (s): «Allah, evində hücuma məruz qalıb vuruşmayan kişiyə nifrət edir.»[1550]

6565.Imam Əli (ə): «Onlar sizinlə vuruşmamışdan, siz onlarla vuruşun. Çünki and olsun Allaha, hansı qövm öz torpaqları daxilində hücuma məruz qalıbsa, xar və məğlub olub. Siz isə vuruşmağı bir-birinizə həvalə etdiniz və bir-birinizə kömək etməkdən əl götürdünüz, nəhayət dalbadal hücumlara məruz qaldınız və vətənləriniz əlinizdən çıxdı.»[1551]

***1831.Qürbət və vətən***

6566.Imam Əli (ə): «Varlılıq qürbətdə vətən, kasıblıq vətəndə qürbətdir.»[1552]

6567.Imam Əli (ə): «Sənin üçün şəhərlərin biri digərindən daha layiq deyil. Şəhərlərin ən yaxşısı, səni çiyinlərində aparan (sənin yaşayışını təmin edən və rahatlıq və asayişdə olduğun) şəhərdir.»[1553]

ιooooooπ

---

[1547] Biharul-Ənvar, c.78, səh.45, hədis 50
[1548] Biharul-Ənvar, c.74, səh.264, hədis 3
[1549] Səfinətul-bihar, c.8, səh.525
[1550] Uyun Əxbar Rza (ə), c.2, səh.28, hədis 24
[1551] Nəhcül-Bəlağə, xütbə 27
[1552] Nəhcül-Bəlağə, hikmət 56
[1553] Nəhcül-Bəlağə, hikmət 442

## 407

# Və’d

***1832.Allahın vədi haqdır***

**Quran:**

«Buna görə də səbr et! Şübhəsiz ki, Allahın vədi haqdır. Məbada, yəqini olmayanlar səni tələsməyə vadar etsinlər.»[1554]

«Pərvərdigara! Sən, olacağına şübhə edilməyən bir gündə insanları bir yerə toplayacaqsan. Həqiqətən Allah vədinə xilaf çıxmaz.»[1555]

**Hədis:**

6568.Allahın Peyğəmbəri (s): «Allah hər kimə mükafat vəd etsə, həmin vədini mütləq gerçəkləşdirər və hər kimə bir iş müqabilində cəza vəd etsə, həmin və’din(i yerinə yetirib yetirməmək)də azaddır.»[1556]

***1833.Və’d borcdur***

6569.Allahın Peyğəmbəri (s): «Və’d borcdur. Vay olsun və’d verib ona xilaf çıxana, vay olsun və’d verib ona xilaf çıxana, vay olsun və’d verib ona xilaf çıxana!»[1557]

6570.Allahın Peyğəmbəri (s): «Möminin və’di (onun boynunda olan) borcdur. Möminin vədi, onun öz və’dini ovucunun içinə qoyması kimidir.»[1558]

6571.Imam Əli (ə): «Birini xoş üzlə qaytarmaq, gec yerinə yetirilən vədədən daha gözəldir.»[1559]

6572.Imam Rza (ə): «Biz Əhli-beyt, verdiyimiz vədi boynumuzda borc (kimi) görürük, necə ki, Allahın Peyğəmbəri (s) belə etdi.»[1560]

***1834.Və’d iki köləlikdən biridir***

6573.Imam Əli (ə): «Bir şey istənilən şəxs və’d verənə kimi azaddır.[1561]

6574.Imam Əli (ə): «Və’d iki köləlikdən biridir. Və’di yerinə yetirmək iki azadlıqdan biridir.»[1562]

---

[1554] Rum, ayə60
[1555] Ali-Imran, ayə 9
[1556] ət-Tovhid, səh.406, hədis 3
[1557] Kənzul-Ummal, hədis 6865
[1558] Kənzul-Ummal, hədis 6870
[1559] Ğurərul-Hikəm, hədis 2183
[1560] Biharul-Ənvar, c.75 səh.97 hədis 20
[1561] Nəhcül-Bəlağə, hikmət 336
[1562] Ğurərul-Hikəm, hədis 1646-1647

6575.Əbul Hüməysa: «Peyğəmbər (s) peyğəmbərliyə göndərilməmişdən qabaq onunla bir alver etdim və bir yerdə onunla və'd qoyduq. Amma həmin gün və səhərisi gün və'dləşdiyimiz yerə getmək mənim yadımdan çıxdı. Üçüncü gün o Həzrətin yanına getdim. Həzrət buyurdu: Ey cavan, məni zəhmətə saldın. Mən üç gündür ki, burdayam.»[1563]

6576.Imam Rza (ə) Cəfəriyə xitab edərək buyurmuşdur: «Bilirsən Ismaili (ibn Cərqili) nə üçün «sadiqul-vəd» (vədində düz) adlandırıblar? Dedim: Bilmirəm. Həzrət buyurdu: Biri ilə və'dləşdi və bir il həmin şəxsi gözlədi(yinə görə).»[1564]

### *1835.Bəyənilməyən vədlər*

6577.Imam Əli (ə): «Heç vaxt (yerinə yetirilməsi) barəsində özünə arxayın olmadığın vədi vermə.»[1565]

6578.Imam Sadiq (ə): «Heç vaxt qardaşına vəfa edilməsi sənin əlində olmayan vədi vermə.»[1566]

6579.Imam Kazim (ə) *(«mənə və'd ver» deyən şəxsə buyurmuşdur):* «Ümidim olmayan şeyə ümidim olan şeydən daha ümidvar olduğum halda sənə necə və'd verim?»[1567]

### *1836.Və'dəxilaflığın məzəmməti*

6580.Imam Sadiq (ə): «Möminin vədə (xilaf çıxılacağı təqdirdə) kəffarəsi olmayan (barəsində kəffarə fərz edilməyən) bir nəzirdir. Çünki kim vədinə xilaf çıxsa, hər şeydən qabaq Allahla olan və'də xilaf çıxıb və özünü Onun qəzəb və nifrətinə düçar edib. Bu, Allah-taalanın kəlamıdır ki, : Ey iman gətirənlər, nə üçün yerinə yetirməyəcəyiniz şeyi deyirsiniz?[1568]»[1569]

6581.Imam Kazim (ə): «Uşaqlara və'd verəndə ona əməl edin. Çünki onlar belə fikirləşirlər ki, onlara ruzi verən sizsiniz. Allah qadın və uşaqlara görə qəzəbləndiyi qədər heç nə üçün qəzəblənmir.»[1570]

ιooooooπ

---

[1563] Məkarimul-Əxlaq, c.1, səh.57, hədis 39
[1564] Biharul-Ənvar, c.75, səh.94, hədis 10
[1565] Ğurərul-Hikəm, hədis 10297
[1566] Biharul-Ənvar, c.78, səh.94, hədis 10
[1567] əl-Fəqih, c.3, səh.165, hədis 3610
[1568] Səff, ayə 2
[1569] əl-Kafi, c.2, səh.363, hədis 1
[1570] Biharul-Ənvar, c.104, səh.73, hədis 23

**408**

# Moizə

***1837.Moizənin qəlbin həyatındakı rolu***

6582.Imam Əli (ə) *(oğluna öyüd-nəsihət verərkən buyurmuşdur):* «Qəlbini moizə ilə dirilt.»[1571]

6583.Imam Əli (ə): «Moizə ruh və canların sığalı, qəlblərin cilalayıcısıdır.»[1572]

6584.Imam Əli (ə): «Qəflət (pərdəsi) moizə ilə kənara çəkilir.»[1573]

***1838.Moizə və öyüdlərin növləri***

6585.Allahın Peyğəmbəri (s): «Ölüm öyüd götürmək üçün kifayətdir.»[1574]

6586.Imam Əli (ə): «Ağıllı o adamdır ki, təcrübələr ona öyüd verir.»[1575]

6587.Imam Əli (ə): «Ağıl sahibləri üçün onların təcrübələri yetərli öyüddür.»[1576]

6588.Imam Əli (ə): «Allah bir bəndəni sevən zaman ona ibrətlərlə öyüd verər.»[1577]

6589. Imam Əli (ə): «Zəmanənin öyüdlərini başa düşən şəxs dövrana nikbin olmaz.»[1578]

6590.Imam Əli (ə): «Malının (əlindən çıxmasına baxmayaraq) sənə öyüd verəni (əslində) əldən getməyib.»[1579]

6591.Imam Əli (ə) *(dünyanın vəsfində buyurmuşdur):* «Həqiqətən dünya….öyüd götürən üçün öyüd evidir…..Dünya onların yadına saldı və onlar xatırladılar, onlara xəbər verdi və onlar təsdiqlədilər. Onlara öyüd verdi və onlar onun öyüdünü qəbul etdilər.»[1580]

6592.Imam Əli (ə): «Zirəng adam hər şeydən öyüd götürür.»[1581]

6593.Imam Əli (ə): «Moizə və öyüdlərin ən yetərlisi ölülərin qəbrlərindən ibrət götürməkdir.»[1582]

---

[1571] Nəhcül-Bəlağə, məktub 31
[1572] Ğurərul-Hikəm, hədis 1354
[1573] Ğurərul-Hikəm, hədis 4191
[1574] Tuhəful-Uqul, səh.35
[1575] Tuhəful-Uqul, səh.85
[1576] Ğurərul-Hikəm, hədis 7059
[1577] Ğurərul-Hikəm, hədis 4032
[1578] Ğurərul-Hikəm, hədis 8938
[1579] Nəhcül-Bəlağə, hikmət 196
[1580] Nəhcül-Bəlağə, hikmət 131
[1581] Ğurərul-Hikəm, hədis 7338
[1582] Ğurərul-Hikəm, hədis 3123

6594.Imam Əli (ə): «Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah heç kəsə bu Qur'an kimi bir şeylə öyüd verməyib.»[1583]

6595.Imam Əli (ə): «Nəsihətdən təsirli moizə edən yoxdur.»[1584]

6596.Imam Sadiq (ə): «Ən düz söz, ən yetərli öyüd və ən yaxşı hekayə Allahın kitabıdır.»[1585]

6597.Imam Kazim (ə) *(o Həzrətdən öyüd-nəsihət istəmiş Harun-ər-Rəşidə məktubunda yazmışdır):* «Sənin gözünün gördüyü elə bir şey yoxdur ki, onda öyüd və moizə olmasın.»[1586]

### *1839.Öyüd verməyin qaydaları*

**Quran:**

«Insanları hikmət və gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et və onlarla ən gözəl surətdə mübahisə et. Həqiqətən Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır.»[1587]

6598.Cabir ibn Səmurə: «Allahın Peyğəmbəri (s) cümə günü öz moizəsini uzatmırdı, əksinə (onun moizəsi) bir neçə qısa cümlə idi.»[1588]

6599.Imam Əli (ə): «Sənin cəmiyyət və kütlənin yanında nəsihət etməyin məzəmmət və qaxıncdır.»[1589]

6600.Imam Əskəri (ə): «Kim qardaşına gizlində öyüd-nəsihət versə, onu bəzəyib, zinətləndirib. Amma kim (qardaşına) başqalarının qarşısında moizə etsə, öyüd versə, onu ləkələyib.»[1590]

### *1840.Batini nəsihətçi*

6601.Imam Əli (ə): «Kimin batini nəsihətçisi olsa, Allah tərəfindən onun qoruyucusu var.»[1591]

6602.Imam Səccad (ə): «Ey Adəm oğlu! Nə qədər ki, daxildən öyüd verənin var, hesab aparmağa (öz əməllərinin hesabını aparmağa) ciddiyyətlə çalışırsan, (Allahdan və ilahi cəzadan olan) qorxu alt paltarın, çəkinmə üst paltarındır, həmişə xeyir içində olacaqsan.»[1592]

6603.Imam Baqir (ə): «Allahın daxili nəsihətçi vermədiyi kəsə camaatın moizələri əsla xeyir verməz.»[1593]

### *1841.Moizə və öyüdün xeyir vermədiyi kəslər*

---

[1583] Nəhcül-Bəlağə, xütbə 176
[1584] Ğurərul-Hikəm, hədis 10622
[1585] Əmali-Səduq, səh.394, hədis 1
[1586] Biharul-Ənvar, c.71, səh.224, hədis 14
[1587] Nəhl, ayə 125
[1588] Sunən Əbu Davud, hədis 1107
[1589] Ğurərul-Hikəm, hədis 9968
[1590] Tuhəful-Uqul, səh.489
[1591] Biharul-Ənvar, c.78, səh.67, hədis 11
[1592] Tuhəful-Uqul, səh.294
[1593] Tuhəful-Uqul, səh.294

6604.Imam Əli (ə): «Nadan əl çəkmir (heç bir qadağa və çəkindirmə ona təsir etmir) və öyüd-nəsihət ona xeyir vermir.»[1594]

6605.Imam Əli (ə): «Allah nəfsinə qarşı (mübarizə aparmaqda) kimə kömək etməsə, o, heç bir öyüd verənin öyüdündən xeyir əldə etməz.»[1595]

6606.Imam Əli (ə): «Sizinlə öyüd arasında xəbərsizlik (və qəflət) pərdəsi asılmışdır.»[1596]

### *1842.Özü öyüd verib öyüd götürməyən*

**Quran:**

«Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi nə üçün deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olur.»[1597]

6607.Allahın Peyğəmbəri (s): «Allah Isa ibn Məryəmə vəhy etdi ki: Özünə Mənim hikmətim ilə öyüd ver. Əgər ondan faydalansan,camaata da öyüd ver, əks halda Məndən həya et.»[1598]

6608.Imam Əli (ə): «Özü öyüd verib öyüd qəbul etməyənlərdən, çox deyib az əməl edənlərdən, fani olan üçün çox çalışıb qalan barəsində səhlənkarlıq edənlərdən, xeyri ziyan və ziyanı xeyir (kimi) görənlərdən olma.»[1599]

6609.Imam Əli (ə): «Nə çox (başqalarının pis işlər görmələrinə) mane olan ki, (həmin işlərdən) özü çəkinmir və nə çox öyüd verən ki, özü öyüd götürmür.»[1600]

6610.Imam Əli (ə): «Camaat! Özü də öyüd qəbul edən öyüd verənin çırağının şö'ləsindən işıq götürün və suyu gil və çöküntüdən durulmuş zülal bulaqdan su götürün.»[1601]

6611.Imam Sadiq (ə): «Alim öz elminə əməl etməyəndə onun moizə və öyüdləri yağış daş parçasının üzərində qalmayıb düşdüyü kimi qəlblərdə qalmayıb onlardan silinər.»[1602]

### *1843.Əməl ilə dəvət*

6612.Imam Əli (ə): «Heç bir qulağın kənara atmadığı və heç bir xeyrin onunla bərabər ola bilmədiyi öyüd, danışan dilin susub əməl dilinin danışdığı öyüddür.»[1603]

### *1844.Öyüd götürülməli şeylər*

---

[1594] Ğurərul-Hikəm, hədis 1729
[1595] Ğurərul-Hikəm, hədis 9010
[1596] Nəhcül-Bəlağə, hikmət 282
[1597] Səff, ayə 2, 3
[1598] Kənzul-Ummal, hədis 43156
[1599] Nəhcül-Bəlağə, hikmət 150
[1600] Ğurərul-Hikəm, hədis 5360, 5361
[1601] Nəhcül-Bəlağə, xütbə 105
[1602] Munyətil-Murid, səh.146 və 181
[1603] Ğurərul-Hikəm, hədis 3538

6613.Imam Əli (ə): «Gələcək nəsillər sizdən öyüd götürməmişdən qabaq, siz öz keçmişlərinizdən öyüd götürün.»[1604]

6614.Imam Əli (ə): «Kim camaatdan öyüd götürməsə, Allah onu camaat üçün öyüd mənbəyi edər.»[1605]

6615.Imam Sadiq (ə): «Xoşbəxt insan təqva barəsindəki öyüdü qulağının sırğası edər, hətta əgər həmin öyüd başqasına xitab olsa belə!»[1606]

ιοοοοοοπ

[1604] Nəhcül-Bəlağə, xütbə 32
[1605] Ğurərul-Hikəm, hədis 8931
[1606] əl-Kafi, c.8, səh.151, hədis 132

# 409

# Müvəffəqiyyət[1607]

***1845.Müvəffəqiyyət***

**Quran**

«Dedi: Ey qövmüm, düşünün! Əgər mən Rəbbimdən aşkar bir dəlilə malik olsam və O mənə Öz tərəyindən gözəl bir ruzi versə (yenə Ona ibadət etməkdən əl çəkim)? Mən sizi çəkindirdiyim şeylə müxalifət etmək (və onları yerinə yetirmək) istəmirəm. Mənim (insanları) bacardığım qədər islah etməkdən başqa niyyətim yoxdur.»Mənim müvəffəqiyyətim yalnız Allah tərəfindəndir.»Mən Ona təvəkkül etmişəm və Ona tərəf dönəcəyəm.»[1608]

**Hədis:**

6616.Imam Əli (ə): «Müvəffəqiyyət (ilahi) qayğı və köməkdir.[1609]

6617.Imam Əli (ə): «Müvəffəqiyyət (ilahi) rəhmətdir.[1610]

6618.Imam Əli (ə): «Müvəffəqiyyət Allahın cazibələrindəndir.[1611]

6619. Imam Əli (ə): «Müvəffəqiyyət nemətin başlanğıcıdır.[1612]

6620.Imam Əli (ə): «(Allahın) müvəffəqiyyət (qazanılmasına kömək və qayğısı) olmadan heç bir səy fayda verməz.[1613]

6621.Imam Əli (ə): «Müvəffəqiyyət xoşbəxtliyin başlanğıcıdır.[1614]

6622.Imam Əli (ə): «Müvəffəqiyyət kimi bələdçi yoxdur.[1615]

6623.Imam Əli (ə): «Təcrübənin qorunması müvəffəqiyyət (amillərin)dəndir.[1616]

6624.Imam Əli (ə): «Çaşqınlıq zamanı dayanıb durmaq müvəffəqiyyət (amillərin)dəndir.[1617]

6625.Imam Baqir (ə): «Sağlamlıq kimi nemət, müvəffəqiyyətin yar olması kimi sağlamlıq yoxdur.[1618]

6626.Imam Baqir (ə) «Allahdan başqa heç bir qüdrət və güc yoxdur» cümləsinin mənası barəsindəki sualın cavabında buyurmuşdur: Onun mənası budur ki, bizdə Allahın yardımı olmadan Onun günah buyurduqlarından üz

---

[1607] Müvəffəqiyyətdən məqsəd Allahıın işlərin ə[rülməsində Insana k[mək etməsidir.
[1608] Hud, ayə 88
[1609] Ğurərul-Hikəm, hədis 73
[1610] Ğurərul-Hikəm, hədis 162
[1611] Ğurərul-Hikəm, hədis 539
[1612] Ğurərul-Hikəm, hədis 545
[1613] Ğurərul-Hikəm, hədis 10802
[1614] Ğurərul-Hikəm, hədis 858
[1615] Nəhcül-Bəlağə, hikmət 113
[1616] Nəhcül-Bəlağə, hikmət 211
[1617] Tuhəful-Uqul, səh.83
[1618] Tuhəful-Uqul, səh.286

döndərmək qüdrəti, həmçinin Allah-taalanın müvəffəqiyyət qazanmaq köməyi olmadan Ona itaət gücü yoxdur.»[1619]

***1846.Allahın müvəffəqiyyət qazanmağa kömək etməsi və köməksiz qoyması***

**Quran:**

«Əgər sizə Allah yardım etsə, sizə heç kəs qalib gələ bilməz. (Yox) əgər (O) sizi köməksiz qoysa, Ondan sonra sizə kim kömək edəcəkdir? Möminlər gərək yalnız Allaha təvəkkül etsinlər.»[1620]

6627.Allahın Peyğəmbəri (s): «Günahlar nəticəsində günahkara köməksizlik hakim olur və nəhayət onu daha böyük günahlara düçar edir.»[1621]

6628.Imam Əli (ə): «Müvəffəqiyyət ağlın köməkçisi, köməksiz qoyulmaq (Allahın köməksiz qoyması) isə nadanlığın yardımçısıdır.»[1622]

6629.Imam Əli (ə): «Camaat! Kim Allahı özünə nəsihətçi götürsə, müvəffəqiyyət qazanar, kim Onun sözünü özünə bələdçi götürsə çox möhkəm yol və dinə yönələr. Çünki Allahın qonşusu amanda, düşməni isə qorxu içindədir.»[1623]

6630.Imam Sadiq (ə) *(«mənim müvəffəqiyyətim yalnız Allah tərəfindəndir» və «əgər sizə Allah yardım etsə, sizə heç kəs qalib gələ bilməz» ayələri barəsində buyurmuşdur):* «Bəndə Allah-taalanın əmr etdiyi itaəti yerinə yetirən zaman, onun əməli Allah-taalanın əmrinə müvafiq olduğu üçün onu «müvəffəq bəndə» adlandırırlar. Bəndə bir məsələdə Allaha itaətsizlik etmək istəyəndə və Allahın onunla həmin günah arasında maneə olması nəticəsində o, günahı tərk edəndə bəndənin bu günahı tərk etməsi Allah-taalanın köməyi ilədir.»Amma əgər Allah bəndənin həmin günahı yerinə yetirməsinin qarşısını almasa və günahı yerinə yetirməsi üçün onu olduğu halda buraxsa, Allah onu tərk edib, köməksiz qoyub və ona (günahı tərk etmək) müvəffəqiyyət(i) verməyib.»[1624]

ιooooooπ

[1619] ət-Tovhid, səh.242, hədis 3
[1620] Ali-Imran, ayə 60
[1621] Tənbihul-Xəvatir, c.2, səh.102
[1622] Ğurərul-Hikəm, hədis 718-719
[1623] Nəhcül-Bəlağə, xütbə 147
[1624] ət-Tovhid, səh.242, hədis 1

**410**

# Vəfa

***1847. Vəfalılıq***

**Quran**

«Əhdə vəfa edin. Çünki əhd barəsində sorğu-sual aparılacaq.»[1625]

«…əhd edəndə əhdinə vəfa edənlər…»[1626]

6631.Allahın Peyğəmbəri (s): «Allaha və qiyamət gününə imanı olan şəxs gərək və'd verəndə (ona) vəfa etsin.»[1627]

6632.Imam Əli (ə): «Vəfalılıq ağalıq qalasıdır.»[1628]

6633.Imam Əli (ə): «Vəfadarlıq dindarlığın çoxluğunun və güclü əmanətciliyin nişanəsidir.»[1629]

6634.Imam Əli (ə): «Ən üstün əmanətcillik əhdlərə vəfalı olmaqdır.»[1630]

6635.Imam Əli (ə): «Ən üstün doğruçuluq əhdlərə vəfalı olmaqdır.»[1631]

6636.Imam Əli (ə): «Əhdinə vəfalı olmayan şəxsin dostluğuna etimad etmə.»[1632]

6637.Imam Səccad (ə) *(«dinin hökmlərinin cövhəri nədir?» sualının cavabında buyupmuşdur):* «Haqq danışmaq, ədalətli hökm çıxarmaq və əhdə vəfalı olmaq.»[1633]

6638.Imam Sadiq (ə): «Üç şeydə heç kəs bəhanə gətirə bilməz: Əmanəti yaxşı və ya pis əməl sahibi (olmasından asılı olmayaraq yiyəsi)nə qaytarmaq, yaxşı və ya pis əməl sahibi ilə olan əhdə vəfa etmək, yaxşı və ya pis əməl sahibi olan ata-ana ilə gözəl davranmaq.»[1634]

ιooooooπ

---

[1625] Isra, ayə 34
[1626] Bəqərə, ayə 177
[1627] Biharul-Ənvar, c.77, səh.149, hədis 77
[1628] Ğurərul-Hikəm, hədis 1044
[1629] Ğurərul-Hikəm, hədis 1430
[1630] Ğurərul-Hikəm, hədis 3018
[1631] Ğurərul-Hikəm, hədis 3020
[1632] Ğurərul-Hikəm, hədis 10260
[1633] əl-Xisal səh.113, hədis 90
[1634] əl-Xisal səh.123, hədis 118

# 411

# Vüqar

***1848.Vüqar***

**Quran:**

«Rəhman olan Allahın bəndələri o kəslərdir ki, onlar yer üzündə mülayimliklə gəzər, cahillər onlara xitab etdikdə onlarla gözəl, yumşaq danışarlar.»[1635]

**Hədis:**

6639.Allahın Peyğəmbəri (s): «Sakit və vüqarlı olun!»[1636]

6640.Allahın Peyğəmbəri (s): «Yaxşılıq geyim və görünüşlə deyil. Əksinə, yaxşılıq sakitlik və vüqarladır.»[1637]

6641.Imam Əli (ə): «Vüqar ağlın zinətidir.»[1638]

6642.Imam Əli (ə): «Gərək sənin xislətin vüqar olsun. Çünki kimin sərtlik və qabalığı çox olsa, xar və zəlil olar.»[1639]

6643.Imam Əli (ə): «Kişinin gözəlliyi vüqardır.»[1640]

**1849.Vüqara səbəb olan şeylər**

6644.Imam Əli (ə): «Həlimlik vüqara səbəb olur.»[1641]

6645.Imam Əli (ə): «Sükutla vüqar artar.»[1642]

6646.Imam Əli (ə): «Vüqarlı olana ehtiram göstərilər.»[1643]

6647.Imam Əli (ə): «Elmin sonu sakitlik və həlimlikdir.»[1644]

6648.Imam Əli (ə): «Vüqar üçün yalnız heybətdən kömək istənilər.»[1645]

ιοooooπ

---

[1635] Furqan, ayə 63
[1636] Kənzul-Ummal, hədis 6402
[1637] Kənzul-Ummal, hədis 6401
[1638] Ğurərul-Hikəm, hədis 270
[1639] Ğurərul-Hikəm, hədis 7397
[1640] Ğurərul-Hikəm, hədis 4744
[1641] Ğurərul-Hikəm, hədis 5534
[1642] Ğurərul-Hikəm, hədis 4182
[1643] Ğurərul-Hikəm, hədis 7666
[1644] Ğurərul-Hikəm, hədis 6380
[1645] Biharul-Ənvar, c.78, səh.7, hədis 59

**412**

# Təqva

***1850.Təqva***

**Quran:**

«Əgər o məmləkətlərin əhalisi iman gətirib təqvalı olsaydılar, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar təkzib etdilər. Buna görə də qazandıqlarına (əməllərinin cəzası olaraq) onları yaxala(rından yapış)dıq.»[1646]

«Bu, (haqq olması) barəsində heç bir şəkk-şübhə olmayan bir kitab və təqvalılar üçün hidayətdir…..Onlar öz Rəbbi tərəfindən olan hidayətdədirlər və onlar həmin nicat tapmışlardır.»[1647]

«Göylərdə və yerdə olanlar Allaha məxsusdur. Biz sizdən əvvəl kitab verilmiş kəslərə və (eləcə də) sizə tövsiyə etdik ki, Allahdan qorxun və əgər küfr etsəniz, (Onun nə qorxusu? Çünki) göylərdə və yerdə olanlar Allaha məxsusdur. Allah ehtiyacsız (və sifətlərində) tərif olunmuşdur.»[1648]

«Ey Adəm övladları, həqiqətən sizə ayıb yerlərinizi örtəcək və sizin üçün zinət olacaq libas (geyim) göndərdik. Ən yaxşı libas təqvadır. Bu, Allahın (qüdrət) nişanələrindəndir, bəlkə öyüd-nəsihət aldılar.»[1649]

«Ey iman gətirənlər, əgər Allahdan qorxsanız, O, sizə (haqla batili bir-birindən) fərqləndirən (bir qüvvə) verər, sizin günahlarınızı təmizləyər və sizi bağışlayar. Allah böyük lütf və bəxşiş sahibidir.»[1650]

«Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə veririk. (Gözəl) aqibət təqvalılarındır.»[1651]

**Hədis:**

6649.Imam Əli (ə): «Təqva əxlaq və xislətlərin başçısıdır.»[1652]

6650.Imam Əli (ə): «Doğrudan da təqva ən yaxşı xəzinə, ən möhkəm sığınacaq, ən şərəfli izzət və qüdrətdir. (Həlakət və cəhənnəmdən qaçan) hər qaçanın nicatı, hər axtaranın ümidi və hər qələbə axtaranın zəfəri təqvadadır.»[1653]

---

[1646] Ə’raf, ayə 96
[1647] Bəqərə, ayə 2,5
[1648] Nisa, ayə 131
[1649] Ə’raf, ayə 26
[1650] Ənfal, ayə 29
[1651] Qəsəs, ayə 83
[1652] Nəhcül-Bəlağə, hikmət 410
[1653] Biharul-Ənvar, c.77, səh.374, hədis 36

6651.Imam Əli (ə): «Allahdan qorx, hətta az olsa da! Özünlə Allah arasında pərdə (həya pərdəsi) saxla, hətta nazik olsa belə!»[1654]

6652.Imam Əli (ə): «Təqva Allahın Öz bəndələrindən razılığının sonu və yaratdıqlarından olan istəyidir.»[1655]

6653.Imam Əli (ə): «Ey Allahın bəndələri, sizə Allahdan qorxaraq təqvalı olmağı tövsiyə edirəm. Təqva azuqə və sığınacaqdır, (istənilən mənzil başına) çatdıran azuqə və nicat verən sığınacaq!»[1656]

6654.Imam Əli (ə): «Ey Allahın bəndələri, sizə Allahdan qorxaraq təqvalı olmağı tövsiyə edirəm. Çünki təqva cilov və dayaqdır. Buna görə də onun möhkəm bağlarına yapışın və onun həqiqətlərindən bərk tutun.»[1657]

6655.Imam Əli (ə): «Sizə Allahdan qorxaraq təqvalı olmağı tövsiyə edirəm. Çünki o, hər bir ümidvar axtaranın arzusu və hər bir sığınacaq axtaranın etimad yeridir. Təqvanı bədəninizə yapışan paltarınız edin.»[1658]

6656.Imam Əli (ə): «Sizə Allahdan qorxaraq təqvalı olmağı tövsiyə edirəm…..Onu öz qəlblərinizə yapışdırın və günahlarınızı onunla yuyun….Bilin! Təqvanı qoruyun və özünüz (də) onun vasitəsi ilə qorunun!»[1659]

6657.Imam Əli (ə): «Həqiqətən təqva bu gün sığınacaq və qalxan, sabah isə Cənnətə tərəf yoldur. Onun yolu aydın, yolçusu qalibdir.»[1660]

6658.Imam Əli (ə): «Allahdan qorxaraq təqvalı olmaq paklıq və düzlüyün açarı, qiyamət üçün azuqə, hər bir köləlikdən azadlıq amili və hər bir həlakətdən qurtuluşdur. Axtaran təqva vasitəsi ilə mətləbinə yetir, (əzab və ilahi cəzadan) qaçan qurtulur və arzulara çatılır.»[1661]

6659.Imam Əli (ə): «Kim təqva ağacları əksə, hidayət (doğru yola yönəldilmə) meyvələri dərər.»[1662]

6660.Imam Baqir (ə) *(Sə'dulxeyrə xitab edərək buyurmuşdur):* «Sənə Allahdan qorxaraq təqvalı olmağı tövsiyə edirəm. Çünki o, salamatlığa, ölümdən xilas olmağa və dönüş yerində (axirətdə) xeyir və qənimət əldə etməyə səbəb olur.»[1663]

### *1851.Təqva möhtərəmlik açarıdır*

**Quran:**

«Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq və bir.birinizi tanıyasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq. Əslində Allah yanında ən hörmətliniz ən təqvalınızdır. Şübhəsiz, Allah bilən, xəbərdardır.»[1664]

---

[1654] Nəhcül-Bəlağə, hikmət 242
[1655] Ğurərul-Hikəm, hədis 3620
[1656] Nəhcül-Bəlağə, xütbə 114
[1657] Nəhcül-Bəlağə, xütbə 195
[1658] əl-Kafi, c.8, səh.17, hədis 3
[1659] Nəhcül-Bəlağə, xütbə 191
[1660] Nəhcül-Bəlağə, xütbə 191
[1661] Nəhcül-Bəlağə, xütbə 23
[1662] Biharul-Ənvar, c.78, səh.90, hədis 95
[1663] əl-Kafi, c.8, səh.52, hədis 16
[1664] Hucurat, ayə 13

6661.Allahın Peyğəmbəri (s): «Təqva ilə olan əmələ təqvasız əməldən daha çox çalış. Çünki təqva ilə birlikdə olan heç bir əməl az deyil. Qəbul edilən əməl necə az ola bilər? Çünki Allah-taala buyurmuşdur: Allah yalnız təqvalılardan qəbul edir.[1665]»[1666]

6662.Allahın Peyğəmbəri (s): «Bir xislət var ki, kim ona bağlı olsa, dünya və axirət onun əmrinə tabe olar və o, cənnəti əldə edər. Dedilər: O nədir, ey Allahın Peyğəmbəri? Buyurdu: Təqva! Kim insanların ən hörmətlisi olmaq istəyirsə, gərək Allahdan qorxsun. Həzrət sonra bu ayəni oxudu: Kim Allahdan qorxsa, Allah ona bir çıxış yolu əta edər və ona güman etmədiyi yerdən ruzi verər.[1667]»[1668]

6663.Imam Əli (ə): «Təqvadan əziz lütf yoxdur.»[1669]

6664.Imam Əli (ə): «Möhtərəmliyin açarı təqvadır.»[1670]

6665.Imam Əli (ə): «Kim təqvalı olsa….kəsilmiş lütf və ehsan yağışı yenidən ona yağar, qaçmış rəhmət ona tərəf qayıdar, qurumuş nemət bulaqları yenidən onun üçün qaynayar və azalmış bərəkət yağışı yenidən onun üçün tökülər.»[1671]

6666.Imam Əli (ə): «Həqiqətən Allahdan qorxaraq təqvalı olmaq sizin qəlblərinizin dərdlərinin dərmanı, qəlblərinizin korluğunun bəsirəti, cismlərinizin xəstəliklərinin şəfası, sinələrinizin fəsadının islahı, ruhlarınızın çirkinliklərinin paklaşması, gözlərinizin zəifliyinin işığı, qəlblərinizin qorxu və iztirabının yatması və zülmətinizin qaralığının təmizlənməsidir.»[1672]

6667.Imam Əli (ə): «Allahdan qorxaraq təqvalı olmaqdan möhkəm yapışın. Çünki təqvanın tutacağı möhkəm olan kəndiri və hündürlüyü göyə ucalmış sığınacağı vardır.»[1673]

6668.Imam Səccad (ə): «Qüreyş və ya ərəbdən heç kəs üçün təvazökarlıqdan başqa bir iftixar və təqvadan başqa bir kəramət, böyüklük yoxdur.»[1674]

6669.Imam Baqir (ə) özünün Sə'dulxeyrə məktubunda buyurmuşdur: «Allah-taala təqva vasitəsi ilə bəndədən onun ağlının çatmadığı şeyi uzaqlaşdırır və təqva vasitəsi ilə korluq və nadanlığı ondan dəf edir. Nuh və onunla birlikdə gəmidə olanlar təqvanın köməyi ilə nicat tapdılar, Saleh və onun davamçıları ildırımdan qurtuldular. Səbrlilər təqva ilə kama çatdılar və həmin dəstələr həlakətdən nicat tapdılar.»[1675]

---

[1665] Maidə, ayə 27
[1666] Biharul-Ənvar, c.7, səh.286, hədis 8
[1667] Təlaq, ayə 2, 3
[1668] Biharul-Ənvar, c.70, səh.285, hədis 7
[1669] Biharul-Ənvar, c.70, səh.288, hədis 16
[1670] Biharul-Ənvar, c.78, səh.9, hədis 65
[1671] Nəhcül-Bəlağə, xütbə 198
[1672] Nəhcül-Bəlağə, xütbə 198
[1673] Nəhcül-Bəlağə, xütbə 190
[1674] Biharul-Ənvar, c.70, səh.288, hədis 19
[1675] əl-Kafi, c.8, səh.52, hədis 16

6670.Imam Sadiq (ə): «Kim Allahdan qorxaraq təqvalı olmaqla Ona pənah aparsa, Allah onu qoruyar. Allah kimə üz tutsa və onu qorusa, onun göyün yerə düşməsindən qorxusu olmaz. Əgər yer üzü əhalisinə bir bəla gəlsə və hamını bürüsə o, təqvasına görə hər bir bəladan amanda qalar. Məgər Allah-taala buyurmayıb ki: Həqiqətən təqvalılar təhlükəsiz bir yerdədirlər.[1676]»[1677]

### *1852.Təqvalıların xüsusiyyətləri*

**Quran:**

«Yaxşılıq (və itaət) üzlərinizi şərq və qərbə tərəf çevirmək deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, (səma) kitab(ın)a və peyğəmbərlərə iman gətirib çox sevməsinə baxmayaraq (öz) malını qohumlarına, yetimlərə, fəqirlərə, yolda qalanlara, dilənçilərə və qullar(ın azad olunmasın)a sərf edən, namaz qılan, zəkat verən, həmçinin əhd-peyman bağladıqda öz əhdinə sadiq qalan, darlıqda və sıxıntıda səbrli olanlardır. Onlardır doğru danışanlar və onlardır təqvalılar!»[1678]

«Təqvalılar bağlarda və çeşməliklərdə olacaqlar. Rəbbinin onlara verdiyini alacaqlar. Çünki onlar bundan əvvəl yaxşı əməl etmişdilər. Onlar gecələr az yatırdılar. Səhərlər isə bağışlanmalarını diləyirdilər. Mallarında da dilənçinin və yoxsulun (müəyyən) haqqı var idi.»[1679]

*Həmçinin müraciət et: «Bəqərə» 2.5; «Ali-Imran» 133.136; «Maidə» 8; «Zumər» 33.*

**Hədis:**

6671.Allahın Peyğəmbəri (s): «Təqvalılar o kəslərdir ki, harama düşmək qorxusundan çəkinmək yeri olmayan şeydən də çəkinir və Allahdan qorxurlar.»[1680]

6672.Allahın Peyğəmbəri (s) Əbuzərə tövsiyələrində buyurmuşdur: «Ey Əbuzər! Insanın özünün özü ilə hesab çəkməsi şərikin şərikdən hesab çəkməsindən ağır olmayınca, haradan yediyini, haradan içdiyini, haradan geyindiyini, onların halal və ya haramdan olmasını bilməyincə, o, təqvalılardan ola bilməz.»[1681]

6673.»Nəhcül-Bəlağə»: «Rəvayət edilib ki, Əmirəl-mömininin (ə) Həmmam adlı abid səhabələrindən biri, o Həzrətə dedi: Ey Əmirəl-möminin, pəhrizkarları mənə elə vəsf et ki, sanki (qarşımda dayanıblar və) onları görürəm. Həzrət (ə) onun cavabında duruxdu və sonra buyurdu: Ey Həmmam, Allahdan qorx və yaxşı işlər gör. Çünki Allah təqvalılarla və yaxşı işlər görənlərlədir. Həmmam bu cavaba qane olmadı və Həzrətə israr etdi. Buna görə də o Həzrət Allaha həmd və şükr edib Peyğəmbərə (s) salam göndərdikdən sonra buyurdu:

---

[1676] Duxan, ayə 51
[1677] Iddətud-dai, səh.288
[1678] Bəqərə, ayə 177
[1679] Zariyat, ayə 15-19
[1680] Tənbihul-Xəvatir, c.2, səh.62
[1681] Kənzul-Ummal, hədis 8501

……Pəhrizkarlar bu dünyada fəzilətlərə malikdirlər: danışıqları doğru, geyimləri orta və yol getmələri təvazökarlıqladır. Allahın onlara haram etdiyi şeylərə göz yumublar və qulaqlarını onlara xeyirli olan elmə vəqf ediblər. Çətinlik zamanı asayiş və rahatlıqda olduqları kimidirlər. Əgər Allahın onlar üçün müəyyənləşdirdiyi əcəl olmasaydı, mükafat şövqü və cəza qorxusundan canları bir an belə bədənlərində qalmazdı.

Onların birinin nişanələrindən biri onun dində güclü olması və yumşaqlığı, mülayimliyi uzaqgörənliklə bir-birinə qarışdırmasıdır. Imanı yəqinlə birgədir, elmə hərisdir, elmi səbrliliklə qarışdırıb, zənginlik zamanı mötədil, ibadət və bəndəlikdə təvazökardır. Yoxsulluq zamanı zinətli və başıucadır. Çətinlikdə səbrlidir, halal axtarışındadır, doğru yolun qət edilməsində şaddır, tamah və hərislikdən uzaqdır. Yaxşı işlər görməsinə baxmayaraq qorxu içindədir. Gündüzü (Allaha) şükr istiqamətində çalışmaqla axşam edir. Gecəni dərdi-qəmi Allahı zikr etmək olan halda səhərə çatdırır. Gecəni qorxu ilə -çəkindirildiyi qəflət qorxusu ilə, gündüzü şad və sevincək-ona yetişmiş lütf və rəhmətə görə olan sevinc və şadlıqla keçirir!

Əgər nəfsi meylli olmadığı şeydə ona qarşı itaətsizlik etsə, o da nəfsinin istəklərini təmin etmir. Onun sevinc və şadlığı əbədi olan şeyə, rəğbətsizliyi isə qalmayan şeyədir. Onu arzusu qısa, səhv və xətası az, qəlbi təvazökar, nəfsi qane, yeməyi az, işi asan, dini qorunmuş, şəhvət və istəyi ölmüş və qəzəbi yatırılmış görərsən. Onun yaxşılığına göz dikilib və heç kəsə pisliyi dəyməz.»[1682]

6674.Imam Baqir (ə): «Təqvalılar dünyanın ən az xərc və zəhməti olan və sənə ən çox kömək edən adamlarıdırlar. Öyüd verərək yadlarına salırsan, sənə kömək edirlər, unudursan, yadına salırlar. Həmişə Allahın əmrini deyir və daim Allahın əmrini dirçəldirlər. Allah sevgisinə görə bütün məhəbbətlərdən üzülüblər və öz padşahlarına itaət etmək üçün dünyadan qaçıblar. Səmimi qəlb ilə Allah-taalaya və Ona olan məhəbbət və sevgiyə üz tutublar. Başa düşüblər ki, əsas məqsəd Odur, çünki O, böyük şə’n və məqama malikdir.»[1683]

6675.Imam Baqir (ə): «Əmirəl-möminin (ə) buyurardı: Təqvalıların nişanələri var ki, onlar həmin nişanələrlə tanınarlar: doğruçuluq, əmanətcillik, əhdə vəfalılıq…..qadınlara az qarışmaq, heyfslənmədən bağışlamaq, gözəl əxlaqlı olmaq, çox dözümlülük və Allah-taalaya yaxınlaşdıran elmə tabe olmaq.»[1684]

### *1853.Təqvaya mane olan şeylər*

6676.Imam Əli (ə): «Təqvanın dünyaya vurğun qəlbdə yerləşməsi haramdır.»[1685]

---

[1682] Nəhcül-Bəlağə, xütbə 193
[1683] əl-Kafi, c.2, səh.133, hədis 16
[1684] əl-Xisal, səh.483, hədis 56
[1685] Ğurərul-Hikəm, hədis 4904

6677.Imam Əli (ə): «And olsun Allaha, dilini qorumayınca təqvasının xeyir verdiyi bir bəndə tanımıram.»[1686]

6678.Imam Əli (ə): «Düşmənçilik edən şəxs Allahdan qorxa bilməz.»[1687]

6679.Imam Əskəri (ə): «Camaatın üzündən qorxmayan kəs Allahdan qorxmaz.»[1688]

### *1854.Təqvanın haqqı*

**Quran:**

«Ey iman gətirənlər! Allahdan Ona layiq şəkildə qorxun və yalnız müsəlman olduğunuz halda ölün.»[1689]

**Hədis:**

6680.Imam Sadiq (ə) *(«Allahdan Ona layiq şəkildə qorxun» ayəsi barədə sualın cavabında buyurmuşdur):* «(Allahdan qorxaraq təqvalı olmağın haqqı) itaət olunması və Ona qarşı itaətsizlik edilməməsi, həmişə yada salınması və unudulmaması, şükr edilməsi və Ona qarşı nankorluq edilməməsidir.»[1690]

6681.Əbu Bəsir: «Həzrət Sadiqdən (ə) «Allahdan Ona layiq şəkildə qorxun…» ayəsi barəsində sual soruşdum, o Həzrət buyurdu: Bu ayə nəsx olub. Dedim: Onu hansı ayə nəsx edib? Buyurdu: Allahdan bacardığınız qədər qorxun»[1691] ayəsi.»[1692]

### *1855.Təqvanın təfsiri*

6682.Allahın Peyğəmbəri (s): «Kamil təqva budur ki, bilmədiyini öyrənəsən və bildiyinə əməl edəsən.»[1693]

6683.Imam Əli (ə): «Təqva insanın onu günaha sürükləyən hər bir şeydən çəkinməsidir.»[1694]

6684.Imam Əli (ə): «Kim öz şəhvətinə hakim olsa, təqvalıdır.»[1695]

6685.Imam Sadiq (ə) təqvanın mənası barəsindəki sualın cavabında buyurmuşdur: «Təqva Allahın səni əmr etdiyi yerdə qaib, çəkindirdiyi yerdə isə hazır görməməsidir.»[1696]

6686.Imam Sadiq (ə): «Heç vaxt kimlərinsə ağlamaqları səni aldatmasın, təqva qəlbdədir.»[1697]

### *1856.Insanların ən təqvalısı*

---

[1686] Nəhcül-Bəlağə, xütbə 176
[1687] Nəhcül-Bəlağə, hikmət 298
[1688] Biharul-Ənvar, c.78, səh.377, hədis 3
[1689] Ali-Imran, ayə 102
[1690] Biharul-Ənvar, c.70, səh.291, hədis 31
[1691] Təğabun, ayə 16
[1692] Biharul-Ənvar, c.70, səh.287, hədis 12
[1693] Tənbihul-Xəvatir, c.2, səh.120
[1694] Ğurərul-Hikəm, hədis 2162
[1695] Ğurərul-Hikəm, hədis 8284
[1696] Biharul-Ənvar, c.70, səh.285, hədis 8
[1697] Biharul-Ənvar, c.70, səh.286, hədis 9

6687.Allahın Peyğəmbəri (s): «Insanların ən təqvalısı öz xeyir və ziyanına (olmasından asılı olmayaraq) həqiqəti deyən kəsdir.»[1698]

6688.Allahın Peyğəmbəri (s): «Allahın vacib buyurduqlarına əməl et ki, insanların ən təqvalısı olasan.»[1699]

6689.Allahın Peyğəmbəri (s): «Kim insanların ən təqvalısı olmaq istəyirsə, Allaha təvəkkül etsin.»[1700]

[1698] Əmali-Səduq, səh.27, hədis 4
[1699] Biharul-Ənvar, c.71, səh.196, hədis 4
[1700] Məanil-Əxbar, səh.196, hədis 2

## 413

# Təqiyyə

***1857.Təqiyyə***

**Quran:**

«Möminlər möminlərin yerinə kafirləri dost tutmamalıdırlar. Buna görə də onlardan (kafirlərdən) bir qorxu olmayınca belə edən şəxsin Allahla heç bir əlaqəsi yoxdur. Allah sizi Özündən qorxudur. Qayıdış Ona tərəfdir.»[1701]

«Qəlbi imana xatircəm olub məcbur edilən şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə (onu ağır əzab gözləyir). Lakin kimin sinəsi küfrə açılsa, onlara Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olacaqlar.»[1702]

**Hədis:**

6690.Imam Baqir (ə): «Təqiyyə qarşıya zərurət çıxan zamandadır və təqiyyə edənin özü nə vaxt təqiyyə etməli olduğunu daha yaxşı bilir.»[1703]

6691.Imam Sadiq (ə): «Təqiyyə Allah ilə yaratdıqları arasında Onun qalxanıdır.»[1704]

6692.Imam Sadiq (ə): «Damiz barəsində nigaran olun və onu təqiyyə ilə örtülü saxlayın. Çünki təqiyyəsi olmayanın imanı yoxdur. Siz camaatın arasında quşların arasındakı bal arıları kimisiniz. Əgər quşlar bal arısının içində nə olmasını bilsələr, onların hamısını yeyər, bir şey saxlamazlar.»[1705]

6693.Imam Sadiq (ə): «And olsun Allaha, Allaha Onun yanında «xəb»dən yaxşı olan bir şeylə ibadət edilməyib. (Ravi deyir:) Dedim: Xəb nədir? Buyurdu: Təqiyyə.»[1706]

6694.Imam Sadiq (ə): «Mömin (həmişə) mücahiddir. Çünki Allahın düşmənləri ilə batil dövlətdə təqiyyə vasitəsi ilə vuruşur, haqq dövlətdə isə qılınc vasitəsi ilə!»[1707]

***1858.Təqiyyənin həddlərini aşmaqdan çəkindirmə***

6695.Imam Əli (ə): «Tezliklə sizdən məni söyməyiniz istəniləcək, eybi yoxdur söyün. Həmçinin sizdən məndən qırılaraq uzaqlaşmağınız istəniləcək,

---

[1701] Ali-Imran, ayə 28
[1702] Nəhl, ayə 106
[1703] əl-Kafi, c.2, səh.219, hədis 13
[1704] əl-Kafi, c.2, səh.220, hədis 19
[1705] əl-Kafi, c.2, səh.218, hədis 5
[1706] əl-Kafi, c.2, səh.219, hədis 11
[1707] Iləluş-Şəraye, səh.467, hədis 22

boynunuzu (qabağa) uzadın (vursunlar, amma məndən qırılıb uzaq-laşmayın), çünki mən fitrətdəyəm (tövhid və müsəlman fitrətindəyəm).»[1708]

6696.Imam Baqir və ya Imam Sadiq (ə) Zurarənin ayağın üstündən təqiyyə ilə məsh etmək barəsindəki sualının cavabında buyurmuşdur: Mən üç şeydə: şərab içməkdə, ayaqqabının üstündən məsh çəkməkdə və həcc müt'əsində: təqiyyə etmirəm.[1709]

6697.Imam Sadiq (ə): «Təqiyyənin yerləri var. Kim onları öz yerlərindən uzaqlaşdırsa, onun üçün möhkəm qalmazlar. Təqiyyənin yerinin izahı pis adamların hökm və işlərinin zahirinin haqq hökm və işə zidd olmasıdır. Belə olan halda möminin dinin fəsadına səbəb olmamaq şərti ilə təqiyyə edərək gördüyü hər bir iş caizdir.»[1710]

6698.Imam Sadiq (ə): «Təqiyyə əslində qanların tökülməsinin qarşısının alınması üçün yaradılıb. Buna görə də qan tökülməsi ilə nəticələnən yerdə təqiyyə yoxdur. And olsun Allaha, əgər sizi bizə kömək etməyə çağırsalar, mütləq «biz bu işi görmürük, təqiyyə edirik» deyəcəksiniz. Siz təqiyyəni ata-ananızdan da çox istəyəcəksiniz. Bizim Qaimimiz qiyam edən zaman bu barədə sizdən soruşmağa möhtac olmayacaq və siz münafiqlərin çoxu barəsində Allahın müəyyənləşdirdiyi cəza həddini icra edəcəkdir.»[1711]

ιοοοοοπ

---

[1708] Əmali-Tusi , səh.210, hədis 362
[1709] əl-Kafi, c.3, səh.32, hədis 2
[1710] əl-Kafi, c.2, səh.168, hədis 1
[1711] Vəsailuş-Şiə c.11, səh.483, hədis 2

**414**

# Təvəkkül

***1589. Təvəkkül***

**Quran:**

«Işlərdə onlarla məsləhətləş və qərara gəldikdə Allaha təvəkkül et. Çünki Allah təvəkkül edənləri sevər.»[1712]

«Ölməyəcək həmin diri olana təvəkkül et, Onun sitayişinə təsbih et. Onun bəndələrinin günahından agah olması kifayətdir.»[1713]

**Hədis:**

6699. Imam Əli (ə): «Imanın dörd sütunu var: Allaha təvəkkül, işləri Allaha tapşırmaq, Allahın təqdirinə razı olmaq və Allahın əmrinə təslim olmaq.»[1714]

6700. Imam Əli (ə): «Təvəkkül hikmətin qalasıdır.»[1715]

6701. Imam Əli (ə): «Allaha təvəkkül hər pislikdən xilas olmağın və hər düşmənçilikdən qorunmağın səbəbidir.»[1716]

6702. Imam Əli (ə): «Yəqinliyin həqiqəti təvəkküldədir.»[1717]

***1860. Təvəkkülün izahı***

**Quran:**

«Əgər Allah sizə yardım etsə, sizə qalib gəlməyəcəklər. Sizdən kömək əlini çəksə, Ondan sonra kim sizə kömək edəcək? Möminlər ancaq Allaha təvəkkül etməlidir.»[1718]

«De: Allahın bizimçün təyin etdiyindən qeyrisi başımıza gəlməyəcək. O bizim hayanımızdır və möminlər yalnız Allaha təvəkkül etməlidir»[1719]

**Hədis:**

6703. Cəbrayıl (ə) *(Allah-taalaya təvəkkül etmək barədə Allahın Peyğəmbərinin sualına cavabından):* «Məxluqun nə ziyan vurduğunu, nə xeyir verdiyini, nə əta etdiyini, nə qarşısını aldığını bilmək və xalqdan ümidini üzməkdir. Bəndə belə olsa, Allahdan qeyrisi üçün iş görməz, ümidi ilə qorxusu Allahdan qeyrisindən olmaz. Allahdan başqa heç kimə təmənna gözü ilə baxmaz. Budur təvəkkül.»[1720]

---

[1712] Ali-Imran, ayə159
[1713] Furqan, ayə 58.
[1714] əl-Kafi, c.2, səh.47, hədis2
[1715] Ğurərul-Hikəm, hədis 544
[1716] Biharul-Ənvar, c.78, səh.79, hədis 56
[1717] Ğurərul-Hikəm, hədis 6484
[1718] Ali-Imran, ayə 160
[1719] T[vbə, ayə 51
[1720] Məanil-Əxbar, səh.261, hədis 1

6704. Allahın Peyğəmbəri (s): «Kim dağ vursa və ya (özünü qorumaq üçün) dua və əfsundan istifadə etsə, təvəkküldən bəhrəsi olmaz.» [1721]

6702. Imam Sadiq (ə) *(Əbu Bəsirə cavabından):* «Həddi-hüdudu olmayan heç nə yoxdur. Ərz etdim: Sənə fəda olum, təvəkkülün hədd-hüdudu nədir? Buyurdu: Yəqinlik. Ərz etdim: Yəqinliyin hədd-hüdudu nədir? Buyurdu: Allahdan qeyrisindən qorxmamaq.»[1722]

### *1861. Təvəkkülün nəticəsi*

**Quran:**

«Kim Allaha təvəkkül etsə, bu onunçun kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Həqiqətən, Allah hər bir şey üçün əndazə qoymuşdur.»[1723]

**Hədis:**

6706. Loğman (ə) *(Övladına nəsihətindən):* «Əziz övladım, Allaha etimad et. Onda camaatı ara-axtar (gör) ki, Allaha etimad edən, ancaq Allahın onu xilas etmədiyi bir kimsə varmı? Əziz övladım, Allaha təvəkkül et. Onda camaatı sorğu sual et ki, Allaha təvəkkül edən, Allahın isə onu təmin etmədiyi kimsə varmı?»[1724]

6707. Allahın Peyğəmbəri (s): «Insanların ən güclüsü olmaq istəyən Allah-taalaya təvəkkül etməlidir.» [1725]

6708. Imam Əli (ə): «Kim Allaha təvəkkül etsə, çətin işlər onunçun asanlaşar, ona şərait yaranar.»[1726]

6709. Imam Əli (ə): «Kim Allaha etimad etsə, Allah şadlığı ona göstərər. Kim Ona təvəkkül etsə, Allah onun işlərini təmin edər.»[1727]

6710. Imam Baqir (ə): «Allaha təvəkkül edən məğlub olmaz. Allaha təvəkkül edən uğursuzluğa düçar olmaz.»[1728]

6711. Imam Sadiq (ə): «Ehtiyacsızlıq və izzət hər yanı gəzər, təvəkkülün məqamına çatdıqda orada ilişib qalar.»[1729]

6712. Imam Sadiq (ə) *(Müaviyə ibn Vəhəbə):* «Kimə təvəkkül verilsə, elə qane olmaq da verilər. Sonra buyurdu: Allahın kitabını oxumusanmı? Kim Allaha təvəkkül edərsə, bu ona bəs edər.»[1730]

6713. Imam Cavad (ə): «Allah-taalaya etimad hər bir bahalı şeyin qiyməti və hər yüksəkliyə çatmağın nərdivanıdır.»[1731]

### *1862. Təvəkkül qaydaları*

---

[1721] Sunane ibn Mace, hədis 3489
[1722] əl-Kafi, c.2, səh.57, hədis 3
[1723] Təlaq, ayə 3
[1724] Biharul-Ənvar, c.71, səh.156, hədis 73
[1725] Cameul-Əxbar, səh.321, hədis 904
[1726] Ğurərul-Hikəm, hədis 9028
[1727] Cameul-Əxbar, səh.322, hədis 905
[1728] Cameul-Əxbar, səh.322, hədis 907
[1729] əl-Kafi, c.2, səh.65, hədis 3
[1730] əl-Kafi, c. 2, səh.65, hədis 6
[1731] Biharul-Ənvar, c.78, səh.364, hədis 5

6714. Allahın Peyğəmbəri (s): *(«Dəvənin dizini bağlayıb Allaha təvəkkül edim, yoxsa açıb-buraxıb təvəkkül edim?» deyə soruşan kişiyə cavbından):* «Təvəkkül edərək dəvənin dizini bağla.»[1732]

6715. «Mustədrəkul-Vəsail» kitabından: «Allahın Peyğəmbəri (s) bir dəstənin əkin-səpinlə məşğul olmağını gördükdə onlara buyurdu: Siz nəçisiniz? Ərz etdilər: Biz təvəkkül edənlərik. Buyurdu: Yox, siz (cəmiyyət üçün) çiyindəki yüksünüz.»[1733]

6716. Imam Əli (ə) *(«Cəməl» döyüşündə bayrağı oğlu Məhəmməd ibn Hənəfiyyəyə verəndə):* «Dağlar öz yerindən tərpənər, ancaq sən tərpənmə. Dişlərini bir-birinə qıca və başını Allahına əmanət tapşır. Ayağını yerə sanc. Baxışlarını düşmən qoşununun sonuna dik və gözlərini (qılınc və nizələrin parıltısına) bağla. Bil ki, qələbə pak Allah tərəfindən verilər.»[1734]

6717. «Mustədrəkul-Vəsail» kitabından: Imam Əli (ə) məscidin bir küncünə yığılmış sap-sağlam bir dəstə insanı gördükdə buyurdu: Siz kimsiniz? Dedilər: Biz təvəkkül edənlərik. Həzrət buyurdu: Yox, siz müftəxorlarsınız.»[1735]

6718. Imam Sadiq (ə): «Halal ruzi qazanmağı buraxma! Çünki halal ruzi sənə öz niyyətində daha çox kömək edər. Dəvənin dizini bağla, sonra təvəkkül et.»[1736]

6719. Imam Sadiq (ə): «Kim Allahdan qorxsa, Allah onunçun çıxış yolu qoyar. Güman etmədiyi yerdən ona ruzi verər" ayəsi nazil olduqda Allahın Peyğəmbərinin (s) səhabələrinin bir dəstəsi qapıları üzlərinə bağlayıb ibadətə başladılar və dedilər: «Bizim ruzimizə zəmanət verilmişdir.» Bu xəbər peyğəmbərə çatdı. Allahın Rəsulu onların arxasınca adam göndərib buyurdu: «Sizi bu işi görməyə nə vadar etmişdir?" Ərz etdilər: «Ey Allahın Peyğəmbəri! Bizim ruzimizə zəmanət verilmişdir və buna görə də ibadətə üz tutduq.» Peyğəmbər (s) buyurdu: «Bilin ki, kim belə etsə, duası müstəcab olmaz. Iş və qazanc dalınca gedin.»[1737]

### *1863 . Allahdan qeyrisinə üz tutmaq*

6720. Allahın Peyğəmbəri (s): «Allahdan qeyrisinə arxalanma ki, Allah səni onun kimisinə tapşırar.»[1738]

6721. Allahın Peyğəmbəri (s): «Allah-taala buyurur: Səmaların və yerin qapısını üzlərinə bağladıqlarımdan başqa elə bir məxluq yoxdur ki, xəlq edilmişlərə Mənim yerimə əl vursun. Belələrinin isə Məni dinlədikdə cavabını verməərəm və Məndən istəsələr əta etmərəm.»[1739]

---

[1732] Sunəne Termizi, hədis 2517
[1733] Mustədrəkul-Vəsael, c.11, səh.217, hədis 12789
[1734] Nəhcül-Bəlağə, xütbə 11
[1735] Mustədrəkul-Vəsael, c.11, səh.220, hədis 12798
[1736] Əmali-Tusi, səh.193, hədis 326
[1737] əl-Kafi, c.5, səh.84, hədis 5
[1738] Mustədrəkul-Vəsail, c.11, səh.217, hədis 12790
[1739] Kənzul-Ummal, hədis 5812

6722. Imam Əli (ə): «Özünə əminlikdən çəkin. Çünki bu şeytanın ən böyük tələlərindən biridir.»[1740]

[1740] Ğurərul-Hikəm, hədis 2678

**415**

# Ata və övlad

***1864. Övladın dəyəri***

6723. Allahın Peyğəmbəri (s): «Hər bir ağacın bir meyvəsi var, qəlbin meyvəsi də övladdır.»[1741]

6724. Imam Səccad (ə): «Kişinin xoşbəxtliklərindən biri də budur ki, ona köməkçi və yardımçı olan övladları olsun.»[1742]

6725. Imam Baqir (ə): «Övladının qiyafə, əxlaq və rəftarının onun özünə oxşaması kişinin xoşbəxtliklərindəndir.»[1743]

***1865. Övlad fitnənin mayasıdır***

**Quran:**

«Bilin ki, sizin mal və övladlarınız sinaqdırlar (vasitələrdir) və yanında böyük hökmdarlıq olan Allahdır.»[1744]

6726. Allahın Peyğəmbəri (s): «Övladlarımız bizim ciyərparalarımızdır. Kiçikləri bizim hökmdarlarımız, böyükləri isə düşmənlərimizdir. Sağ olsalar, bizim canımıza bəladırlar, ölsələr, qəm və kədərimizə səbəb olarlar.»[1745]

6727. Allahın Peyğəmbəri (s): «Övladlar qorxu, kədər və qovrulmağın səbəbidir.»[1746]

6728. Imam Əli (ə): «Vaxtının çoxunu öz övlad-uşağına sərf etmə. Çünki onlar Allahın dostları olmuş olsalar, Allah Öz dostlarını öz hallarına buraxmaz. Əgər Allahın düşməni olmuş olsalar, fikir xəyalın nəyə görə Allahın düşmənlərinin qeydinə qalmaq olmalıdır?»[1747]

***1866. Övladı sevmək***

6729. Allahın Peyğəmbəri (s): «Uşaqları sevin və onlarla mehriban olun.»[1748]

6730. Allahın Peyğəmbəri (s) *(Peyğəmbərin və səhabələrin bir dəstəsinin yanında «Mən heç vaxt heç bir uşağı öpməmişəm» deyib gedən kişiyə*

---

[1741] Kənzul-Ummal, hədis 45415
[1742] əl-Kafi, c.6, səh.2, hədis 2
[1743] əl-Kafi, səh.4, hədis 2
[1744] Ənfal, ayə 28
[1745] Cameul-Əxbar, səh.238, hədis 755
[1746] Cameul-Əxbar, səh.248, hədis 758
[1747] Nəhcül-Bəlağə, hikmət 352
[1748] əl-Kafi, c.6, səh.49, hədis 3

*buyurduğundan):* «Bu mənim fikrimcə cəhənnəm əhlindəndir.»[1749]

6731. Imam Sadiq (ə): «Allah bəndəyə onun övladına güclü məhəbbətinə görə rəhm edir.»[1750]

### *1867. Uşaqlarla şadlıq etmək*

6732. Allahın Peyğəmbəri (s): «Kimin uşağı varsa, onunla uşaq kimi rəftar etməlidir.»[1751]

6733. Cabir: «Peyğəmbərin yanına gedəndə Həsən və Hüseyn (ə) o Həzrətin belinə mindiyini, peyğəmbərin onlar üçün əylənib diz çökdüyünü gördüm. Həzrət buyurdu: Necə də yaxşı dəvədir sizin dəvəniz və necə də yaxşı yüklərdir sizin yükləriniz.»[1752]

### *1868. Yaxşı və ləyaqətli övlad*

**Quran:**

«Ey Rəbbimiz, arvad və övladlarımızdan gözümüzə nur ehsan qıl və bizi müttəqilərə (imam) rəhbər et" deyənlər...»[1753]

**Hədis:**

6734. Allahın Peyğəmbəri (s): «Saleh övlad cənnətin xoş ətirli güllərindən gözəl qoxulu bir güldür.»[1754]

6735. Allahın Peyğəmbəri (s): «Ləyaqətli övlad Allah tərəfindən bəndələri arasında bölünmüş xoş ətirli gül çələngidir.»[1755]

6736. Allahın Peyğəmbəri (s): «Ləyaqətli övladın olması kişinin xoşbəxtliyidir.»[1756]

6737. Imam Əli (ə): «Mən öz Allahımdan nə xoş sima övladlar istədim nə də boylu-buxunlu uşaq. Allahımdan Allaha itaət edən, Ondan qorxan övladlar istədim ki, ona baxanda Allaha itaət etdiklərini görüm və gözlərim işıqlansın.»[1757]

6738. Imam Sadiq (ə): «Allahın mömin bəndəsindən mirası onun bağışlanmasını istəyən əməlisaleh övladdır.»[1758]

### *1869. Qızları sevməməyin pislənməsi*

6739. Allahın Peyğəmbəri (s): «(Öz) Qızlarınıza soyuq olmayın, çünki onlar qiymətli munislərdir.»[1759]

---

[1749] əl-Kafi, c. 6, səh.50, hədis 74
[1750] əl-Kafi, c.6, səh.50, hədis 5
[1751] Mən lə yəhzuruhul fəqih, c.3, səh.483, hədis 4707
[1752] Biharul-Ənvar, c.43, səh.258, hədis 50
[1753] Fürəan, ayə 74
[1754] əl-Kafi c.6, səh.3, hədis 10
[1755] əl-Kafi, səh.2, hədis 1
[1756] Biharul-Ənvar, c.104, səh. 98 hədis 67
[1757] Biharul-Ənvar, c.67, hədis 66
[1758] Mükarəmul-Əxlaq, c.1, səh.471, hədis 1610
[1759] Kənzul-Ummal, hədis 45374

6740. Allahın Peyğəmbəri (s): «Qızlar ürəyiyanan (qayğıçəkən), köməyə yetən və bərəkətli olarlar.»[1760]

6741. Allahın Peyğəmbəri (s): «Allah-taala qadınlara qarşı kişilərdən daha mehribandır. Özünə məhrəm olan qadınlardan birini razı salan elə kişi yoxdur ki, Allah-taala qiyamət günündə onu şad etməsin.»[1761]

6742. Imam Sadiq (ə): «Oğlanlar nemət, qızlar isə yaxşılıqdırlar. Allah nemətlərə görə sorğu-sual edər, yaxşılıqlara görə isə mükafat verər.»[1762]

***1870. Qadınlar arasında ədaləti gözləməyə təşviq.***

6743. Allahın Peyğəmbəri (s): «Öz övladlarınız arasında hədiyyə və bəxşiş verəndə ədalətli olun. Necə ki, onların da sizlərə ehtiram və hörmət qoymaqda ədalətli olmalarını istəyirsiniz.»[1763]

6744. Imam Əli (ə): «Allahın Peyğəmbəri (s) bir kişinin iki övladından birini öpdüyünü, digərini isə öpmədiyini gördü. Buyurdu: Nəyə görə onların arasında bərabərlik qoymadın?»[1764]

***1871. Ata-anaya yaxşılıq etməyə həvəsləndirmək.***

**Quran**:

«Sənin Allahın Ondan qeyrisinə sitayiş etməməyi və ata-anaya yaxşılıq etməyi müəyyən etdi. Onlardan biri və ya hər ikisi sənin yanında qocalsalar, onlara (hətta) off da demə. Onlara acıqlanma və onlarla layiqincə söz danış. Ona mehribanlıqla təvazökarlığını aç və de: Ilahi, məni kiçik yaşlarımda böyütdüklərinə görə onların hər ikisinə rəhmət et.»[1765]

*(Bax: «Bəqərə» 83, «Məryəm» 14, 3, «Loğman» 14 və «Əhqaf» 15-ci ayələr*)

**Hədis:**

6745. Allahın Peyğəmbəri (s) *(Ata-ananın övladları üzərində haqqı barədə suala cavabından)*: «Onlar iki cənnət və iki cəhənnəmdir.»[1766]

6746. Allahın Peyğəmbəri (s) *(Allah yanında ən sevimli işlər barədə ibn Məsudun sualına cavabından):* «Vaxtında qılınan namaz.» Ərz etdim. Daha sonra nə? Buyurdu: «Ata-anaya yaxşılıq.»[1767]

6747. Allahın Peyğəmbəri (s): «Kim ata-anasına yaxşılıq etsə, Allah onun ömrünü uzadar. Xoş onun halına!»[1768]

---

[1760] əl-Kafi, c.6, səh.6, hədis 6
[1761] əl-Kafi, c.6, səh.7, hədis 12
[1762] əl-Kafi, c.6, səh.7, hədis 12
[1763] Kənzul-Ummal, hədis 45347
[1764] Biharul-Ənvar, c.74, səh.84, hədis 94
[1765] Isra, ayə23, 24
[1766] ət-Tərğib və ət-Tərhib, c.3, səh.316, hədis 10
[1767] ət-Tərğib və ət-Tərhib, c.3, səh.314, hədis 1
[1768] ət-Tərğib və ət-Tərhib, c.3, səh.317, hədis 17

6748. Allahın Peyğəmbəri (s): «Allahın şadlığı atanın şadlığındadır. Allahın kədəri atanın kədərindədir.»[1769]

6749. Imam Sadiq (ə): «Atalarınızla xoşrəftar olun ki, övladlarınız da sizə qarşı xoşrəftar olsun.»[1770]

6750. Imam Rza (ə): «Allah… Özünə, ataya və anaya təşəkkür etməyi əmr etmşdir. Kim ata-anasına təşəkkür etməsə, Allaha təşəkkür etməmişdir.»[1771]

6751. Imam Rza (ə): «Ata-anaya yaxşılıq (ya itaət), müşrik olsalar belə vacibdir. Ancaq Allaha qarşı günah olacaqsa, onlara itaət etmək lazım de-yil.»[1772]

### *1872. Ata-ana öldükdən sonra onlara hörmət etməyə təşviq*

6752. Allahın Peyğəmbəri (s) *(Ata-ana öldükdən sonra onlara yaxşılıq etmək barədə suala cavabından): «*Bəli, onlara dua etmək, bağışlanmalarını diləmək və öldükdən sonra vəsiyyətlərini yerinə yetirmək, onların yaxın qohumları ilə sileyi-rəhm etmək və dostlarına hörmət qoymaq lazımdır.»[1773]

6753. Imam Baqir (ə): «Bəzən bəndə ata-anası həyatda olarkən onlarla yaxşı rəftar edir. Ancaq öləndən sonra nə onların borcunu ödəyir, nə də bağışlanmalarını diləyir. Belə olan halda Allah onu itaətsiz kimi qəbul edir. Bəzənsə, bəndə ata-anası sağ olanda naxələf çıxıb onların sözünə qulaq asmaz və onlara qarşı yaxşılıq etməzlər. Ancaq öldükdən sonra onların borclarını ödəyər və bağışlanmalarını diləyər. Buna görə də Allah onu xeyir əməl sahibi kimi yazar.»[1774]

### *1873 . Cənnət anaların ayağı altındadır*

6754. Allahın Peyğəmbəri (s): «Cənnət anaların ayağı altındadır.»[1775]

6755. Allahın Peyğəmbəri (s) *(«Elə çirkin işlər yoxdur ki, görməmiş olum. Mənim tövbə və qayıtmağıma bir yol varmı?" deyə soruşan kişiyə cavabından):* «Ata-anandan sağ olanı varmı?" Ərz etdi: «Atam.» Buyurdu: «Get və ona yaxşılıq et.» Həmin kişi gedəndən sonra Allahın Peyğəmbəri buyurdu: «Ey kaş anası sağ olaydı.»[1776]

6756. Imam Sadiq (ə): «Bir kişi peyğəmbərin (s) yanına gəlib dedi: Ey Allahın Peyğəmbəri! Kimə yaxşılıq edim? Buyurdu: Anana. Ərz etdi: «Ondan sonra kimə? Buyurdu: Anana. Ərz etdi: Daha sonra kimə? Buyurdu: Atana.»[1777]

### *1877. Ata-ananı incitmək*

---

[1769] ət-Tərğib və ət-Tərhib, c.3, səh.322, hədis 30
[1770] Biharul-Ənvar, c.74, səh.65, hədis 31
[1771] əl-Xisal, səh.156, hədis 196
[1772] Biharul-Ənvar, c.74, səh.72, hədis 55
[1773] ət-Tərğib və ət-Tərhib, c.3, səh.323, hədis 32
[1774] əl-Kafi, c.2, səh.163, hədis 21
[1775] Kənzul-Ummal, hədis 45439
[1776] Biharul-Ənvar, c.74, səh.82, hədis 88
[1777] əl-Kafi, c.2, səh.159, hədis 9

6757. Imam Sadiq (ə): «Ata-anaya qarşı ən xırda hörmətsizlik "off!" deməkdir. Allah ondan daha xırdası olsaydı, şübhəsiz ki, qadağan etmiş olardı.»[1778]

6758. Imam Sadiq (ə) *(«Mehribanlıqla onlara qarşı təvazökarlıq göstər» ayəsi haqda):* Baxışlarını yalnız mehribanlıq və ürək yanğısıyla üzlərinə dik. Səsini səslərindən yuxarı qaldırma, əllərinin üstünə əl qaldırma və özünü onlardan qabağa atma.»[1779]

6759. Imam Sadiq (ə) *(«O ikisi ilə gözəl danış» ayəsi haqda):* «Səni döysələr belə de: Allah, sizləri bağışlasın.»[1780]

### *1875. Ata-anaya qarşı itaətsizlik*

6760. Allahın Peyğəmbəri (s): «Itaət etməyən övlada deyiləcək: Nə iş (ibadət) istəyirsən et, ancaq mən səni bağışlamayacağam.»[1781]

6761. Allahın Peyğəmbəri (s): «Kim ata-anasını kədərləndirsə, onlara qarşı ağ olmuşdur (incitmişdir).»[1782]

6762. Imam Sadiq (ə): «Valideynə itaətsizlik böyük günahlardandır. Çünki Allah-taala itaət etməyən övladı üsyankar və bədbəxt etmişdir.»[1783]

6763. Imam Sadiq (ə): «Valideynə itaətsizlik etməkdən biri də insanın onun dik gözünün içinə baxmasıdır.»[1784]

6764. Imam Sadiq (ə): «Kim ona zülm etmiş ata-anasına kinli baxsa, Allah onun heç bir namazını qəbul etməz.»[1785]

6765. Imam Hadi (ə): «Valideynə itaətsizlik yoxsulluğa səbəb olar və zillətə gətirib çıxarar.»[1786]

### *1876 . Atanın övlad üzərində olan haqqı*

6766. Allahın Peyğəmbəri (s) *(Atanın övlad üzərində olan haqqı barədə suala cavabından):* «Onu adı ilə çağırmasın, ondan qabağa düşüb getməsin, ondan qabaq əyləşməsin və ona söyüş qazanmasın.»[1787]

6767. Kənzul Ummal: «Bir kişi Allahın Peyğəmbərinə (ə) ərz etdi: Atam mənim malımı mənimsəmək istəyir. Həzrət buyurdu: Sən və sənin malın atanın mülkiyyətisiniz.»[1788]

### *1877 Övladın ata üzərində haqqı*

---

[1778] əl-Kafi, c. 2, səh.348, hədis 1
[1779] əl-Kafi, c.2, səh.158, hədis 1
[1780] Kənzul-Ummal, hədis 45539
[1781] Biharul-Ənvar, c.74, səh.80, hədis 82
[1782] Kənzul-Ummal, hədis 45537
[1783] Iləluş-Şəraye, səh.479, hədis 7
[1784] əl-Kafi, c.2, səh.349, hədis 7
[1785] Biharul-Ənvar, c.74, səh.61, hədis 26
[1786] Biharul-Ənvar, səh.84, hədis 95
[1787] əl-Kafi, c.2, səh.159, hədis 5
[1788] Kənzul-Ummal, hədis 45933

6768. Allahın Peyğəmbəri (s): «Bu üç şey də övladın ata üzərində haqqındandır: onunçun yaxşı bir ad seçsin, ona savad öyrətsin və yetkinlik yaşına çatdıqda onu evləndirsin.»[1789]

6769. Imam Əli (ə): «Övladın ata üzərində olan haqqı budur ki, ona savad versin, üzgüçülüyü və ox atmağı öyrətsin, halaldan qeyri ruzi ilə xörəyini verməsin.»[1790]

6770. Imam Sadiq (ə): «Övladın ata üzərində üç haqqı var: onunçun yaxşı bir ana seçmək, yaxşı ad qoymaq və ona tərbiyə verməyə çalışmaq.»[1791]

6771. Imam Sadiq (ə): «Kişinin öz övladına yaxşılığı onun ata-anasına yaxşılığıdır.»[1792]

### *1878. Övladı tərbiyələndirmək*

6772. Allahın Peyğəmbəri (s): «Öz övladınıza hörmət qoyun və onlara yaxşı tərbiyə verin.»[1793]

6773. Allahın Peyğəmbəri (s): «Övladlarınızda bu üç xisləti tərbiyə edin: peyğəmbərlərini sevmək, onun əhli-beytini sevmək və Quran oxumaq.»[1794]

6774. Allahın Peyğəmbəri (s): «Öz övladlarınıza üzgüçülüyü və ox atmağı öyrədin.»[1795]

6775. Allahın Peyğəmbəri (s): «Övlad yeddi il ağa, yeddi il xidmətçi, yeddi il vəzir və köməkçi olar. Iyirmi bir yaşa qədər ona etdiyin köməkdən razı olsan (verdiyin tərbiyənin nəticəsi olsa), nə yaxşı, yox əgər belə olmasa, onun çiyninə vur (artıq onu öz ixtiyarına burax), sən ona görə Allahın yanında üzrlüsən.»[1796]

6776. Imam Əli (ə): «Öz övladınızı elm öyrənməyə vadar edin.»[1797]

6777. Imam Əli (ə): «Öz uşaqlarınıza namaz qılmağı öyrədin. Yetkinlik yaşına çatdıqda namaza (tərk etməməsinə) görə onunla tələbkar olun.»[1798]

6778. Imam Sadiq (ə): «Oğlan yeddi il oyun oynamalı, yeddi il savad öyrənməli və yeddi il halal-haramı öyrənməklə məşğul olmalıdır.»[1799]

---

[1789] Məkarimul-Əxlaq, c.1, səh. 474, hədis1627
[1790] Nəhcül-Bəlağə, hikmət 399
[1791] Biharul-Ənvar, c.78, səh. 236, hədis67
[1792] Məkarimul-Əxlaq, c.1, səh.475, hədis1633
[1793] Kənzul-Ummal, hədis45410
[1794] Kənzul-Ummal, hədis 45409
[1795] Vəsailuş-Şiə, c.12, səh.247, hədis 13
[1796] Kənzul-Ummal, hədis 45338
[1797] Kənzul-Ummal, hədis 45953
[1798] Ğurərul-Hikəm, hədis 6305
[1799] Vəsaeləş-Şiə, c.12, səh.247, hədis 12

1000000π

**416**

# Vilayət

***1879. Ulul-əmr (əmr sahibləri)***

**Quran:**

«Ey iman gətirənlər! Allaha itaət edin və peyğəmbərin və öz əmək sahiblərinizin əmrlərinə tabe olun. Bir işdə ixtilafa düşsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha (kitabına) və Onun peyğəmbərinə tapşırın. Bu daha yaxşı və müsbət sonluqludur.»[1800]

**Hədis:**

6779. Cabir ibn Abdulla Ənsari: «Allah «Rəbbinizə itaət edin və öz peyğəmbərləriniz, əmr sahiblərinizə tabe olun» ayəsini Öz peyğəmbəri Məhəmmədə (s) nazil etdikdə ərz etdim: Ey Allahın Peyğəmbəri! Allah və onun peyğəmbəri bizə məlumdur. Ancaq ona itaəti Özünə itaətlə əlaqələndirdiyi əmr sahibləri kimlərdir? Peyğəmbər buyurdu: Ey Cabir, onlar mənim canişinlərim və məndən sonra müsəlmanların rəhbərləridir. Onların ilki Əli ibn Əbutalib, sonra Həsən, sonra Hüseyn..."[1801]

***1880 . Əyri adamların hakimiyyətə gəlməsinə səbəb olanlar***

**Quran:**

«Onu Allahın əmrilə öndən və arxadan daima qoruyan mələklər vardır. Həqiqətən də qövmün bu halını dəyişməsə, Allah heç bir qövmün halını dəyişməz. Allah bir qövmə pislik etmək istəsə, onun heç bir dönüşü yoxdur və Ondan başqa hamiləri olmaz.»[1802]

**Hədis:**

6780. Allahın Peyğəmbəri (s): «Siz necə olsanız, eləcə də sizə hökmranlıq ediləcək.»[1803]

6781. Allahın Peyğəmbəri (s): «Allah buyurdu: «Məni tanıyanlardan hər hansı bir məxluqum Mənə itaətsizlik etsə, bu camaatın arasından Məni tanımayanın birisini ona hakim edərəm.»[1804]

6782. Imam Əli (ə) *(Öz dostlarını pisləyərkən):* «Bilin! Canım Onun əlində olana and olsun ki, bu camaat şübhəsiz, sizə qalib gələcək. Ona görə yox ki, onlar sizdən daha haqlıdırlar. Əksinə, buna görə ki, onlar öz batil əmrlərini

---

[1800] Nisa, ayə surəsi, 59-cu ayə.

[1801] Nurus-Səqəleyn, c.1, səh.499, hədis 331

[1802] Rəd, ayə 11

[1803] Kənzul-Ummal, hədis 14972

[1804] Mənla Yəhzuruhul-Fəqih, c.4, səh.404, hədis 5871

qorumağa tələsir, sizlərsə mənim haqqımı qorumaqda süstlük gös-tərərsiniz.»[1805]

### *1881. Ədalətli hökmdarlar*

6783. Imam Sadiq (ə): «Kim camaatın istəklərindən bəzilərinin rəhbərliyini öz öhdəsinə götürsə və ədalətli rəftar etsə, evin qapısını camaatın üzünə açsa, şərr yetirməsə, camaatın çətinliyinin həllinə girişsə, qiyamət günündə onu qorxu-hürküdən amanda saxlamaq və cənnətə aparmaq Allahlıq olacaqdır.»[1806]

### *1882 . Zalım hökmdarlar*

6784. Allahın Peyğəmbəri (s): «Müsəlmanların işlərinin birinə rəhbərliyi öz üzərinə götürən və ona xəyanət edən oddadır.»[1807]

6785. Imam Əli (ə): «Qarınqulu, yırtıcı rəhmsiz heyvan qəddar zalım hökmdardan daha yaxşıdır.»[1808]

6786. Imam Əli (ə): «Hökmdarların ən pisi günahı olmayanın ondan qorxanıdır.»[1809]

6787. Imam Əli (ə): «Kimin hakimiyyəti olsa, dövləti çökər.»[1810]

6788. Imam Əli (ə) *(Malik Əştəri Misirə vali təyin etdiyi fərmanından):* «Həqiqətən, xeyir əməl sahibi və ləyaqətli insanlar Allahın onları öz bəndələrinin dillərinə gətirdiyi sözlər vasitəsilə tanınırlar. Buna görə də sənin üçün ən sevimli azuqə gözəl və layiqli rəftar olmalıdır. Belə isə öz nəfsinə hakim ol və sənə halal olmayanları nəfsindən əsirgə. Çünki nəfsdən nəyisə əsirgəmək, onu istəsə də, istəməsə də insaf yolunu getməyə məcbur etməkdir.»[1811]

6789. Imam Əli (ə) *(həmin fərmandan):* «Allahın və camaatın haqqını özündən, yaxın adamlarından və səni sevən rəiyyətindən al. Çünki belə etməsən zülm etmiş olarsan.»[1812]

6790. Imam Əli (ə) *(həmin fərmandan):* «Xundpəsəndlikdən və xud-pəsəndlik yaradan şeylərə arxalanmaqdan çəkin. Camaatın səni öyməyinə məftun olmaqdan daha uzaq dur. Çünki bu xasiyyət yaxşı əməl sahiblərinin əməllərini puç etmək üçün şeytanın əlinə düşmüş ən gözəl fürsətdir.»[1813]

### *1884 . Hökmdarın idarəçilikdə üzərinə düşən ən mühüm vəzifələr*

6791. Imam Əli (ə) *(Ömər ibn Xəttaba):* «Üç şey var ki, onları yadında saxlayıb həyata keçirsən başqa şeyə ehtiyacın olmayacaq. Onları kənara qoysan,

---

[1805] Nəhcül-Bəlağə, xütbə 97
[1806] Biharul-Ənvar, c.75, səh.340, hədis 18
[1807] ət-Tərğib vət-Tərhib, c.3, səh.176, hədis 40
[1808] Ğurərul-Hikəm, hədis 5626
[1809] Ğurərul-Hikəm, hədis 5687
[1810] Ğurərul-Hikəm, hədis 8365
[1811] Nəhcül-Bəlağə, məktub 53
[1812] Nəhcül-Bəlağə, məktub 53
[1813] Nəhcül-Bəlağə, məktub 53

heç nəyin sənə xeyri olmayacaq.» Ömər dedi: «Bunlar nələrdir, ya Əbəlhəsən?» Buyurdu: «Özün və yadlar üçün hədd və cəzaları tətbiq etmək, istər şad və istərsə də qəzəbli olanda Allahın kitabı əsasında hökm vermək, qırmızı və ağ arasında (beytül malın) ədalətli bölgü.» Ömər dedi: «Canıma and olsun ki, qısa və aydın dedin.»[1814]

6792. Imam Əli (ə) *(Malik Əştəri Misir valisi təyin etdiyi fərmanından):* «Qəlbini camaata qarşı mehr-məhəbbət və lətafətlə doldur. Məbada onlara qarşı öz yeməyini qənimət bilən yırtıcı heyvan kimi olasan. Çünki camaat iki dəstədir: Ya sənin din qardaşındır, ya da sənin kimi insandır. Onlar büdrəyiş və xətaların astanasındadırlar. Bəzən bilərəkdən bəzən səhvən əllərini günaha və təcavüzə batırırlar. Necə ki, istəyirsən Allah səni sevsin və sənə güzəşt etsin istədiyin kimi sən də onlara qarşı məhəbbətli və güzəştcil ol. Çünki sən onların üstündə rəhbərsən və sənin fərman verənin sənin üstündə rəhbərdir. Allah da səni əmirliyə təyin edən şəxsin üstündə rəhbərdir.»[1815]

6793. Imam Əli (ə) *(həmin fərmanda):* «Haqqı genişləndirmək, ədalətə riayət etmək və camaatın razılığını hər şeydən daha çox cəlb edən şeylərə əməl etməkdə mötədillik sənin üçün ən sevimli iş olmalıdır. Çünki ümum camaatın narazılığı xüsusi qrupun razılığını da təsirsiz qoyur, xüsusi qrupun narazılığı isə ümum camaat razı olduqda bağışlanır. Xalqın heç bir təbəqəsi xüsusi dəstə kimi deyil. Çünki bu dəstə əmin-amanlıq vaxtı hökmdarın çiynində ən ağır yük olar, çətinlik vaxtı isə ona ən az kömək edənlərdən olarlar. Ədaləti sevməzlər və daha çox istəkləri, təvəqqələri olar. Onlara bir şey verildikdə ən az təşəkkür edərlər, nəsə əsirgənərsə üzürü daha gec qəbul edərlər. Ruzigarın çətin hadisələrinə daha dözümsüzdürlər. Dinin və müsəlman cəmiyyətinin sütunu, düşmənlərin qarşısında həmişə hazır olan qüvvə əslində elə ümum camaatdır. Deməli, sən onlara meyl etməlisən.»[1816]

6794. Imam Sadiq (ə): «Hökmdara ümumi və xüsusi camaat haqda ria-yət etməsi vacib olan üç şey var: Yaxşı işlərə yaxşı mükafat versin ki, camaatın yaxşı işlər görməyə rəğbəti artsın. Pis əməl sahibinin günahları gizlədilsin ki, tövbə edərək azğınlıq və əyri yoldan dönsün və yaxşılıq, insafı gözləməklə onların hamısının arasında ülfət yaratmaq.»[1817]

### *1885 . Hökmdarın öz təyinatlarında riayət etməli olduğu şeylər*

6795. Allahın Peyğəmbəri (s): «Hər kəs bir vəzifəyə təyin etmək üçün camaat arasında Allaha daha çox xoş gedən biri oqduğu halda onu deyil başqasını seçsə, Allaha, onun peyğəmbərlərinə və möminlərə xəyanət etmişdir.»[1818]

---

[1814] Təhzibul-Əhkam, c.6, səh.227, hədis 547
[1815] Nəhcül-Bəlağə, məktub 53
[1816] Nəhcül-Bəlağə, məktub 53
[1817] Tuhəful-Uqul, səh.319
[1818] Biharul-Ənvar, c.23, səh.75, hədis 24

6796. Allahın Peyğəmbəri (s): «Allaha and olsun ki, biz bu işi (hakimiyyəti) istəyəni və ya ona həris olanı həmin vəzifəyə qoymarıq.»[1819]

6797. Allahın Peyğəmbəri (s): «Əbdürrəhman ibn Səmurəyə "Ey Əbdürrəhman ibn Səmurə! Əmirliyə iddiaçı olma. Çünki bu vəzifə sənin xahişinlə sənə verilərsə, idarəçiliyində öz halına buraxılarsan. Yox əgər sənin xahişin olmadan vəzifə sənə tapşırılsa, onun idarəçiliyində sənə yardım olunar.»[1820]

6798. Imam Əli (ə) *(Malik Əştəri vali təyin etdiyi fərmandan):* «Iş icraçılarının işinə diqqətlə yanaşıb dərindən düşün. Sınadıqdan sonra onları vəzifəyə qoy. Kimsəyə sırf tərəfkeşliyə və istəyə görə vəzifə tapşırma. Çünki bu ikisi müxtəlif zülm və xəyanətlərin mənbəyidir. Öz iş icraçılarını təcrübəli, abırlı insanlardan, yaxşı, hörmətli və Islamda öncül ailələrdən seç.»[1821]

6799. Imam Əli (ə) *(həmin fərmandan):* «Onların (işçilərin) istəklərini həll etməyə çalış və sədaqətli, vəfadar insanlar arasından onlara nəzarətçi qoy. Sənin onların işlərinə gizlin nəzarətin onları əmanətə və camaatla xoş rəftara vadar edər. Diqqətlə öz köməkçilərinə nəzarət et. Əgər onlardan biri xəyanətə əl atsa və bütün nəzarətçilərin məlumatı bunu təsdiqləsə, həmin məlumatlarla şahid kimi kifayətlən və dərhal ona fiziki cəza ver. Vəzifəsinə görə əldə etdiyi sərvətinin sorğu-sualını apar, onu xar et, alnına xəyanət dağı vur və boynundan töhmətin xəcalət halqasını as.»[1822]

### *1886 . Qapıya nəzarətçi təyin etməkdən çəkinmək*

6800. Imam Əli (ə) *(Malik Əştəri Misir valisi təyin etdiyi fərmanından):* «Məbada, özünü camaatdan həddən artıq gizli saxlayasan. Çünki hökmdarların üzünü camaatdan gizli saxlaması bir növ hövsələsizlik və işlərdən az məlumatlılığın səbəbidir. Hökmdar üzünü camaatdan gizlətsə, camaatın pərdəarxası sirrlərdən xəbərdar olmamasına səbəb olar. Buna görə də böyük və mühüm işlər onlara kiçik və əhəmiyyətsiz görünər, kiçik işlər isə böyük. Gözəl çirkin kimi, çirkin də gözəl kimi görünər və haqla batil bir-birinə qarışar.»[1823]

6801. Imam Sadiq (ə): «Kim camaatın işlərindən birini öhdəsinə götürsə və ədalətlə rəftar edib öz qapısını (camaatın üzünə) açıq qoysa, pərdəsini kənara çəksə və camaatın işlərinin həllinə girişsə, qiyamət günündə onu qorxu-hürküdən amanda saxlayıb cənnətə aparmaq Allahlın işidir.»[1824]

### *1887 . Hakimin zəif təbəqələrə diqqətinin zəruri olması*

6802. Imam Əli (ə) *(Malik Əştəri Misir valisi təyin etdiyi fərmanından):* «Vaxtının bir hissəsini öz ehtiyaclı insanlarına ayır. Onlarla bir ümumi məclisdə əyləşib şəxsən problemlərinin həlli ilə məşğul ol. Həmin məclisdə səni yaratmış

---

[1819] Səhihe-Muslim, c.3, səh.1456, hədis 44
[1820] Sunəne əbi-Davud, hədis 2929
[1821] Nəhcül-Bəlağə, məktub 53
[1822] Nəhcül-Bəlağə, məktub 53
[1823] Nəhcül-Bəlağə, məktub 53
[1824] Tənbihul-Xəvatir, c.2, səh.165

olan Allaha xatir təvazökarlıq et və sənin gözətçilərindən, mühafizəçilərindən olan dostlarını onlardan uzaqlaşdır ki, kim nə istəyirsə sözünü desin. Dilləri topuq çalmadan, qorxu və vahiməsiz mətləblərini bəyan etsinlər. Çünki mən Allahın Peyğəmbərindən bunu dəfələrlə buyurduğunu eşitmişəm: Acizinin haqqı qüdrət sahiblərindən qorxu-hürküsüz alınmayan ümmət heç vaxt nicatın üzünü görməz. Eyni zamanda onların kobudluq, söz deməkdə acizlik və əlacsızlıqlarına da döz, hövsələsizliyi və təkəbbürü özündən uzaq tut...»[1825]

6803. Imam Əli (ə) *(həmin fərmanda):* «Möhtaclar, imkansızlar, binəvalar, zəlil olmuşlar kimi kasıblarla (camaatla) münasibətdə Allah nəzərində olsun. Çünki bu təbəqələrin arasında ona-buna əl açan kasıblar var. Bəzilərinin isə dilənməyə üzü yoxdur. Buna görə də, onların haqqını yerinə yetirməyi Allah səndən istəmişdir. Beytülmaldan da onlar üçün bir pay nəzərdə tut...

Onlardan sənə əlləri çatmayanlarının, gözlərin onları xırda, böyüklərin həqir saydıqları insanların çətinliklərinin həllinə giriş. Bu iş üçün Allahdan qorxan, təvazökar və etimad etdiyin insanları onların çətinliklərinin həllinə mükəlləf et ki, onların vəziyyəti barədə sənə məlumat versinlər. Sonra onların işinə elə yanaş ki, Allahını gördüyün gün üzrünü qəbul etsin. Çünki insanların bu dəstəsi ədalətə başqalarından daha möhtacdırlar. Belə isə onların hər birinin haqqının verilməsində Allah dərgahında üzr və dəlilin olsun.»[1826]

### *1888. Allah dostlarının xüsusiyyətləri*

**Quran**:

«Bilin ki, ilahi övliyaların nə bir qorxusu var və nə də onlar kədərlənərlər. Onlar ki, iman gətirib və təqvalı olublar.»[1827]

Hədis:

6804. Imam Əli (ə): «Ilahi övliyalar, camaat dünyanın zahirinə göz dikdiyi halda dünyanın batininə baxanlardır. (Onlar) dünyanın gələcəyi və sonu ilə məşğul olarlar, başqa camaat isə onun nəqdisi və bugünü ilə baş qatarlar. Dünyanın onları məhv edəcəklərindən qorxduqları şeylərini məhv edərlər. Dünyanın tezliklə onları tərk edəcəklərini bildikləri şeylərini tərk edərlər. Dünyanın başqalarının çox və dəyərli saydıqlarını həqir və onlara çatmağı (öz səadət və qurtuluşları üçün) itki sanırlar. Camaatın sülh və barışıqda olduğu şeylərə düşmən, camaatın düşmənçilik etdiyi şeylərlə dostluq edərlər (Allahın). Kitab onların vücudu ilə tanınar və bilinər. Onlar kitabın alimləri və arifləridir. Kitaba onlarla əməl olunur və onlar kitaba arxalanıblar. Ona ümid bağladıqlarından yüksək bir şeyi ümid sanmazlar. Qorxduqlarından qeyri bir şeyi qorxu kimi bilməzlər.»[1828]

6805. Imam Sadiq (ə): «Ey Əbu Bəsir! Xoşa onun qeybə çəkildiyi vaxt qaimin (Imam Zaman ağanın) zühurunu gözləyən və zühuru vaxtı ona tabe

---

[1825] Nəhcül-Bəlağə, məktub 53
[1826] Nəhcül-Bəlağə, məktub 53
[1827] Yunis, ayə 62, 63
[1828] Nəhcül-Bəlağə, hikmət 432

olanların halına. Onlar Allahın dostlarıdır. Onların nə bir qorxusu var və nə də kədəri.»[1829]

ιοοοοοοπ

[1829] Nurus-Səqəleyn, c.2, səh.309, hədis 94

# 417

# Ümidsizlik

***1889 . Ümidsizlik***

**Quran:**

«Əgər öz tərəfimizdən insana bir nemət dadızdırsaq və sonra neməti ondan alsaq, heç şübhəsiz O, çox naümid və naşükr olacaqdır.»[1830]

**Hədis:**

6806. Imam Əli (ə): «Ən böyük bəla ümidsizlikdir.»[1831]

6807. Imam Əli (ə): «Əməlsiz axirətinə (savabına) ümid bağlayanlar kimi olma. Sağlam olanda xudpəsənd olar, çətinliyə düşəndə ümidini itirər. Ehtiyacsız olsa, məst və aldanmış olar. Ehtiyac olduqda ümidsizliyə və süstlüyə düşər.»[1832]

***1890. Camaatda olanlardan ümidini üzməyin nəticələri***

6808. Imam Əli (ə): «Ən böyük dövlətlilik camaatın malında gözü olmamaqdır.»[1833]

6809. Imam Əli (ə): «Öz əlində olanı qorumağın, məndən ötrü başqasının əlində olanı istəməyindən yaxşıdır. Ümidini kəsmək də camaatdan istəməkdən yaxşıdır.»[1834]

6810. Imam Sadiq (ə): «Camaatda olandan ümidini üzmək möminin dini izzətinin mayasıdır.»[1835]

ιοooooοπ

---

[1830] Hud, ayə 9
[1831] Ğurərul-Hikəm, hədis 2860
[1832] Nəhcül-Bəlağə, hikmət 150
[1833] Nəhcül-Bəlağə, hikmət 342
[1834] Nəhcül-Bəlağə, məktub 31
[1835] Vəsailuş-Şiə, c.6, səh.316, hədis 5

## 418

# Yetim

***1891 . Yetimlərə həyan olmağa təşviq***

**Quran:**

«Israil övladlarından Allahdan qeyrisinə ibadət etməyəcəkləri, öz ata-analarına, yetimlərə və möhtaclara yaxşılıq edəcəklərinə dair möhkəm and aldıq.»[1836]

*(Bax: «Bəqərə» 177, 220, «Fəcr» 17, 18 və «Maun» 2-3-cü ayələr).*

6811. Allahın Peyğəmbəri (s) *(Öz şəhadət və orta barmaqlarını göstərməklə):* «Mən və yetimlərin həyanı cənnətdə bu iki barmaq kimiyik, əgər Allahdan qorxsa.»[1837]

6812. Allahın Peyğəmbəri (s): «Cənnətdə şadlığın sarayı deyilən bir saray var. Ora yalnız möminlərin yetimlərini şadlandıranlar daxil olalar.»[1838]

6813. Allahın Peyğəmbəri (s) *(Öz daşürəkliyindən şikayətlənən kişiyə):* «Qəlbinin yumşalmasını və diləyinə çatmağını istəyirsənmi? Yetimə mehribanlıq göstər və əlini nəvazişlə onun başına çək, xörəyindən ona da yedirt. Belə olan halda qəlbin yumşalar və istəyinə çatarsan.»[1839]

6814. Imam Əli (ə) *(Şəhadətindən öncə vəsiyyətindən):* «Yetimlərə görə Allahdan qorxun ki, məbada bir gün qarınlarını doydurub bir gün ac saxlayasınız. Məbada, siz olan bir yerdə onlar aradan getsinlər. Çünki Allahın Peyğəmbərindən (s) belə buyurduğunu eşitmisən. Kim bir yetimə həyan olsa, onu ehtiyacsız etsə, vacib etdiyi kimi Allah bu işinə görə cənnəti ona vacib edər. Yetim malı yeyənə cəhənnəm odunu vacib etdiyi kimi.»[1840]

***1892. Yetimin malını yeyənlər***

**Quran:**

«Yetimlərin mallarını zülmkarlıqla yeyənlər öz qarınlarına cəhənnəm odu atarlar və tezliklə (cəhənnəmdə) yanan alova daxil olarlar.»[1841]

*(Bax, «Nisa», 2, 6: «Ənam», 152 və «Isra» 34-cü ayələr)*

---

[1836] Bəqərə, ayə 83
[1837] Nurus-Səqəleyn,c.5, səh.597, hədis23
[1838] Kənzul Ummal, hədis 6008
[1839] ət-Tərğib vət-Tərhib, c.3, səh.349, hədis 14
[1840] əl-Kafi, c.7, səh.51, hədis 7
[1841] Nisa, ayə10

**Hədis:**

6815. Allahın Peyğəmbəri (s): «Xörəklərin ən pisi yetimin malını zülmkarlıqla yeməkdir.»[1842]

6816. Allahın Peyğəmbəri (s): «Qiyamət günündə bir dəstə ağızlarından alov saça-saça qəbirlərindən çölə çıxarlar. Ərz olundu: Ey Allahın Peyğəmbəri (s), onlar kimlərdir? Buyurdu: Yetim malı yeyənlər.»[1843]

6817. Fatimeyi Zəhra (ə) *(öz nitqlərindən birində):* «Allah yetimin malını yeməkdən çəkinməyi, zülm və haqsızlığın qarşısını almaqdan ötrü vacib buyurmuşdur.»[1844]

ιoooooοπ

[1842] Əmali-Səduq, səh.395, hədis 1

[1843] Təfsirul-Əyyaşi, c.1, səh.225, hədis 47

[1844] Biharul-Ənvar, c.79, səh.268, hədis 7

**419**

# Yəqinlik

***1893. Yəqinlik***

**Quran:**

«Dözümlülük göstərdiklərinə və Mənim nişanələrinə yəqinliyi olduqlarına görə onlardan bəzilərini bizim əmrimizə (camaata) yol göstərmək üçün rəhbər etdik.[1845]

**Hədis:**

6818. Allahın Peyğəmbəri (s): «Ürəyə atılmış ən yaxşı şey yəqinlikdir.»[1846]

6819. Imam Əli (ə): «Ey camaat! Allahdan yəqinlik istəyin, Ondan sağlamlıq diləyin, çünki ən böyük nemət sağlamlıq, ürəkdə ən davamlı olan isə yəqinlikdir. Ziyana düşən odur ki, dinində ziyana uğramış olsun. Paxıllığı çəkilən odur ki, yəqinliyinə paxıllıq çəksinlər.»[1847]

6820. Imam Əli (ə): «Ürəyi yəqinliyin sərinliyini dadmış insan necə də böyük səadətə qovuşmuşdur.»[1848]

6821. Imam Əli (ə): «Son məqsədə yalnız yəqinliklə çatarlar.»[1849]

6822.Imam Əli (ə): «Yəqinliyin gücü dinin (dindarlığın) ölçüsüylədir.»[1850]

6823. Imam Əli (ə): «Yəqinlik imanın sütunudur.»[1851]

6824. Imam Əli (ə): «Yəqinlik olduğu yuxu şəkklə qılınan namazdan yaxşıdır.»[1852]

6825. Imam Baqir (ə): «Heç bir şey yəqinlik qədər camaat arasında az bölünməyib.»[1853]

6826. Imam Sadiq (ə): «Iman Islamdan, yəqinlik isə imandan üstündür. Yəqinlikdən daha az tapılan bir şey də yoxdur.»[1854]

6827. Imam Sadiq (ə): «Daimi və azacıq əmək yəqinliklə müşayiət olunarsa, Allahın yanında yəqinlik olmadan edilən çox əməldən yaxşıdır.»[1855] *(Bax, «Şəkk» bölümü, 1046-cı fəsil.)*

***1894. Yəqinlik elmi.***

**Quran:**

---

[1845] Səcdə, ayə 24
[1846] Əmali-Səduq, səh.395, hədis 1
[1847] Biharul-Ənvar, c.70, səh.176, hədis 33
[1848] Ğurərul-Hikəm, hədis 9556
[1849] Nəhcül-Bəlağə, xütbə 157
[1850] Ğurərul-Hikəm, hədis 6184
[1851] Ğurərul-Hikəm, hədis 398
[1852] Ğurərul-Hikəm, hədis 9958
[1853] əl-Kafi, c.2, səh.52, hədis 5
[1854] əl-Kafi, c.2, səh. 51, hədis 1
[1855] əl-Kafi, c.2, səh.57, hədis 3

«Haşa, yəqinlik elminiz olsaydı, heç şübhəsiz ki, cəhənnəmi görərdiniz. Bəli, onu yəqinlik elmi ilə görürlər. Bu elə (yer üzündə olan) nemətləri haqda sorğu-suala tutulacağınız gün olacaq.»[1856]

«Göylərin və yerin mələkkutul… Beləcə Ibrahimə göstərdik ki, yəqin olmuşlardan olasınız.»[1857]

**Hədis:**

6828. Allahın Peyğəmbəri (s): «Allah-taala buyurur: «Üç şeyi bəndələrimin gözündən gizlin saxlamışam. Kimsə onları görsə, heç vaxt pis əməl törətməz: Öz pərdəmi kənara çəksəm və Məni göüb yəqinlik hasil etsə və yaratdıqlarımı öldürdükdən sonra onlarla nə edəcəyimi bilsə…»[1858]

### *1895. Yəqinliyin izahı*

6829. «Biharul Ənvar»: «Cəbrayıl Allahın Peyğəmbərinin (s) yanına gəlib ərz etdi: Ey Allahın Peyğəmbəri (s)! Allah-taala məni elə bir hədiyyəyilə sənin yanına göndərib ki, onu səndən əvvəl heç kimə verməyib. Allahın Peyğəmbəri (s) buyurdu: O hədiyyə nədir? Cəbrayıl dedi: Səbr və ondan daha yaxşı olan yəqinlik. Allahın Peyğəmbəri buyurdu: Dedim ki, (de) yəqinliyin izahı nədir? Dedi: Yəqini olan şəxs Allah üçün sanki, onu görürmüş kimi iş görür. Çünki o Allahı görməsə də Allah onu görür. Eyni zamanda tam yəqinliklə ona çatanın çatmamasının qeyri-mümkünlüyünə və çatmayanın da çatmasının mümkünsüzlüyünə inanır. Bunların hamısı təvəkkülün budaqları və zahidliyin nərdivanıdır.»[1859]

6830. Imam Əli (ə): «Islam elə (Allahın qarşısında) təslim olmaqdır. Təslim də edə yəqinlik, yəqinlik isə təsdiq, təsdiq də etiraf, etirafın özü də yerinə yetirmək, yerinə yetirmək isə əməl etmək deməkdir.»[1860]

### *1896. Yəqinlik əhlinin nişanələri*

6831. Allahın Peyğəmbəri (s): «Yəqinliyi olan şəxsin altı nişanəsi olar: (Birinci) Allahın haqq olduğuna yəqin olar və buna görə də ona iman gətirər, (ikinci) ölümün doğru olduğuna yəqinliyi olar və buna görə də ondan çəkinər, (üçüncü) ölümdən sonra dirilməyin haqq olduğuna yəqin olar və bu səbəbdən də (həmin günün) rüsvayçılıqdan qorxar, (dördüncü) cənnətin düz olduğuna yəqinliyi və ona görə də cənnətə müştaq olar, (beşinci) cəhənnəmin düz olduğuna yəqinlik tapar və buna görə də ondan xilas olmağa çalışar və (altıncı) sorğu-sualın haqq olduğuna yəqinliyi olar və buna görə də özünü sorğu-suala tutar.»[1861]

---

[1856] Təkasur, ayə 5-8
[1857] Ə‘nam, ayə 75
[1858] Kənzul-Ummal, hədis 29858
[1859] Biharul-Ənvar, c.77, səh.20, hədis 4
[1860] Nəhcül-Bəlağə, hikmət 125
[1861] Tuhəful-Uqul, səh.20

6832. Imam Əli (ə): «Arzuların qısalığı və əməlin xalisliyi, dünyaya rəğbətin olmaması yəqinliyin dəlilidir.»[1862]

6833. Imam Əli (ə): «Dostlarından ayrılacağına, torpaqda yer tutacağına, hesab-kitabla üzləşəcəyinə, qoyub getdiyinin onun işinə yaramayacağına və qabaqcadan göndərdiklərinə yəqinliyi olan kimsə arzularını qısaldıb iş və əməl görməyə çalışar.»[1863]

6834. Imam Əli (ə): «Pak olan Allahın onu gördüyünü yəqinliyi ola-ola, yenə də itaətsizlik göstərən, heç şübhəsiz ki, Allaha ən aşağı gözlə baxmışdır.»[1864]

### *1897. Yəqinliyi zay edən şeylər*

6835. Imam Əli (ə): «Şəkk və istəklərin üstün gəlməsi yəqinliyi zay edər.»[1865]

6836. Imam Əli (ə): «Dində mübahisələr yəqinliyi aradan götürər.»[1866]

6837. Imam Əli (ə): «Dünyapərəstlərlə qaynayıb-qarışmaq dini eybli, yəqinliyi isə süst edər.»[1867]

6838. Imam Sadiq (ə): «Həris adam iki xüsusiyyətdən məhrum olar və digər iki xislət daima onunla olar: «Qənaətcillikdən məhrum olar və buna görə də asayişi olmaz. Şadlıqdan məhrumdur və buna görə də yəqinliyini əldən vermişdir.»[1868]

### *1898. Yəqinlikdə süstlük*

6839. Allahın Peyğəmbəri (s): «Mən ümmətim üçün yəqinlikdə süstlük qədər heç bir şeydən qorxmuram.»[1869]

6840. Allahın Peyğəmbəri (s): «Böyük Allahı qəzəbləndirməklə camaatı şad etməyin, Allahın sənə verdiyi ruziyə görə onlara həmd və şükr etməyin, Allahın sənə vermədiyinə görə camaatı məzəmmmət etməyin yəqinliyin süstlüyündəndir.»[1870]

### *1899. Yəqinliyin səmərələri*

6841. Imam Əli (ə): «Yəqinliyin ən son həddi ixlas, ixlasın sonu isə xilas və qurtuluşdur.»[1871]

6842. Imam Əli (ə): «Insanın fani olanlara rəğbətliliyi, onun əbədi olanlara yəqinliyinin dərəcəsi ilədir.»[1872]

---

[1862] Ğurərul-Hikəm, hədis 10970
[1863] Biharul-Ənvar, c.73, səh.167, hədis 31
[1864] Biharul-Ənvar, c.78, səh.92, hədis 98
[1865] Ğurərul-Hikəm, hədis 11011
[1866] Ğurərul-Hikəm, hədis 1177
[1867] Ğurərul-Hikəm, hədis 5072
[1868] Biharul-Ənvar, c.73, səh.161, hədis 6
[1869] Kənzul-Ummal, hədis 7332
[1870] Biharul Ənvar, c.77, səh.185, hədis 30
[1871] Ğurərul-Hikəm, hədis 6347, 6348
[1872] Ğurərul-Hikəm, hədis 5488

6843. Imam Əli (ə): «Təvəkkül etmək yəqinliyin qüvvətindədir.»[1873]

6844. Imam Sadiq (ə): «Dözümlülük yəqinlikdəndir.»[1874]

6845. Imam Sadiq (ə): «Çətin qəzavü-qədərə şad olmaq yəqinliyin ən yüksək dərəcələrindəndir.»[1875]

***1900. Yəqinliyin artması***

6846. Imam Əli (ə): «Pərdə də kənara çəkilsə, mənim yəqinliyimə heç nə artmayacaqdır.»[1876]

6847. Imam Kazim (ə): «Ey Allahın bəndələri! Özünüzü islah etməklə Allahın nemətlərini qoruyun ki, yəqinliyiniz artsın və dəyərli, qiymətli fayda götürəsiniz.»[1877]

6848. Imam Rza (ə) *(Allah-taalanın Ibrahimə (ə) buyurduğu «Imanın yoxdur?» Var, ancaq ürəyimin rahatlaşması üçün istəyirəm» sözlərlə əlaqədar verilmiş «Məğər onun qəlbində şəkkmi vardı?» sualına cavabından):* «Allahdan onun yəqinliyini artırmasını istəyirdi.»[1878]

**Ilahi! Məhəmmədə və Onun Ailəsinə salam olsun. Bizim imanımızı imanın ən yüksək həddinə, yəqinliyimizi yəqinliyin ən yüksək dərəcəsinə çatdır və bizdən qəbul et. Ey, pislikləri yaxşılıqlara çevirən, ey mehribanların ən mehribanı!**

**Allahın şükr və həmdi, Onun uğurunu bizləri müşaiyət etməsi sayəsində «Mizanul-Hikmə» kitabının müntəxabatı üzərində iş başa çatdı. Onun redaktə və tərtibat işləri min dörd yüz iyirmi birinci hicri qəməri ilinin Zilqəddə ayının on beşində tamamlandı.**

**Işi başlayanda və görəndə şükr və həmd Allaha məxsusdur. Məhəmmədə (s) və Onun Ailəsinə (ə) Allahın salamı olsun!**

**Vəssalam!**

ιooooooπ ιooooooπ

[1873] Ğurərul-Hikəm, hədis 699
[1874] Muşkatul Ənvar, səh.20
[1875] Biharul-Ənvar, c.71, səh.152, hədis 60
[1876] Ğurərul-Hikəm, hədis 7569
[1877] əl-Kafi, c.2, səh.268, hədis 1
[1878] Biharul-Ənvar, c.70, səh.176, hədis 34

# M Ü N D Ə R I C A T


Doğruluq ........ 5
Dost ........ 7
Sədəqə ........ 11
Sirat ........ 16
Uşaqlıq dövrü ........ 18
Əl ilə görüşmək ........ 19
Sülh ........ 20
Namaz (1) ........ 22
Namaz (2) ........ 30
Namaz (3) ........ 32
Namaz (4) ........ 33
Sükut ........ 34
Müsibət ........ 35
Səs ........ 37
Oruc ........ 38
Gülüş ........ 41
Müstəzəf (zəifliyiə düçar edilmiş) ........ 42
Azğınlıq ........ 44
Kompensasiya və ödəniş ........ 46
Qonaqpərvərlik ........ 47
Tibb ........ 50
Yemək vermək ........ 51
Təlaq ........ 52
Tamah ........ 54
Təharət və paklıq ........ 56
Itaət ........ 58
Ətir ........ 60
Bəd fal açmaq ........ 61
Dırnaq ........ 62
Zülmkarlıq ........ 63
Güman ........ 67
Ibadət ........ 70
Ibrət götürmə ........ 73
Xudpəsəndlik ........ 75
Möcüzə ........ 77
Tələskənlik ........ 78
Ədalət ........ 79
Düşmənçilik ........ 81
Üzr istəmək ........ 83
Abır-həya ........ 84
Tanımaq ........ 85
Tanıma (2) ........ 87
Yaxşılıq (1) ........ 101

Yaxşılıq (2) ....................104
Baş ucalığı ....................107
Küncə çəkilmək ....................109
Başsağlığı....................110
Ünsiyyət....................111
Aşura....................113
Eşq ....................114
Təəssüb ....................115
Ismət ....................117
Böyük saymaq ....................119
Iffət ....................121
Bağışlamaq ....................123
Sağlamlıq....................126
Ağıl ....................128
Etikaf (Məsciddə qalıb ibadət etmək)....................135
Bilik və nadanlıq....................136
Ömür....................150
Əmək ....................153
Əhd ....................158
Məad....................160
Adət ....................165
Bayram....................167
Eyb....................169
Başa qaxmaq....................172
Xoşluq....................173
Aldanmaq və qəflət....................174
Peyğəmbərin döyüşləri ....................176
Fırıldaq və əliəyrilik ....................180
Qəsb etmək ....................181
Qəzəb....................182
Allahdan günahlarının bağışlanmasını diləmək....................184
Qəflət (xəbərsizlik)....................186
Kin və xəyanət....................188
Ğuluv ....................190
Qüdrətli olmaq....................192
Ğina (eyş-işrət məclislərinə xas tərzdə oxumaq).................... 195
Qeyb....................196
Qeybət....................197
Qeyrət ....................200
Fitnə və ilahi sınaq....................202
Fətva ....................204
Söyüş ....................205
Özünü göstərmək....................206
Farslar....................208
Fürsət....................209
Vacib əməllər....................210
Asudəlik....................212

Fəsad ........ 214
Fəzilət ........ 216
Yoxsulluq ........ 218
Fiqh ........ 224
Düşünmək ........ 226
Qəbr ........ 228
Öldürmək ........ 230
Quran ........ 232
Allaha yaxın olanlar ........ 239
Borc vermək ........ 241
Iqtisadiyyat və mötədillik ........ 243
Qisas ........ 245
Qəzavü-qədər ........ 247
Hakimlik ........ 250
Ürək ........ 255
Təqlid ........ 261
Qumar ........ 262
Qənaət ........ 263
Təkəbbür ........ 265
Kitab və yazı ........ 269
Sirr saxlamaq ........ 271
Yalan ........ 273
Böyüklük ........ 278
Qazanc ........ 282
Tənbəllik ........ 284
Küfr ........ 285
Əvəzini vermək ........ 286
Ilahi vəzifə ........ 288
Söz ........ 289
Kamal ........ 294
Zirəklik ........ 295
Geyim ........ 296
Tərslik ........ 299
Dil ........ 300
Boş sözlər və əməllər ........ 302
Allah-taala ilə görüş ........ 303
Əyləncə və qəflət ........ 304
Ləvat ........ 306
Imtahan ........ 307
Sitayiş ........ 308
Qadın ........ 311
Mərdlik ........ 314
Xəstəlik ........ 315
Çəkişmək ........ 318
Zarafat ........ 319
Padşahlıq ........ 321
Mələklər ........ 323

Ölüm ....................................................................................................325
Var-dövlət.............................................................................................333
Peyğəmbərlik (1) ..................................................................................337
Peyğəmbərlik (2) ..................................................................................341
Nübüvvət (3)..........................................................................................368
Nücum ...................................................................................................377
Nəzir .....................................................................................................378
Nəsihət və xeyirxahlıq ..........................................................................379
Insaf .......................................................................................................381
Baxmaq ..................................................................................................383
Mübahisə ...............................................................................................386
Təmizlik.................................................................................................387
Nemət.....................................................................................................389
Nəfs.......................................................................................................393
Nifaq .....................................................................................................395
Malın Allah yolunda sərf olunması ......................................................399
Xəbərçilik .............................................................................................403
Müstəhəbb ibadətlər ..............................................................................404
Nur .........................................................................................................405
Insanlar ..................................................................................................407
Yuxu ......................................................................................................409
Niyyət ...................................................................................................412
Hicrət ....................................................................................................415
Küsmək.................................................................................................417
Hidayət..................................................................................................419
Hədiyyə.................................................................................................421
Qocalıq..................................................................................................423
Məhv olmaq ..........................................................................................424
Himmət .................................................................................................425
Nəfsi istəklər.........................................................................................427
Miras .....................................................................................................432
Günahlardan çəkinmək .........................................................................434
Tərəzi ....................................................................................................437
Vəsvəsə.................................................................................................438
Əl tutmaq və dərdə şəriklik ..................................................................440
Vəsiyyət................................................................................................441
Dəstəmaz ..............................................................................................442
Təvazökarlıq .........................................................................................444
Vətən.....................................................................................................447
Vədə......................................................................................................448
Moizə ....................................................................................................450
Müvəffəqiyyət ......................................................................................454
Vəfa .....................................................................................................456
Vüqar ...................................................................................................457
Təqva ...................................................................................................458
Təqiyyə ................................................................................................465
Təvəkkül ..............................................................................................467

Ata və övlad....470
Vilayət....476
Ümidsizlik....482
Yetim....483
Yəqinlik....485

# MÖVZULARIN
## ƏLIFBA SIRASI ILƏ MÜNDƏRICATI

### A

Abır-həya....84
Adət....165
Ağıl....128
Ağıl....128
Aldanmaq və qəflət....174
Allahdan günahlarının bağışlanmasını diləmək....184
Allaha yaxın olanlar....239
Allah-taala ilə görüş....303
Ata və övlad....470
Asudəlik....212
Aşura....113
Azğınlıq....44

### B

Bağışlamaq....123
Baxmaq....383
Baş ucalığı....107
Başsağlığı....110
Başa qaxmaq....172
Bayram....167
Bəd fal açmaq....61
Borc vermək....241
Boş sözlər və əməllər....302
Böyük saymaq....119
Böyüklük....278

### Ç

Çəkişmək....318

### D

Dəstəmaz....442
Dırnaq....62
Dil....300

Doğruluq ........................................................................................................5
Dost ...............................................................................................................7
Düşmənçilik ................................................................................................81
Düşünmək ..................................................................................................226

## E

Eşq .............................................................................................................114
Etikaf (Məsciddə qalıb ibadət etmək) ......................................................135

## Ə

Ədalət ..........................................................................................................79
Əhd .............................................................................................................158
Əl ilə görüşmək ............................................................................................19
Əl tutmaq və dərdə şəriklik .......................................................................440
Əmək ...........................................................................................................153
Ətir ................................................................................................................60
Əvəzini vermək ..........................................................................................286
Əyləncə və qəflət ........................................................................................304

## F

Farslar ........................................................................................................208
Fətva ...........................................................................................................204
Fəsad ...........................................................................................................214
Fəzilət .........................................................................................................216
Fırıldaq və əliəyrilik ...................................................................................180
Fiqh .............................................................................................................224
Fitnə və ilahi sınaq .....................................................................................202
Fürsət ..........................................................................................................209

## G

Geyim .........................................................................................................296
Gülüş .............................................................................................................41
Güman ...........................................................................................................67
Günahlardan çəkinmək ...............................................................................434

## H

Hakimlik .....................................................................................................250
Hədiyyə .......................................................................................................421
Hicrət ...........................................................................................................415
Hidayət ........................................................................................................419
Himmət .......................................................................................................425

## X

Xəbərçilik ....................................................................................................403
Xəstəlik......................................................................................................315
Xoşluq........................................................................................................173
Xudpəsəndlik................................................................................................75

## I

Ibadət ........................................................................................................70
Ibrət götürmə ..............................................................................................73
Iffət ...........................................................................................................121
Iqtisadiyyat və mötədillik ...........................................................................243
Ilahi vəzifə .................................................................................................288
Imtahan.....................................................................................................307
Insaf..........................................................................................................381
Insanlar .....................................................................................................407
Ismət .........................................................................................................117
Itaət.............................................................................................................58

## K

Kin və xəyanət...........................................................................................188
Kitab və yazı..............................................................................................269
Kompensasiya və ödəniş ..............................................................................46
Küfr...........................................................................................................285
Küncə çəkilmək .........................................................................................109
Küsmək......................................................................................................417

## Q

Qadın ........................................................................................................311
Qazanc ......................................................................................................282
Qeyb..........................................................................................................196
Qeybət.......................................................................................................197
Qeyrət .......................................................................................................200
Qəbr ..........................................................................................................228
Qəflət (xəbərsizlik) .....................................................................................186
Qənaət........................................................................................................263
Qəsb etmək ................................................................................................181
Qəzavü-qədər..............................................................................................247
Qəzəb ........................................................................................................182
Qisas .........................................................................................................245
Qocalıq......................................................................................................423
Qonaqpərvərlik ............................................................................................47
Qumar .......................................................................................................262

Qüdrətli olmaq ....................................................................................................192

## L

Ləvat ....................................................................................................306

## M

Malın Allah yolunda sərf olunması ....................................................................................................399
Məad ....................................................................................................160
Məhv olmaq ....................................................................................................424
Mələklər ....................................................................................................323
Mərdlik ....................................................................................................314
Miras ....................................................................................................432
Moizə ....................................................................................................450
Möcüzə ....................................................................................................77
Mübahisə ....................................................................................................386
Müsibət ....................................................................................................35
Müstəhəbb ibadətlər ....................................................................................................404
Müstəzəf (zəifliyiə düçar edilmiş) ....................................................................................................42
Müvəffəqiyyət ....................................................................................................454

## N

Namaz (1) ....................................................................................................22
Namaz (2) ....................................................................................................30
Namaz (3) ....................................................................................................32
Namaz (4) ....................................................................................................33
Nəfs ....................................................................................................393
Nəfsi istəklər ....................................................................................................427
Nəsihət və xeyirxahlıq ....................................................................................................379
Nəzir ....................................................................................................378
Nifaq ....................................................................................................395
Niyyət ....................................................................................................412
Nur ....................................................................................................405
Nübüvvət (3) ....................................................................................................368
Nücum ....................................................................................................377

## O

Oruc ....................................................................................................38

## Ö

Öldürmək ....................230
Ölüm ....................325
Ömür ....................150
Özünü göstərmək ....................206

## P

Padşahlıq ....................321
Peyğəmbərin döyüşləri ....................176
Peyğəmbərlik (1) ....................337
Peyğəmbərlik (2) ....................341

## S

Sağlamlıq ....................126
Sədəqə ....................11
Səs ....................37
Sirat ....................16
Sirr saxlamaq ....................271
Sitayiş ....................308
Söyüş ....................205
Söz ....................289
Sükut ....................34
Sülh ....................20

## T

Tamah ....................54
Tanımaq ....................85
Tanıma (2) ....................87
Təəssüb ....................115
Təharət və paklıq ....................56
Təkəbbür ....................265
Təqlid ....................261
Təqiyyə ....................465
Təqva ....................458
Tənbəllik ....................284
Təlaq ....................52
Tələskənlik ....................78
Təmizlik ....................387
Tərəzi ....................437
Tərslik ....................299
Təvazökarlıq ....................444
Təvəkkül ....................467
Tibb ....................50

## U

Uşaqlıq dövrü ....................................................................................................18

## Ü

Ümidsizlik ........................................................................................................482
Ünsiyyət...........................................................................................................111
Ürək ...................................................................................................................255
Üzr istəmək.........................................................................................................83

## V

Vacib əməllər....................................................................................................210
Var-dövlət..........................................................................................................333
Vəfa ...................................................................................................................456
Vədə...................................................................................................................448
Vəsiyyət.............................................................................................................441
Vətən..................................................................................................................447
Vəsvəsə..............................................................................................................438
Vilayət ...............................................................................................................476
Vüqar .................................................................................................................457

## Y

Yalan.................................................................................................................273
Yaxşılıq (1) .......................................................................................................101
Yaxşılıq (2) .......................................................................................................104
Yemək vermək.....................................................................................................51
Yetim .................................................................................................................483
Yəqinlik .............................................................................................................485
Yoxsulluq...........................................................................................................218
Yuxu ..................................................................................................................409

## Z

Zarafat...............................................................................................................319
Zirəklik .............................................................................................................295
Zülmkarlıq ..........................................................................................................63